İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

## ALTINCI KİTAB

## SENTYABR 2004 - OKTYABR 2004

AZƏRNƏŞR
BAKI - 2011

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR * FƏRMANLAR

AZƏRNƏŞR
BAKI - 2011

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2011, 416 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan bu cildində blokada şəraitində yaşayan Naxçıvan MR-də olduğu günlərdə bu diyarın iqtisadi, sosial və mədəni inkişafına aid göstərişləri, çıxış və nitqləri, həmçinin Afina yay olimpiya oyunlarında iştirak etmiş idmançılarla görüşlərin materialları verilmişdir.

Kitabda İlham Əliyevin Fransaya, ABŞ-a, Qazaxıstana, Rumıniyaya etdiyi rəsmi səfərlərin sənədləri, bu ölkələrin dövlət və hökumət başçıları, siyasi xadimləri ilə etdiyi söhbətləri və dərin məzmunlu nitqləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr dərc edilmişdir.

Cilddə, həmçinin Prezident İlham Əliyevin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş «Əsrin müqaviləsi»nin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdəki geniş və məzmunlu nitqi, ölkəmizin iqtisadiyyatının inkişafından, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzundan bəhs edən çıxışları toplanmışdır.

Burada, eyni zamanda, ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağla əlaqədar ATƏT və Avropa Şurası rəhbərləri ilə danışıqları, onun bu görüşlərdə qəti və prinsipial mövqeyi əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

$$Ə\,\frac{0801000000}{M-651(07)-2011}$$

**BBK-32**

© Azərnəşr, 2011

## MÜNDƏRİCAT


**NAXÇIVAN ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV ADINA ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
***2 sentyabr 2004-cü il***

**NAXÇIVAN ÜZGÜÇÜLÜK MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
***2 sentyabr 2004-cü il***

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ**
***2 sentyabr 2004-cü il***
**YEKUN NİTQİ**

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
***2 sentyabr 2004-cü il***

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
***2 sentyabr 2004-cü il***

**RUSİYADA TÖRƏDİLMİŞ TERROR AKTLARINI QƏTİYYƏTLƏ PİSLƏYƏN BƏYANAT**
***4 sentyabr 2004-cü il***

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
***4 sentyabr 2004-cü il***

**XXVIII AFİNA YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
***4 sentyabr 2004-cü il***
**YEKUN NİTQİ**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ**
***7-9 sentyabr 2004-cü il***

**FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**
***7 sentyabr 2004-cü il***

**FRANSA SENATININ TELEVİZİYASINA MÜSAHİBƏSİ**
***8 sentyabr 2004-cü il***

**PARİSDƏ–FRANSA SENATININ MUZEYİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ ƏSƏRLƏRİNDƏN İBARƏT SƏRGİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞI**
***8 sentyabr 2004-cü il***

**ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ İLƏ GÖRÜŞÜ**
***8 sentyabr 2004-cü il***

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XANIMI MEHRİBAN ƏLİYEVAYA YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ FƏXRİ ADI VERİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞLAR**
***9 sentyabr 2004-cü il***

**BƏRDƏ RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞDƏ NİTQ**
***11 sentyabr 2004-cü il***

**BƏRDƏ ŞƏHƏRİNDƏ AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*11 sentyabr 2004-cü il*

**JURNALİSTLƏRİN SUALLARINA CAVAB**

**«KEÇİD İQTİSADİYYATI ÖLKƏLƏRİNDƏ AUDİTİN İNKİŞAF PROBLEMLƏRİ» BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSININ İŞTİRAKÇILARINA**
*14 sentyabr 2004-cü il*

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**
*14 sentyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ**
*15 sentyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ**
*15 sentyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN İŞTİRAKI İLƏ ÜÇTƏRƏFLİ GÖRÜŞÜ**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ**
*15 sentyabr 2004-cü il*

**MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ 38-ci ZİRVƏ GÖRÜŞÜ**
*16 sentyabr 2004-cü il*

**AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*17 sentyabr 2004-cü il*

**DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ VƏ DİRİJOR MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*18 sentyabr 2004-cü il*

**XƏSTƏXANANIN QARŞISINDA KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞI**

**«ƏSRİN MÜQAVİLƏSİ»nin 10-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ**
*20 sentyabr 2004-cü il*

**«ƏSRİN MÜQAVİLƏSİ»nin ONUNCU İLDÖNÜMÜ ŞƏRƏFİNƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
*20 sentyabr 2004-cü il*

**NORVEÇİN DÖVLƏT KATİBİ, ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSETHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*20 sentyabr 2004-cü il*

**TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ HİLMİ GÜLƏRİN BAŞÇILIĞI İLƏ ÖLKƏMİZƏ GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*20 sentyabr 2004-cü il*

**RUSİYA FEDERASİYASININ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİR İQOR YUSUFOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*20 sentyabr 2004-cü il*

**GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB JVANİYA İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*20 sentyabr 2004-cü il*

**ATƏT-in HAZIRKI SƏDRİNİN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ÜZRƏ XÜSUSİ ELÇİSİ FİLİPP DİMİTROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*21 sentyabr 2004-cü il*

**SAATLI RAYONUNDAKI ƏLİSOLTANLI KƏND ORTA MƏKTƏBİNƏ**
*21 sentyabr 2004-cü il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA**
*21 sentyabr 2004-cü il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA**
*21 sentyabr 2004-cü il*

**QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LANSANA KONTEYƏ**
*21 sentyabr 2004-cü il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ**
*21 sentyabr 2004-cü il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ**
*21 sentyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NYU-YORKA SƏFƏRİ**
*22 sentyabr 2004-cü il*

**BMT BAŞ MƏCLİSİNİN 59-cu SESSİYASININ ÜMUMİ MÜZAKİRƏLƏRİNDƏ ÇIXIŞI**
*24 sentyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KOFİ ANNAN İLƏ GÖRÜŞÜ**

**NYU-YORKA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ ABŞ-ın ƏN TANINMIŞ ALİ MƏKTƏBLƏRİNDƏN OLAN KOLUMBİYA UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞDƏ ÇIXIŞ**
*24 sentyabr 2004-cü il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KONSTANTİNOS STEFANOPULOSA**
*28 sentyabr 2004-cü il*

**BÖYÜK BRİTANİYANIN KEÇMİŞ ENERGETİKA NAZİRİ, İNGİLTƏRƏ – AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ TİM EQQARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*29 sentyabr 2004-cü il*

«RÖYTER» AGENTLİYİNİN MDB ÜZRƏ BÜROSUNUN RƏHBƏRİ CONATAN TETÇERƏ VƏ QAFQAZ BÜROSUNUN BAŞ MÜXBİRİ XANIM MARQARİTA ANTİDZEYƏ VERDİYİ MÜSAHİBƏ
*1 oktyabr 2004-cü il*

İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA
*4 oktyabr 2004-cü il*

İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA
*4 oktyabr 2004-cü il*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA
*5 oktyabr 2004-cü il*

AZƏRBAYCAN MÜƏLLİMLƏRİNƏ
*5 oktyabr 2004-cü il*

HEYDƏR ƏLİYEV ADINA BAKI DƏRİN ÖZÜLLƏR ZAVODUNDA ÜMUMMİLLİ LİDERİMİZİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*5 oktyabr 2004-cü il*

YUNANISTANIN PAYTAXTI AFİNADA KEÇİRİLMİŞ XII PARALİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*6 oktyabr 2004-cü il*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PİRVANOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ
*7 oktyabr 2004-cü il*

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜNDƏN SONRA DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBLİ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN–BOLQARISTAN DANIŞIQLARI
*7 oktyabr 2004-cü il*

AZƏRBAYCAN–BOLQARISTAN SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ
*7 oktyabr 2004-cü il*

AZƏRBAYCAN–BOLQARISTAN SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA PREZİDENTLƏR İLHAM ƏLİYEVİN VƏ GEORGİ PIRVANOVUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*7 oktyabr 2004-cü il*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*7 oktyabr 2004-cü il*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV HEYDƏR ƏLİYEV FONDUNDA
*8 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN ELMİ–TƏDQİQAT AĞCİYƏR XƏSTƏLİKLƏRİ İNSTİTUTUNA**
*9 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA RƏSMİ SƏFƏRİ**
*11 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜNDƏN SONRA NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RUMINİYA–AZƏRBAYCAN DANIŞIQLARI**
*11 oktyabr 2004-cü il*

**RUMINİYA–AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ**
*11 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*11 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
*11 oktyabr 2004-cü il*

**BUXARESTDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*12 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ VƏ RUMINİYA–AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*12 oktyabr 2004-cü il*

**BUXARESTDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*12 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYADA RƏSMİ GÖRÜŞLƏRİ**
*12 oktyabr 2004-cü il*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOANN PAVEL HƏZRƏTLƏRİNƏ**
*13 oktyabr 2004-cü il*

**AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YAN PETERSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*13 oktyabr 2004-cü il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FERENTS MADLA**
*13 oktyabr 2004-cü il*

**BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ YOZEF SEPP BLATTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*13 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RUS İCMASININ II QURULTAYININ NÜMAYƏNDƏLƏRİNƏ**
*13 oktyabr 2004-cü il*

**RUS İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞI**
*14 oktyabr 2004-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**
*15 oktyabr 2004-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**
*15 oktyabr 2004-cü il*

**AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTS FİŞERƏ**
*15 oktyabr 2004-cü il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA**
*15 oktyabr 2004-cü il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA**
*15 oktyabr 2004-cü il*

**AĞSTAFA RAYONUNUN BÖYÜK KƏSİK KƏNDİNDƏ GÜRCÜSTANIN QARDABANİ RAYONU İLƏ SƏRHƏDDƏ HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ƏRAZİLƏRİNDƏN KEÇƏN HİSSƏSİNİN BİRLƏŞDİRİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**
*16 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ**
*18 oktyabr 2004-cü il*

**RUSİYA FEDERASİYASI XİN-in MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN (UNİVERSİTETİNİN) 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*18 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNLƏ GÖRÜŞÜ**
*19 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN II QURULTAYINDA**
*19 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTAR-TASS AGENTLİYİNDƏ**
*19 oktyabr 2004-cü il*

**MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞÜ**
*20 oktyabr 2004-cü il*

**MDB ELEKTROENERGETİKA ŞURASININ PREZİDENTİ, «RUSİYANIN VAHİD ENERGETİKA SİSTEMİ» SƏHMDAR CƏMİYYƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ ANATOLİ ÇUBAYS İLƏ GÖRÜŞÜ**
*20 oktyabr 2004-cü il*

**ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ, SƏFİR XANIM LORA KENNEDİ İLƏ GÖRÜŞÜ**

*21 oktyabr 2004-cü il*

**RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ MDB İŞLƏRİ ÜZRƏ KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ, AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ VƏ RF FEDERAL MƏCLİSİNİN PARLAMENTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ KONSTANTİN MARKELOV İLƏ GÖRÜŞ**
*21 oktyabr 2004-cü il*

**SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORU EDUARD ROSSEL İLƏ GÖRÜŞ**
*22 oktyabr 2004-cü il*

**ÇİN XALQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ Lİ ÇJAOSİN İLƏ GÖRÜŞ**
*23 oktyabr 2004-cü il*

**«KEÇİD DEMOKRATİYALARI LAYİHƏLƏRİ» FONDUNUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ BRYUS CEKSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*25 oktyabr 2004-cü il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**
*25 oktyabr 2004-cü il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ**
*26 oktyabr 2004-cü il*

**PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ**

**MOLDOVA PREZİDENTİ VLADİMİR BORONİN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**
*26 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN – MOLDOVA SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA PREZİDENT İLHAM ƏLİYEVİN VƏ VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*26 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ**
*26 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİN HEYDƏR ƏLİYEV FONDUNDA**
*27 oktyabr 2004-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ 9-cu PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**
*27 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ**
*27 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN «ƏBƏDİ ŞÖHRƏT» PARKINA ZİYARƏTİ**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YAKOVİÇLƏ GÖRÜŞÜ**

**UKRAYNANIN FAŞİST İŞĞALÇILARINDAN AZAD OLUNMASININ 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM**
***27 oktyabr 2004-cü il***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN HƏRBİ PARADDA İŞTİRAKI**
***28 oktyabr 2004-cü il***

**AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKE TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ**
***28 oktyabr 2004-cü il***

***bp*** **ŞİRKƏTİNİN XƏZƏRİN İŞLƏNMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVÜ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ**
***29 oktyabr 2004-cü il***

**ŞRİ–LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAİKE KUMARATUNQAYA**
***29 oktyabr 2004-cü il***

**QEYDLƏR**

**Şəxsi adlar göstəricisi**

**Coğrafi adlar göstəricisi**

## NAXÇIVAN ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV ADINA ORTA MƏKTƏBİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*2 sentyabr 2004-cü il*

Əziz naxçıvanlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Heydər Əliyevin adını daşıyan bu gözəl məktəbin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu məktəbin açılışı çox əlamətdar hadisədir. Əvvəla, ona görə ki, bu məktəb xalqımızın ümummilli liderinin adını daşıyır. Digər tərəfdən, bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda, burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Natiq Əliyev öz çıxışında qeyd etdi ki, bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun. O bu məktəbin dünya standartlarına cavab verməsini istəyirdi. Bu gün biz hamımız çox şadıq ki, məktəb Heydər Əliyevin istədiyi kimi tikilmiş və istifadəyə verilmişdir. Deyə bilərəm ki, bu məktəb indi təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda bir nömrəli məktəbdir.

Heydər Əliyev xalqımız üçün ən çətin anlarda onunla birlikdə idi. Naxçıvanın ən ağır dövrlərində o, naxçıvanlılarla birlikdə burada yaşamış və işləmişdir. Naxçıvanı xalqla birgə qorumuş və bu qədim diyarın inkişafına nail ola bilmişdir. Naxçıvan blokada şəraitində yaşadığı dövrdə Türkiyə ilə muxtar respublika arasında «Ümid» körpüsünün tikintisi də məhz Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında həyata keçirilmişdir. Bu körpü indi də Naxçıvan üçün həyati əhəmiyyət kəsb edir. O zamanlar körpü Naxçıvanın dünya ilə yeganə əlaqə vasitəsi idi. Naxçıvanın ən ağır vəziyyətində Heydər Əliyev bu diyarın digər sahələrdəki problemləri ilə də məşğul olur, onları həll edirdi, Naxçıvanı dünyada tanıdırdı. Təsadüfi deyil ki, həmin illər beynəlxalq təşkilatlarda, digər mötəbər qurumlarda Naxçıvan haqqında kifayət qədər məlumat var idi.

Naxçıvanın ağır blokada şəraitində yaşaması da dünya ictimaiyyətinə məlum idi.

Azərbaycan çətin vəziyyətə düşdükdən sonra xalq yenə də öz liderinə müraciət etdi və 1993-cü ildə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Bakıda vəziyyət çox ağır idi. Ölkəmiz böyük təhlükə ilə üzləşmişdi. Heydər Əliyevin qətiyyəti, iradəsi, müdrikliyi Azərbaycanı bu bəladan xilas etdi. Həmişə xalqın iradəsinə arxalanmış lider on il ərzində ölkəmizi irəli apardı. Azərbaycan inkişaf dövrünü yaşadı. Ölkəmizdə bütün sahələrdə inkişaf prosesi başlandı. Beynəlxalq aləmdə yerimiz möhkəmlənmişdir və bu gün Azərbaycan dünyada tanınan bir ölkədir. Azərbaycan bölgədə və dünyada öz mövqelərini gücləndirmişdir. Ölkəmiz iqtisadi inkişaf baxımından çox sürətlə irəli gedir, regionda liderdir. İqtisadi göstəricilərinə görə Azərbaycan bir çox inkişaf etmiş ölkələri də qabaqlayır.

On il ərzində Heydər Əliyev tərəfindən Azərbaycanda aparılmış iqtisadi islahatlar öz gözəl nəticələrini vermişdir. Xalqımız ildən-ilə daha yaxşı yaşayır, insanların rifahı yaxşılaşır, sosial məsələlər öz həllini tapır, maaşlar, təqaüdlər vaxtlı-vaxtında ödənilir və onların həcmi artır. Bildiyiniz kimi, bu yaxınlarda bu istiqamətdə çox önəmli addımlar atılmışdır – minimum əməkhaqqı artırılmış, büdcədən maliyyələşdirilən təşkilatların işçilərinin maaşları qaldırılmışdır. Bu siyasət bundan sonra da aparılacaqdır. Bu bizim üçün prioritet istiqamətdir. Azərbaycanın hərtərəfli inkişafı, regionların inkişafı və eyni zamanda, sosial məsələlərin həlli başlıca vəzifələrdir. Bütün bunları həyata keçirmək üçün, əlbəttə ki, ölkənin güclü iqtisadiyyatı olmalıdır. Əgər iqtisadiyyat olmasa, heç bir sosial proqramı həyata keçirmək mümkün olmayacaqdır. Ona görə də bu gün iqtisadi inkişaf məsələlərinə xüsusi əhəmiyyət verilir. Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların inkişaf proqramı da məhz bu məqsədə xidmət edir. Çox sevindirici haldır ki, prezident seçkilərindən ötən dövr ərzində Azərbaycanda 70 mindən çox yeni iş yeri açılmış, onlardan 50 mini daimi, 20 mini isə müvəqqəti iş yerləridir. Bu onu göstərir ki, aparılan iqtisadi və sosial siyasət öz nəticələrini verməkdədir.

Bütün bu uğurların əsası 1993-cü ildə qoyulmuşdur. Əgər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəlməsəydi, iqtisadi islahatları aparmasaydı, Azərbaycanı Dünya Birliyində tanıtmasaydı, onun yerini möhkəmləndirməsəydi, bu gün hər hansı bir iqtisadi uğurdan söhbət gedə bilməzdi. Eyni zamanda, bizim iqtisadi inkişafımızın əsas səbəblərindən biri də Heydər Əliyevin neft strategiyasıdır. Burada qeyd olundu ki, on il bundan əvvəl 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanması ilə Heydər Əliyev Azərbaycanda neft strategiyasını həyata keçirməyə başladı.

Bu on il ərzində həm ölkəmizə böyük həcmdə xarici sərmayə qoyuldu, həm də infrastruktur yaradıldı, yeniləşdi, neft sənayesində on minlərlə yeni iş yerləri açıldı və orada çalışanların əməkhaqları çox yüksəkdir. Neft strategiyamız

bizə imkan verib ki, Azərbaycanda Neft Fondu yaradılsın, burada vəsait toplansın və bu vəsait də şəffaf şəkildə sərf olunsun. Bu gün Azərbaycanın ildən-ilə artan büdcəsinin müəyyən hissəsi Neft Fondunun hesabınadır. Gələcəkdə, Heydər Əliyevin adını daşıyan və onun tərəfindən həyata keçirilən böyük, irimiqyaslı Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istifadəyə verilməsindən sonra ölkə iqtisadiyyatı daha da güclənəcəkdir.

Neft strategiyasının nəticələrindən biri də bu məktəbdir. Əgər Azərbaycan Dövlət Neft Şirkəti Heydər Əliyev tərəfindən həyata keçirilən neft strategiyasından bəhrələnməsəydi, əlbəttə ki, bu məktəb də tikilə bilməzdi. Bu məktəbə kifayət qədər vəsait qoyulmuşdur.

Azərbaycanın son on ildə və bu gün də bütün sahələrdə inkişafının əsas səbəbi məhz 1993-cü ildə Azərbaycan xalqının tutduğu, seçdiyi yoldur. Biz bu yola sadiqik. Bu siyasət davam etdirilir. Azərbaycan prezident seçkilərindən keçən dövr ərzində də bu yolla gedir. Xarici siyasətimiz də, eyni zamanda, ölkə daxilində islahatlar da həmin ümumi istiqamət çərçivəsində aparılır. Mən dəfələrlə demişəm ki, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur. Məhz bu siyasət Azərbaycanı çox parlaq gələcəyə aparacaqdır, ölkəmiz ildən-ilə güclənəcək, xalqımız ildən-ilə daha yaxşı yaşayacaqdır. Bu bizim siyasətimizin əsas vəzifəsidir. Mən bunu bəyan etmişəm və bu gün də bəyan edirəm ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar və yaşayacaqlar.

Heydər Əliyev bütün başqa sahələrə olduğu kimi, təhsil sahəsinə də çox böyük diqqət göstərmişdir və təsadüfi deyildir ki, indi də bizim büdcəmizin 20 faizi, yəni ən böyük hissəsi təhsil sahəsinə sərf olunur. Azərbaycanda Heydər Əliyev tərəfindən, onun təşəbbüsü ilə həyata keçirilən proqram bu gün də davam etdirilir. Kütləvi surətdə yeni məktəblərin tikilməsi, köhnə məktəblərin təmiri nəzərdə tutulur. Bu çox önəmli proqramdır və həyata keçirilir. Məktəb bilik deməkdir, maarif deməkdir, savad deməkdir. Biz çalışmalıyıq ki, gənclərimiz savadlı, bilikli, tərbiyəli olsunlar. Buna nail olmaq üçün həm ailədə, həm də məktəbdə uşaqlarımız çox yaxşı, vətənpərvərlik ruhunda tərbiyə edilməli və əlbəttə ki, yüksək biliklərə malik olmalıdırlar. Çünki bilik tərəqqinin əsasıdır.

Müasir dünyada bilik və yeni texnologiyalar olmasa, uğur qazanmaq mümkün deyildir. Bu həm insanlar üçün, həm də ölkə üçün çox çətindir. İnkişaf etmiş ölkələrə nəzər salsaq, görərik ki, onların tərəqqisini, eyni zamanda, ümumi daxili məhsulun artımını xeyli dərəcədə müəyyən edən texnologiyalar, yeni metodikalar, elmdə əldə olunan nailiyyətlərdir. Bütün bunların da əsası məktəbdə qoyulur. Məktəb bu proseslərdə çox önəmli rol oynayır.

Təsadüfi deyildir ki, biz Azərbaycanda bu sahəni inkişaf etdirmək üçün ardıcıl tədbirlər görürük. Burada qeyd olundu ki, bu sahədə müvafiq sərəncamlar imzalanmış və 2005–2007-ci illərdə ölkənin bütün məktəblərində kompüter sinifləri təşkil edilməsi ilə əlaqədar proqram qəbul olunmuşdur. Azərbaycanda 4554 ümumtəhsil məktəbi var. Üç il ərzində hər bir məktəbdə kompüter sinfi yaradılacaq, onlar şagirdlərimizin dünyada gedən prosesləri operativ şəkildə izləməsi üçün internetə qoşulacaqdır. Beləliklə, şagirdlərin öz səviyyələrini qaldırmaq imkanı olacaqdır. Ümid edirəm ki, digər proqramlarla yanaşı, bu proqram da uğurla həyata keçiriləcəkdir. Bu günə qədər Azərbaycanda nəzərdə tutulmuş bütün tədbirlər, proqramlar uğurla reallaşdırılmışdır. Onları həyata keçirmək üçün bizdə bütün lazımi şərait vardır. Qeyd etdiyim kimi, Azərbaycan sürətlə inkişaf edir, bu sürət 2005-ci ildə daha da yüksək olacaqdır. Bu isə bizə bütün sahələri dinamik inkişaf etdirmək imkanı verəcəkdir.

Əziz dostlar, mən sizi bir daha Heydər Əliyevin adını daşıyan bu gözəl məktəbin açılışı münasibətilə ürəkdən təbrik edirəm, burada təhsil alacaq şagirdlərə, çalışacaq müəllimlərə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

## NAXÇIVAN ÜZGÜÇÜLÜK MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*2 sentyabr 2004-cü il*

Əziz naxçıvanlılar!

Əziz dostlar, idmançılar!

Bu gün Naxçıvanda yeni idman qurğusu istifadəyə verilir. Yeni üzgüçülük kompleksi tikilib Naxçıvan idmançılarının, bütün naxçıvanlıların sərəncamına verilir. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm. Əminəm ki, naxçıvanlılar bu kompleksdən səmərəli istifadə edəcəklər. Burada həm idmançılar öz məşqlərini keçirəcək, eyni zamanda, sadə insanlar, bəlkə də idmana o qədər yaxın olmayanlar da buraya gəlib öz sağlamlıqlarını bərpa edəcək, möhkəmlədəcəklər. Çünki üzgüçülük insanın sağlamlığı üçün ən faydalı idman növlərindən biridir. Mən ümid edirəm ki, bu kompleks çox səmərəli işləyəcək və naxçıvanlılar da ondan səmərəli istifadə edəcəklər.

İdman Azərbaycanda artıq böyük ictimai amilə çevrilmişdir. İdman hər bir ölkənin potensialını, gücünü, səviyyəsini göstərir. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə idmana böyük diqqət və qayğı göstərilir. Bu da təbiidir. Çünki inkişaf etmiş ölkələrdə iqtisadiyyat güclüdür, maddi imkanlar var, idmana, onun inkişafına vəsait ayrılması daha asandır. Azərbaycan isə 1990-cı ilin əvvəllərində çox çətin vəziyyətə düşmüşdü. Ölkəmiz iqtisadi cəhətdən zəif idi, tənəzzülə uğrayırdı və demək olar ki, iflic vəziyyətində idi. Bütün sahələr kimi, idman da yalnız ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda rəhbərliyə qayıdışından sonra inkişaf etməyə başladı. Çətin iqtisadi vəziyyətə baxmayaraq, xalqımızın lideri tərəfindən idmana daim diqqət və qayğı göstərilirdi və beləliklə, Azərbaycanda idmanın inkişafının təməli qoyulmuş oldu.

Ondan sonrakı illərdə bu inkişaf daha sürətlə getməyə başladı. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idmançılarımız müxtəlif yarışlarda uğurla çıxış edirlər, ölkəmizə qələbələr qazandırırlar. Beynəlxalq turnirlərdə, dünya və Avropa çempionatlarında, olimpiya oyunlarında Azərbaycanın bayrağı qaldırılır, dövlət himni səslənir. Bu yaxınlarda keçirilmiş Afina Yay Olimpiya oyunlarında da idmançılarımız, bizim olimpiya komandamız çox uğurla çıxış etmiş, 5 medal – 1 qızıl, 4 bürünc medal qazanmış və Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışdır.

Azərbaycanda idmanın əksər növləri inkişaf edir. Müxtəlif idman növləri üzrə bizim həm olimpiya, həm də dünya çempionlarımız vardır. Çox sevindirici haldır ki, uşaqlar, yeniyetmələr idmana böyük maraq göstərirlər. İdman bölmələrinə olan axın, uşaq və yeniyetmələr tərəfindən olan maraq onu göstərir ki, Azərbaycanda idman hərtərəfli inkişaf edir. Təbii ki, bizə Olimpiya oyunlarında və dünya çempionatlarında qələbələr lazımdır.

Çünki bu, ölkənin səviyyəsini və potensialını göstərir, Azərbaycanı dünyada daha da yaxşı tanıdır və xalqımıza böyük sevinc gətirir. Xalqımız bundan qürur hissi duyur.

Amma bununla yanaşı, bizə idmanın kütləviliyi lazımdır. Hər bir gəncin, yeniyetmənin, uşağın idmanla məşğul olması və öz sağlamlığını möhkəmləndirməsi lazımdır. Çünki idman sağlamlıq deməkdir, həyat deməkdir. Mən bütün gənclərə, bütün insanlara idmanla məşğul olmağı məsləhət görürəm. Bunu etmək üçün Azərbaycanda gözəl şərait yaradılmışdır. Ölkəmizin müxtəlif yerlərində yeni idman kompleksləri tikilib istifadəyə verilir. Beləliklə, təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində bu şərait yaradılır və bundan sonra da yaradılacaqdır. Növbəti beş idman kompleksinin tikilməsi nəzərdə tutulur və onlar tikiləndən sonra müxtəlif bölgələrdə, o cümlədən Naxçıvanda da idmanla məşğul olmaq üçün daha yaxşı şərait yaradılacaqdır.

Bildiyiniz kimi, Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə həyata keçirilən proqram çərçivəsində Bakıdan sonra ilk Olimpiya idman kompleksi iki il bundan əvvəl Naxçıvanda tikilmişdir. Bu gözəl binanın açılışında xalqımızın ümummilli lideri Heydər Əliyev iştirak etmiş və öz ürək sözlərini demişdir. Yadımdadır ki, bu kompleksin açılışından sonra o, bədii proqrama tamaşa edərkən dedi ki, mən nə qədər sevinirəm ki, mənim doğma yurdumda, vətənimdə – Naxçıvanda belə bir gözəl kompleks tikilibdir və sən də bunun təşəbbüskarı olmusan. Ona görə mən sənə minnətdaram. Bu sözlər mənim üçün çox əzizdir. Bu gün də eşidəndə ki, bu kompleks çox səmərəli fəaliyyət göstərir, insanlar idmanla məşğul olmaq üçün ondan səmərəli istifadə edirlər – mən çox sevinirəm. Əminəm ki, Heydər Əliyev də çox sevinərdi ki, bu kompleks insanlara xidmət edir.

Üzgüçülük kompleksi də məhz bu məqsədi daşıyır, yəni buraya gələn hər bir vətəndaş ondan səmərəli istifadə etsin, dincəlsin, məşq eləsin. Bu həm də inkişaf deməkdir, yeni infrastrukturun yaradılması deməkdir. Azərbaycanda bütün sahələrdə – iqtisadiyyatda, nəqliyyatda yeni infrastruktur yaradılır. Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Naxçıvan hava limanının açılışı da Azərbaycan üçün böyük bir hadisə olmuşdur. İndi bu hava limanı dünya standartlarına cavab verir.

Bildiyiniz kimi, bu yaxınlarda mən Almaniyada rəsmi səfərdə olarkən orada «Aerobus» şirkəti ilə Azərbaycan arasında saziş imzalanmışdır. Dörd aerobus tipli yeni təyyarənin alınması nəzərdə tutulur. Bu barədə saziş imzalandı və hesab edirəm ki, bir ildən sonra, bəlkə daha tez aerobuslar Azərbaycana gətiriləcək və Naxçıvandan Bakıya, Bakıdan Naxçıvana uçan sərnişinlər dünyanın bir nömrəli təyyarələrindən istifadə edəcəklər.

Azərbaycanda böyük işlər görülür. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmuş iqtisadi inkişaf sürətlə davam edir, yeni müəssisələr, iş yerləri açılır, yeni idman qurğuları istifadəyə verilir. Yeni yaradılan hər bir müəssisə dünya standartlarına cavab verir. Azərbaycan xalqı buna layiqdir. Azərbaycan vətəndaşları gərək ən yüksək səviyyədə olan idman qurğularından istifadə etsinlər, ən yüksək tələblərə cavab verən hava limanına daxil olsunlar və təhlükəsizlik baxımından ən etibarlı təyyarələrdən istifadə etsinlər. Biz bütün bunları xalq üçün, onun daha yaxşı, xoşbəxt yaşaması üçün edirik. Çalışırıq ki, insanlarımızın rifah halı gün-gündən, ildən-ilə yaxşılaşsın.

Bu üzgüçülük kompleksi memarlıq baxımından da gözəl binadır. Biz buna xüsusi diqqət yetirmişik və istəyirdik ki, bu bina Naxçıvana əlavə bir yaraşıq versin. Çox şadam ki, kompleks memarlıq baxımından da çox yaraşıqlıdır və buradan keçən hər bir insan binanın görkəmindən zövq alacaqdır.

Əziz dostlar!

Bu kompleksin açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizi əmin etmək istəyirəm ki, həm Milli Olimpiya Komitəsinin prezidenti kimi, həm də Azərbaycan Respublikasının prezidenti kimi, bundan sonra da Azərbaycanın daha da inkişafı üçün və güclənməsi naminə, Dünya Birliyində mövqeyinin daha da möhkəmlənməsi üçün, Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün, uşaqların daha firavan böyüməsi və yaxşı tərbiyə alması, yaxşı məktəblərdə oxuması üçün, bir sözlə, ölkəmizin tərəqqisi və güclənməsi, onun zəngin və qüdrətli dövlətə çevrilməsi naminə əlimdən gələni əsirgəməyəcəyəm.

* * *

### Üzgüçülük mərkəzi ilə tanışlıqdan sonra jurnalistlərə verdiyi müsahibə

**S u a l: Cənab Prezident, Naxçıvana Sizin ilk səfəriniz çox maraqla qarşılanmışdı. Bu isə qısa müddət ərzində buraya ikinci səfərinizdir...**

**C a v a b:** Yadınızdadırsa, may ayında burada olarkən məktəbə baş çəkdik, inşaat işləri ilə tanış olduq və qərara gəldik ki, məktəb hazır olanda mən onun açılışına gələcəyəm. Mən də, bilirsiniz ki, öz sözümə həmişə sadiqəm və indi də məktəbin açılışına gəlmişəm. Əlbəttə, bu fürsətdən istifadə edərək Naxçıvanda digər obyektlərə, o cümlədən üzgüçülük kompleksinə, Mülki Müdafiə Mərkəzinə də baş çəkdim.

Bu günün ikinci yarısında Ali Məclisdə müşavirə keçiriləcəkdir. Bir daha gördüm ki, ötən müddət ərzində Naxçıvan daha da gözəlləşmiş, daha da abadlaşmışdır. Burada gedən abadlıq, quruculuq işləri məni çox sevindirdi. İstərdim ki, Azərbaycanın hər bir yerində səliqə ilə, məhəbbətlə, böyük istəklə bu səviyyədə işlər görülsün.

Naxçıvan Azərbaycanın qədim torpağıdır, Azərbaycanın strateji yeridir və hamımız çalışmalıyıq ki, Naxçıvanı hərtərəfli – həm iqtisadi, həm hərbi cəhətdən, həm də digər cəhətlərdən gücləndirək ki, insanlar burada daha da yaxşı, rahat yaşasınlar.

**S u a l: Cənab Prezident, yaxın günlərdə Sizin Parisə səfəriniz gözlənilir. Bu səfərin tarixini öyrənmək olarmı və səfər zamanı ikitərəfli görüşlər keçirəcəksinizmi?**

**C a v a b:** Bu səfər işgüzar xarakter daşıyır. İkitərəfli görüşlərin isə sentyabrın birinci ongünlüyündə keçirilməsi gözlənilir.

**S u a l: Cənab Prezident, Rusiyanı, Moskvanı son həftə ərzində terror dalğası bürümüşdür. Bu haqda nə deyə bilərsiniz?**

**C a v a b:** Mən Rusiyanın dövlət başçısı cənab Putinə başsağlığı verdim. Bu, böyük bəladır, böyük təhlükədir. Azərbaycan terrorizmdən əziyyət çəkmiş ölkədir. Biz yaxşı bilirik ki, bu nədir. Terrorizmlə mübarizə aparmaq çox çətindir. Bütün qüvvələr birləşməli, bütün ölkələr birləşməlidir və bütün dünyada terror aktlarına qarşı mübarizə aparılmalıdır.

Biz Rusiyada son günlər ərzində törədilmiş terror aktlarını qətiyyətlə pisləyirik. Bu, vəhşilik aktlarıdır. Xüsusilə də məktəbin zəbt edilməsi, orada adamların ölməsi hər bir normal insanı hiddətləndirir. Biz ümid edirik ki, bu böhran tezliklə öz həllini tapacaq, girov saxlanılan insanlar azadlığa buraxılacaqlar.

**S u a l: Ermənistan prezidenti ilə görüşünüz olacaqdır. Son zamanlar Ermənistan tərəfində hərbi təlimlər keçirilir. Cəmiyyətimizdə belə bir fikir var ki, bu danışıqlar faydasızdır. Siz bu danışıqların perspektivini necə görürsünüz?**

**C a v a b:** Əgər mən hələ də bu danışıqlardan imtina etməmişəmsə, deməli, mən bunların nəticəsinə də ümid edirəm. Yadınızdadırsa, dəfələrlə bəyan etmişdim ki, mən sadəcə olaraq, imitasiya naminə danışıqlarda iştirak etmək niyyətində deyiləm. Əgər nə vaxtsa görsəm ki, danışıqların səmərəsi yoxdur və onların gələcəyinə inanmıram, o vaxt Azərbaycan birinci olaraq danışıqlardan imtina edəcəkdir. İndi isə deyə bilərəm ki, danışıqların

davam etdirilməsinə zərurət vardır. Danışıqlar gedir, xarici işlər nazirləri görüşürlər. Əlbəttə, siz onlara sual verəndə bəzən narazı qalırsınız ki, cavab vermirlər və verə də bilməzlər. Çünki danışıqlar məxfi xarakter daşıyır. Biz hələlik bir nəticəyə gələ bilməmişik. Ancaq danışıqlar konkret mövzular ətrafında aparılır. Ümid etmək istəyirəm ki, danışıqların nəticəsi olacaqdır. Azərbaycanın torpaqları azad olunacaq və ərazi bütövlüyü bərpa ediləcəkdir.

**S u a l: Yəni lazımi formada desək, danışıqlarda müəyyən irəliləyişlər varmı?**

**C a v a b:** Lazımi formada Məmmədyarov deyib və məruzə edib. Mən onun məruzəsini dinlədim. Ona görə də bu fikirdəyəm ki, danışıqlar davam etdirilməlidir.

**S u a l: Cənab Prezident, Qarabağ Azadlıq Təşkilatının üzvlərinə hakim cəza kəsdi. Siz prezident İlham Əliyev kimi deyil, vətəndaş İlham Əliyev kimi bu qərarla razısınızmı?**

**C a v a b:** Yaxşı sual verdiniz. Prezident kimi, əlbəttə, mən məhkəmənin qərarına qarışa bilmərəm və qarışmaq da istəmirəm. Amma bir vətəndaş kimi hesab edirəm ki, verilən bu cəza onların etdiyi hərəkətlərə adekvat deyildir. Həddindən artıq böyük cəzadır və mən bir vətəndaş kimi, bu qərarı dəstəkləyə bilmərəm. Hesab edirəm ki, növbəti məhkəmə instansiyasında bu qərara yenidən baxılmalıdır. Mən tövsiyə edərdim ki, Apelyasiya Məhkəməsinə müraciət edilsin və ümid etmək istəyirəm ki, burada bu məsələ öz həllini tapar.

Eyni zamanda, qanun hamı üçün bir olmalıdır. Hansısa təşkilatı və yaxud insanı ideallaşdırmaq da lazım deyildir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanda səlahiyyətli qurumlar və şəxslər iş aparırlar. Prezident, Xarici İşlər naziri, Müdafiə naziri və bütün digər müvafiq qurumlar bu işi necə aparmağı bilirlər. Onlar nə vaxt hansı addımı atmaq lazım olduğunu yaxşı bilirlər. Ona görə də cəmiyyətdə də bu cür təşkilatlara adekvat münasibət olmalıdır. Biz heç kimin ətrafında qəhrəman obrazı yaratmamalıyıq, heç kimin fəaliyyətini şişirtməməliyik. Əlbəttə, ictimai təşkilatın öz mövqeyi var. Amma hər şey qanun çərçivəsində olmalıdır. Biz hüquqi dövlət qururuq və qanunun aliliyinin tərəfdarıyıq. Ona görə də hər bir vətəndaş qanuna hörmətlə yanaşmalıdır. Amma yenə də deyirəm, çıxarılan bu hökm həddindən artıq ağırdır və bir vətəndaş kimi, mən hökmlə razı deyiləm. Ümid edirəm ki, bu məsələ öz ədalətli həllini tapacaqdır.

**S u a l: Cənab Prezident, bu günlərdə Siz dörd ölkəyə səfir təyin olunması ilə əlaqədar qərar qəbul etdiniz. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bu mənim səlahiyyətimdir və bilirsiniz ki, prezident kimi, bir neçə ölkədə səfirliklərin açılması ilə bağlı qərar qəbul etmişəm. Hesab edirəm ki, bu, vacib qərardır, Azərbaycan dünyada daha fəal olmalı, öz mövqeyini müdafiə etməlidir. Bizim xaricdə nümayəndəliklərimizin sayı azdır, buna görə də ondan çox yeni səfirliyin açılması nəzərdə tutulmuşdur. O ki qaldı Həsən Həsənovun və Tamerlan Qarayevin səfir təyin edilməsinə, onların hər ikisi diplomatik fəaliyyətdə olub. Həsən Həsənov uzun illər Azərbaycanın BMT-dəki nümayəndəsi olub, Xarici İşlər naziri vəzifəsində çalışıbdır. Onun böyük diplomatik təcrübəsi var və mən hesab edirəm ki, hər bir təcrübədən istifadə etmək lazımdır. Eyni zamanda, Tamerlan Qarayev də uzun illər Çində səfir işləyib və Azərbaycanı ləyaqətlə təmsil edibdir.

Mən seçkilərdən əvvəl və sonra demişdim ki, hər bir vətəndaş mənim üçün əzizdir. Mən keçmişlə bu günün arasında görünməyən bir xətti görürəm. Keçmişdə çox səhvlər olub, Azərbaycan vətəndaş müharibəsi həddində olubdur. Mən cinayət törətmiş şəxsləri də azad etmişəm. Ona görə yox ki, hesab edirəm, onlar siyasi məhbusdur. Yox, mən öz fikrimdə qalıram və Avropa Şurasının nümayəndələrinə də demişdim ki, əfv etdiyim insanların bəziləri siyasi məhbus deyillər. Mən Azərbaycanda qarşıdurma əhval-ruhiyyəsinin aradan götürülməsini istəyirəm. Bizim qarşımızda yeni vəzifələr durur, ölkəmizi inkişaf etdirməliyik, insanlarımızı səfərbər etməliyik. Biz milli barışığa nail olmuşuq və gərək bunu gücləndirək. Ona görə bu mənim təklifimdir ki, keçmiş ədavət və ziddiyyətlər tarixdə qalsın. Bu mənim niyyətimdir. Əgər qarşı tərəf bunu eşidirsə, mən şadam, əgər eşitmirsə, günah qarşı tərəfdədir.

**S u a l: Cənab Prezident, yaxın zamanlarda əfv fərmanı gözləmək olarmı?**

**C a v a b:** Olar.

**S u a l: Cənab Prezident, MDB dövlət başçılarının Astanada keçiriləcək sammitində Rusiya ATƏT-də olan ikili standartlarla əlaqədar məsələ qaldırmağı planlaşdırır. Bununla əlaqədar Sizin fikrinizi bilmək olarmı?**

**C a v a b:** Biz mövqeyimizi iyulda keçirilmiş görüşdə bildirmişik və Azərbaycan o vaxt bəyanatı imzalamamışdı. Bunun da səbəbləri var idi. Biz ölkə olaraq tam müstəqil siyasət yürüdürük. Burada yenə prezident Heydər Əliyevin siyasətinə qayıtmaq istərdim. O elə bir dövlət yaratmışdır ki, bu dövlət tam müstəqil siyasət yeritməyə qadirdir. Əgər siz başqa keçmiş sovet respublikalarına nəzər salsanız görərsiniz ki, onların bir çoxunda müstəqil siyasət aparmaq imkanları məhduddur. Bunun müxtəlif amilləri – siyasi, coğrafi, iqtisadi və digər amilləri var. Amma Azərbaycan tam müstəqil dövlət kimi yaşayır və bu müstəqillik bizim üçün hər şeydən vacibdir. Ona görə də ATƏT-in Azərbaycanla olan münasibətləri ancaq bizim özümüzə aiddir. Bizim də ATƏT-in fəaliyyətinə iradlarımız ola bilər və bu iradları ifadə etmişik. Şəxsən mən seçkilərdən sonra öz iradlarımı çox kəskin formada onlara çatdırmışam. Onlara həm şifahi qaydada bildirilib, həm də rəsmi şəkildə sənəd göndərilibdir. Ancaq bunlar bizim aramızda olan məsələlərdir. Siz dediyiniz məsələ siyasi xarakter daşıyır və Azərbaycan bu

məsələyə qoşulmaq niyyətində deyildir. Biz öz siyasətimizi müstəqil şəkildə aparırıq, təsadüfi deyil ki, iyul ayında mən o bəyanata imza atmadım və yenə qol çəkməyəcəyəm.

**S u a l: Cənab Prezident, Avropa Şurasında Azərbaycanla bağlı məsələ müzakirə olunacaqmı?**

**C a v a b:** Ümid edirəm ki, bu müzakirələr konstruktiv şəkildə aparılacaqdır. Avropa Şurası ilə Azərbaycan arasında heç bir problem yoxdur. Əslində bu, keçmişdə də olmayıbdır. Mən bu məsələ ilə bilavasitə məşğul olan insan kimi bilirdim ki, bizim aramızda, əlbəttə ki, fikir ayrılığı, müxtəlif məsələlərə fərqli baxışlar vardı. Amma hər hansı bir ziddiyyətdən, qarşıdurmadan söhbət getmirdi. Əlbəttə, bəzi müxalifət mətbuatı bunu şişirdirdi. Amma mən bilirdim ki, bu belə deyil. İndiki mərhələdə bizim Avropa Şurası ilə münasibətlərimiz daha da inkişaf edir, Azərbaycanda aparılan siyasi, iqtisadi islahatlar bəyənilir. Bu məni çox sevindirir. Mən gözləyirəm ki, öhdəliklərin yerinə yetirilməsi məsələsi işçi qaydada müzakirə ediləcək, bu zaman tövsiyələr və müəyyən tənqidlər də olacaq və mən buna təbii baxıram.

**S u a l: Cənab Prezident, Naxçıvan 12 ildir ki, blokada şəraitində yaşayır. Bununla belə, burada böyük uğurlar əldə olunmuşdur. Sizcə, Naxçıvana qəhrəman şəhər adı verməyin vaxtı gəlib çatmayıbmı?**

**C a v a b:** Bilirsiniz, bu, köhnə praktikadır. Biz gərək Sovet İttifaqının təcrübəsindən əl çəkək. Bu adlar heç nəyi təcəssüm etdirmirdi. Qəhrəmanlıq insanın ürəyində, həyatında olmalıdır. Öz doğma şəhərinə və ölkəsinə münasibətində olmalıdır. Naxçıvan hər bir azərbaycanlı üçün əziz diyardır. Azərbaycanın qədim torpağıdır. Bu diyar blokada şəraitində, Azərbaycandan ayrı düşmüş vəziyyətdə yaşayır. Buna baxmayaraq, naxçıvanlılar bütün dövrlərdə olduğu kimi, indi də Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edirlər. Buradakı inkişaf bizi çox sevindirir. Həm iqlim, həm də coğrafi baxımdan ən çətin vəziyyətdə yaşayan Azərbaycanın bu bölgəsi çox sürətlə inkişaf edir. Xalqımızın ümummilli lideri Heydər Əliyev də Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, o burada anadan olmuşdu, bura onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi, Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü. Həmin siyasət bu gün də həyata keçirilir. Mən çox şadam ki, Naxçıvanda yerli orqanlar tərəfindən görülən gözəl işlər, eyni zamanda, dövlət tərəfindən göstərilən diqqət öz bəhrəsini verir. Naxçıvan daha da gözəlləşəcək, daha da güclənəcəkdir.

**S u a l: Cənab Prezident, Siz prezident Xatəmi ilə görüşdən sonra Şimal–Cənub dəhlizi ilə bağlı tam məlumat açıqlamadınız. Ümumiyyətlə, bu barədə müzakirə oldumu?**

**C a v a b:** Əlbəttə, müzakirə olundu. Bu məsələdə bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Biz də maraqlıyıq, İran da maraqlıdır ki, o dəhliz işləsin, Azərbaycan da buna qoşulsun və bu istiqamətdə müəyyən addımlar atılıb, danışıqlar aparılıbdır. Bu bizim üçün çox vacibdir. Azərbaycandan nə qədər çox yollar keçərsə, bir o qədər bizim xeyrimizədir. Bu məsələ, ola bilər ki, hansısa sənəddə öz əksini tapmayıbdır. Amma çox ciddi müzakirə olunubdur.

Yeri gəlmişkən onu da qeyd etmək istəyirəm ki, səfər çərçivəsində Naxçıvana aid vacib məsələlər müzakirə edilmişdir. İmişli–Parsabad yeni elektrik xəttinin çəkilişi İranla Azərbaycan arasında olan enerji mübadiləsinin həcmini təxminən üç dəfə artıracaqdır. Bilirsiniz ki, indi Azərbaycandan İrana verilən enerjinin əvəzinə İran Naxçıvana enerji verir. Amma bu, kifayət deyildir. Yeni xəttin çəkilişi o həcmi təxminən 4-5 meqavat artıracaqdır. Bu da faktiki olaraq Azərbaycanda yeni bir elektrik stansiyasının tikilməsinə bərabərdir. Həmin layihənin reallaşdırılması iki ildən sonra başa çatmalıdır. Ondan sonra Naxçıvan elektrik enerjisindən korluq çəkməyəcəkdir.

Naxçıvana təbii qaz verilməsi məsələsi də müzakirə olunmuşdur. Biz belə qərara gəldik ki, İrandan Naxçıvana qaz verilməsi gələn ilin sonundan başlanacaqdır. Yenə də mübadilə yolu ilə bunun əvəzində Azərbaycan Astaradan İrana qaz verəcəkdir. Bu məsələ burada da müzakirə olunacaqdır. Beləliklə, əgər bütün bu razılaşmalar həyatda öz əksini taparsa, Naxçıvanın qazla, işıqla təminatı iki ildən sonra tam həll olunacaqdır.

Sağ olun.

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ* NİTQ**

*2 sentyabr 2004-cü il*

Mən Naxçıvana gəlmişəm. Burada çox gözəl tədbirlər keçirildi, Heydər Əliyevin adını daşıyan məktəb açıldı. Bilirsiniz ki, bu məktəb xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. Çox şadam ki, məktəb bu gün açıldı və Naxçıvana gözəl xidmət edəcəkdir. Mən orada açılışda dedim ki, bu, Azərbaycanda son zamanlar tikilmiş məktəblərdən ən gözəlidir və yaxşı avadanlıqla da təchiz olunmuşdur.

Naxçıvan inkişaf edir və burada sürət çox yüksəkdir, çox gözəl abadlıq, quruculuq işləri gedir. Mən bunu may ayında burada olarkən qeyd etmişdim. Bu gün də demək istəyirəm ki, bir neçə ay ərzində irəliləyiş yenə də müşahidə olunur. Küçələr abadlaşır, yeni müasir binalar tikilir. Əlbəttə ki, bu bizim hamımızı çox sevindirir. Naxçıvanın uğurlu inkişafı hamımız üçün, bütövlükdə Azərbaycanın gələcəyi üçün çox mühüm amildir.

Naxçıvanın infrastrukturu güclənir, hava limanının tikintisi başa çatmışdır. Keçən dəfə onu açdıq. Bu gün hava limanı sərnişinlərə çox yaxşı xidmət göstərir. Yeni təyyarələrin alınması nəticəsində, ümumiyyətlə, Naxçıvanın təkcə Bakı ilə deyil, xarici ölkələrlə də hava əlaqələri genişlənəcəkdir.

Hər bir ölkənin, regionun, şəhərin inkişafı üçün enerji daşıyıcıları mühüm rol oynayır. Bilirsiniz ki, Azərbaycanda iqtisadiyyat, ümumiyyətlə, sürətlə inkişaf edir. İnkişaf etmiş ölkələrlə müqayisədə biz görürük ki, Azərbaycanda artım sürəti daha yüksəkdir. Əlbəttə, çoxlu problemlər də var və bunlar öz həllini tapır. Yeni müəssisələr, fabriklər yaradılır. Yeni iş yerləri açılır. Mən bu gün qeyd etdim ki, prezident seçkilərindən keçən dövr ərzində 70 min yeni iş yeri açılmışdır. Onlardan 50 mini daimi iş yerləridir. Bu onu göstərir ki, biz düz yoldayıq. İqtisadiyyatımızı çox böyük səmərə ilə inkişaf etdiririk. Gələcək perspektivlər də çox gözəldir. Müasir Azərbaycanın Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyası uğurla həyata keçirilir. Gələn il Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləcəkdir ki, bu da ölkənin hərtərəfli inkişafı üçün çox gözəl və deyə bilərəm ki, yeni bir şərait yaradacaqdır.

Biz bütün bu proqnozları bilirik. Bilirik ki, Azərbaycan çox böyük iqtisadi potensiala malik olacaqdır. Bu bizə imkan verəcəkdir ki, ölkəmizi hərtərəfli inkişaf etdirək. Energetika sektoru inkişaf etdirilməlidir. Bu istiqamətdə Azərbaycanda işlər görülür. Yeni elektrik stansiyaları istifadəyə verilir. Növbəti stansiyaların tikintisi üçün lazımi tədbirlər görülür. Bu yaxınlarda mən Almaniyada rəsmi səfərdə olarkən bu məsələ də müzakirə olundu. Azərbaycanda 500 meqavat gücündə yeni elektrik stansiyası tikiləcəkdir.

Bildiyiniz kimi, bu sahədə Naxçıvanın problemləri çoxdur. Naxçıvan uzun illərdir blokada şəraitində yaşayır. Burada Azərbaycan ərazisindən təbii qazın verilməsi mümkün deyildir. Elektrik enerjisinin verilməsi də Naxçıvanın tələbatını tam şəkildə ödəmir. Ona görə Naxçıvanı həm təbii qazla, həm də elektrik enerjisi ilə tam təmin etmək üçün müvafiq tədbirlər görülübdür. Bunun nəticəsində, indi demək olar ki, Naxçıvanı tam həcmdə elektrik enerjisi və qazla təmin etmək üçün yeni şərait yaradılıbdır.

---

* Müşavirədə nəzərdə tutulan tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və «Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov məlumat verdilər.

* Görüşdə Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev Azərbaycan yığma komandasının Olimpiya oyunlarında çıxışı və bu oyunların yekunu haqqında məlumat verdi.

## YEKUN NİTQİ

Burada deyildi, Əlixan Məlikov da qeyd etdi ki, bu layihə üzərində uzun illərdir iş gedirdi. Keçmişdə də İranla bizim aramızda aparılmış bütün danışıqlar da bu məsələ, demək olar ki, həmişə gündəliyə salınıbdır və bunun müxtəlif variantları var idi. Bilirsiniz ki, keçmişdə Azərbaycanın o qədər də böyük imkanı yox idi ki, bu məsələni mübadilə yolu ilə həll etsin. Çünki bizim öz qaz hasilatımız tələbatımızı ödəmir və belə olan halda, əlbəttə, onu başqa ölkəyə ötürmək də olmurdu. Amma artıq bir neçə ildir ki, xüsusi proqram çərçivəsində Rusiyadan təbii qazın alınması təşkil edilibdir. Alınan qazın həcmi ildən-ilə artır. Biz ildə bir milyard kubmetrdən başlamışdıq. İndi Rusiyadan alınan təbii qazın həcmi ildə 5,5 milyard kubmetrdir. Onu da qeyd etməliyəm ki, bu qazı Azərbaycan Dövlət Neft Şirkəti öz pulu hesabına alır və faktiki olaraq təmənnasız, pulsuz həm «Azərenerji»yə – elektrik stansiyalarına ötürür, eyni zamanda, «Azəriqaz»a da imkan verir ki, Neft Şirkəti tərəfindən hasil edilən qazı əhaliyə versin.

Bir sözlə, bu gün Azərbaycan bütün mənbələrdən – daxili və xarici mənbələrdən ildə təxminən 10 milyard kubmetr qaz əldə edir. Keçmişdə, ötən əsrin 80-ci illərində Azərbaycan, demək olar ki, təbii qaza olan bütün tələbatını ödəyirdi. Bu gün isə 10 milyard kubmetr qaz alırıq, amma hələlik əhalinin və müəssisələrin ehtiyaclarını tam həcmdə ödəyə bilmirik.

Onu da qeyd etməliyəm ki, Rusiyadan alınan hər 1000 kubmetr qazın qiyməti 52 dollardır. Əgər biz dollarla hesablasaq, Azərbaycanın daxilində hər 1000 kubmetr 8 dollara satılır. Bu isə onu göstərir ki, dövlət, yəni Dövlət Neft Şirkəti Azərbaycanda bütün qaz istehlakçılarına böyük həcmdə subsidiyalar verir. Bəlkə də çox adam bilmir, amma həqiqət budur. Əgər biz Azərbaycanda hasil edilən qazın hər 1000 kubmetrinin qiymətini 52 dollardan hesablaşaq, görərik ki, əhaliyə və müəssisələrə verilən qazın dəyəri 600 milyon dollara bərabərdir. Azərbaycan dövləti hər il əhaliyə və müəssisələrə 600 milyon dollarlıq qazı subsudiya formasında verir. Düzdür, bu məbləğin müəyyən hissəsi yığılır, amma çox hissəsi yığılmır. «Azəriqaz» ildə nə qədər qaz pulu yığır?

**Ə l i x a n  M ə l i k o v:** Cənab Prezident, 250 milyard manat.

**İ l h a m  Ə l i y e v:** 250 milyard manat, yəni 50 milyon dollar. «Azərenerji» də bu qədər yığırdı. İndi də təxminən o qədər yığır. Yəni biz 600 milyon dolların əvəzində cəmi 100 milyon dollar yığırıq. Yığılan bu vəsaitin də böyük əksəriyyəti «Azərenerji» ilə «Azəriqaz»ın daxili ehtiyaclarına sərf olunur.

Dövlət Neft Şirkəti ildə «Azərenerji»yə təxminən 2 milyon ton mazut da verir, bunun qiyməti haradasa, 300 milyon dollar, bəlkə də çox edir. Yəni, biz mazutda da 300 milyon dollar itiririk. 600 milyon dollar qazda, 300 milyon dollar mazutda, bu, 900 milyon edir. Bunun müqabilində «Azəriqaz»la «Azərenerji» 100 milyon dollar yığır. Elədir?!

**N a t i q  Ə l i y e v** (*ARDNŞ-in prezidenti*): Cənab Prezident, dövlət az qala 1 milyard dollar itirir.

**İ l h a m  Ə l i y e v:** Bəli, 1 milyard dollar. Bizim büdcəmiz bu il 1 milyard 500 milyon dollar idi. Sonra biz bunu artırıb 1 milyard 600 milyon dollar etdik. Yəni, Azərbaycan 1 milyard dollar bəyərində subsidiya verir. Heç bir ölkədə belə deyil. Bu bir daha onu göstərir ki, bizim siyasətimiz ilk növbədə, sosialyönümlü siyasətdir. Azərbaycan bazar iqtisadiyyatı prinsiplərini çox yüksək tutur. Biz bu prinsiplərə sadiqik və Azərbaycanda özəl sektor, sahibkarlıq inkişaf edir, yeni müəssisələr yaradılır. Özəl sektorun ümumi daxili məhsulda həcmi 75 faizdir. Amma eyni zamanda, Azərbaycanda 1 milyard dollar dəyərində sosial proqramlar həyata keçirilə bilər, mövcud olan bütün başqa problemlər öz həllini tapa bilərdi. Amma biz bu vəsaiti əhaliyə qaz və işıq şəklində veririk. Sonra isə qazın və işığın pulunu ala bilmirik. Hətta bu pulu 100 faiz yığsaq belə, yenə o, xərclərin 20 faizini də ödəmir.

Bəlkə də bu məsələnin indiki müşavirəyə birbaşa aidiyyəti yoxdur. Amma mən bunu, sadəcə, ona görə deyirəm ki, hamı bilsin ki, bu nə qədər böyük yükdür. Belə olan halda, əlbəttə, biz – «Azərenerji» və «Azəriqaz» – haqlı olaraq tələb etməliyik ki, qaz və işıq pulları vaxtlı-vaxtında ödənilsin. Çünki bu, dözülməz bir haldır. Heç bir başqa ölkədə 8 dollara 1000 kubmetr qaz tapmaq mümkün deyildir. Qonşu ölkələrə, MDB ölkələrinə baxın. Orada qazın 1000 kubmetrinin qiyməti 80–100 dollardır. Türkiyədə 120 dollardır. Gürcüstanda da o qədərdir. Amma Azərbaycanda 8 dollardır. Bu, ciddi məsələdir. Əlbəttə, bu məsələyə baxılmalıdır və biz buna baxacağıq.

Mən yenə də bizim məsələyə qayıtmaq istəyirəm. Əvvəllər Azərbaycanın İranla məsələni mübadilə yolu ilə həll etməyə imkanı yox idi. İndi belə imkanlarımız var. İrana mübadilə yolu ilə veriləcək 300–400 milyon kubmetr qaz Azərbaycan tərəfindən ya daxildə hasil ediləcək, ya da xaricdən alınacaqdır. Yenə təxminən o qiymətə. Biz bunu edirik və etməliyik. Azərbaycanda təbii qaza olan tələbat tam şəkildə ödənilməlidir, elektrik enerjisinə olan tələbat da ödənilməlidir. Bu məqsədlə yeni elektrik stansiyaları tikilir. Yaponiyanın krediti hesabına «Şimal» elektrik stansiyası tikilibdir, ona böyük vəsait ayrılıbdır. Azərbaycan gərək o krediti, borcu gələcəkdə qaytarsın.

Sumqayıtda 500 meqavat gücündə yeni stansiyanın tikintisi nəzərdə tutulur. O da kredit hesabınadır. Kredit o deməkdir ki, vaxt gələcək, o vəsait qaytarılmalıdır. Amma energetika təhlükəsizliyi bizim üçün çox vacibdir.

Bu gün Azərbaycan, bəlkə də, yeganə ölkələrdən biridir ki, elektrik enerjisi baxımından heç kimdən asılı deyildir. Düzdür, biz xaricdən elektrik enerjisi də, qaz da alırıq, amma eyni zamanda, xam nefti də ixrac edirik. Rusiyadan qazı alırıq, Rusiyaya neft ixrac edirik. Əgər o qazı almasaq, nefti də ixrac etməyəcəyik. O nefti bizim zavodlarımızda emal edib, mazuta çevirib yenə də elektrik enerjisinin istehsalına yönəldəcəyik. Bu baxımdan Azərbaycan əlverişli vəziyyətdədir.

Yenə də qeyd etməliyəm ki, bu vəziyyəti hamımız üçün xalqımızın ümummilli lideri Heydər Əliyev yaratmışdır. Ötən əsrin 70-ci illərində Azərbaycanda neftayırma zavodlarının yenidən qurulması, bərpası nəticəsində, yeni qurğuların tikilməsi nəticəsində çox güclü infrastruktur yaradıldı. Əgər o neft emalı zavodları olmasaydı, əlbəttə, Azərbaycan çox çətin vəziyyətə düşərdi. Əgər Mingəçevirdə Azərbaycan DRES-i tikilməsəydi – hansı ki, elektrik enerjisinin böyük əksəriyyətini verir – Azərbaycan bu gün çox çətin vəziyyətdə olardı.

Naxçıvanı qazla, işıqla təmin etmək bizim prioritet məsələmizdir. Biz bu barədə qərarlar qəbul etmişik. Onu da qeyd etməliyəm ki, İranla elektrik enerjisi mübadiləsi məsələsi də öz həllini tapıbdır. İmişli–Parsabad yeni xəttinin çəkilməsi nəzərdə tutulur və o çəkiləndən sonra iki ölkə arasında elektrik enerjisi mübadiləsi 700 meqavata çatacaqdır. Belə olan halda biz Naxçıvanı tam şəkildə elektrik enerjisi ilə təmin edə biləcəyik. Bu layihə təxminən iki ilə başa çatacaq və ümid edirəm, 2006-cı ildə Naxçıvanda qaz, işıq problemi aradan qaldırılacaqdır. Bu da imkan verəcək ki, insanlar rahat yaşasınlar, Naxçıvanın sərt qışına dözə bilsinlər və Naxçıvan iqtisadi cəhətdən daha da inkişaf etsin. Yeni müəssisələr, zavodlar, fabriklər yaransın. Yəni enerji həyat, inkişaf deməkdir.

Mən çox şadam ki, bu məsələlər bu gün burada müzakirə olundu. Naxçıvanlılar da bunu bilməlidirlər. Bu yaxınlarda burada işlərə başlanacaqdır. Mən istərdim ki, burada görüləcək işlərdə yerli kadrlar çox fəal iştirak etsinlər. Bu tikintilərdə maksimum dərəcədə yerli camaat işləsin. Çünki bunlar böyük işlərdir. Həm magistral kəmərlər, həm də paylayıcı xətlər, binadaxili xətlər və sair. Ümid edirəm ki, bir il ərzində «Azəriqaz» bütün məsələləri həll edəcək və bir ildən sonra, 2005-ci ilin sonlarında biz Naxçıvana ilk qazın verilməsini qeyd edə bilərik. Hər halda, əldə edilmiş razılaşmalar bunu deməyə əsas verir.

Qeyd etməliyəm ki, İranla Azərbaycan arasında bu məsələdə çox gözəl əməkdaşlıq var. Siz bilirsiniz ki, İran İslam Respublikasının prezidenti cənab Xatəmi mənim dəvətimlə Azərbaycana səfər etmişdir. Bir sıra çox vacib sənədlər imzalanmışdır. Ölkələrimiz arasında olan iqtisadi əlaqələr güclənir, ticarətin həcmi artır. Qaz, elektrik enerjisi mübadiləsi hər iki tərəf üçün çox faydalı layihələrdir. İstəyirəm onu da biləsiniz.

Azərbaycan yay aylarında İrana elektrik enerjisi verir. Bu da İrana kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və yığımı üçün lazımdır. Biz isə İrandan elektrik enerjisini qış aylarında alırıq. İrandan Naxçıvana qaz alacağıq. Azərbaycandan, Astaradan İrana qaz verəcəyik. Yəni bunlar hər iki tərəf üçün faydalı razılaşmalardır. Mən çox məmnunam, şadam ki, nəhayət, bu məsələlər öz həllini tapıbdır.

Onu da bildirmək istəyirəm ki, danışıqlar əsnasında Ordubad su elektrik stansiyasının tikintisi də müzakirə olunmuşdur. Bilirsiniz ki, bu, Naxçıvanın enerji təhlükəsizliyi və müstəqilliyi üçün çox vacib bir layihədir. O layihə barədə uzun illərdir söhbət gedir. Biz şifahi qaydada razılaşdıq ki, bu məsələ ilə əlaqədar gələcəkdə danışıqlar aparılsın. Ümid edirəm ki, bu məsələ də öz həllini tapa bilər. Əgər biz bunu da etsək, Naxçıvan üçün əlavə 42 meqavat elektrik enerjisi əldə edə bilərik. Əlbəttə, İrandan mübadilə yolu ilə gələn elektrik enerjisi, qaz Naxçıvanın bütün tələbatını ödəyəcəkdir. Amma biz istəyirik Naxçıvanın özündə elə bir infrastruktur yaradılsın ki, tam müstəqil şəkildə, heç kəsdən asılı olmayaraq öz tələbatını ödəsin.

Keçən dəfə, may ayında burada olarkən biz Vayxır su anbarının tikintisinə baş çəkdik, vəziyyətlə tanış olduq. Vasif Talıbov təklif etmişdi ki, orada kiçik bir elektrik stansiyası tikilsin. Mən də Bakıya qayıdarkən dərhal hökumətə müvafiq göstərişlər verdim. Düzdür, orada tikiləcək stansiyanın gücü cəmi 4,5 meqavat olacaqdır. Amma yenə də, Vasif Talıbov deyir ki, Şahbuza cəmi 7 meqavat elektrik enerjisi verilir. O da oradan veriləcəkdir. Düzdür, əlavə xərc tələb edəcək, amma biz bunu etməliyik.

Azərbaycanın iqtisadiyyatı ildən-ilə güclənir. Bizim büdcəmiz ilbəil artır. Bu ilin büdcəsi dəyişiklikdən sonra 1 milyard 600 milyon dollar səviyyəsindədir. Gələn il daha da artmalıdır. Mən hökumət qarşısında belə bir vəzifə qoymuşam ki, ciddi surətdə artmalıdır. Bunu etmək üçün imkan var, daxili mənbələr var. Yeni müəssisələr yaradılır, yeni zavodlar, fabriklər yaradılır. Onların hamısı vergi ödəməlidir. Azərbaycana böyük sərmayələr qoyulur. Gələn il bizim ümumi daxili məhsulumuzun artımı, haradasa, 12-13 faizdən yuxarı olmalıdır. Bu il təxminən 11 faizdir. Bu bizə imkan verəcək ki, büdcəmiz artsın. Belə olan halda vəsait də olacaqdır. Vəsait də gərək səmərəli işlədilsin. Yığılan vəsait, əldə olunan gəlirlər gərək, ilk növbədə, infrastrukturun yaranmasına, insanlarımızın daha da rahat yaşamasına, sosial məsələlərin həllinə sərf olunsun.

Düzdür, mən qeyd etdim ki, enerji sektorunda biz 1 milyard dollar dəyərində əhaliyə və müəssisələrə subsidiya edirik. Amma bu həm də bizim niyyətimizi göstərir. Bu təkcə sözdə deyil, əməldədir. Biz deyəndə ki, hər şey xalq üçün, millət üçün – bunun təzahürü məhz budur.

Mən bir daha demək istəyirəm ki, görüləcək işlər həm Naxçıvan, həm də Azərbaycan üçün çox vacibdir. Ümid edirəm ki, «Azəriqaz» və yerli icra orqanları bu məsələ ilə ciddi məşğul olacaqlar, nəzərdə tutulmuş

qaydada bir il ərzində bütün görüləcək işlər yerinə yetiriləcək və Naxçıvan, nəhayət, təbii qazla təmin olunacaq, tam şəkildə elektrik enerjisi ilə, işıqla təmin ediləcəkdir. Sağ olun.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskva şəhərində metronun «Rijskaya» stansiyası yaxınlığında törədilmiş partlayış nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Rusiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Biz son zamanlar Rusiyada törədilən terror aktlarından son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni dəstəkləyirik.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 sentyabr 2004-cü il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Beslan şəhərində məktəblilərin, onların valideynlərinin və müəllimlərin girov götürülməsi xəbəri bütün Azərbaycanda böyük hiddət doğurmuşdur.

Heç bir əndazəyə sığışmayan bu vəhşilik terrorizmin bütün bəşəriyyət üçün nə dərəcədə dəhşətli bəla olduğunu bir daha sübut etdi.

Bu faciəli anlarda dərdinizə şərik çıxır, Sizinlə, bütün dost Rusiya xalqı ilə həmrəyliyimizi ifadə edir, terrorizmə qarşı mübarizəni tam dəstəklədiyimizi bir daha bəyan edirik.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 sentyabr 2004-cü il*

**RUSİYADA TÖRƏDİLMİŞ TERROR AKTLARINI QƏTİYYƏTLƏ PİSLƏYƏN BƏYANAT**

Mən Rusiyanın dövlət başçısı cənab Putinə başsağlığı verdim. Bu, böyük bəladır, böyük təhlükədir. Azərbaycan terrorizmdən əziyyət çəkmiş ölkədir. Biz yaxşı bilirik ki, bu nədir. Terrorizmlə mübarizə aparmaq çox çətindir. Bütün qüvvələr birləşməli, bütün ölkələr birləşməlidir və bütün dünyada terror aktlarına qarşı mübarizə aparılmalıdır.

Biz Rusiyada son günlər ərzində törədilmiş terror aktlarını qətiyyətlə pisləyirik. Bu, vəhşilik aktlarıdır. Xüsusilə də məktəbin zəbt edilməsi, orada adamların ölməsi hər bir normal insanı hiddətləndirir. Biz ümid edirik ki, bu böhran tezliklə öz həllini tapacaq, girov saxlanılan insanlar azadlığa buraxılacaqlar.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Beslan şəhərində xüsusi qəddarlıqla törədilmiş amansız terror aktı nəticəsində çoxsaylı insan tələfatından bütün Azərbaycan kədər hissi keçirir.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, dost Rusiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 sentyabr 2004-cü il*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Şimali Osetiyanın Beslan şəhərində törədilmiş dəhşətli terror hadisəsi nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermək üçün sentyabrın 6-da Rusiyanın ölkəmizdəki səfirliyinə getmişdir.*

*Səfirliyin binası qarşısında dövlətimizin başçısını Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Ryabov qarşıladı.*

*Prezident İlham Əliyev səfirlikdə matəm kitabına ürək sözlərini yazdı:*

*« – Beslan şəhərində günahsız insanların həyatına son qoymuş faciə ilə əlaqədar Rusiya xalqına Azərbaycan xalqının dərin hüznlü başsağlığını ifadə edirəm. Azərbaycan Rusiyaya qarşı vəhşi terrorizm aktını qətiyyətlə pisləyir və bu faciəli anlarda Rusiya ilə həmrəy olduğunu bildirir. Hazırda Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı Rusiya rəhbərliyi və Rusiya xalqı ilə birlikdədir.*

*Beynəlxalq terrorizmə qarşı mübarizə yalnız bütün Dünya Birliyi bu bəlanı məhv etmək üçün birgə səylər göstərdikdə səmərəli olacaqdır.*

*Yaralıların tezliklə sağalmasını, həlak olanların yaxınlarına bu faciəyə dözmək üçün səbir və mətanət diləyirəm.*

*Allah rəhmət eləsin!*

***Azərbaycan Respublikasının Prezidenti***
***İLHAM ƏLİYEV***

*6 sentyabr 2004-cü il».*

**N i k o l a y R y a b o v:** Bu kədərə şərik olduğunuza və başsağlığına görə, habelə Azərbaycanın bu faciəli hadisələr zamanı zərər çəkmiş insanlara yardım göstərməyə hazır olmasına görə Sizə, cənab Prezident, təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v**: Biz Rusiya xalqına elə ilk gündən başsağlığı verdik. Bilirik ki, bu faciəyə dözmək çətindir. Azərbaycan terrorizmi və onun bütün təzahürlərini həmişə pisləmişdir və pisləyir. Ən müdafiəsiz və günahsız insanlara qarşı yönəldilmiş dəhşətli terror aktı törədilmişdir. Mən artıq bu gün dedim ki, biz lazımi yardım göstərilməsi məsələsi üzərində işləyirik. Biz Azərbaycanda istənilən sayda uşaq qəbul etməyə və onlara qayğı göstərməyə hazırıq, çünki bu sarsıntıya məruz qalanlara şəraiti dəyişmələri lazımdır. Bu ağır anlarda Azərbaycan Rusiya ilə birlikdədir. Biz, həmişəki kimi, bu gün də birlikdə olmağa, bizdən asılı olan hər şeyi etməyə hazırıq. Bir daha dərin hüznlə başsağlığımızı qəbul edin.

**N i k o l a y R y a b o v:** Cənab Prezident, Sizin dedikləriniz Azərbaycan xalqının qəlbindən gələn sözlərdir.

## XXVIII AFİNA YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞDƏ* NİTQ

*Prezident sarayı*

*4 sentyabr 2004-cü il*

Əziz idmançılar!

Hörmətli xanımlar və cənablar!

Afina Olimpiya oyunları başa çatdı. İdmançılarımız vətənə qayıtdılar. Mən Afina Olimpiya oyunlarında Azərbaycan milli komandasının uğurlu çıxışı münasibətilə sizi ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqı adından sizə öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Azərbaycan idmançıları bu dəfə də bütün dünyaya sübut etdilər ki, onların peşəkarlığı, hazırlığı çox yüksək səviyyədədir. Olimpiya oyunlarında 5 medal qazanmaq hər bir ölkə üçün böyük nailiyyətdir. Xüsusilə, həm əhalisinin sayı nöqteyi-nəzərindən, həm də ərazisinə görə o qədər də böyük olmayan Azərbaycan kimi ölkə üçün bu, böyük nailiyyətdir. Azərbaycan müstəqil dövlət kimi Yay Olimpiya oyunlarında yalnız 1996-cı ildən başlayaraq iştirak edir. Həmin il bir medal, 2000-ci ildə üç medal, bu dəfə isə 5 medal qazanılmışdır. Bu, uğurdur, böyük nailiyyətdir. Əgər nəzərə alsaq ki, digər idmançılarımız da medala çox yaxın idilər və böyük əzmkarlıqla, cəsarətlə mübarizə aparırdılar, onlar dördüncü, beşinci, altıncı yerləri tutdular – bu, Azərbaycanda idmanın yüksək səviyyəsini, idmanda yaşanan tərəqqini göstərir.

Bütün bunlar həm Azərbaycan Respublikasının prezidenti, həm də Milli Olimpiya Komitəsinin prezidenti kimi məni çox sevindirir.

Bilirsiniz ki, artıq yeddi ildir ki, mən idmançılarla bir yerdəyəm, hamımız bir-birimizi çox yaxşı tanıyırıq. Mən hər bir idmançının çıxışları ilə tanışam, onların potensial qabiliyyətini də yaxşı bilirəm, problemləri ilə də maraqlanıram. Biz dəfələrlə beynəlxalq turnirlərdə, Olimpiya oyunlarında, Bakıda keçirilmiş turnirlərdə birlikdə Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışıq.

Mən sizi bu gözəl nəticə münasibətilə bir daha ürəkdən təbrik edirəm və ümidvaram ki, gələcəkdə də Azərbaycan idmanı həmişəki kimi yüksək səviyyədə olacaqdır.

Bu gün çox gözəl görüşdür. Qələbə ilə qayıdan idmançılar yüksək dövlət mükafatları ilə təltif olunacaqlar.

* Görüşdə Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev Azərbaycan yığma komandasının Olimpiya oyunlarında çıxışı və bu oyunların yekunu haqqında məlumat verdi.

## YEKUN NİTQİ

Əziz idmançılar, əziz dostlar!

Bir daha sizi ürəkdən təbrik edirəm. Azərbaycanda idman çox ciddi, cəmiyyətimizin, ictimaiyyətin diqqət mərkəzində olan bir amilə çevrilmişdir. Bunun çox dərin səbəbləri vardır. Azərbaycanda idmana bütün dövrlərdə böyük maraq olmuşdur. Ölkəmiz bütün dövrlərdə öz idmançıları ilə fəxr etmişdir. Əlbəttə, ölkəmiz müstəqil dövlət kimi yaşamağa başladıqdan sonra beynəlxalq idman aləmində də ilk addımlar atılmışdır. Azərbaycan Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin üzvü olmuşdur. Bütün digər beynəlxalq idman federasiyaları ilə əlaqələrimiz yaranmışdır.

Amma heç kim üçün sirr deyil ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə Azərbaycana rəhbərliyə gəlişindən sonra idmana diqqət artırıldı. Baxmayaraq ki, o illərdə ölkəmiz iqtisadi cəhətdən ağır vəziyyətdə yaşayırdı, bütün daxili imkanlar səfərbər olundu və idmana, olimpiya hərəkatına dövlət qayğısı göstərildi. Bu siyasət öz gözəl nəticələrini verdi. Azərbaycan idmançıları müxtəlif beynəlxalq yarışlarda – Avropa və dünya çempionatlarında, Olimpiya oyunlarında qələbələr qazanırlar, ölkəmizi ləyaqətlə təmsil edirlər və Azərbaycanı güclü idman dövlətinə çeviriblər.

Biz hamımız şahidik ki, Azərbaycan idmançıları müxtəlif yarışlardan vətənə qələbə ilə qayıdırlar. Ölkəmizdə son illərdə keçirilmiş müxtəlif beynəlxalq turnirlər, Avropa, dünya çempionatları, bir tərəfdən, ölkəmizdə idmanı daha da populyarlaşdırır, digər tərəfdən, bizə imkan verir ki, gənc idmançılarımız da bu beynəlxalq turnirlərdə və çempionatlarda öz güclərini sınasınlar. Mən çox şadam ki, Azərbaycanda uşaq və yeniyetmə idmanı sürətlə inkişaf edir. Bu olmasa, idmanın inkişafından söhbət gedə bilməz. Çox şadam ki, bizim həm olimpiya yığma komandamız, həm də bütün idman növləri üzrə yığma komandalarımız yerli idmançılardan ibarətdir. Bu onu göstərir ki, bizdə hazırlıq işləri çox sürətlə gedir.

Bu olimpiadada biz bunun şahidi olduq ki, müxtəlif ölkələr xaricdən idmançılar gətirir, onları öz yığma komandalarına daxil edirlər. Ötən Olimpiya oyunları ilə müqayisədə belə hallar bu dəfə daha çox idi. Bu da təbiidir. Amma bu siyasətin də müəyyən dövrü var. O ölkələrdə ki, idman inkişaf etməyib və yaxud yenicə inkişaf edir, onlarda xaricdən dəvət olunmuş idmançılar, ümumiyyətlə, idmanın inkişafına müsbət təsir göstərirlər. Amma o ölkələr ki, artıq dünyada idman ölkələri kimi tanınırlar və onlarda idman sürətlə inkişaf edir, idmanda qələbələr qazanılır, əlbəttə, onlar öz daxili imkanlarına söykənməlidirlər.

Mən çox şadam ki, bizim yığma komandamızda Azərbaycanda yetişmiş, təhsil alan, məşq edən idmançılar mütləq əksəriyyət təşkil edir.

Son illərdə Azərbaycanda idmana rəhbərlik edən bütün qurumlar tərəfindən aparılmış vahid siyasət öz nəticələrini verir. Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, idman cəmiyyətləri, idman federasiyaları – hamımız birlikdə işləyirik. Hamımız daim ünsiyyətdəyik, əlaqədəyik və ölkədə bu sahədə vahid siyasət mövcuddur. Bu da çox nadir hallarda mümkün olur. İndiki Olimpiya oyunlarında da müxtəlif ölkələrin nümayəndələri ilə görüşlərdə bir daha şahid olduq ki, onların bəzilərində nazirliklə Olimpiya Komitəsi və yaxud federasiyalarla nazirlik arasında münasibətlər gərgindir. Əlbəttə, bu, ümumi işə kömək etmir.

Azərbaycan son illər ərzində beynəlxalq idman qurumları ilə çox səmərəli əməkdaşlıq edir. Ölkəmizdə keçirilmiş beynəlxalq yarışlar onu göstərir ki, beynəlxalq federasiyalar və Beynəlxalq Olimpiya Komitəsi tərəfindən Azərbaycana böyük hörmət və inam var, bizim fəaliyyətimiz dəstəklənir. Təsadüfi deyil ki, Azərbaycan, bəlkə də, yeganə ölkədir ki, Olimpiya oyunları ərəfəsində burada üç lisenziya turniri keçirilmişdir. Əlbəttə, bu bizə imkan verdi ki, həm ölkəmizi beynəlxalq idman aləmində daha yaxşı tanıdaq, həm də bu turnirlərdə idmançılarımız daha rahat şəkildə və azarkeşlərin dəstəyi ilə lisenziyalar qazansınlar. Sevindirici haldır ki, Afina Olimpiya Oyunlarında müxtəlif idman növləri üzrə idmançılarımız iştirak ediblər. Səhv etmirəmsə, idmançılarımız 12 idman növü üzrə təmsil olunmuşlar. Bu onu göstərir ki, ölkəmizdə idman hərtərəfli inkişaf edir. Son illər ərzində federasiyalar, idman cəmiyyətləri güclənibdir. Biz Azərbaycanda, bəlkə də, ənənəvi olmayan idman növlərinə də çox böyük diqqət göstəririk və çalışırıq ki, bütün idman növlərini inkişaf etdirək. Bu, düzgün siyasətdir. Çünki Azərbaycanın ənənəvi və idmançılarımızın həmişə fərqləndiyi idman növləri olsa da, biz istəyirik ki, ölkəmizdə idman hərtərəfli inkişaf etsin, hər bir növü yüksək səviyyəyə qalxsın.

İdman eyni zamanda, sağlamlıq, sağlam həyat tərzi deməkdir. Bilirsiniz ki, bu baxımdan Azərbaycan dövləti və Milli Olimpiya Komitəsi böyük işlər aparır. Bu işlərin başlanmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhz onun apardığı siyasətin nəticəsində, onun tövsiyələri ilə Azərbaycan idmanında quruculuq işləri geniş vüsət almışdır. Ölkəmizin bütün bölgələrində yeni, müasir, dünya standartlarına uyğun olan idman qurğuları tikilib istifadəyə verilmişdir.

Biz bunu nə üçün edirik.

Əlbəttə, bir tərəfdən, biz bilirik ki, Azərbaycanın bölgələrində çox istedadlı gənc idmançılar var. Biz istəyirik ki, onlar idmanla məşğul olmaq üçün yaxşı şəraitlə təmin olunsunlar. Digər tərəfdən, bu, sağlamlıq deməkdir. Siz idmançılar bunu yaxşı bilirsiniz ki, idmanla məşğul olduqda insan təkcə fiziki cəhətdən deyil, eyni zamanda,

mənəvi cəhətdən də sağlam olur. İdman həm də nizam-intizam, tərbiyə deməkdir, vətənpərvərlik deməkdir. Bizim üçün bunlar, bəlkə də, idman nailiyyətlərindən daha vacibdir. Azərbaycan gənc dövlətdir, müstəqilliyimizin əldə olunmasından on üç ilə yaxın vaxt keçir. Əlbəttə, biz istəyirik ki, indi yetişən gənc nəsil həm fiziki, həm də mənəvi cəhətdən güclü olsun, dövlətə, millətə sadiq olsun, vətənpərvər olsun. Bu baxımdan, görülən işlər çox böyük məna daşıyır.

Mən qeyd etdim ki, artıq bir çox ölkələrdə idman siyasi, ictimai məna daşıyır. Bu, Azərbaycanda da belədir. Baxın, Azərbaycan bu Olimpiya oyunlarında 5 medala sahib olubdur. Bizim qonşu Ermənistan bir medal da qazana bilmədi. Burada qeyd olundu, 202 ölkədən yalnız 75-i medal qazanmışdır. Azərbaycanın 5 medalı var. Siz də yaxşı bilirsiniz ki, bu medalların sayı daha çox ola bilərdi. Bəzi idmançılarımız medala çox yaxın idi, sadəcə olaraq, müəyyən hallarda hakimlərin ədalətsizliyi, bəzən də bəxtin gətirməməsi buna imkan vermədi. Lakin bu da göstəricidir.

Mən xatırlayıram ki, Azərbaycan ilk dəfə Atlanta Olimpiya oyunlarında müstəqil dövlət kimi təmsil olunanda biz bir medal olacağını da gözləmirdik. O vaxt Namiq Abdullayev bir gümüş medal qazanmışdı və biz hamımız buna çox sevinirdik, bunu qələbə kimi qəbul edirdik. 2000-ci ildə Sidneydəki Olimpiya oyunlarına biz böyük hazırlıq işləri görmüşdük və ümidli idik ki, qələbə qazanacağıq. Amma sözün doğrusu, gözləmirdik ki, üç medal qazanacağıq və onlardan ikisi qızıl olacaqdır. Bu, böyük qələbə idi.

Bu dəfə isə beş medal qazanmışıq. Fərid Mansurov, gənc və istedadlı idmançımız Azərbaycanı ləyaqətlə təmsil etmişdir. O çox güclü rəqiblərlə qəhrəmancasına mübarizə aparmışdır. Onun rəqibləri dünya və olimpiya çempionları olmaqla yanaşı, yaşda da ondan böyük idilər. Gənc idmançımız onların hamısından üstün oldu, onların üzərində qələbə qazandı və Azərbaycanın dövlət himnini səsləndirdi. Fəridin şərəfinə, Azərbaycanın bütün idmançılarının şərəfinə dövlət himnimiz səsləndi. Mən çox sevinirəm ki, Fərid buna nail olmuşdur. Çünki o çox tərbiyəli, mədəniyyətli, peşəkar idmançıdır. Gənc nəslin tərbiyəsi üçün belə nümunələr lazımdır.

Azərbaycanda Fərid kimi güclü vətənpərvərlər, idmançılar vardır. Onlar təkcə idman sahələrində deyil, digər sahələrdə də kifayət qədər çoxdur.

Zemfira Meftahətdinova da öz səviyyəsini təsdiq etdi. Sidneydə o, birinci idi. Bu dəfə isə üçüncü oldu. Əlbəttə, rəqabət də ildən-ilə artır və onun məşğul olduğu idman növü elədir ki, burada birinci yer sonradan beşinci və yaxud onuncu da ola bilər. Çünki burada kiçik bir təsadüfdən çox şey asılıdır. Amma o, bu dəfə də çox yüksək səviyyədə çıxış etdi və ölkəmizə medal gətirdi.

İradənin qələbəsi də bizim üçün çox əziz idi. Çünki bu, birinci medal idi və biz bunu çox gözləyirdik. Bu dəfə İradə yarışlarda ilk çıxışında da medala çox yaxın idi, amma medal qazana bilmədi. İkinci yarışa çıxanda biz əmin idik ki, o bu dəfə medalı əldən verməyəcəkdir. Belə də oldu. Onun qələbəsi bütün komanda üzvlərinə müsbət təsir etdi.

Mən bilirəm ki, bütün komanda üzvləri bu qələbədən sonra ruhlandılar və gələcək qələbələrin təməli qoyuldu.

Boksçularımız Ağası Məmmədov və Fuad Aslanov çox gözəl yarışdılar və çox güclü rəqibləri məğlub etdilər, yüksək kürsüyə qalxdılar. Hesab edirəm ki, bu da çox böyük uğurdur. Sidney Olimpiya oyunlarında boksda bizim bir medalımız var idi. Bu dəfə isə iki oldu. Onu da qeyd etməliyəm ki, Azərbaycan boksçuları çox geniş şəkildə təmsil olunmuşdular, olimpiadada 9 idmançımız iştirak edirdi. Bu da bizdə boksun səviyyəsini göstərir. Xatırlatmaq istəyirəm ki, Azərbaycan boks üzrə müxtəlif yarışlarda da, o cümlədən dünya kuboku uğrunda turnirlərdə həmişə böyük uğurlar qazanıbdır.

Mən medal qazana bilməyən idmançıları da qeyd etmək istəyirəm. Çox sevindirici haldır ki, bu dəfə «Lider» telekanalı vasitəsilə Azərbaycan tamaşaçıları idmançılarımızın çıxışlarını birbaşa izləyirdilər və hamımız görürdük ki, onlar necə çıxış edirlər. Medala yaxın olan idmançılardan cüdoçu Mehman Əzizovu qeyd etmək istəyirəm. Bu onun ikinci olimpiadası idi, çox böyük əzmlə, iradə ilə mübarizə aparırdı və medala layiq idi. Digər cüdoçu Mövlud Mirəliyev də çox gözəl çıxış edirdi və medala çox yaxın idi. Hamımız onun son döyüşdə qalib gəlməsini istəyirdik, amma alınmadı. Əminəm ki, növbəti dəfə o, qələbə qazanacaqdır və buna layiqdir.

Ağırlıqqaldırma növündə Turan Mirzəyev dördüncü oldu. Onun rəqibləri çox güclü idi və ona görə də dördüncü yer çox böyük nəticədir. Mən ümid edirdim ki, Turan yaxşı çıxış edəcək, Sidneydə və Afinada onun çıxışlarını izləyərkən görürdüm ki, bu idmançının böyük potensialı vardır.

Bir vaxtlar idmanı buraxmış və sonradan olimpiya yığma komandasına dəvət olunmuş Rövşən Hüseynov da yaxşı çıxış etdi. O, çox güclü kubalı rəqibinə məğlub oldu, amma medal qazana bilərdi.

Sərbəst güləş idman növündə beşinci yeri tutmuş Rüstəm Ağayev də yaxşı çıxış edirdi, taekvondoçu Rəşad Əhmədov da yaxşı çıxış edirdi və biz onun mübarizəsini böyük həyəcanla izləyirdik. Əslində, o, finalda çıxış etməli idi və bunu yarışı izləyən insanlar yaxşı bilirlər. Onun keçirdiyi yarımfinal görüşündə bərabərlik idi və yalnız hakimlərin qərarı ilə qələbə onun rəqibinə verildi. Amma finala çıxsaydı, ən azı gümüş, bəlkə də qızıl medal qazanacaqdı. Qeyd olunduğu kimi, o həm də zədə ilə çıxış edirdi. Budur Azərbaycan idmançıları!

Mən idmançılarımızın çıxışından çox razıyam. İlk növbədə, beş medal qazanılması böyük uğurdur, böyük nailiyyətdir. Digər tərəfdən, beş idmançının dördüncü, beşinci yerləri tutması da böyük nailiyyətdir. Ən önəmli-

si isə odur ki, komandamızın üzvləri Azərbaycanı ləyaqətlə təmsil ediblər. Onlar böyük iradə ilə, həvəslə yarışıblar. Mən Şahin İmranovu da  qeyd etmək istəyirəm. Onun da bəxti gətirmədi. Mən onun yarışını da izləyirdim və həmin döyüşə baxanlar xatırlayırlar ki, o, 31–21 hesabı ilə irəlidə idi. Yalnız təsadüf nəticəsində, zədə aldığına görə o, yarışdan kənarlaşdırıldı. Şahinə 10 xal fərqi ilə uduzan rəqibi isə sonradan olimpiya çempionu oldu. Yəni, mən deyəndə ki, bəzi hallarda idmançılarımızın bəxti gətirmədi, məhz bunu nəzərdə tuturam.

Medalların sayı çox ola bilərdi və Azərbaycan cəmiyyəti də artıq idmançılarımızın qələbəsinə öyrəşibdir. Bu, Azərbaycanda idmanın səviyyəsinin göstəricisidir. Əgər Sidney Olimpiya oyunları ərəfəsində biz bir-iki medalın həsrətində idiksə, indi daha çox medal arzusundayıq və çox medal da qazandıq. Əminəm ki, gələcəkdə bu medalların sayı daha çox olacaqdır.

Əlbəttə, hər bir ölkədə idmanın inkişafı təkcə Olimpiya oyunları ilə müəyyən edilmir. Qeyd etməliyəm ki, son dörd il ərzində bizim dörd dünya çempionumuz olubdur. Bunlar sərbəst güləş üzrə Arif Abdullayev, taekvondo üzrə Niyaməddin Paşayev, ağırlıqqaldırma üzrə Nizami Paşayev və boks üzrə Ağası Məmmədovdur. Bu da göstəricidir. Yəni, dünya çempionatlarında birinci olmaq, həm də dörd idman növü üzrə qələbə qazanmaq böyük sevincdir.

Mən də bir vətəndaş, prezident kimi, Milli Olimpiya Komitəsinin prezidenti kimi, bütün bu uğurlara sevinirəm. Çox şadam ki, Azərbaycanda idman yüksək səviyyədədir, idmançılarımız gözəl yarışırlar. Onlar bütün yarışlarda ölkəmizi ləyaqətlə təmsil edirlər.

Əziz dostlar, əziz idmançılar!

Mən sizi bu gözəl qələbə münasibətilə bir daha təbrik etmək istəyirəm. Medal qazana bilməyən və yaxud bu Olimpiya oyunlarında öz imkanlarından aşağı səviyyədə çıxış edən idmançılara sözüm budur ki, bundan faciə yaratmaq lazım deyildir. Bu idmandır. Ən güclü idmançı da hansısa səbəbdən yarışlarda qələbə qazana bilmir və heç kim bu idmançını qınamamalıdır. Mən özüm də idmançı olmuşam və siz də idmançısınız. Hamımız bilirik ki, idmanda belə hallar olur. Biz gərək olimpiadada aşağı nəticə göstərən və yaxud heç bir nəticə göstərməyən idmançılara həmişə olduğu kimi, yenə də qayğı ilə yanaşaq. Bir şərtlə ki, onlar buraxdıqları səhvləri düzəltsinlər, özləri üçün nəticə çıxartsınlar və təlim-məşq prosesinə daha məsuliyyətlə yanaşsınlar. Hesab edirəm ki, biz bütün idmançılarımızı qeyd etməliyik. Bizim komandamız Azərbaycanı ləyaqətlə təmsil edibdir, bayrağımızı qaldırıbdır, dövlət himnimizi səsləndiribdir. Bu hər bir azərbaycanlı üçün böyük mükafatdır.

Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun!

* * *

*Sonra Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XXVIII Yay Olimpiya oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə prezident sərəncamı ilə təltif edilmiş idmançılara və onların məşqçilərinə «Şöhrət» ordeni və «Tərəqqi» medalı, habelə pul mükafatları təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev idmançılara və onların məşqçilərinə dövlət mükafatlarını təqdim etdi və onlara uğurlar dilədi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 7–9-da Fransada işgüzar səfərdə olmuşdur.*

*Fransanın və Azərbaycanın dövlət bayraqlarının asıldığı Şarl de Qoll adına beynəlxalq hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Fransa hökumətinin yüksək vəzifəli nümayəndələri, ölkəmizin Fransadakı səfiri Eleonora Hüseynova və digər rəsmi şəxslər qarşıladılar.*

*Dövlətimizin başçısı hava limanından Parisdə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

***

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 7-də Fansa prezidentinin iqamətgahına – Yelisey sarayına gəldi. Burada dövlətimizin başçısının rəsmi qarşılanma mərasimi oldu.*

*Sarayın qarşısında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi respublikamızın rəhbərinə raport verdi.*

*Fransa Respublikasının prezidenti Jak Şirak Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi sarayın önündə səmimiyyətlə qarşıladı.*

*Rəsmi qarşılanma mərasimindən sonra Fransa və Azərbaycan prezidentlərinin təkbətək görüşü oldu.*

## FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Sentyabrın 7-də Yelisey sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ilə Fransa prezidenti Jak Şirak arasında təkbətək görüş oldu.*

*Səmimilik şəraitində keçən görüşdə siyasi, iqtisadi və digər sahələrdə Azərbaycan–Fransa əlaqələrinin sürətlə inkişaf etməsi vurğulandı. Prezident Jak Şirak ölkələrimiz arasında əlaqələrin əla səviyyədə olduğunu bildirdi. Cənab Jak Şirak Fransanın xarici ticarət sahəsində Azərbaycanın üçüncü tərəfdaşı olmasını çox yaxşı göstərici kimi səciyyələndirdi.*

*Söhbət zamanı Azərbaycanın Avropa Birliyinə inteqrasiyası ilə bağlı məsələlərə də toxunuldu, ölkəmizin bu qurumun yeni qonşuluq siyasətinə fəal surətdə qoşulması və bunun perspektivləri geniş müzakirə olundu. Fransa prezidenti gələcəkdə Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığının daha da genişlənəcəyinə ümidvar olduğunu və bunun zəruriliyini vurğuladı.*

*Görüşdə regional problemlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə geniş yer verildi. Fransa tərəfi münaqişənin aradan qaldırılması üçün sülh danışıqlarının davam etdirilməsinə tərəfdar olduğunu, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədri kimi, vasitəçilik missiyasını bundan sonra da həyata keçirəcəyini bildirdi.*

*Dövlət başçıları ikitərəfli münasibətlərin perspektivləri, beynəlxalq məsələlər ətrafında da geniş fikir mübadiləsi apardılar.*

*Görüş başa çatdıqdan sonra Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti İlham Əliyevi xüsusi hörmət və ehtiramla Yelisey sarayının qarşısında avtomobilin yanınadək mehribanlıqla yola saldı.*

*Sentyabrın 7-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Parisdə onun üçün ayrılmış iqamətgahda Fransa Beynəlxalq Əlaqələr İnstitutunun (İFRİ) direktoru Tyerri de Montbiralı qəbul etdi.*

*Prezident İlham Əliyevi bir daha görməsindən çox şad olduğunu söyləyən cənab Tyerri de Montbiral bildirdi ki, Azərbaycan dövlət başçısının Parisə istər rəsmi, istərsə də işgüzar səfəri çox əlamətdar hadisədir.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev hələ Fransaya rəsmi səfəri zamanı bu institutda keçirdiyi görüşdən yaxşı təəssürat aldığını vurğulayaraq dedi ki, ölkələrimiz arasında əlaqələrin inkişafı üçün təkcə dövlət başçıları səviyyəsində deyil, eyni zamanda, müxtəlif təşkilatlar, o cümlədən ali təhsil müəssisələri, diplomatlar səviyyəsində də görüşlərin olması zəruridir.*

*Cənab Montbiral Azərbaycana böyük məhəbbəti olduğunu söyləyərək dedi ki, mən ölkənizin Parisdəki səfirliyi ilə daim əlaqə saxlayıram. İnstitutumuz azərbaycanlı tələbələrin burada təhsil alması ilə bağlı proqram həyata keçirmək niyyətindədir.*

*Görüşdən sonra Fransa Beynəlxalq Əlaqələr İnstitutu adından Azərbaycan dövləti başçısının şərəfinə nahar təşkil olundu.*

## FRANSA SENATININ TELEVİZİYASINA MÜSAHİBƏSİ

*8 sentyabr 2004-cü il*

**M ü x b i r: Cənab Prezident, öncə Sizi salamlamaq istərdik. Sizə minnətdarlığımızı bildirmək istəyirik ki, prezident seçildikdən sonra ikinci dəfədir Fransaya səfər edirsiniz. Biz bundan çox şadıq. Birinci sualımız ondan ibarətdir ki, bu yaxınlarda Şimali Osetiyada girovların götürülməsi hadisəsi baş vermişdir. Bu faciəli hadisə nəticəsində 300-dən çox insan həlak olmuşdur. Ümumiyyətlə, Kremlin bu hadisə zamanı apardığı siyasəti necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Sizin də söylədiyiniz kimi, bu mənim Fransaya ikinci səfərimdir. Birinci dəfə yanvar ayında burada rəsmi səfərdə olmuşam. İndiki səfər isə işgüzar xarakter daşıyır. Bu bir daha onu göstərir ki, Fransa ilə Azərbaycan arasında olan münasibətlər inkişaf edir. Bizim həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə çox gözəl münasibətlərimiz vardır. Bilirik ki, Fransa ilə Azərbaycan arasında olan münasibətlər güclənir və möhkəmlənir.

Azərbaycan özü terrorizmə məruz qalan bir ölkədir. Ölkəmizdə 30-dan çox terror aktı törədilmişdir, bu aktlar nəticəsində 2 mindən çox günahsız insan həlak olmuşdur. Biz yaxşı bilirik ki, terrorizmlə səmərəli mübarizə aparmaq üçün bütün dünya ictimaiyyəti, beynəlxalq aləm öz səylərini birləşdirməlidir. Yalnız bu halda beynəlxalq terrorizmlə mübarizə öz səmərəsini verə bilər. Şimali Osetiyada baş vermiş terror aktı bizi kədərləndirdi. Biz Rusiya hökumətinə və xalqına başsağlığı vermişik, eyni zamanda, öz yardımımızı təklif etmişik. Günahsız insanların, xüsusilə uşaqların həlak olması böyük faciədir.

**S u a l: Bu günlərdə belə bir məlumat əldə edildi və prezident Putin də dedi ki, bu terror aktı beynəlxalq terrorizmin bir elementidir, bunda «Əl-Qaidə» təşkilatının da əli vardır. Bu baxımdan nə deyə bilərsiniz?**

**C a v a b:** Bizim üçün hər hansı bir fikir söyləmək çətindir. Çünki biz məsələnin tam mahiyyətini bilmirik, məlumatı yalnız televiziya ekranlarından, mətbuat vasitəsilə almışıq. Əgər Rusiya hökumətində belə bir məlumatlar varsa, yəqin ki, bunun bir əsası vardır. Amma əsas məsələ bunda deyildir. Əsas məsələ ondadır ki, terrorizm hər bir ölkə üçün təhlükə mənbəyidir. Heç bir ölkə özünü arxayın hesab edə bilməz. Ən güclü ölkə də təkbaşına terrorizmlə mübarizə aparmaqda çətinlik çəkə bilər. Ona görə də mən yenə öz fikrimə qayıdıram ki, biz yalnız və yalnız beynəlxalq səylər nəticəsində terrorizmlə müvəffəqiyyətlə mübarizə apara bilərik.

**S u a l: Cənab Prezident, Siz özünüz də dediniz ki, Azərbaycan vaxtilə terror aktlarına məruz qalmışdır. Belə bir sual vermək istəyirəm ki, bu günlərdə terrorizmə qarşı mübarizə aparmaq üçün Azərbaycan digər ölkələr tərəfindən hər hansı bir yardım alırmı?**

**C a v a b:** Azərbaycanda baş vermiş terror aktları 1990-cı illərin əvvəllərinə təsadüf edir. O vaxt Ermənistanla Azərbaycan arasında müharibə gedirdi və Ermənistanın işğalçı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdi. Ölkəmizə qarşı törədilmiş terror aktları erməni terror təşkilatı «Asala» tərəfindən həyata keçirilmişdir. O vaxt nə Çeçenistan müharibəsi var idi, nə də Nyu-Yorkda terror aktı törədilmişdi. Ümumiyyətlə, beynəlxalq ictimaiyyət bu məsələyə, yəni terroizmə ciddi yanaşmırdı. Biz, demək olar ki, erməni terrorizmi ilə üz-üzə qalmışdıq. Bəlkə də o vaxt beynəlxalq ictimaiyyət, böyük dövlətlər öz mövqeyini, öz etirazını bildirsəydilər, sonrakı terror aktları da baş verməzdi. Bu gün isə Azərbaycanda vəziyyət sabitdir, əmin-amanlıqdır, insanlarımız təhlükəsizlik şəraitində yaşayır.

**S u a l: Biz bilirik ki, Azərbaycanın əhalisinin əsas hissəsi – 90 faizdən çoxu müsəlmandır. Belə bir şəraitdə Siz öz ölkənizin hər hansı bir islam terrorizminin təsiri altına düşməsindən ehtiyat etmirsiniz ki?**

**C a v a b:** Azərbaycan dünyəvi dövlətdir, din dövlətdən ayrıdır. Biz öz siyasətimizi Dünya Birliyinə inteqrasiyada görürük. Azərbaycanın çox qədim tarixi, mədəniyyəti vardır. Xalqımız bəşəriyyətə çox böyük töhfələr vermişdir. Eyni zamanda, biz ümumbəşəri dəyərləri də çox sürətlə mənimsəyirik. Azərbaycanda dini zəmində heç bir problem yoxdur. Milli və dini dözümlülük bizim cəmiyyətimizi səciyyələndirən əlamətlərdən biridir. Azərbaycanda hər hansı bir dini təhlükə də yoxdur. Biz bütün dövlətlərlə yaxşı münasibətlər qurmaq arzusundayıq. Bu siyasət bundan sonra da aparılacaqdır.

**S u a l: Cənab Prezident, Azərbaycan Avropaya sürətlə inteqrasiya edir. Bilmək istəyirik ki, bu siyasət Sizin üçün prioritetdirmi?**

**C a v a b:** Əlbəttə, bizim üçün Avropa strukturlarına inteqrasiya siyasəti prioritet məsələlərdən biridir. Avropa Birliyi ilə çox gözəl münasibətlərimiz vardır. Bu təşkilatın Azərbaycanı yeni qonşuluq siyasətinə daxil etməsi onu göstərir ki, Avropa tərəfindən də Azərbaycana maraq günü-gündən artır. Ölkəmizin coğrafi-siyasi vəziyyəti, təbii ehtiyatları və siyasəti Avropa Birliyi üçün də önəmlidir. Biz bu əlaqələri Fransa, Almaniya, digər Avropa ölkələri ilə həm ikitərəfli formatda genişləndiririk, eyni zamanda, bu münasibətlər Avropa Birliyi çərçivəsində də inkişaf edir.

## PARİSDƏ –FRANSA SENATININ MUZEYİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ ƏSƏRLƏRİNDƏN İBARƏT SƏRGİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ* ÇIXIŞI

*8 sentyabr 2004-cü il*

Fransa Senatının hörmətli Sədri!
Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Fransa Senatının muzeyində Azərbaycan rəssamlarının sərgisinin keçirilməsi ilə əlaqədar hörmətli cənab Sədrə və bu sərginin təşkilində iştirak etmiş bütün dostlarımıza dərin təşəkkürümü bildirirəm.

Bu sərginin keçirilməsi bir daha onu göstərir ki, Fransa ilə Azərbaycan arasında ənənəvi dostluq əlaqələri güclənir, inkişaf edir və bütün sahələri əhatə edir. Ölkələrimiz arasında siyasi əlaqələr çox yüksək səviyyədədir. Eyni zamanda, Fransa və Azərbaycan iqtisadi sahədə də çox səmərəli əməkdaşlıq edirlər. Birgə layihələr həyata keçirilir, ölkələrimiz arasında ticarət dövriyyəsi ildən-ilə artır. Bunlar hamısı göstərir ki, ölkələrimiz bütün sahələrdə bir-birinə yaxınlaşır və gözəl əməkdaşlıq edirlər.

Bu ilin yanvarında mən Fransada rəsmi səfərdə olarkən Senatda cənab Sədrlə görüşmüşdük və çox geniş fikir mübadiləsi aparılmışdı. Bu gün də çox səmərəli söhbətimiz olmuşdur. Biz bir daha əmin olduq ki, ildən-ilə güclənən Fransa–Azərbaycan əlaqələri bu gün də genişlənir və çalışacağıq ki, bütün sahələrdə əməkdaşlığımız daha da səmərəli olsun.

Azərbaycanın Avropa strukturlarına inteqrasiyasında biz daim Fransanın dəstəyini hiss etmişik və bu gün də hiss edirik.

Bu gün burada Azərbaycanın rəssamlıq məktəbinin kiçik bir hissəsi təmsil olunur. Mən çox şadam ki, bizim mədəni əlaqələrimiz də inkişaf edir. Azərbaycanın çox zəngin mədəniyyəti var və biz çox istəyirik ki, Fransa tamaşaçıları bu mədəniyyətlə tanış olsunlar, gələcəkdə belə sərgilərin sayı daha da artsın, insanlarımız bir-birinə daha da yaxın olsunlar. Bu sərginin keçirilməsi bizim xalqlarımızı daha da birləşdirəcəkdir.

Sərginin keçirilməsi münasibətilə bir daha hamınızı təbrik edir və onun təşkilinə görə Fransa Senatına dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Senatın sədri Kristian Ponsöle sərgi ilə tanış oldular, Azərbaycan musiqisini dinlədilər.*

*Sərgidə Azərbaycanın 20 rəssamının, o cümlədən məşhur fırça ustaları Tahir Salahovun, Toğrul Nərimanbəyovun və başqalarının 70-dən çox əsəri nümayiş etdirildi.*

* * *

*Sərgi ilə tanışlıqdan sonra Fransa Senatının sədri Kristian Ponsölenin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə nahar təşkil olundu.*

*Fransa Senatının sədri və Azərbaycan prezidenti naharda çıxış etdilər.*

* Mərasimi Fransa Senatının sədri Kristian Ponsöle açdı.

## ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ İLƏ GÖRÜŞÜ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 8-də Parisdə onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Anri Jakolən ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Fransaya işgüzar səfərinin çox uğurlu keçdiyini və səmərəli danışıqlar apardığını xatırlatdı, ölkələrimiz arasında siyasi, iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirdi. Mədəniyyət sahəsində əməkdaşlığın da genişləndiyini qeyd edən dövlətimizin başçısı Azərbaycan rəssamlarının sentyabrın 8-də Fransa Senatının muzeyində açılmış sərgisinin parislilərin böyük marağına səbəb olduğunu vurğuladı.*

*Azərbaycan prezidenti regiondakı münaqişələrin, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Fransanın səylərini yüksək qiymətləndirdi.*

*Cənab Anri Jakolən Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovla Parisdə keçirdiyi görüş barədə məlumat verərək bildirdi ki, Fransa Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün səylərini davam etdirəcəkdir.*

*Görüşdə bu münaqişənin aradan qaldırılması istiqamətində ATƏT-in Minsk qrupunun səylərinin gücləndirilməsinin zəruriliyi vurğulandı.*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN XANIMI**
**MEHRİBAN ƏLİYEVAYA YUNESKO-nun**
**XOŞMƏRAMLI SƏFİRİ FƏXRİ ADI**
**VERİLMƏSİ MƏRASİMİNDƏ**
**ÇIXIŞLAR**

*Paris*
*YUNESKO-nun iqamətgahı*

*9 sentyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri çərçivəsində sentyabrın 9-da Parisdə – YUNESKO-nun iqamətgahında dövlətimizin başçısının xanımı Mehriban Əliyevaya BMT-nin bu ixtisaslaşmış təşkilatının Xoşməramlı səfiri fəxri adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı iqamətgahın önündə YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, Xoşməramlı səfirlər proqramının rəhbəri xanım Bəsma İrşeid və digər rəsmi şəxslər böyük səmimiyyətlə qarşıladılar.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə YUNESKO-nun Baş direktoru Koişiro Matsuura arasında görüş oldu.*

*Söhbət zamanı Azərbaycanla YUNESKO arasında əməkdaşlığın perspektivləri, həyata keçirilən birgə proqramlar, ölkəmizdə mədəni irsin qorunması, Azərbaycan mədəniyyətinin dünyada layiqincə təbliğ edilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdən sonra Azərbaycan Respublikası prezidentinin xanımı Mehriban Əliyevaya YUNESKO-nun Xoşməramlı səfiri fəxri adının verilməsinə həsr edilmiş mərasim oldu.*

*Mərasimlə YUNESKO-nun Baş direktoru Koisio Matsuura, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva və Azərbaycan prezidjenti İlham Əliyev çıxış etdilər.*

**YUNESKO-nun Baş direktoru**
**Koişiro Matsuuranın çıxışı**

Hörmətli xanım Mehriban Əliyeva!

Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli xoşməramlı səfirlər, xanımlar və cənablar!

YUNESKO evinə xoş gəlmisiniz. Sizin hamınızı YUNESKO-nun iqamətgahında böyük məmnuniyyətlə salamlayıram.

Bu əlamətdar gündə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri xanım Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülür. Bu ad ona şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanılması və inkişaf etdirilməsinə görə təqdim olunur. Mən bu mərasimdə Azərbaycan Respublikasının prezidenti zati-aliləri İlham Əliyevin iştirak etməsindən şərəf duyuram. Həm hörmətli prezidentə, həm də xanımı Mehriban Əliyevaya «YUNESKO evinə xoş gəlmisiniz!» deyirəm. Bu imkandan istifadə edərək zati-aliləri cənab prezidentə dövlət quruculuğu və sosial inkişaf sahəsində əldə etdiyi uğurlara nə qədər heyran olduğumuzu da bildirmək istəyirəm.

Xanım Mehriban Əliyevanın yüksək ada layiq görülməsi təşkilatımızın tarixindəki mühüm bir anda baş verir. Bu təltif onu göstərir ki, mədəniyyət inkişafın tacıdır və tacları bəzəyən bütün ləl-cəvahiratdan daha qiymətlidir.

YUNESKO həmişə mədəniyyəti və inkişafı bir-birindən ayrılmaz hesab edir. Biz iqtisadi inkişafı ayrılıqda nəzərdən keçirmir, inkişaf dedikdə, həm də intellektual səviyyənin yüksəkliyini, ruhi, mənəvi, emosional rahatlığı nəzərdə tuturuq. Bu inkişaf qrupların, icmaların, millətlərin gələcəyi ilə yanaşı, həm də onların tarixlərinin qorunmasını nəzərdə tutur.

Ona görə də burada toplaşmış hörmətli qonaqlara böyük məmnuniyyət hissi ilə xanım Mehriban Əliyevanın Azərbaycanda mədəniyyət sahəsində yorulmaz fəaliyyəti barədə danışmaq istəyirəm. Mən onun mədəni irsin, o cümlədən musiqi irsinin qorunması, musiqi təhsili sahəsində gördüyü işləri xüsusi vurğulamaq istəyirəm. Xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu onun təşəbbüsü ilə 1995-ci ildə yaranmışdır və bu günə qədər uğurla fəaliyyət göstərir.

Musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi xanım Əliyevanın rəhbərlik etdiyi fondun daim diqqət mərkəzində olmuşdur. Təqdirə və hörmətə layiq haldır ki, fondun təşkil etdiyi xeyriyyə konsertləri dinləyicilərə sevinc bəxş etməklə yanaşı, milli mədəniyyətin zəngin ənənələrinin yaşadılmasına da xidmət etmişdir. Fondun səyləri nəticəsində Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi tamamilə təmir olunmuş, minlərlə yeniyetmə və gəncin musiqi aləminə qovuşa bilməsi üçün gözəl şərait yaradılmışdır. İmkansız ailələrdən olan uşaqların bu prosesə cəlb olunması xüsusilə diqqətəlayiq haldır.

Böyük məmnuniyyətlə mən üç dildə nəşr olunan «Azərbaycan–İRS» jurnalını da xatırlatmaq istəyirəm. Xanım Əliyeva bu jurnalda baş redaktor vəzifəsini icra edir. Jurnal Azərbaycanın və eləcə də bütün Qafqaz regionunun tarixi və mədəniyyəti barədə məlumatlar yaymaqla kifayətlənmir, eyni zamanda, bütün dünya xalqlarının adət-ənənələrindən ətraflı bəhs edir.

Bilirəm ki, xanım Əliyeva Azərbaycanda musiqi və şifahi xalq yaradıcılığının yayılmasına böyük önəm verir. Azərbaycan zəngin musiqi və şifahi xalq yaradıcılığı ənənələrinə malikdir. Son illər isə bu sahəyə maraq hədsiz dərəcədə artmışdır.

Musiqinin və musiqi alətlərinin funksiyası yalnız səslərlə bitmir. Bunlar xalqların və millətlərin tarixi yolunu, onların keçirdikləri hissləri, habelə estetik dəyərləri əks etdirir. Təsadüfi deyil ki, bəşəriyyətin mədəni incilərinin qorunması ilə bağlı 2003-cü ildə təşəbbüs irəli sürülərkən cəmi 30 saniyəlik proqrama məhz musiqi fraqmenti daxil edilmişdi.

Bu gün bizimlə bu mərasimdə iştirak edən digər Xoşməramlı səfir xanım Marianna Volqaros bu təşəbbüsü dəstəkləmişdir. YUNESKO üzv ölkələri daim mədəni irsi inkişaf etdirməyə, xüsusilə nadir incilərin qorunub saxlanılmasına xüsusi qayğı göstərməyə çağırır. Keçən il qəbul olunmuş milli-mədəni irsin qorunması ilə bağlı Konvensiya bu yönümdə çox mühüm bir sənəd və xalqları bu istiqamətdə birləşdirən ilk vasitə olmuşdur. Yeni Konvensiya hələ 1972-ci ildə qəbul olunmuş dünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiyaya mükəmməl bir əlavə idi. YUNESKO bu Konvensiyanı tezliklə ratifikasiya etməyi bütün dünya ölkələrinə tövsiyə edir. Biz arzu edirik ki, bu mühüm sənədin müddəalarının yerinə yetirilməsi prosesinə mümkün qədər tez bir zamanda başlanılsın.

Zati-aliləri, xanımlar və cənablar!

Şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunması sahəsindəki yorulmaz səyləri ilə YUNESKO-nun Xoşməramlı səfiri adını qazanan xanım Mehriban Əliyeva təşkilatımızın ideya və məramlarını həyata keçirən digər xoşməramlı səfirlərin sırasına daxil olur. Bu fəxri adı qəbul etdiyinə görə YUNESKO adından ona minnətdarlığımı bildirirəm. Çox şadam ki, YUNESKO-nu və bizim hamımızı narahat edən məsələlərlə bağlı səfirlik missiyasını yerinə yetirməyə razılıq vermişdir. Ümumi məqsədlərimizin həyata keçməsi üçün nüfuzundan istifadə edərək işimizə töhfə vermək üçün göstərəcəyi səylərə görə xanım Mehriban Əliyevaya təşəkkürümüzü bildiririk.

Xanım Əliyeva, böyük məmnuniyyət hissi ilə musiqi mədəniyyətinin inkişafındakı səylərinizə görə Sizə YUNESKO-nun Xoşməramlı səfiri fəxri adını təsdiqləyən diplomu təqdim edirəm. Sizə habelə müvafiq sertifikat da təqdim edir, yeni işinizdə uğurlar diləyirəm. YUNESKO-nun səfirləri ailəsinə daxil olmağınız münasibətilə Sizi bir daha təbrik edirəm.

## YUNESKO-nun Xoşməramlı səfiri
## Mehriban Əliyevanın çıxışı

Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, Xoşməramlı səfir kimi yüksək ada layiq görüldüyümə görə YUNESKO-ya və cənab Matsuura, şəxsən Sizə, öz dərin minnətdarlığımı bildirim.

YUNESKO-nun əsas prinsiplərindən biri dünya mədəniyyətinin nadirliyini gələcək nəsillər üçün qoruyub saxlamaqdan ibarətdir. Mən də öz fəaliyyətimdə bu prinsipi əsas tuturam. Ona görə mənə bu yüksək adın verilməsi mənim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Bu, mədəniyyətlər və sivilizasiyalar arasında, keçmişlə bu gün arasında əlaqə yaratmaq məsuliyyətidir.

Azərbaycanı çox vaxt Qərblə Şərq arasında körpü adlandırırlar. Bu hələ tarixi Böyük İpək Yolu dövründən ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyə malik olması ilə bağlıdır. Azərbaycan özünün çoxəsrlik tarixi boyunca təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də mədəniyyətlərin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır. Mən fəxr edirəm ki, ölkəmizdə tamamilə bənzərsiz bir mədəni məkan yaranmışdır. Biz öz mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünya mədəniyyətinin nümunələrini qəbul edə bilmişik. Bu gün biz müxtəlif xalqların mədəniyyət elementləri ilə milli mədəniyyətimizin tərkib hissəsi arasında oxşarlığın şahidi oluruq. Bu isə heç də təsadüfi deyildir. Belə ki, bu proses-

lərin arxasında öz tolerantlığı, xeyirxahlığı, öyrənib-öyrətmək bacarığı ilə seçilən və mədəniyyətlər arasında körpülər yaradan azərbaycanlıların neçə-neçə nəsli durur.

Azərbaycan Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rostropoviç kimi dünya şöhrətli mədəniyyət xadimlərinin vətənidir. Bu cür şəxsiyyətlərin yetişməsi üçün şərait yarada bilmiş xalqımız, həqiqətən də, böyük xalqdır.

Öz milli mənliyimizi, mədəniyyətimizi qoruyub saxlamaqla yanaşı, biz dünya mədəniyyəti xəzinəsinə 1300 illiyi YUNESKO çərçivəsində qeyd olunmuş "Kitabi-Dədə Qorqud" eposu, şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilmiş Azərbaycan muğamı kimi töhfələr verə bilmişik. Bu gün, yüksək texnologiyalar, qloballaşma və informasiya inteqrasiyası dövründə qeyri-maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri-maddi irsin qorunmasında çox maraqlıdır. Bu məsələdə YUNESKO-nun rolu, şübhəsiz ki, çox böyükdür.

Yeri gəlmişkən, mən YUNESKO tərəfindən qeyri-maddi irsin qorunması haqqında Konvensiyanın qəbul edilməsində cənab Matsuuranın böyük xidmətini vurğulamaq istərdim.

Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bu günə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə xidmət edir. Xoşməramlı səfir kimi, mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir.

Azərbaycan xalqı öz yaddaşını, dilini, musiqisini, eposlar yaratmaq bacarığını bir çox nəsillər boyu yaşada bilmişdir. Bu gün Azərbaycan mədəniyyətinin və incəsənətinin dəyərli nümunələri bütün bəşəriyyətin sərvəti hesab olunur. Mənə bu gün verilən fəxri adı, hər şeydən əvvəl, YUNESKO-nun prinsiplərinə sadiq olmağımın ifadəsi kimi qəbul edirəm. Sizi əmin etmək istəyirəm ki, bu yüksək mükafat məni və başçılıq etdiyim Azərbaycan Mədəniyyətinin Dostları Fondunu mədəni irsimizin qorunması naminə daha böyük səylə çalışmağa sövq edəcəkdir.

Fəaliyyətimə verilmiş bu yüksək qiymətə görə bir daha təşəkkürümü bildirirəm.

Diqqətinizə görə sağ olun.

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Baş direktor!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycanın mədəni həyatında çox mühüm bir gündür. Ölkəmizin nümayəndəsi YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülür. Bu çox əlamətdar bir hadisədir. Çünki bu, mədəni əlaqələrimizin möhkəmlənməsi deməkdir.

Azərbaycan və YUNESKO-nun əməkdaşlığının uzun tarixi vardır. Biz Baş direktorun ölkəmizə səfərini xatırlayırıq. Onun apardığı müzakirələr çox əhəmiyyətli olmuşdur. İndi biz birgə layihələr, proqramlar həyata keçiririk ki, Azərbaycan xalqının mədəni və tarixi irsini qoruyub saxlayaq və təbliğ edək.

Azərbaycanın çox qədim tarixi və zəngin mədəni irsi var. Ölkəmiz dünya mədəniyyətinə çoxlu töhfələr vermişdir. Eyni zamanda, dünya mədəniyyətinin nümunələri də Azərbaycanda geniş təmsil olunmuşdur. YUNESKO ilə qarşılıqlı əməkdaşlıq gələcəkdə bizim daha da yaxınlaşmağımıza kömək edəcəkdir.

Azərbaycan beynəlxalq aləmin bir hissəsi, müstəqilliyini nisbətən yeni qazanmış ölkədir. Əlbəttə, ölkəmizin beynəlxalq birliyə tam inteqrasiyası üçün hələ çox iş görülməlidir. Biz bu istiqamətdə fəal iş aparırıq. Avropa ölkələri ilə, ümumən beynəlxalq qurumlarla həm siyasi, həm iqtisadi, həm də sosial səviyyədə geniş əlaqələrimiz vardır.

Şübhəsiz ki, biz mədəni əməkdaşlıq sahəsində daha çox uğur əldə etməyi də arzulayırıq.

Mən əminəm ki, xanım Mehriban Əliyevanın YUNESKO-nun Xoşməramlı səfiri təyin olunması bu sahədə bizə yardım edəcəkdir. Mehriban xanımın on ilə yaxın bir müddətdə rəhbərlik etdiyi fond mədəniyyətin inkişaf etdirilməsi, mədəni irsin qorunması, xalqımızın ənənələrinin yaşadılmasında mühüm rol oynamışdır. Onun təsis etdiyi jurnal, fondun həyata keçirdiyi müxtəlif layihə və proqramlar ölkəmizdə mədəniyyət və incəsənətin ümumi inkişafına müsbət təsirini göstərir.

Əminəm ki, bu təyinatdan sonra həm Mehriban xanımın, həm də fondun fəaliyyəti beynəlxalq miqyasda daha çox nəzərə çarpacaqdır.

Bu gün mənim üçün ikiqat əlamətdardır. Çünki bu, yalnız Azərbaycan nümayəndəsinin YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülməsi deyil, həm də mənim xanımımın təltif olunmasıdır. Çox şadam ki, onun fəaliyyəti bu cür yüksək qiymətləndirilir və tanınır. Elə bilirəm ki, o, Xoşməramlı səfir adını daşımağa layiqdir. Çünki o həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilibdir. Bu onun xasiyyətinin fərqləndirici cəhətidir. Əminəm ki, bu yeni işdə də fəal çalışacaq və fəaliyyəti ilə ümumi məqsədlərimizə töhfəsini əsirgəmə-

yəcəkdir. Ümumi məqsədlərimiz isə bir-birimizi daha yaxından tanımaq, insanları, mədəniyyətləri tanıtmaq, müxtəlif xalqların və ölkələrin mədəniyyətlərindən bəhrələnməkdir.

Əminəm ki, Mehriban xanım bu vəzifəni səylə yerinə yetirəcək və bu vacib işdə uğurlar qazanacaqdır.

Bu fəxri adın verilməsinə görə YUNESKO-ya bir daha minnətdarlığımı bildirir, yeni səfiri təbrik edir və ona uğurlar arzulayıram.

* * *

*Rəsmi hissədən sonra Mehriban xanım Əliyevaya Xoşməramlı səfir fəxri adı verilməsi münasibətilə qəbul təşkil edildi.*

*Daha sonra mərasim iştirakçıları Mehriban Əliyevanın fəaliyyətinə həsr olunmuş jurnalla, habelə xalqımızın adət və ənənələri, məişəti barədə məlumatları əks etdirən guşə ilə tanış oldular.*

* * *

*Sentyabrın 9-da Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Fransaya işgüzar səfəri başa satdı.*

*Parisin Şari de Qoll hava limanında dövlətimizin başçısını Fransa hökumətinin yüksək vəzifəli şəxsləri, Azərbaycanın Fransadakı səfiri Eleonora Hüseynova yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün gecə Bakıya qayıtdı.*

* * *

*Sentyabrın 10-da Prezident sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının geniş iclası keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının üzvlərinə xarici ölkələrə – Almaniyaya və Fransaya səfərləri barədə ətraflı məlumat vermişdir. Dövlətimizin başçısı həmin səfərlər çərçivəsində olmuş görüşlərin və aparılmış danışıqların səmimiyyət və qarşılıqlı anlaşma şəraitində keçməsini razılıqla vurğulamışdır.*

*Sonra Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlar barədə Xarici İşlər naziri Elmar Məmmədyarovun məruzəsi dinlənilmişdir.*

*İclasda daha sonra ölkədə ictimai-siyasi vəziyyətlə bağlı ətraflı fikir mübadiləsi aparılmış, «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Azərbaycan Prezidentinin 2003-cü il 24 noyabr tarixli fərmanının və «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004–2008-ci illər)» həyata keçirilməsinin gedişi, xüsusilə yeni iş yerlərinin açılması ilə əlaqədar görülən tədbirlər barədə məlumatlar dinlənilmiş, qarşıda duran vəzifələrdən bəhs olunmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasa yekun vurmuşdur.*

## BƏRDƏ RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞDƏ NİTQ

*11 sentyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev birbaşa Bərdə rayonundakı Türk «Qızıl Ay» çadır şəhərciyinə, burada müvəqqəti məskunlaşmış Ağdam, Laçın və Kəlbəcər rayonlarından olan məcburi köçkünlərlə görüşə gəldi.*

Əziz xanımlar və cənablar!
Əziz dostlar!
Bu gün mənimlə görüşə gəldiyinizə görə sizə öz minnətdarlığımı bildirirəm.

Mən seçkilərdən əvvəl burada olarkən sizlərlə görüşmüşdüm. O vaxt prezident seçkiləri ərəfəsi idi. Sizə də, bütün Azərbaycan xalqına da söz vermişdim ki, əgər mənə etibar göstərilərsə, Heydər Əliyevin yolu ilə gedəcəyəm, onun siyasətini davam etdirəcəyəm. Sizə deyə bilərəm ki, seçkilərdən keçən bu dövr ərzində Azərbaycan bütün istiqamətlərdə uğurla inkişaf edir. Xarici siyasətimiz uğurla aparılır. Azərbaycan beynəlxalq təşkilatlarla öz əlaqələrini gücləndirib, dünyada daha da möhkəm mövqelərə malik olubdur. İkitərəfli formatda böyük dövlətlərlə səmərəli əlaqələrimiz var. Bu da bizə imkan verir ki, beynəlxalq aləmdə öz sözümüzü daha da qətiyyətlə deyə bilək.

Ölkə daxilində gedən proseslər də çox müsbətdir. Gördüyünüz kimi, sosial-iqtisadi inkişaf proqramının qəbul edilməsi Azərbaycanda iqtisadiyyatın inkişafına yeni təkan vermişdir. Yeni iş yerləri sürətlə açılır və sizə deyə bilərəm ki, son müddət ərzində 70 minə qədər yeni iş yeri yaradılıbdır. Onların da 50 mini daimi iş yeridir. Bütün digər istiqamətlərdə də bizim nailiyyətlərimiz göz qabağındadır.

Ölkədə ictimai-siyasi sabitlik mövcuddur. Hamı birlik nümayiş etdirir və hamımız çalışırıq və bundan sonra da çalışacağıq ki, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemini həll edək.

Mən bir il bundan əvvəl burada olarkən söz vermişdim ki, bundan sonra da mənim fəaliyyətimin əsas istiqaməti qaçqınların, məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı olacaqdır. O günə qədər ki, torpaqlarımız azad olacaq, gərək biz qaçqınların şəraitini yaxşılaşdıraq. Bu məqsədlə müvafiq fərmanlar, sərəncamlar verildi və bildiyiniz kimi, yeni müasir evlər tikiləcək, qəsəbələr salınacaqdır. Bu istiqamətdə işlər aparılır. Mən söz vermişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq, bütün çadır şəhərcikləri ləğv ediləcək və onların əvəzinə yeni, müasir binalar, qəsəbələr, məktəblər, tibb məntəqələri tikiləcəkdir.

Keçən il mən Biləsuvar rayonunda böyük bir qəsəbənin açılışında iştirak etmişdim. Orada məskunlaşmış qaçqınlar, köçkünlər, bizim bacılarımız, qardaşlarımız yeni şəraitlə, yeni infrastrukturla təmin olunublar. Bizim məqsədimiz odur ki, ümumiyyətlə, Azərbaycanda hər bir insan yaxşı yaşasın, hər bir vətəndaş ildən-ilə daha da yaxşı yaşasın. Əlbəttə, gərək ilk növbədə, ən ağır vəziyyətdə yaşayan qardaşlarımız, bacılarımız bu şəraitlə təmin olunsunlar.

Azərbaycan Dövlət Neft Fondundan vəsait ayrılıbdır və bunun hesabına yeni qəsəbələr tikiləcəkdir. Amma, əlbəttə, bu, məsələnin müvəqqəti həllidir. Biz əminik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, Qarabağ torpağı işğalçılardan azad olunacaqdır. Bu istiqamətdə də böyük işlər aparılır.

Bilirsiniz ki, biz bunu sülh yolu ilə həll etmək istəyirik. Amma onlar bunu istəmirlər. Müharibə böyük bəladır, müharibə humanitar fəlakət deməkdir. Ona görə çalışırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Nə vaxta qədər ki, buna bizim inamımız olacaq, biz sülh danışıqlarını davam etdirəcəyik. Əgər görsək ki, daha sülh danışıqlarının aparılmasının mənası yoxdur, onda Azərbaycan xalqı birləşərək öz doğma torpaqlarını bütün başqa yollarla azad edəcəkdir.

Bunu etmək üçün bir neçə amillər lazımdır və bunların da hamısı, demək olar, Azərbaycanda var. Vətənpərvərlik ruhu çox yüksək səviyyədədir. Mən çox istəyirəm ki, bizim gənc nəslimiz məhz vətənpərvərlik ruhunda tərbiyə edilsin. Azərbaycanda milli vətənpərvərlik var. Hamı iqtidarla yekdildir, hamı iqtidarın yeritdiyi siyasəti dəstəkləyir. Bu da çox gözəl amillərdən biridir.

Azərbaycanda iqtisadiyyat güclənir. Bizim iqtisadi potensialımız ildən-ilə artır. Bu da, öz növbəsində, imkan verəcək ki, bütün sahələrdə, o cümlədən ordu quruculuğunda bir çox böyük işləri görək. Sizə deyə bilərəm ki, bu istiqamətdə işlər aparılır. Bu yaxınlarda Azərbaycanın dövlət büdcəsinə əlavələr edildi və orduya, müdafiə məqsədlərinə ayrılan vəsaitin həcmi nəzərəçarpacaq dərəcədə artırıldı. Gələn ilin büdcəsində ordu quruculuğuna daha böyük həcmdə vəsait nəzərdə tutulacaqdır. Bu da imkan verəcək ki, biz ordumuzu daha da gücləndirək, daha da müasirləşdirək. Bütün bu işlər aparılır.

Mən gələcəyə böyük nikbinliklə baxıram. Mən Azərbaycanı bir neçə ildən sonra zəngin, inkişaf etmiş, çox güclü dövlət kimi görmək istəyirəm və əlimdən gələni edəcəyəm. Azərbaycan artıq bölgədə çox mühüm mövqeyə malikdir, burada aparıcı dövlətə çevrilib, bizimlə hesablaşırlar. Azərbaycanın sözü daha da dəyərlidir. Mən heç şübhə etmirəm ki, ən çətin problemə – Ermənistanın Azərbaycan torpaqlarını iğşal altında saxlamasına son qoyulacaq, bu məsələni müsbət həll edəcəyik. Azərbaycan xalqı birdir, bu məsələni həll edəcəkdir. Siz öz doğma torpaqlarınıza qayıdacaqsınız, mən də gələcəyəm, sizinlə birlikdə orada olacağam.

Əziz dostlar, sizə bir daha öz dərin hörmətimi bildirirəm. Qaçqınlar, köçkünlər uzun illərdir çətin şəraitdə yaşayırlar. Biz istəyirik ki, bu şəraiti yüngülləşdirək. İstəyirik əlimizdən gələni edək ki, bu şərait daha da yaxşı olsun. Müvəqqəti olsa belə, yenə də yaxşı şəraitdə yaşayasınız. Bu istiqamətdə səylərimizi davam etdirəcəyik. Əminəm ki, bundan sonra görüşlərimiz daha da çox olacaqdır. Bilirsiniz ki, demək olar, bütün bölgələrə etdiyim səfərlərdə qaçqın-köçkünlər harada məskunlaşıbsa, onlarla görüşürəm və bundan sonra da görüşəcəyəm. Sizə cansağlığı, xoşbəxtlik, əmin-amanlıq arzulayıram. Sağ olun.

## BƏRDƏ ŞƏHƏRİNDƏ AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*11 sentyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev məcburi köçkünlərlə görüşdən sonra Bərdə şəhərində görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan orta məktəbin təntənəli açılış mərasimində oldu.*

*Yeni istifadəyə verilən məktəb binasının önündə akademik Zərifə Əliyevanın heykəli ucaldılmışdır. Heykəlin müəllifi Azərbaycanın xalq rəssamı akademik Ömər Eldarovdur.*

Əziz bərdəlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl məktəbin açılışı münasibətilə təbrik edirəm.

Bu məktəb görkəmli elm xadimi, gözəl həkim Zərifə Əliyevanın adını daşıyır. Mənim üçün ikiqat xoşdur ki, qədim Qarabağ torpağında Zərifə Əliyevanın adını daşıyan məktəb vardır, onun heykəli ucaldılıbdır. Zərifə Əliyeva böyük alim, çox peşəkar həkim idi. Amma eyni zamanda o, xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat yoldaşı, onun sirdaşı, mənim isə anam idi. Mən sizə öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Bu məktəb çox yüksək səviyyədə tikilib və bütün müasir standartlara cavab verir. Əminəm ki, burada uşaqlar ən yüksək səviyyədə təhsil alacaqlar. Ümumiyyətlə, Azərbaycanda hər şey yüksək səviyyədə olmalıdır. Xüsusilə yeni məktəb və xəstəxana binaları ən yüksək səviyyədə inşa olunmalıdır. Əminəm ki, bu məktəbdə oxuyacaq uşaqlar və dərs deyəcək müəllimlər bu təhsil ocağının qədrini biləcəklər. Burada ən yaxşı şərait yaradılıb, məktəbə gözəl, müasir avadanlıq verilibdir.

Bildiyiniz kimi, Azərbaycanda təhsilə böyük diqqət göstərilir. Təhsil bilik, elm, tərəqqi deməkdir. Hər bir dövlət, hər bir xalq öz təhsilini daha da təkmilləşdirməyə çalışmalıdır. Bu istiqamətdə Azərbaycanda da işlər aparılır. Bilirsiniz ki, bu yaxınlarda müvafiq fərmanlar verilib, əminəm ki, bunlar gələcəkdə təhsilin inkişafına güclü təkan olacaqdır. Onu da qeyd etməliyəm ki, ölkəmizdə büdcənin 20 faizi təhsilə ayrılır. Yəni büdcədən ən çox bu sahəyə vəsait yönəldilir. Bu təbiidir. Çünki təhsil bizim gələcəyimizdir. Uşaqlarımızın tərbiyə olunması, vətənpərvərlik ruhunda böyüməsi çox mühüm amildir. Eyni zamanda bizim gənc nəslimiz bilikli, savadlı olmalı, dünyada baş verən bütün yeniliklərə bələd olmalıdır. Təsadüfi deyil ki, bu yaxınlarda təhsilimizin daha sürətlə inkişafı istiqamətində atılan növbəti addım Azərbaycan məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının təsdiq edilməsi olmuşdur. Üç il ərzində 4 min 500-dən çox məktəb kompüter avadanlığı ilə təchiz ediləcək, internetə qoşulacaq və Azərbaycanın hər bir təhsil ocağında şagirdlər kompüterdən istifadə edəcəkdir. Bu, təhsilimizdə bir inqilab olacaqdır. Çünki qonşu dövlətlərdə, regionun digər ölkələrində bu məsələ öz həllini bu səviyyədə tapmamışdır.

Azərbaycanda isə 2005–2007-ci illər ərzində bütün ümumtəhsil məktəbləri belə gözəl şəraitlə təmin olunacaqdır.

Bu onu göstərir ki, Azərbaycan sürətlə inkişaf edir. Ölkəmiz həm iqtisadi potensialını gücləndirir, həm də sosial məsələlərə, təhsilə böyük diqqət yetirir. Əlbəttə ki, bu da bizim iqtisadi gücümüzlə bağlıdır. Əgər iqtisadiyyat inkişaf etməsə, məktəblərin tikintisinə, digər sosial proqramların həyata keçirilməsinə də imkan olmayacaqdır.

Onu da qeyd etməliyəm ki, Azərbaycanda belə böyük sayda məktəblərin tikilməsinə bir neçə il bundan əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır. İndi, demək olar ki, Azərbaycanın hər bir bölgəsində məktəblər tikilir və bu proses sürətlə davam edir. Əminəm ki, bu istiqamətdə atılacaq bütün addımlar bir məqsədə xidmət edəcəkdir: Azərbaycan dövləti daha da güclənməli, öz potensialını bütün sahələrdə, iqtisadiyyatda, siyasətdə, elmdə, mədəniyyətdə, təhsildə daha da inkişaf etdirməlidir. Mən çox şadam ki, Azərbaycan çox sürətlə inkişaf edir. Ölkəmizdə nəzərdə tutulan bütün proqramlar öz uğurlu həllini tapır. İqtisadi inkişaf baxımından sürətlə irəliləyirik. Bildiyiniz kimi, bu yaxınlarda regionların sosial-iqtisadi inkişaf proqramı qəbul edilmişdir. Bu proqram da uğurla həyata keçirilir. Yeni iş yerlərinin açılması istiqamətində böyük işlər görülmüşdür. 50 mindən artıq daimi və 20 min mövsümi iş yerləri açılmışdır. Bərdə rayonunda da bu istiqamətdə böyük işlər aparılır, yeni iş yerləri açılır, müəssisələr fəaliyyətə başlayır. Bu, böyük bir göstəricidir. Bu onu göstərir ki, Azərbaycan hərtərəfli inkişaf edir. Bizim məqsədimiz də məhz bundan ibarətdir. Mən seçkilərdən əvvəl etdiyim çıxışlarda və verdiyim bəyanatlarda vurğulayırdım ki, məqsədimiz ölkəni hərtərəfli inkişaf etdirmək, təkcə Azərbaycanın paytaxtını deyil, hər bir şəhəri, rayonu, qəsəbəni inkişaf etdirməkdir. Bu istiqamətdə böyük işlər aparılır. Bildiyiniz kimi, artıq rayonlarda da böyük canlanma var, insanlar həvəslə işləyirlər. Yeni iş yerləri, müəssisələr, fabriklər, təhsil ocaqları açılır. Azərbaycanın büdcəsi ildən-ilə artır. Gələn ilin büdcəsində də artım nəzərdə tutulur və ilk növbədə, bu vəsait sosial məsələlərin həllinə yönəldiləcəkdir. Çünki bizim məqsədimiz həm də ondan ibarətdir ki, insanlarımız daha yaxşı yaşasınlar, işlə təmin olunsunlar, yüksək maaş alsın-

lar. Bir sözlə, Azərbaycanda insanların həyat səviyyəsi günü-gündən yaxşılaşmalıdır. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq.

Bilirsiniz ki, son zamanlar görülən tədbirlər nəticəsində büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əmək haqları artırılmışdır. Bu siyasət bundan sonra da aparılacaqdır. Azərbaycan vətəndaşı ildən-ilə daha yaxşı yaşayacaq, daha yaxşı şəraitlə təmin olunacaqdır. İnkişaf məhz bundadır. Əlbəttə, Azərbaycanın iqtisadi göstəriciləri çox yaxşıdır, mən rəqəmlərlə sizi yormaq istəmirəm. Amma beynəlxalq iqtisadi aləmdə bu rəqəmlər böyük rəğbətlə qarşılanmışdır. Hərçənd ki, bu rəqəmlər adi həyatda vətəndaşlara heç nə demir. Dəyişikliklər gündəlik həyatda olmalıdır. İnsanların həyat səviyyəsi yaxşılaşmalıdır. Hökumət bu istiqamətdə işlər görür və bundan sonra da görəcəkdir. Onu da deməliyəm ki, bu siyasəti daha uğurla aparmaq üçün xalqın dəstəyi lazımdır. Bu dəstək var və biz bunu hiss edirik. Mən hələ bir il əvvəl bunu Azərbaycanın bölgələrinə, o cümlədən Bərdəyə səfərimdə də görmüşəm. Bu mənə güc verir, məni ruhlandırır, islahatları daha cəsarətlə aparmağa imkan verir.

Bilirsiniz ki, Bərdənin Azərbaycanda xüsusi yeri vardır. Bərdə Azərbaycanın qədim şəhəridir, Qarabağımızın mərkəzidir. Bütün dövrlərdə burada yaşayan insanlar Azərbaycan dövlətçiliyinə, vətənimizə sadiq olublar, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparıblar. Bu gün də Bərdə sürətlə inkişaf edir. Bu qədim torpağın Azərbaycan üçün dəyəri artır. Mən çox şadam ki, Bərdədə böyük işlər görülür, problemlər öz həllini tapır. Bilirsiniz ki, mən Milli Olimpiya Komitəsinin prezidenti kimi, Bərdədə yeni olimpiya kompleksinin tikilməsində iştirak etmişdim. Bir il bundan əvvəl biz onun açılışını etdik və həmin tədbirdə mən söz vermişdim ki, burada üzgüçülük hovuzu da tikiləcəkdir. Biz bu gün onun da açılışını edəcəyik. Yeni məktəbin tikiləcəyi barədə də söz vermişdim və indi bu məktəb göz qabağındadır.

Demək istəyirəm ki, hər bir insan, xüsusilə rəhbər vəzifədə çalışan şəxs verdiyi sözə sadiq olmalıdır. Hər bir rəhbərin gücü xalqın ona olan münasibətidir, ona inamıdır. Mən də öz həyatımda həmişə çalışmışam və çalışıram ki, verdiyim sözə daim sadiq olum, vədimə əməl edim. Bu gün də gördüyüm işlər haqqında sizin qarşınızda hesabat verirəm. Bu hesabat da göz qabağındadır. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Bərdəyə həmişə xüsusi münasibət olmuşdur. O, Azərbaycanda çalışdığı dövrdə, demək olar ki, hər il Bərdəyə gəlirdi, problemlərlə, xüsusilə kənd təsərrüfatı məsələləri ilə məşğul olurdu. Mən də çalışıram ki, bu ənənəyə sadiq olum. Mən dəfələrlə Bərdədə olmuşam və bundan sonra da gələcəyəm.

Mən Bərdəyə gələrkən burada məskunlaşmış qaçqın-köçkünlərlə görüşüm oldu. Bilirsiniz ki, Azərbaycan üçün, dövlətimiz üçün ən ağrılı problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın işğal altında qalmasıdır. Biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Danışıqlar gedir. Bilirsiniz ki, bu danışıqlar bir müddət dayanmışdı və onların davam etdirilməsində problemlər yaranmışdı. Çünki uzun müddət aparılmış danışıqların heç bir nəticəsi yoxdur, bu məsələ ilə məşğul olan vasitəçilərin fəaliyyəti isə qənaətbəxş sayıla bilməz. Çünki ortalıqda nəticə yoxdur. Biz çalışırıq ki, dünyada, beynəlxalq təşkilatlarda, bu məsələ ilə məşğul olan ölkələrin yüksək dairələrində problemə ədalətli yanaşma olsun. Ədalətli yanaşma o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Biz bütün dövlətlərin ərazi bütövlüyünü tanıyırıq və tələb edirik ki, Azərbaycanın da ərazi bütövlüyü tanınsın. Dağlıq Qarabağ və onun ətrafında yerləşən ərazilər qədim Azərbaycan torpağıdır. Bilirsiniz ki, ermənilər XIX əsrin əvvəlində bu torpağa qonaq kimi gəlmişdilər. Amma sonralar onların işğalçı siyasəti nəticəsində və o vaxt sovet rəhbərliyinin birbaşa dəstəyi ilə bu torpaqlar erməni işğalına məruz qaldı.

Bəzən kompromislər haqqında təkliflər səslənir, ideyalar irəli sürülür. Əlbəttə, kompromis hər bir razılaşmada öz əksini tapa bilər. Amma mən dəfələrlə demişəm və bu gün də deyirəm ki, Azərbaycanın ərazi bütövlüyü məsələsində heç bir kompromisdən söhbət gedə bilməz. Bizim torpağımız azad edilməlidir, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Biz istəyirik bunu sülh yolu ilə həll edək. Biz sülh istəyirik. Azərbaycan xalqı müharibədən çox əziyyət çəkibdir. Heç kim müharibə olmasını istəmir. Ona görə də sülh danışıqlarını davam etdiririk.

Amma torpaqlarımızın hərb yolu ilə azad edilməsinə də hər an, hər dəqiqə hazır olmalıyıq. Bu məqsədlə Azərbaycanda böyük ordu quruculuğu işləri aparılır, orduya diqqət artırılır. Orduya ayrılan vəsait artırılır və çox böyük proqramlar həyata keçirilir. Ordumuz çox güclüdür və qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Məqsədimiz bunu daha da gücləndirməkdir. Azərbaycanın iqtisadi potensialı Ermənistanın iqtisadiyyatından bir neçə dəfə üstündür. Heydər Əliyev tərəfindən təməli qoyulmuş iri layihələr həyata keçirildikcə, Azərbaycan öz iqtisadi potensialını daha da gücləndirəcəkdir. Bir-iki ildən sonra Ermənistanla Azərbaycan arasında iqtisadi uçurum daha da genişlənəcəkdir. Bizim ölkəmiz inkişaf edir, dünyada mövqelərini daha da möhkəmləndirir, regional məsələlərdə həlledici rol oynayır. İqtisadi məsələlər öz həllini tapır və bu çox sevindirici haldır. Qarşı tərəf isə beynəlxalq cəhətdən təcrid olunubdur. Bir sözlə, mən əminəm ki, gələcəkdə də qarşımızda duran bütün məsələlər öz həllini tapacaqdır.

Azərbaycanın mövqeləri siyasi sahədə də güclənir. Böyük dövlətlərlə, beynəlxalq təşkilatlarla ikitərəfli münasitbətlərimiz inkişaf edir və möhkəmlənir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi də öz ədalətli həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Əziz bacılar və qardaşlar, bu gözəl məktəbin açılışı münasibətilə bir daha sizi ürəkdən təbrik edirəm, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Rəsmi hissədən sonra prezident İlham Əliyev akademik Zərifə Əliyevanın adını daşıyan orta məktəbin açılışını bildirən lenti kəsdi.*

*Sonra prezident İlham Əliyev məktəbin sinif otaqları, kitabxanası, laboratoriyası, idman zalı, bufet-yeməkxanası ilə yaxından tanış oldu.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Bərdə şəhərində yeni tikilmiş üzgüçülük hovuzunun açılış mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşmış minlərlə şəhər sakini, idmançılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Dövlətimizin başçısı gənc idmançılarla görüşdü, problemləri ilə maraqlandı, tövsiyələrini verdi və onlara uğurlar arzuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev üzgüçülük hovuzunun rəsmi açılışını bildirən qırmızı lenti kəsdi, yeni idman qurğusu ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 2004-cü il fevralın 11-də təməli qoyulmuş bu idman qurğusunun ümumi sahəsi 1600 kvadratmetr, hovuzun uzunluğu 25, eni 12,5, dərinliyi 1,4–1,6 metrdir. Binanın zirzəmisində hovuzun kommunikasiya sistemi yerləşdirilmişdir.*

*Burada idmançılar üçün hər cür şərait yaradılmışdır. Həkim, məşqçi, iştirahət və xidmət otaqları vardır. Bir saat ərzində hovuzdan 50 nəfər istifadə edə bilər.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, bacarıqlı idmançıların yetişdirilməsində hovuzun əhəmiyyətini vurğuladı və öz xeyir-duasını verdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev üzgüçülük hovuzunun açılışından sonra «Bərdə Yağ-Pendir» Açıq tipli Səhmdar Cəmiyyətinə gəldi. Burada respublikamızın rəhbərini səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ASC-nin süd emalı sexinin sutkalıq gücü 25–30 tondur. Hazırda gündə 5 ton süd qəbul olunur, müxtəlif növdə pendir, habelə qatıq, xama, ayran, kərə yağı, kəsmik və cürbəcür çeşiddə dondurmalar buraxılır.*

*Müəssisədə ət məhsulları da istehsal olunur. Bu istehsal sahəsinin sutkalıq gücü bir tondur. Hələlik isə gün ərzində 300 kiloqram müxtəlif kolbasalar və sosiska istehsal edilir. Müəssisədə 50 yeni iş yeri açılmış, xammala olan tələbatı ödəmək üçün min nəfərdən çox sahibkarla müqavilə bağlanmışdır.*

*Azərbaycan prezidenti müəssisədə görülən işləri yüksək qiymətləndirərək tövsiyələrini verdi, belə istehsal obyektlərinin yaradılmasının əhəmiyyətini vurğuladı.*

* * *

*Sentyabrın 11-də Bərdədə ümummilli lider Heydər Əliyevin xatirəsinə yaradılacaq muzeyin binasının təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Prezident İlham Əliyev tikinti sahəsi ilə tanış oldu, muzey binasının təməlinə ilk betonu tökdü.*

*Sonra dövlətimizin başçısı rayon icra hakimiyyətinin binasına gəldi və burada Heydər Əliyev muzeyi binasının maketi ilə tanış oldu. Prezidentə məlumat verildi ki, üç mərtəbədən ibarət olacaq binanın ümumi sahəsi 1000 kvadratmetrə yaxındır. Binanın ətrafında istirahət zonası, park salınacaqdır. Tikinti işlərini dörd aya başa çatdırmaq nəzərdə tutulur. Bu muzey qədirbilən bərdəlilərin müasir Azərbaycan dövlətinin banisi, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə sonsuz ehtiramının daha bir təcəssümü olacaqdır.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Bərdəyə səfərinin sonunda «Qarabağ-Pambıq» Açıq tipli Səhmdar Cəmiyyətində oldu.*

*Müəssisənin həyətinə toplaşanlar dövlətimizin başçısını hərarətlə, mehribanlıqla qarşıladılar.*

*Prezident İlham Əliyev müəssisənin iş fəaliyyəti ilə maraqlandı. Respublikamızın rəhbərinə 2004-cü ildə nəzərdə tutulan pambıq tədarükü və emalı haqqında ətraflı məlumat verildi.*

*Dövlətimizin başçısı müəssisənin fəaliyyətinin genişləndirilməsi, yeni sahələrin yaradılması barədə tövsiyələrini söylədi, kollektivə işlərində uğurlar arzuladı.*

## JURNALİSTLƏRİN SUALLARINA CAVAB

**S u a l: Cənab Prezident, Bərdəyə səfərinizi regionların sosial-iqtisadi inkişafına dövlət qayğısının məntiqi davamı kimi qiymətləndirmək olarmı?**

**C a v a b:** Bəli. Azərbaycanın hər tərəfi, hər bir bölgəsi inkişaf etməlidir, yeni müəssisələr, fabriklər, iş yerləri, təhsil ocaqları açılmalıdır. Çox şadam ki, bu gün açılışında iştirak etdiyimiz məktəb də yüksək səviyyədə istifadəyə verilibdir. Üzgüçülük hovuzu da açılıbdır. Bilirsiniz ki, prezident seçkilərindən əvvəl Bərdədə olarkən söz vermişdim ki, burada həm üzgüçülük hovuzu, həm də yeni məktəb tikiləcək və mən onların açılışına gələcəyəm. İndi çox şadam ki, bütün nəzərdə tutduğumuz planlar həyatda öz əksini tapmışdır. Bu da, əlbəttə ki, Bərdəyə həm yaraşıq verəcək, həm də uşaqlar və yeniyetmələr, böyüklər bu obyektlərin bəhrəsini görəcəklər.

**S u a l: Cənab Prezident, Fransada Jak Şirakla və ATƏT-in Minsk qrupunun fransalı həmsədri ilə keçirdiyiniz görüşdə Dağlıq Qarabağ münaqişəsi müzakirə mövzusu oldu. Bundan sonrakı görüşlər, danışıqlar hansı istiqamətdə aparılacaq?**

**C a v a b:** Gündəlikdə, əlbəttə ki, münaqişənin nizamlanması məsələsi durur. Bilirsiniz ki, danışıqlar aparılır, xarici işlər nazirlərinin görüşləri artıq ənənəvi xarakter alıbdır. Bir dəfə sizin sualınıza cavab verərkən demişdim ki, danışıqlar konkret mövzular ətrafında aparılır. Bizim mövqeyimiz dəyişməz olaraq qalır – Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bundan sonra başqa məsələdən söhbət gedə bilər. Fransada da Azərbaycanın mövqeyi cənab Jak Şiraka bir daha çatdırıldı, bu məsələ ətrafında fikir mübadiləsi aparıldı.

**S u a l: Cənab Prezident, Ermənistan hərbçilərinin Bakıya gəlməsi gözlənilir və yəqin bilirsiniz ki, Azərbaycan cəmiyyətində bununla bağlı narahatçılıq var. NATO bayrağı altında Bakıda keçirilən tədbirlərdə erməni zabitlərinin iştirakına Sizin münasibətiniz necədir?**

**C a v a b:** Birinci onu demək istəyirəm ki, NATO ilə Azərbaycanın əməkdaşlığı çox uğurludur. Biz bu əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Uzun illərdir ki, Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının iştirakçısıdır və son zamanlar biz yeni bir mərhələyə qədəm qoymuşuq. Fərdi əməkdaşlıq proqramı artıq icra olunur və Azərbaycan bu proqrama qoşulmuş ilk ölkələrdən biridir. Bakıda keçiriləcək tədbir də NATO tərəfindən təşkil olunur və bilirsiniz ki, Azərbaycan hansısa bir ölkənin hərbçilərini buraya dəvət etməyibdir. O cümlədən də erməni hərbçilərini. Təbii ki, hər bir insandan soruşsanız ki, istərdinizmi erməni hərbçisi Azərbaycana gəlsin, əlbəttə, deyəcəkdir ki, yox.

Elə adam tapmaq çətindir ki, desin, mən istəyirəm ki, erməni zabiti Azərbaycana gəlsin. O cümlədən mən də. Mən də istəmirəm ki, erməni zabiti Azərbaycana gəlsin, mən də bunun əleyhinəyəm və Azərbaycan lazımi tədbirləri görür. Mən bir dəfə buna oxşar məsələyə dair demişdim ki, bu məsələdə, əlbəttə, ictimai təşkilatların fəallığı və yaxud hansısa başqa tədbirləri vacibdir və labüddür.

Amma məsələnin mahiyyətini tam təfsilatı ilə bilən Azərbaycan iqtidarıdır, Azərbaycan rəhbərliyidir. Azərbaycan rəhbərliyi daha yaxşı bilir ki, nəyi nə vaxt, necə və hansı formada və hansı anda etmək lazımdır. Azərbaycan ictimaiyyəti əmin ola bilər ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində bizim mövqeyimiz dəyişməz olaraq qalır.

Şəxsən mən bundan əvvəl də dəfələrlə demişəm və indi də bu fikirdəyəm ki, Ermənistanla Azərbaycan arasında yalnız səlahiyyətli orqanlar arasında danışıqlar aparıla bilər. Prezidentlərin görüşləri vacibdir. Xarici işlər nazirlərinin, lazım gələrsə, müdafiə nazirlərinin də. Amma geniş ictimaiyyətin bir-biri ilə əlaqə saxlamasına mən ehtiyac duymuram. Ermənistan bizim torpaqlarımızı işğal edib, Azərbaycanın ərazi bütövlüyünü pozubdur. Bu işğala son qoyulmalıdır. Bundan sonra, əlbəttə ki, münasibətlər də normallaşa bilər, jurnalistlər, ictimai xadimlər də görüşə bilərlər. Bu münaqişə həll olunmayana qədər hər hansı ünsiyyətlər yersizdir.

**S u a l: Cənab Prezident, Sizin fransalı həmsədrlə görüşünüzdən sonra onun belə bir açıqlaması olmuşdur ki, bir həftədən sonra prezidentlərə yeni təkliflər təqdim ediləcəkdir. Bu gün münaqişə ilə bağlı hər hansı yeni təkliflər, ideyalar varmı?**

**C a v a b:** Hər halda, Minsk qrupu son zamanlar fəallaşıb və biz bu fəallaşmanı görürük. Yeni təklifləri də gözləmək olar. Biz daim bildirmişik ki, biz Minsk qrupundan yeni təkliflər gözləyirik. Beynəlxalq hüquq normalarına əsaslanmış təkliflər olmalıdır ki, bu məsələnin həllinə nail olaq. Fransalı həmsədr Jakolənlə də bu məsələ ətrafında söhbət gedirdi. Minsk qrupunun həmsədrləri Astana görüşündə iştirak etmək istəyirlər. Mən də hesab edirəm ki, onlar həmişə olduğu kimi, iştirak etsinlər və ola bilsin ki, yeni təkliflər üzə çıxsın. Amma bəri başdan bir şey demək istəmirəm.

**S u a l: Cənab Prezident, son dövrdə danışıqlar prosesində müşahidə edilən intensivlik deməyə əsas verirmi ki, hansısa məsələdə müəyyən bir razılaşma əldə olunub?**

**C a v a b:** Razılaşma yoxdur. Əgər razılaşma olsaydı, əlbəttə ki, bu barədə açıqlama verilərdi, biz bunu bəyan edərdik. Çünki bu məsələni gizlətməyə ehtiyac yoxdur. Razılaşma yoxdur, amma necə deyim ki, həm məx-

filiyi saxlayım, həm də sizin marağınızı ödəyim. Yəni imkan var ki, razılaşma yolları müəyyənləşsin. Əsas budur. Real danışıqlar məhz bundan sonra başlanacaqdır. İlk növbədə, gərək prinsiplər haqqında ümumi razılığa gələk. Əgər buna biz nail olsaq, sonra detallı danışıqlar başlanacaqdır. Hər halda, Astana görüşündən çox şey asılıdır. Ermənistan prezidenti ilə mənim iki görüşüm olub və mövqelər də açıqlanıbdır. Bundan sonra da müxtəlif bəyanatlarda hər iki tərəfin mövqeyi kifayət qədər səslənibdir. Ümid edirəm ki, Astana görüşü bu baxımdan müəyyən aydınlıq gətirə bilər ki, biz haradayıq, razılığa yaxınlaşırıqmı, yoxsa, əks istiqamətə gedirik. Ona görə gəlin bu görüşü gözləyək.

**S u a l: Bir neçə gündən sonra «Əsrin müqaviləsi»nin onuncu ildönümü gəlir. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycanın müasir tarixində çox müsbət, görkəmli rol oynamış bir hadisədir. 10 il bundan əvvəl bu müqavilə yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti nəticəsində imzalanmışdır. Çoxusu inanmırdı ki, müqavilənin icrası bu qədər uğurlu olacaqdır. Amma həyat göstərdi ki, Azərbaycan buna qadirdir. Keçən 10 il ərzində neft kəmərləri tikildi, ölkəmiz öz neft ehtiyatlarını dünya bazarlarına çatdırdı, Azərbaycan iqtisadi potensialını gücləndirə bildi. Bunun əsasında, əlbəttə ki, "Əsrin müqaviləsi" və ondan gələn gəlirlər dayanır. "Əsrin müqaviləsi" həm iqtisadi, həm siyasi və həm də bütün cəhətlərdən Azərbaycanın bu gününü və gələcəyini xeyli dərəcədə müəyyən edən bir müqavilədir. Əlbəttə, biz çalışırıq ki, onu lazımi səviyyədə qeyd edək.

**S u a l: Cənab Prezident, proporsional seçki sisteminin bərpası ilə bağlı cəmiyyətdə gedən müzakirələrə münasibətiniz necədir?**

**C a v a b:** Hər bir məsələ ətrafında müzakirə gedə bilər. Amma bilirsiniz ki, referendum keçirilmiş və bu məsələyə münasibət bildirilmişdir. Belə olan halda mən yenidən bu məsələnin ciddi şəkildə müzakirəsinə ehtiyac duymuram. Bu yersizdir. Amma, əlbəttə ki, hər bir insan, hər bir təşkilat istənilən məsələni müzakirə edə, öz mövqeyini bildirə bilər.

**S u a l: Cənab Prezident, ali məktəblərə bu il keçirilən qəbul imtahanlarından sonra bir qrup tələbənin nəticələrinin ləğv olunması ictimaiyyət tərəfindən narazılıqla qarşılanmışdır. Buna münasibətiniz necədir?**

**C a v a b:** Bu məsələ araşdırılır. Mənə də məruzə edilmişdir ki, orada müəyyən problemlər, pozuntular var. Əlbəttə ki, məsələ tam ciddiliyi ilə araşdırılır. Ümid edirəm ki, bu yaxınlarda ictimaiyyətə məlumat veriləcəkdir. Hər şey gərək ədalətli və qanun çərçivəsində olsun.

**S u a l: Cənab Prezident, qaçqın-köçkün soydaşlarımızla söhbətinizdə dediniz ki, 70 min, o cümlədən 50 min daimi iş yeri açılmışdır. Respublikanın hər yerində bu cür iş yerləri çoxdur. Bu onu deməyə əsas verirmi ki, Azərbaycanda gələcəkdə 600 mindən də çox yeni iş yerləri olacaq?**

**C a v a b:** Əlbəttə, mən seçkilərdən əvvəl demişəm ki, bu bizim məqsədimizdir. Əgər bu, seçkilərdən əvvəl hansısa bir vəd naminə deyilsəydi, mən 100 min də, 200 min də, 300 min də deyə bilərdim və bunlar da Azərbaycan üçün çox böyük rəqəmlərdir və məsələ öz həllini kifayət qədər tez tapa bilərdi.

Mən bəlkə də bilərəkdən qarşımıza ən çətin məqsədi qoydum, bu, ən yüksək rəqəmdir. Bu rəqəm havadan götürülməyib. Əgər biz növbəti illərdə də belə fəallıqla, işgüzarlıqla, peşəkarlıqla işləsək, məqsədimizə çatacağıq. Bu aylar ərzində yaranmış on minlərlə iş yeri bunu göstərir ki, biz düz yoldayıq. Əlbəttə ki, bunu etmək çətindir. Amma biz ona görə bu vəzifədəyik ki, çətin məsələləri həll edək. Asan məsələləri həll etmək asandır. Mən ümid edirəm ki, biz, keçmişdə olduğu kimi, bu sözə də sadiq olacağıq və Azərbaycanda 600 min iş yeri yaradılacaqdır.

## «KEÇİD İQTİSADİYYATI ÖLKƏLƏRİNDƏ AUDİTİN İNKİŞAF PROBLEMLƏRİ» BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Bakıda «Keçid iqtisadiyyatı ölkələrində auditin inkişaf problemləri» mövzusunda beynəlxalq elmi-praktik konfransın işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Qeyd etmək xoşdur ki, auditorların bu mötəbər məclisi «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 10-cu ildönümünə həsr olunmuşdur. Ölkədə milli auditin təşəkkülü və inkişafı üçün hüquqi baza olan bu qanunun qəbul edilməsi ümummilli liderimiz Heydər Əliyevin bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirdiyi siyasətin, cəmiyyətdə maliyyə şəffaflığının təmin olunmasında və bazar infrastrukturları sistemində auditə verdiyi qiymətin parlaq təzahürüdür. Məhz dövlət başçısının diqqət və qayğısı sayəsində ötən illərdə Azərbaycanda milli audit sisteminin formalaşması və inkişafı üçün hüquqi-normativ baza yaradılmış, iqtisadiyyatın dinamik inkişafında auditin rolu əhəmiyyətli dərəcədə artmışdır.

Bu gün Azərbaycanda audit xidməti iqtisadiyyatın və regionların inkişafı sahəsində genişmiqyaslı proqramların həyata keçirilməsi, ölkənin qeyri-neft sektoruna investisiya axınının gücləndirilməsi, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun yüksəldilməsi, yoxsulluğun azaldılması və xalqın rifah halının yaxşılaşdırılması ilə bağlı iqtisadi siyasətin aparılmasında mühüm rol oynayır.

İndiki mərhələdə maliyyə intizamına ciddi əməl olunması, pul vəsaitlərindən səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir və bu baxımdan da audit həmin vəzifələrin uğurla yerinə yetirilməsində ön sıralarda olmalıdır.

Bizim açıq və informasiyalı cəmiyyət qurmaq istəyimiz həyatın bütün sahələrində demokratik prinsiplərin, şəffaflığın təmin olunmasını, məlumatların dəqiq və mötəbər olmasını zərurətə çevirir. Bu da auditorların üzərinə böyük vəzifələr qoyur, dünya təcrübəsini, ilk növbədə də keçid iqtisadiyyatı ölkələrinin təcrübəsini öyrənib, yerli şəraitə uyğunlaşdırmaqla tətbiq etməyi ön plana çıxarır.

Zənnimcə, bu mənada sizin konfrans auditorların işgüzar əməkdaşlığının genişləndirilməsi işində mühüm rol oynayacaq, ölkələrimizdə audit xidmətinin gələcək inkişafı baxımından faydalı olacaqdır.

Bir daha sizə xoş arzularımı bildirir və konfransın işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 sentyabr 2004-cü il*

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**

Hörmətli həmvətənlər!

Sizi yəhudilərin ən qədim milli bayramlarından olan Roş-Ha-Şana – Yeni il münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm. Azərbaycan cəmiyyəti tarixən etnik əlvanlığı ilə seçilmiş, yüz illərlə burada məşkunlaşıb yaşayan xalqlar arasında mehriban dostluq və qardaşlıq münasibətləri, nümunəvi birgəyaşayış qaydaları mövcud olmuşdur. Bu gün müstəqillik yolu ilə inamla addımlayan respublikamızın dövlət siyasətində insan haqları, o cümlədən milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq, hər bir vətəndaşın hüquqlarının qorunması prioritet istiqamətlərdəndir. Milli azlıqların etnik-mənəvi dəyərlərinin, adət-ənənələrinin qorunub saxlanması, dil və mədəniyyətinin inkişafı üçün ölkədə əlverişli hüquqi-siyasi şərait bərqərar edilmişdir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, tarixən Azərbaycanda ayrı-seçkilik, antisemitizm halları mövcud olmamış və əsrlər boyu ölkəmiz yəhudilərin əmin-amanlıq şəraitində yaşadıqları doğma vətənə çevrilmişdir. Bu gün respublikamızın digər xalqları kimi, yəhudi icması da milli-mədəni özünəməxsusluğunu qoruyub saxlamaqla ölkədə gedən hüquqi-demokratik proseslərdə, azad vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edir.

Hazırda Azərbaycanda yəhudilərin çoxsaylı milli-mədəni təşkilatları, ictimai-xeyriyyə fondları, sinaqoqları, məktəbləri fəaliyyət göstərir.

Əziz həmvətənlər!

Hər il Azərbaycanda təntənə ilə həyatın başlanğıcı, tövbə günü, mənəvi saflıq bayramı kimi qeyd olunan Roş-Ha-Şana qoy hər birinizin həyatında səadət və xoş müjdələr ili olsun.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 sentyabr 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ
İLHAM ƏLİYEVİN
QAZAXISTANA SƏFƏRİ**

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün sentyabrın 15-də Qazaxıstanın paytaxtı Astana şəhərinə gəldi.*

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqları ilə bəzədilmiş Astana beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha – «İnterkontinental» mehmanxanasına yola düşdü.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 15-də Astanada, onun üçün ayrılmış iqamətgahda Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin sədri–icraçı katib Vladimir Ruşaylonu qəbul etmişdir.*

*Prezident İlham Əliyev MDB-nin icraçı katibini səmimiyyətlə salamlayaraq, Bakıda onunla keçirdiyi görüşü xatırlatdı. Dövlətimizin başçısı Azərbaycanın MDB çərçivəsində keçirilən tədbirlərdə yaxından iştirak etdiyini bildirərək dedi ki, bu cür tədbirlər Birlik ölkələri arasında əlaqələrin inkişafına və genişlənməsinə kömək göstərir.*

*Vladimir Ruşaylo səmimi qəbula görə minnətdarlıq etdi, Azərbaycan rəhbəri ilə yenidən görüşmək imkanından məmnun olduğunu söylədi. O, MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Astana zirvə görüşünə hazırlıqla bağlı görülmüş işlər, habelə sentyabrın 15-də Birliyin xarici işlər və hökumət başçıları şuralarının iclaslarında müzakirə olunan məsələlər barədə məlumat verdi.*

* * *

*Sentyabrın 15-də Astanada Azərbaycan prezidenti İlham Əliyevin Ermənistan prezidenti Robert Köçəryan ilə təkbətək görüşü olmuşdur.*

*Dövlət başçıları xarici işlər nazirləri səviyyəsində aparılan danışıqları müsbət qiymətləndirdilər. Varşavadakı sonuncu görüş zamanı əldə olunmuş razılaşmaya əsasən keçirilən və üç saatdan çox çəkən təkbətək danışıqlarda prezidentlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması ilə bağlı müxtəlif məsələləri və problemin həlli yollarını geniş müzakirə etdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

*Sentyabrın 15-də Astanada Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün belə görüşlərin keçirilməsinin, münaqişənin həlli istiqamətində bütün səylərin gücləndirilməsinin vacibliyi vurğulandı. Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Stiven Mənn (ABŞ) və Anri Jakolən (Fransa) son vaxtlar görülən işlər və aparılan danışıqlar haqqında prezidentlərə məlumat verdilər.*

*Görüşdə uzun illər davam edən bu münaqişənin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Yuri Merzlyakov görüşdən sonra jurnalistlərə bildirdi ki, prezidentlərin müzakirəsinə Praqa danışıqlarında razılaşdırılan məsələlər çıxarılmışdır. İrəli sürülmüş təkliflərdən biri də Dağlıq Qarabağın ətrafındakı rayonların işğaldan azad edilməsi, məcburi köçkünlərin həmin yerlərə qaytarılması və onların təhlükəsizliyinə zəmanət verilməsi barədədir.*

*Danışıqlarda Azərbaycan və Ermənistan tərəfləri öz ideyalarını müzakirə etmişlər. Astana danışıqlarından sonra rəsmi Bakı və Yerevan öz təkliflərini həmsədrlərə təqdim edəcəklər və Minsk qrupu öz fəaliyyətini bunun əsasında quracaqdır. Aparılan danışıqlar və prezidentlərin müzakirəsinə çıxarılan bütün ideyalar Azərbaycanın ərazi bütövlüyü çərçivəsindədir. Danışıqlar prosesində qarşıya çıxan bir çox məqamlar münaqişənin səbəbləri və nəticələri ilə də bağlıdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN İŞTİRAKI İLƏ ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*Təkbətək görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə üçtərəfli görüşü keçirilmişdir.*

*Prezident Vladimir Putin Astana sammiti çərçivəsində belə görüşün keçirilməsinin əhəmiyyətli olduğunu bildirərək dedi: mən çox şadam ki, Azərbaycan və Ermənistan prezidentləri bu ağır problemin həlli ilə bağlı danışıqları davam etdirirlər. Biz bu danışıqları və ikitərəfli görüşləri dəstəkləyirik. Başlıcası odur ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması məsələsində hər iki tərəfin arzusu eynidir. Ümid edirəm ki, aparılan danışıqlar fayda verəcəkdir. Hələlik heç bir nəticə olmasa da, hər bir görüş irəliyə doğru addımdır. Əminəm ki, hər iki ölkənin liderləri ortaq məxrəcə gələ biləcəklər. Danışıqların nəticəsindən asılı olmayaraq, bugünkü görüş də irəliyə doğru atılmış addımdır.*

*Prezident Robert Köçəryan dedi ki, bu bizim ikinci görüşümüzdür. Birinci görüş tanışlıq xarakteri daşıyırdı. İndiki görüş olduqca maraqlı keçdi, münaqişə ilə bağlı geniş müzakirə aparıldı. Biz müəyyən məqamlar ətrafında geniş fikir mübadiləsi etdik. Robert Köçəryan bildirdi ki, bu barədə jurnalistlərin iştirakı olmadan Rusiya prezidentinə məlumat veriləcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev məsələnin həllində göstərdiyi fəallığa görə Rusiya prezidenti Vladimir Putinə təşəkkür etdi. Dövlətimizin başçısı dedi ki, bizim qonşumuz və ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında mühüm rol oynayır. İndiki görüşdə biz problemi müzakirə etdik, fikir mübadiləsi apardıq. Biz çalışırıq ki, yaşadığımız regionda sülh olsun. Ümid edirik ki, gələcək danışıqlarımız səmərəli olacaqdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

*Sentyabrın 15-də Astanada üçtərəfli görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın yenidən ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.*

*Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələri davam etdirdilər.*

*Görüş başa çatdıqdan sonra prezidentlər mətbuat nümayəndələri qarşısında qısa bəyanatlarla çıxış etdilər.*

### Ermənistan prezidenti Robert Köçəryanın bəyanatı

Azərbaycan prezidenti ilə biz bu görüş barədə Varşavada keçirilmiş axırıncı görüşümüzdə razılığa gəlmişdik və nazirlərə müvafiq tapşırıqlar verilmişdi. Bilirsiniz ki, bizim xarici işlər nazirləri arasında görüş olmuşdur, biz prosesin necə getdiyi barədə fikir mübadiləsi apardıq. Nazirlərin işini müsbət qiymətləndirdik. İndi isə vəziyyət başqa idi, prezidentlər müəyyən mövqeləri dəqiqləşdirməli idilər. Biz bu mövqelər üzrə baxışlarımızı açıqladıq, artıq digər tərəfin mövqeyini bilərək, daha konkret fikrə gəlmək üçün bizə – mənə də, Azərbaycan prezidentinə də vaxt lazımdır. Prinsip etibarilə, proses gedir. Biz hansısa xüsusi uğurların olması ilə öyünə bilmərik. Ancaq ən başlıcası odur ki, proses konstruktiv məcrada gedir. Bizə miras qalmış və hər halda, həll etmək niyyətində olduğumuz çox mürəkkəb problemləri olduqca sakit və səbirlə müzakirə etməyə qadirik. Hələlik bu qədər, əlbəttə ki, bu gün təfsilata varmayacağıq. Diqqətinizə görə sağ olun.

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Görüş çox konstruktiv şəraitdə keçdi. Bir neçə saat ərzində münaqişə ilə bağlı müxtəlif məsələlər və onun aradan qaldırılması yolları müzakirə olundu. Minsk qrupu həmsədrlərinin iştirakı ilə xarici işlər nazirlərinin görüşlərinin müntəzəm formatda keçirilməsi faktını mən də müsbət qiymətləndirirəm. Bu, müsbət cəhətdir. Xüsusən ona görə ki, bu görüşlərdə çox fəal fikir mübadiləsi aparılır və münaqişənin həlli yolları axtarılır. Astanada prezidentlər səviyyəsində görüşümüz əvvəlcədən planlaşdırılmışdı. Nazirlər səviyyəsində danışıqlara müəyyən yekun vuruldu, habelə münaqişənin həlli ilə bağlı məsələlərin geniş spektri müzakirə edildi. Jurnalistlər həmişə böyük maraq göstərirlər, biz isə çox yayğın ifadələrlə kifayətlənməyə məcburuq. Bugünkü gün də istisna deyildir. Hesab edirəm ki, siz bizi başa düşürsünüz. Məsələ son dərəcə mühüm olduğuna görə, indi onun haqqında daha geniş danışmaq tezdir. Mən hesab edirəm ki, vəziyyətin sonrakı inkişafı məsələnin həlli yolu ilə irəliləməyə kömək edə bilər. Sağ olun.

**Robert Köçəryan:** Mən, sadəcə, əlavə edərdim ki, zənnimcə, Rusiya prezidenti ilə görüş maraqlı keçdi. Fikir mübadiləsi maraqlı oldu.

**İlham Əliyev:** Bəli, həmin görüşdə iştirak etməyə vaxt tapdığı üçün biz Rusiya prezidentinə minnətdarlığımızı bildirdik. Əlbəttə, belə görüşlər faydalıdır. Sağ olun.

**MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ 38-ci ZİRVƏ GÖRÜŞÜ**

*Sentyabrın 16-da Astanada, Qazaxıstan prezidentinin yeni iqamətgahında MDB dövlət başçılarının 38-ci zirvə görüşü keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.*

*On ölkənin dövlət başçılarının, habelə Moldova Baş nazirinin və Türkmənistan Prezidenti Administrasiyası rəhbərinin iştirakı ilə əvvəlcə qapalı keçirilən iclası açan Qazaxıstan prezidenti Nursultan Nazarbayev bildirmişdir ki, bu ilin birinci yarısı MDB üçün kifayət qədər səmərəli olmuşdur. Müxtəlif formatlarda görüşlər keçirilmiş, bunların hamısı müsbət xarakter daşımışdır.*

*Dövlətlərimiz yüksələn xətlə inkişaf edir və indi daha sıx yaxınlaşmaq və inteqrasiya üçün bütün amillər vardır.*

*İclasda regional əməkdaşlıq, Birlik ölkələri arasında əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılmışdır. MDB məkanında təhlükəsizlik və sabitlik məsələsi müzakirələrdə xüsusi yer tutmuşdur.*

*Sonra iclas geniş tərkibdə davam etdirilmişdir. Dövlət Başçıları Şurasının sədri, Ukraynanın prezidenti Leonid Kuçma iclası açarkən demişdir: Biz yekdil fikirdəyik ki, müasir terrorizm bütün dövlətlərə təhlükə gətirir və onunla birgə səylərlə mübarizə aparmaq lazımdır. Biz beynəlxalq terrorizmin bütün formaları və təzahürlərinə qarşı səmərəli mübarizə üçün var gücümüzü sərf etmək əzmində olduğumuzu qətiyyətlə təsdiqləyirik.*

*İclasda əməkdaşlığın gələcək inkişaf yolları, təhlükəsizlik və sabitlik məsələləri, çoxtərəfli ticarət-iqtisadi əlaqələr sahəsindəki vəziyyət və digər məsələlər diqqət mərkəzində olmuşdur.*

*Qazaxıstan prezidenti MDB-də islahatlar aparılmasına dair genişmiqyaslı proqramı iştirakçılara təqdim edərək vurğulamışdır ki, qloballaşma dövründə və yeni təhdidlərin meydana çıxdığı indiki şəraitdə birlik dövlətləri ən aktual beynəlxalq problemlərin həlli üçün səylərini birləşdirməlidirlər və bu, ilk növbədə, qlobal və regional təhlükəsizliyin təmin olunmasına aiddir. Bu məqsədlə xarici işlər və müdafiə nazirlərindən, sərhəd xidmətlərinin və hüquq-mühafizə orqanlarının rəhbərlərindən ibarət tərkibdə MDB-nin Təhlükəsizlik Şurasını yaratmaq nəzərdə tutulur. Birliyin bir sıra orqanlarını ləğv etmək, MDB İcraiyyə Komitəsinin strukturunda ştatların sayını 220-dən 140-a endirmək və digər dəyişikliklər təklif edilir.*

*Dövlət başçıları ötən müddətdə şuraya sədrlik etmiş Ukrayna prezidenti Leonid Kuçmanın fəaliyyətini müsbət qiymətləndirərək ona təşəkkürlərini bildirmiş, Rusiya Federasiyasının prezidenti Vladimir Putini Dövlət Başçıları Şurasının yeni sədri seçmişlər. Leonid Kuçmaya və Birliyin keçmiş icraçı katibi Yuri Yarova MDB-nin fəxri nişanı təqdim olunmuşdur.*

*MDB dövlət başçılarının növbəti zirvə görüşünü 2005-ci ilin sentyabrında Belarusun paytaxtı Minskdə keçirmək qərara alınmışdır.*

*İclasın sonunda 20 sənəd, o cümlədən MDB-nin üzvü olan dövlətlərin dövlət başçılarının beynəlxalq terrorizmlə mübarizə haqqında bəyanatı, MDB, ATƏT və BMT çərçivəsində qəbul olunmuş sənədlər baxımından müasir mərhələdə beynəlxalq terrorizmə, habelə təhlükəsizlik və sabitliyə olan digər təhdidlərə qarşı dayanmaqda Birlik ölkələrinin əməkdaşlığının daha da inkişaf etdirilməsi barədə, Dövlət Başçıları Şurasının növbəti iclasının keçirilməsinin vaxtı və yeri haqqında, şurada sədrlik haqqında, Böyük Vətən müharibəsində qələbənin 60 illiyi ilə əlaqədar MDB-nin üzvü olan dövlətlərin xalqlarına və beynəlxalq birliyə müraciət haqqında, Müstəqil Dövlətlər Birliyinin təkmilləşdirilməsi və onda islahatlar aparılması barədə, 2005–2007-ci illər üçün cinayətkarlığa qarşı mübarizəyə dair dövlətlərarası birgə tədbirlər proqramı haqqında, Transsərhəd çayları probleminə dair beynəlxalq konfransın keçirilməsi barədə, Müstəqil Dövlətlər Birliyinin fəxri nişanı ilə təltif haqqında və digər sənədlər imzalanmışdır.*

*Zirvə görüşü başa çatdıqdan sonra yekun mətbuat konfransı keçirilmiş, dövlət başçıları jurnalistləri maraqlandıran suallara cavab vermişlər. Qazaxıstan prezidenti Nursultan Nazarbayev bildirmişdir ki, dövlət başçıları xarici işlər nazirlərinə təklif olunan islahatlarla bağlı müzakirələr apararaq ilin sonunadək qəti qərar qəbul etməyi tapşırmışlar.*

*Ondan sonra bu məsələyə dövlət başçıları baxacaqlar.*

*Sonra prezidentlər MDB-nin üzvü olan ölkələrin dövlət bayraqları önündə xatirə şəkli çəkdirmişlər.*

*Sentyabrın 16-da Astanada Qazaxıstan prezidenti Nursultan Nazarbayevin adından birlik ölkələri dövlət başçılarının şərəfinə nahar verilmişdir. Azərbaycan prezidenti İlham Əliyev naharda iştirak etmişdir.*

* * *

*Qazaxıstanın paytaxtı Astana şəhərində MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 16-da səfərini başa çatdıraraq vətənə yola düşmüşdür.*

## AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*17 sentyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev cənab Romano Prodi ilə Belçikada keçirdiyi görüşü məmnunluqla xatırlatdı və həmin görüşün çox səmərəli olduğunu nəzərə çatdırdı. Prezident İlham Əliyev dedi ki, Azərbaycan–Avropa Birliyi əlaqələri çox uğurla inkişaf edir, ölkəmiz bu əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyi ilə əlaqələr Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir və bu sahədə yeni-yeni uğurlar əldə olunur.

Avropa Birliyinin yeni qonşuluq siyasətinin böyük əhəmiyyət daşıdığını vurğulayan prezident İlham Əliyev bu siyasətin Azərbaycan–Avropa Birliyi münasibətlərində çox önəmli istiqamətlərdən biri olduğunu nəzərə çatdırdı. Dövlətimizin başçısı Avropa Birliyinin Cənubi Qafqaz üzrə nümayəndəsinin təyin olunmasının əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət göstərdiyini vurğuladı.

Azərbaycan ilə Avropa Birliyi arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə əmin olduğunu nəzərə çatdırdı. Azərbaycanın Avropanın bir hissəsi olduğunu xatırladan dövlətimizin başçısı ölkəmizin Avropa strukturlarına inteqrasiyasının xarici siyasətimizin prioritetlərindən biri olduğunu bildirdi.

Azərbaycan ilə Avropa Birliyi arasında iqtisadi sahədə, xüsusilə energetika sahəsində çox uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirən prezident İlham Əliyev siyasi sahədə dialoqun yüksək səviyyədə olduğunu vurğuladı.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Romano Prodinin Azərbaycana səfəri əlaqələrimizin daha da inkişaf etməsi və möhkəmləndirilməsi işinə kömək göstərəcəkdir.

Səmimi qəbula və Avropa Birliyi ilə münasibətlərə dair söylədiyi fikirlərə görə prezident İlham Əliyevə təşəkkür edən qonaq Azərbaycana səfərindən çox böyük məmnunluq duyduğunu vurğuladı. Siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın yeni qonşuluq siyasətinin tərkib hissələrindən biri olduğunu nəzərə çatdıran qonaq dedi ki, bu siyasətin həyata keçirilməsi Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın daha da gücləndirilməsi, qarşıda duran problemlərin həlli baxımından böyük əhəmiyyət daşıyır. Bu siyasətin həyata keçirilməsi istiqamətində Avropa Birliyi qarşısında mühüm vəzifələr durduğunu bildirən cənab Prodi yeni qonşuluq siyasətinə yanaşmada təmsil etdiyi təşkilatın ədalətli mövqe tutduğunu vurğuladı.

Qonaq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll edilməsinin yeni qonşuluq siyasətinin uğurla həyata keçirilməsi üçün vacib olduğunu söylədi.

Cənab Romano Prodi dedi ki, 500 milyon əhalinin yaşadığı geniş bir ərazini əhatə edən Avropa Birliyi bölgədə mühüm rol oynayan Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir. O, əmin olduğunu söylədi ki, bu əlaqələr bundan sonra da durmadan inkişaf edəcəkdir.

## DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ VƏ DİRİJOR MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*18 sentyabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Prezident sarayında görkəmli musiqiçi və dirijor Mstislav Rostropoviçi qəbul etmişdir.*

*Hörmətli qonağı səmimiyyətlə, mehribanlıqla salamlayan və onunla görüşdən çox məmnun olduğunu bildirən prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə islahatların müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində əldə olunmuş uğurlardan, sürətli inkişafdan ətraflı söhbət açdı.*

*Dövlətimizin başçısı ümummilli liderimiz Heydər Əliyevin yaxın dostu, xalqımızın böyük hörmət bəslədiyi Rostropoviçin vaxtaşırı olaraq vətənə gəlməsinin çox böyük əhəmiyyət daşıdığını xüsusi qeyd etdi.*

*Səmimi qəbula və xoş sözlərə görə dərin minnətdarlığını bildirən Mstislav Rostropoviç doğma vətənində olmasından çox böyük məmnunluq duyduğunu vurğuladı, Azərbaycanın sürətli inkişafına və respublikamızda görülən əzəmətli işlərə heyran qaldığını söylədi. O dedi ki, iftixar hissi keçirirəm ki, mənim üçün çox əziz olan Azərbaycanda bütün sahələr və onun regionları sürətlə inkişaf edir.*

*Cənab Rostropoviç ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın sürətli inkişafı naminə gördüyü işlərin uğurla davam etdirildiyini bildirərək dedi ki, mən prezident İlham Əliyevin Azərbaycan xalqı tərəfindən sevildiyinin və ölkədə böyük nüfuz qazandığının şahidi oldum.*

*Vişnevskaya-Rostropoviç Fondunun Azərbaycanda uşaqlara peyvənd edilməsi sahəsində gördüyü işləri xatırladan Rostropoviç bildirdi ki, bundan sonra da yüz minlərlə uşağın vaksinasiyası davam etdiriləcəkdir.*

*Azərbaycandakı sürətli inkişafın onu qəlbən sevindirdiyini nəzərə çatdıran maestro özünün xoş arzularını bildirdi və əmin olduğunu söylədi ki, ölkəmiz bundan sonra da böyük nailiyyətlər əldə edəcəkdir.*

* * *

*Sentyabrın 18-də Bakıdakı 6 nömrəli uşaq kliniki xəstəxanasında Vişnevskaya-Rostropoviç Fondu tərəfindən həyata keçirilən uşaqları peyvənd mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç mərasimdə iştirak etmişlər.*

*Xəstəxananın qarşısına toplaşan paytaxt sakinləri, ictimaiyyətin nümayəndələri, səhiyyə işçiləri dövlətimizin başçısını və maestronu böyük hörmət və ehtiramla qarşıladılar. Prezident İlham Əliyevə və Mstislav Rostropoviçə gül dəstələri təqdim olundu.*

*Prezident İlham Əliyev xəstəxanada yaradılmış Heydər Əliyev guşəsinə baxdı. Burada ümummilli liderimizin səhiyyəyə göstərdiyi diqqət və qayğını, ölkəmizdə istifadəyə verilən yeni səhiyyə obyektlərinin açılış mərasimlərində iştirakını, müstəqil Azərbaycan dövlətinin qurucusunun gənc nəslin sağlam böyüməsi üçün gördüyü mühüm işləri əks etdirən fotoşəkillər nümayiş etdirilir.*

*Dövlətimizin başçısı İlham Əliyev, maestro Mstislav Rostropoviç və ABŞ-ın ölkəmizdəki səfiri Rino Harniş peyvənd otağına gələrək, 1 yaşlı Adil Quluzadənin və 6 yaşlı Ayan Əliyevanın peyvənd olunması prosesini müşahidə etdilər.*

*Prezidentə məlumat verildi ki, Vişnevskaya-Rostropoviç Fondu tərəfindən 2003-cü ildə başlanmış Milli Peyvənd Proqramı uşaqların üç ciddi infeksion xəstəlikdən — qızılca, parotit və məxmərəkdən qorunması üçün həyata keçirilir. Bu, eyni zamanda, yeni doğulmuş uşaqları anadangəlmə məxmərək sindromundan xilas edəcəkdir. Bütövlükdə, ABŞ-ın Kənd Təsərrüfatı Departamenti tərəfindən maliyyələşdirilən proqram üç il ərzində Azərbaycanda bir və altı yaşlı 750 min uşağın QPM vaksini ilə təmin olunmasını nəzərdə tutur. Bakı şəhərində aparılan QPM peyvənd proqramı müvəffəqiyyətlə həyata keçirilmişdir. Belə ki, 2003-cü ildə uşaqların 96 faizinə, bir yaşlı 24 minə yaxın uşağa qızılca, parotit və məxmərəyə qarşı peyvənd edilmişdir.*

*Azərbaycan, Rusiya Federasiyası və Gürcüstanda tətbiq olunan proqram mövcud səhiyyə infrastrukturları tərəfindən həyata keçirilir. Azərbaycanda vaksinlərin təhlükəsiz daşınması və saxlanması məqsədi ilə ölkənin bütün rayonlarına 191 ədəd soyuducu, bir o qədər generator və 336 ədəd termoçanta paylanmışdır. Proqramın həyata keçirilməsi müddətində fond Dünya Səhiyyə Təşkilatının beynəlxalq standartlara cavab verən 316 min 668 ədəd QPM vaksini və 240 min ədəd birdəfəlik şprislərlə təmin edilmişdir.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə Vişnevskaya-Rostropoviç Fondu tərəfindən həyata keçirilən vaksinasiya proqramının tətbiqinin genişləndirilməsi üçün ianə haqqında müqavilə imzalandı. Sənədi Azərbaycanın Səhiyyə naziri Əli İnsanov və Vişnevskaya-Rostropoviç Fondunun prezidenti Mstislav Rostropoviç imzaladılar.*

## XƏSTƏXANANIN QARŞISINDA KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞI

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!
Əziz Slava!
Hörmətli cənab səfir!

Bu gün çox əlamətdar bir gündür. Bizim dostumuz Slava Rostropoviçin təşəbbüsü ilə Azərbaycanda vaksinasiyanın yeni mərhələsi başlayır. Bilirsiniz ki, Slava Rostropoviç bizim həmyerlimizdir. Azərbaycanın böyük dostudur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin yaxın dostu idi və bu dostluğa daim sadiq olmuşdur.

Xatırlayırıq ki, xalqımızın ümummilli lideri dünyasını dəyişdikdən sonra Slava Bakıya gəlmişdi və onun xatirəsinə ithaf olunmuş kiçik konsert də vermişdi. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, həqiqətən, dostluğun ən yüksək zirvəsi idi.

Slava eyni zamanda, Azərbaycanda müxtəlif xeyriyyə məsələləri ilə məşğuldur. Onun rəhbərlik etdiyi fondun xətti ilə Azərbaycanda çox böyük proqramlar həyata keçirilir. Onların içərisində vaksinasiya proqramı da çox önəmli yer tutur. Həmişə olduğu kimi, bu gün də Slava öz sözünə sadiq qalaraq Bakıdadır. O, söz vermişdi ki, hər il Bakıya gələcək, hər il Bakıda konsert verəcək, gənc musiqiçilərlə məşğələlər keçirəcəkdir. Mən çox şadam ki, bu ənənə davam edir və Slavanın Azərbaycana etdiyi xidmətlər davam edir.

Burada qeyd olundu ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı ilə iki il bundan əvvəl buna oxşar bir tədbir keçirilmişdir. Bu gün biz iki uşağın peyvənd olunmasında iştirak etdik. Bu proqram çox genişdir və gələcəkdə yüz minlərlə uşağı əhatə edəcəkdir. Bu, sağlamlıq deməkdir, Azərbaycanın gələcək nəslinin sağlam böyüməsi deməkdir. Xalqımız sağlam xalqdır. Fiziki cəhətdən sağlamdır. Amma bilirsiniz ki, müasir dövrdə yoluxucu xəstəliklər bütün dünyada böyük təhlükə mənbəyidir. O cümlədən, Azərbaycanda da. Bu istiqamətdə ölkəmizdə böyük işlər görülübdür və çox şadam ki, artıq Azərbaycanda bir çox təhlükəli xəstəlik ləğv edilibdir, yoxdur.

Slavanın təşəbbüsü ilə aparılan bu işlər imkan verəcək ki, uşaqlarımız daha da sağlam olsunlar, Vətənimizdə daha da sağlam yeni nəsil yetişsin və xalqına xidmət etsin.

Mən sizin hamınızı bu gözəl mərasim münasibətilə bir daha ürəkdən təbrik edirəm. Dostumuz Slavaya öz dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sağ olun.

### Sentyabrın 18-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Bakıda səfərdə olan görkəmli həmyerlimiz, maestro Mstislav Rostropoviç Heydər Əliyev Fonduna gəldilər.

*Dövlətimizin başçısı İlham Əliyev ümummilli liderimizin yaxın dostu olmuş Mstislav Rostropoviçə Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barədə ətraflı söhbət açdı.*

*Mstislav Rostropoviç Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən, Azərbaycan, habelə keçmiş SSRİ tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi liderlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldu. O, ümummilli liderimizin Sovetlər İttifaqının dövlət və hökumət rəhbərləri ilə birgə çəkilmiş fotoşəkillərinə xüsusi maraqla baxdı.*

*Bu dahi şəxsiyyətin mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi daimi qayğı və diqqəti əks etdirən eksponatlar maestroda böyük maraq doğurdu.*

*Mstislav Rostropoviç fondla tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Mstislav Rostropoviç binanın eyvanından Bakının mənzərəsini seyr etdilər. Dövlətimizin başçısı şəhərdə görülən işlərdən danışdı. Maestro Bakıda son illərdə aparılmış abadlıq və quruculuq işlərinə heyran olduğunu söylədi.*

**«ƏSRİN MÜQAVİLƏSİ»nin 10-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ**

*Heydər Əliyev adına saray*

*20 sentyabr 2004-cü il*

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sarayın foyesində «Əsrin müqaviləsi»nin 10-cu ildönümünə həsr edilmiş sərgi ilə tanış oldu.

Sərgidə ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə neft müqavilələrinin imzalanması, «Çıraq-1» platformasından ilkin neftin çıxarılmasının bayram edilməsi mərasimləri, ayrı-ayrı platformalarda qazma işlərinin aparılması, sualtı boru kəmərinin çəkilişi, Səngəçal terminalının tikintisi, ilkin neftin ixrac marşrutları haqqında çoxsaylı fotoşəkillər, müxtəlif çertyojlar nümayiş etdirilir, videofilmlər göstərilirdi.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin «Dədə Qorqud» platformasında olmasını, «Şahdəniz» layihəsi ilə bağlı görülən işləri, Bakı–Tbilisi–Ceyhan layihəsinin maliyyələşdirilməsinə dair mərasimi, müxtəlif qazma qurğularının istifadəyə verilməsini, Səngəçal terminalında keçirilən tədbirləri, 1999-cu ildə Bakı–Tbilisi–Ceyhan layihəsinə dair İstanbul bəyannaməsinin imzalanması mərasimini, Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına salınmış qəsəbələrin açılışında ümummilli liderimiz Heydər Əliyevin və prezident İlham Əliyevin iştirakını, Azərbaycan, Türkiyə, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə keçirilən ayrı-ayrı tədbirləri əks etdirən fotoşəkillər diqqəti cəlb edirdi.

Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord sərgi barədə dövlətimizin başçısına ətraflı məlumat verdilər. Devid Vudvord dörd ildən sonra neft hasilatının həcminin 7-8 dəfə artacağı zaman quraşdırılacaq platformalar barədə danışdı və prezident İlham Əliyevə «Azəri–Çıraq–Günəşli» yataqlarının həm dərin, həm də dayaz qatlarındakı neftin çıxarılması üçün gələcəkdə istifadə olunacaq platformaların maketini hədiyyə etdi.

Prezident İlham Əliyev sərgidə Azərbaycanın ən tanınmış rəssamlarının neft mövzusunda müxtəlif janrlarda çəkdikləri əsərlərə də baxdı.

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür, bayram günüdür. «Əsrin müqaviləsi»nin 10-cu ildönümünü qeyd edirik. Mən bu bayram günündə Azərbaycana gəlmiş bizim hörmətli qonaqlarımızı xüsusi salamlamaq istəyir, onlara öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

10 il bundan əvvəl «Əsrin müqaviləsi»nin imzalanması ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin neft strategiyasının təməli qoyuldu. Ötən dövr ərzində Azərbaycan hərtərəfli inkişaf etdi. Ölkəmiz iqtisadi baxımdan çox böyük nailiyyətlər əldə etdi, siyasi cəhətdən Dünya Birliyində özünəlayiq yerini tuta bildi. Azərbaycanda çoxlu sosial məsələlər öz həllini tapdı. Bir sözlə, ölkəmiz ötən 10 il ərzində böyük və şərəfli bir yol keçdi.

Eyni zamanda hamımız yaxşı xatırlayırıq ki, 1994-cü ildə «Əsrin müqaviləsi» imzalananda ölkəmizdə vəziyyət çox çətin idi. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial-iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlanmışdı. İqtisadiyyat isə tamamilə dağılmışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı. Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Əlbəttə, inkişafın çox mühüm amillərindən biri də neft amili idi. Bu amildən istifadə etmək lazım idi.

Mən o dövrü çox yaxşı xatırlayıram. Həmin illərdə Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədər də çox deyildi. Çünki Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı və əlbəttə, buraya böyük həcmdə kapital qoyuluşunun cəlb edilməsi çoxlu səylər, siyasi məharət, uzaqgörənlik tələb edirdi. Bütün bu məsələlər öz həllini tapdı. "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin neft strategiyasının başlanması demək idi. Məhz onun uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, cəsarəti sayəsində bu müqavilə imzalandı. Xatırlayırsınız ki, buna həm ölkə daxilində, həm də xaricdə çox ciddi müqavimət var idi. Amma bütün bu çətinliklərə baxmayaraq Azərbaycan öz istəyinə nail oldu. Neft müqaviləsi imzalandı və Azərbaycana böyük həcmdə xarici sərmayənin

gətirilməsi təmin edildi. Ötən dövr ərzində ölkəmiz adambaşına düşən xarici sərmayənin həcminə görə təkcə keçmiş sovet respublikaları arasında deyil, Şərqi Avropa ölkələri arasında da qabaqcıl mövqelərə sahib oldu. Ölkəmizə gətirilən sərmayələr Azərbaycanın neft sektorunun inkişafında böyük rol oynamaqla yanaşı, qeyri-neft sektorunun inkişafına da güclü təkan verdi. Azərbaycan tarixdə ilk dəfə Xəzər dənizini xarici şirkətlər üçün açdı və beləliklə, Xəzər dənizində beynəlxalq konsorsium yarandı. Müxtəlif ölkələri təmsil edən aparıcı şirkətlər Azərbaycanla çox uğurlu əməkdaşlığa başladılar və bunun nəticəsində ölkəmiz sürətlə, hərtərəfli inkişaf etməyə başladı. Azərbaycanın neft sektoru, təbii ki, ölkə iqtisadiyyatı üçün həlledici amildir. Əlbəttə, bizim bütün səylərimiz neft sektorunun daha sürətlə inkişafı üçün tədbirlər görülməsinə yönəldilmişdir. Bu istiqamətdə «Əsrin müqaviləsi»nin Azərbaycanın müasir tarixindəki rolu müstəsna əhəmiyyətə malikdir. Ölkəyə milyardlarla dollar sərmayə qoyuldu, infrastruktur yaradıldı. Azərbaycanda müasir qazma qurğuları yenidən tikilib istifadəyə verildi. Bu gün Azərbaycanın bütün dünya standartlarına cavab verən dörd müasir qazma qurğusu vardır – «Dədə Qorqud», «İstiqlal», «Qurtuluş» və «Heydər Əliyev» nəhəng qazma qurğusu. Ölkəmizdə on minlərlə yeni iş yerləri açıldı, büdcəyə vergilər şəklində böyük vəsait daxil oldu. Bir sözlə, bütün cəhətlərdən «Əsrin müqaviləsi»nin Azərbaycanın müasir tarixində rolu çox böyük olmuşdur.

Azərbaycan Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasını müstəqil surətdə həyata keçirir. Ölkəmiz Xəzərin ona məxsus olan sektorunda müxtəlif şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. 25 neft şirkəti ilə 23 neft müqaviləsi imzalanmışdır. Bunların həyata keçirilməsi çərçivəsində ölkəmizə 50 milyard dollardan çox sərmayə qoyulacaqdır. İndiyədək 10 milyard dollardan çox sərmayə qoyulub və növbəti 3-4 ildə bir o qədər də qoyulacaqdır. Bu onu göstərir ki, Azərbaycan xarici sərmayəçilər üçün çox münasib bir məkandır. «Əsrin müqaviləsi»ndə Azərbaycanın iqtisadi maraqları tam şəkildə təmin edilmişdir. Bununla yanaşı, xarici sərmayəçilər üçün də çox məqbul şərait yaradılıbdır. Əgər belə olmasaydı, sərmayələrin bu həcmdə Azərbaycana gətirilməsi də mümkün olmazdı. Xarici tərəfdaşlarımız əmindirlər ki, Azərbaycana qoyulan hər bir manat, hər bir dollar lazımi səviyyədə qorunur, ölkəmizin qanunvericiliyi bunun üçün təminat verir. Bilirsiniz ki, imzalanmış hər bir müqavilə Milli Məclis tərəfindən təsdiq olunur. Azərbaycan etibarlı tərəfdaşdır. Bu bizim üçün çox vacibdir. Çünki qeyd etdiyim kimi, 1994-cü ildə ölkəmiz həm siyasi-iqtisadi cəhətdən çətin vəziyyətdə idi, eyni zamanda Azərbaycan haqqında beynəlxalq aləmdə kifayət qədər məlumat yox idi. Mövcud olan məlumat da Azərbaycandakı reallığı kifayət qədər əks etdirmirdi. Belə olan halda Azərbaycanın çox etibarlı, sabit, xarici sərmayələr üçün əlverişli bir ölkə kimi tanınması bizim üçün çox vacib idi və buna nail olduq. Bu özünü təkcə neft sektoruna deyil, eyni zamanda qeyri-neft sektoruna qoyulmuş sərmayələrdə də əks etdirir. Bu onu göstərir ki, dünyada, beynəlxalq aləmdə bizim reytinqimiz, imicimiz çox sürətlə artır və güclənir. Beləliklə, bu bizə ölkəmizi hərtərəfli inkişaf etdirməyə imkan verəcəkdir.

Biz iqtisadiyyatımızı şaxələndirməliyik ki, o, təkcə neft amilinə söykənməsin. Bilirsiniz ki, bunun üçün çox geniş tədbirlər görülür və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoru uğurla inkişaf edir. Gələcəkdə bu bizə imkan verəcəkdir ki, ölkəmizin hər bir bölgəsi, rayonu inkişaf etsin. Amma bütün bunların təməlində neft amili durur. Biz bunu unutmamalıyıq, bu belədir və uzun illər belə də olacaqdır. Şadam ki, neftdən əldə olunan gəlirlər də çox səmərəli şəkildə qorunub saxlanılır və onlardan istifadə edilir. Bilirsiniz ki, Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi olan məsələlərdən biri də neftdən əldə olunan gəlirlərin Azərbaycan vətəndaşları arasında ədalətli şəkildə bölünməsi, ölkə iqtisadiyyatının sonrakı inkişafında rol oynaması və gələcək nəsillər üçün bir əmanət kimi saxlanılmasıdır. Bütün bu vəzifələr həyata keçirilir.

Azərbaycanda Heydər Əliyev tərəfindən yaradılmış Neft Fondu çox şəffaf və açıq şəkildə fəaliyyət göstərir. Fondda beynəlxalq audit keçirilir, onun gəlirləri və xərcləri barədə ictimaiyyətə mütəmadi olaraq məlumat verilir. Bu çox vacib amildir. Azərbaycan neft ölkəsi kimi öz milli sərvətindən səmərəli istifadə etməlidir. Təsadüfi deyildir ki, Neft Fondundan ayrılan ilk ödəmələr ölkəmizdə ən çətin və ağır vəziyyətdə yaşayan qaçqın və köçkünlərimizin sosial problemlərinin həllinə yönəldilmişdir. Bu, Azərbaycan üçün prioritet məsələdir. Ermənistanın təcavüzündən sonra öz doğma torpaqlarından didərgin düşmüş qardaş və bacılarımız daim diqqət mərkəzində olmalıdır və diqqət mərkəzindədirlər. Bilirsiniz ki, bu, keçmişdə də belə olub, bu gün də belədir. Hazırda qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələr, yeni şəhərciklər, xəstəxanalar, məktəblər və digər obyektlər məhz Neft Fondunun vəsaiti hesabına tikilir.

Eyni zamanda Azərbaycanda son müddət ərzində digər sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Maaşlar və pensiyalar artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Mən prezident seçkiləri ərəfəsində demişdim ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdır və yaşayacaqlar. Bunu etmək üçün hər cür imkanımız vardır. Ən önəmlisi isə dövlətin düzgün siyasəti vardır. Bu siyasət Heydər Əliyev siyasətidir. Mən seçkilərdən əvvəl bəyan etmişdim və söz vermişdim ki, bu siyasətə sadiq qalacağam və onu öz fəaliyyətimdə həyata keçirəcəyəm. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır, güclənir və bundan sonra da əbədi olaraq yaşayacaqdır.

Onu da qeyd etməliyəm ki, bugünkü uğurlarımızda ötən əsrin 70–80-ci illərində yaradılmış infrastruktur da çox mühüm rol oynayır. Azərbaycanda neft infrastrukturu məhz o illərdə yaranmış və yeni müəssisələr istifadəyə verilmişdir. Bu gün Heydər Əliyevin adını daşıyan Dərin özüllər zavodu da məhz 1970-ci illərdə yaradılmış-

dır. Əgər bu gün o zavod olmasaydı, bizim həyata keçirdiyimiz bütün neft layihələri azı 5–7 il gecikəcəkdi. Bu bir daha onu göstərir ki, xalqımızın ümummilli lideri 1970-ci illərdə rəhbərlikdə olan zaman bu məsələlərə böyük diqqət göstərirdi.

Hazırda Bakı–Tbilisi–Ceyhan boru xətti uğurla inşa edilir və yaxınlarda istismara veriləcəkdir. Digər neft kəmərləri – Bakı–Novorossiysk, Bakı–Supsa kəmərləri istismardadır. Bakı–Tbilisi–Ceyhan neft kəməri istifadəyə verildikdən sonra ölkə iqtisadiyyatına daxil olacaq gəlirlər artacaqdır və bu bizə qarşımızda duran bütün sosial və iqtisadi məsələləri uğurla həll etməyə imkan verəcəkdir.

Azərbaycanın Xəzər dənizi sektorunda yerləşən «Şahdəniz» qaz yatağı da bizim gələcək inkişafımız üçün çox önəmli rol oynayacaqdır. Bu istiqamətdə də böyük işlər görülür və əminəm ki, «Şahdəniz» yatağından çıxarılacaq qazın Türkiyəyə və Avropaya nəqli də uğurla təmin ediləcəkdir.

Bir sözlə, qarşıya qoyduğumuz bütün məsələlər öz həllini tapıbdır. 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanarkən bəziləri bunun uğuruna inanmırdı və hesab edirdilər ki, müqavilə elə kağız üzərində qalacaqdır. Çünki onun həyata keçirilməsi üçün təkcə iqtisadi deyil, eyni zamanda, siyasi və coğrafi-siyasi məsələlər öz həllini tapmalı idi. Heydər Əliyevin neft strategiyası və Heydər Əliyev diplomatiyası qarşımızda duran bütün məsələlərə nail olmaq üçün imkan yaratdı. Bu gün biz müqavilənin 10 illik yubileyini qeyd edərək deyə bilərik ki, artıq bütün məsələlər öz həllini tapmışdır. Əminəm ki, Azərbaycan bundan sonra da sürətlə inkişaf edəcək, yaxın zamanlarda qüdrətli dövlətə çevriləcəkdir.

Bilirsiniz ki, son müddət ərzində Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir. Ölkə iqtisadiyyatı inkişaf edir. Seçkilərdən ötən dövr ərzində 70 minədək yeni iş yeri açılmışdır, regionların sosial problemləri öz həllini tapır. Bir sözlə, biz düzgün yoldayıq. Bu yolda hamımıza uğurlar, müvəffəqiyyətlər arzulayıram.

Əziz dostlar!

«Əsrin müqaviləsi»nin 10-cu ildönümü münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

## «ƏSRİN MÜQAVİLƏSİ»nin ONUNCU İLDÖNÜMÜ ŞƏRƏFİNƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*20 sentyabr 2004-cü il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Düz on il bundan əvvəl bu gözəl «Gülüstan» sarayında «Əsrin müqaviləsi» imzalanmışdır. Əminəm ki, bu mərasimdə iştirak edən insanların hamısı o günü çox yaxşı xatırlayırlar. Azərbaycanın tarixində çox əlamətdar bir hadisə olan «Əsrin müqaviləsi» Azərbaycanın gələcək inkişafının təməlini qoydu.

On il bundan əvvəl bu müqaviləni imzalayarkən yəqin ki, siz müxtəlif hisslər keçirirdiniz. Fikirləşirdiniz ki, bu müqavilədən nə vaxt əməli-praktiki nəticələr olacaqdır. Müqavilənin icrası necə olacaq, qarşımızda hansı çətinliklər duracaq və s. Ancaq eyni zamanda, hamımız istəyirdik ki, müqavilə Azərbaycana xoşbəxtlik gətirsin, əmin-amanlıq gətirsin, rifah gətirsin.

Azərbaycan Respublikasının prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyevin də arzusu məhz bu idi. O çox istəyirdi ki, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin. Bilirsiniz ki, 1994-cü ildə müstəqilliyimiz üçün müəyyən təhlükələr var idi. Heydər Əliyev çox istəyirdi ki, Azərbaycan xalqı xoşbəxt yaşasın, sülh, əmin-amanlıq bərqərar olsun. Azərbaycan tərəqqi yoluna, inkişaf yoluna qədəm qoysun. Biz bu gün çox böyük məmnunluq hissi ilə deyə bilərik ki, qarşımızda duran bütün məsələlər öz həllini tapdı.

On il ərzində xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan çox uğurlu yol keçmişdir. Ölkəmiz inkişaf etdi, Azərbaycan dünyada öz mövqelərini möhkəmləndirdi, Dünya Birliyinin çox dəyərli üzvünə çevrildi. Azərbaycan öz iqtisadi potensialını çox böyük həcmdə realizə etdi. Bu gün Azərbaycan müasir, dinamik inkişaf edən bir ölkədir. Regional məsələlərdə fəal iştirak edən bir ölkədir. Heç kəs üçün sirr deyil ki, regional əməkdaşlıq Azərbaycanın iştirakı olmadan həyata keçirilə bilməz. Azərbaycan bütün regional layihələrdə çox fəal və aparıcı rol oynayan bir ölkədir.

Mən bu gün çox xoşbəxtəm ki, Azərbaycanın qarşısında duran vəzifələr, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş məsələlər öz həllini tapır. Bu gün «Əsrin müqaviləsi»nin 10-cu ildönümünü qeyd edərək, fərəhlə deyə bilərik ki, ölkəmiz bu illər ərzində daha da gücləndi, daha da möhkəmləndi, xalqımız öz gələcəyini müstəqil, azad şəkildə müəyyən edir. Bu, ən böyük xoşbəxtlikdir, ən böyük nailiyyətdir ki, Azərbaycan müstəqil dövlət kimi, dünyada özünə layiq yerini tuta bildi.

Mən bu gün, eyni zamanda, bu müqavilənin icrasında fəal rol oynamış bütün insanları xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan Dövlət Neft Şirkətini, bizim xarici tərəfdaşlarımızı, müqavilənin icrasında həlledici rol oynayan *bp* şirkətini, digər şirkətləri qeyd etmək istəyirəm. Əminəm ki, bu şirkətlərin vahid siyasəti, vəhdəti uğurların qazanılmasında həlledici rol oynamışdır. Mən çox şadam ki, Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərlə yerli şirkətlər – Dövlət Neft Şirkəti və Azərbaycanın digər şirkətləri arasında çox uğurlu işbirliyi, əməkdaşlıq var. Məhz bu əməkdaşlıq bizə imkan verir ki, bütün çətin vəziyyətlərdən şərəflə çıxaq, qarşımızda duran bütün maneələrə baxmayaraq, istədiyimizə, arzumuza nail ola bilək.

Mən onu da qeyd etmək istəyirəm ki, sentyabrın 20-si Azərbaycanda Neftçilər günüdür. Bildiyiniz kimi, böyük bir qrup – həm xarici şirkətlərin işçiləri, eyni zamanda, Dövlət Neft Şirkətinin işçiləri Azərbaycan dövlətinin yüksək orden və medalları ilə təltif olundu. Mən bu fürsətdən istifadə edib, təltif olunanların hamısını ürəkdən təbrik edirəm.

Azərbaycan uğurla inkişaf edir. Əminəm ki, Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapacaqdır. Əlbəttə, Azərbaycanın iqtisadi potensialının formalaşmasında müstəsna rol oynayan Azərbaycan Dövlət Neft Şirkəti və onun əməkdaşları bu gün xüsusilə qeyd olunmalıdırlar. Mən çox şadam, xoşbəxtəm ki, həyatımın böyük hissəsi – 9 ili Azərbaycan Dövlət Neft Şirkəti çərçivəsində keçmişdir. Bütün bu layihələrdə, bütün bu işlərdə hamımız birlikdə, vahid bir komanda kimi işləmişik, bir məqsədə qulluq etmişik: Azərbaycanı daha da gücləndirmək, Azərbaycanı daha da zənginləşdirmək, Azərbaycanın dövlət maraqlarını daha da yüksək sə-

viyyədə müdafiə etmək. Mən çox şadam ki, bütün bu məqsədlər öz həllini tapıbdır və biz bu gün gözəl mərasim keçiririk.

Mən bu müqavilədə fəal iştirak etmiş, kömək etmiş, bizim uğurlarımıza sevinmiş bütün insanlara, dostlarımıza öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bütün Azərbaycan xalqını bu gözəl bayram münasibətilə təbrik etmək istəyirəm.

Bu badələri Azərbaycanın xoşbəxt gələcəyi şərəfinə qaldırıram. Sağ olun!

**NORVEÇİN DÖVLƏT KATİBİ, ENERGETİKA NAZİRİNİN MÜAVİNİ OLUF ULSETHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*20 sentyabr 2004-cü il*

Qonaqları səmimiyyətlə salamlayan prezident İlham Əliyev onların «Əsrin müqaviləsi»nin 10 illiyi münasibətilə Bakıda keçirilən tədbirlərdə iştirak etmək üçün respublikamıza gəlmələrindən məmnunluq duyduğunu bildirdi.

Dövlətimizin başçısı 10 il bundan əvvəl, Azərbaycan tarixi sınaqlarla üzləşən zaman Bakıda «Əsrin müqaviləsi»nin imzalanması mərasimində iştirak edən ölkələrin və onları təmsil edən şirkətlərin fəaliyyətini yüksək qiymətləndirdi.

1994-cü ildən bəri ötən illər ərzində Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən neft sənayesində böyük uğurlar qazanıldığını bildirən prezident dedi ki, biz «Əsrin müqaviləsi»ni imzalayarkən neft gəlirlərini xalqın rifahının yüksəldilməsinə yönəltməyi qarşımıza məqsəd qoymuşduq. İxrac neft və qaz kəmərləri işə salındıqdan sonra əldə olunan gəlirlər xalqımızın rifahını daha da yaxşılaşdıracaqdır. Neft gəlirlərindən istifadə olunmasında şəffaflığın təmin edildiyini diqqətə çatdıran dövlətimizin başçısı bildirdi ki, bu siyasət bundan sonra da uğurla davam etdiriləcəkdir.

Azərbaycan ilə Norveç arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən prezident İlham Əliyev «Statoyl» şirkətinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini xatırlatdı.

Ölkəmizin başçısı qeyd etdi ki, Azərbaycanın əsas məqsədi qeyri-neft sektorunda da yüksək inkişafa nail olmaqdır. Norveçin bu sahədəki təcrübəsi Azərbaycan üçün maraqlıdır. Biz təcrübə mübadiləsindən, qarşılıqlı faydalı əməkdaşlıqdan uğurla bəhrələnməliyik.

Azərbaycan prezidenti ölkələrimiz arasında münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu bildirdi.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən nümayəndə heyətinin rəhbəri Oluf Ulseth dedi ki, Azərbaycan təkcə neft sahəsində deyil, bütün sahələrdə böyük uğurlar qazanmışdır. Biz Azərbaycana səfərlər zamanı bu inkişafı öz gözlərimizlə görmüşük.

Norveç ilə Azərbaycan arasında energetika sahəsində əlaqələrin sürətlə inkişaf etdiyini xatırladan qonaq bildirdi ki, «Statoyl» bu işdə çox fəallıq göstərir. O, əminliyini bildirdi ki, bu əlaqələr gələcəkdə də uğurla davam edəcəkdir.

Prezident İlham Əliyev səmimi salamlarını və dərin ehtiramını Norveçin Baş naziri Kyel Maqne Bundevikə çatdırmağı qonaqdan xahiş etdi.

## TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ HİLMİ GÜLƏRİN BAŞÇILIĞI İLƏ ÖLKƏMİZƏ GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*20 sentyabr 2004-cü il*

Prezident İlham Əliyev qonaqları səmimiyyətlə salamlayaraq bildirdi ki, bu günlər Azərbaycan «Əsrin müqaviləsi»nin onuncu ildönümünü geniş qeyd edir.

Bu müqavilənin imzalandığı ilk günlər Türkiyə daim Azərbaycanın yanında olub, qardaş ölkənin şirkətləri müqavilənin həyata keçirilməsində yaxından iştirak edirlər. Dövlətimizin başçısı vurğuladı ki, ötən on ildə Azərbaycan bütün sahələrdə böyük nailiyyətlər əldə etmiş, o cümlədən «Əsrin müqaviləsi»nin reallaşdırılması ilə əlaqədar qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilmişdir. Bakı–Supsa neft kəməri çəkilmişdir, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin gələn il işə salınmasını səbirsizliklə gözləyirik. «Şahdəniz» yatağından çıxarılacaq təbii qazın dünya bazarına çatdırılması layihəsinin reallaşdırılması sahəsində də böyük irəliləyişlər əldə olunmuşdur.

Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasındakı daimi dostluq və qardaşlıq əlaqələrinin sürətlə inkişaf etdiyini vurğulayaraq əminliklə bildirdi ki, bu münasibətlər gələcəkdə daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlıq edən nazir Hilmi Gülər Türkiyə prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını, hörmət və ehtiramlarını respublikamızın rəhbərinə çatdırdı. O dedi ki, ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən neft sahəsində əməkdaşlıq sürətlə inkişaf edir. Ceyhan terminalına türk dünyasının böyük oğlu Heydər Əliyevin adı verilmişdir. Bu, əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsində Heydər Əliyevin xidmətlərinin etirafının bariz nümunəsidir.

Nazir «Şahdəniz» layihəsinin də uğurla həyata keçirilməsindən söhbət açdı və dedi ki, ümummilli lider Heydər Əliyevin «Biz bir millət, iki dövlətik» müdrik kəlamına söykənən əlaqələrimiz gələcəkdə daha da inkişaf edəcəkdir.

Sonra nazir Türkiyə prezidenti Əhməd Necdət Sezərin təbrik məktubunu prezident İlham Əliyevə təqdim etdi.

## RUSİYA FEDERASİYASININ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİR İQOR YUSUFOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*20 sentyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayaraq dedi ki, Bakı–Novorossiysk neft kəməri buna yaxşı misaldır, həmin marşrut indi də uğurla işləyir və gələcəkdə də bu cür fəaliyyət göstərəcəyinə əminəm.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində Rusiya, Azərbaycan və Qazaxıstan arasında ikitərəfli sənədlər imzalandığını nəzərə çatdıran dövlətimizin başçısı dedi ki, ümid edirik ki, bu razılaşmalar Xəzərin hüquqi statusunun tam şəkildə həll olunması məsələsinə öz müsbət təsirini göstərəcəkdir.

Prezident İlham Əliyev İqor Yusufovu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi, ona gələcək fəaliyyətində uğurlar arzuladı.

Səmimi qəbula və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən İqor Yusufov əsası Heydər Əliyev tərəfindən qoyulmuş «Əsrin müqaviləsi»nin on illiyinin Azərbaycanda təntənəli surətdə bayram edilməsindən məmnunluqla söhbət açdı.

Azərbaycan ilə Rusiyanın bütün sahələrdə əməkdaşlığının durmadan inkişaf etməsindən razılıqla bəhs edən cənab İqor Yusufov bildirdi ki, Rusiya şirkətləri gələcəkdə də Azərbaycanın enerji layihələrində fəallıqla iştirak etmək əzmindədirlər. Qonaq daha sonra dedi ki, ölkələrimiz arasında təkcə neft sahəsində yox, energetika sahəsində əməkdaşlıq uğurla davam edir və bu, Azərbaycan–Rusiya strateji tərəfdaşlıq prinsiplərinə cavab verir.

Cənab Yusufov vurğuladı ki, Azərbaycan və Rusiya prezidentləri arasındakı səmimi dostluq münasibətləri ölkələrimizin bütün sahələrdə əlaqələrinin inkişafına xüsusi təkan verir.

Sonra qonaq Rusiya prezidenti Vladimir Putinin təbrik məktubunu prezident İlham Əliyevə təqdim etdi.

Rusiya prezidentinin təbrik məktubuna görə dərin minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev səmimi salamlarını və ehtiramını cənab Vladimir Putinə çatdırmağı xahiş etdi.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB JVANİYA İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*20 sentyabr 2004-cü il*

Hörmətli qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında bütün sahələrdə dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, o cümlədən energetika sahəsində əməkdaşlığımız çox səmərəli və yüksək səviyyədə davam edir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan təcavüzkar separatçılığa qarşı mübarizədə Gürcüstanın mövqeyini müdafiə edir və ərazi bütövlüyünü dəstəkləyir.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.

Səmimi qəbula görə minnətdarlıq edən qonaq cənab Mixail Saakaşvilinin salamlarını dövlətimizin başçısı İlham Əliyevə çatdıraraq dedi ki, iki ölkənin prezidentləri arasındakı səmimi dostluq Azərbaycan–Gürcüstan münasibətlərinin daha da inkişaf etdirilməsinə xüsusi təkan verir.

Zurab Jvaniya bildirdi ki, Heydər Əliyevin müdrikliyi və uzaqgörən siyasəti sayəsində əsası qoyulmuş neft strategiyasının uğurlu nəticələri bu gün göz qabağındadır və prezident İlham Əliyev də bu siyasəti müvəffəqiyyətlə davam etdirir. O, Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın durmadan inkişaf etməsindən məmnunluqla söhbət açdı.

Cənab Jvaniya vurğuladı ki, Qafqazdakı problemlərə və beynəlxalq münasibətlərə dair məsələlərə yanaşmada Azərbaycan ilə Gürcüstanın mövqeyi eynidir.

Qonaq əmin olduğunu bildirdi ki, dost və qardaş ölkələrimiz arasında münasibətlər bundan sonra da uğurla inkişaf edəcəkdir.

* * *

Sentyabrın 20-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və «Əsrin müqaviləsi»nin 10-cu ildönümü münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfərə gəlmiş Gürcüstanın Baş naziri Zurab Jvaniya Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan prezidenti İlham Əliyev gürcüstanlı qonağa xalqımızın ümummilli lideri Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barədə söhbət açdı.

Zurab Jvaniya ümummilli liderimiz Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarından bəhs edən, Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafı naminə onun qonşu ölkənin dövlət və hökumət rəhbəri ilə keçirdiyi görüşlərə dair çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında yazılmış kitablarla tanış oldu.

Sonra Gürcüstanın Baş naziri Heydər Əliyev Fondunun fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

***«Azərbaycan xalqının dahi lideri Heydər Əliyevin xatirəsi önündə baş əyirəm. Biz Heydər Əliyevə, onun iradəsinə, apardığı mübarizəyə görə minnətdarıq. Məhz onun səyləri nəticəsində Gürcüstan işıqlı gələcəyə olan inamını qoruyub saxlayır və Azərbaycanla birgə sabaha doğru addımlayırıq.***

***Heydər Əliyev güclü və sürətlə inkişaf edən Azərbaycan dövləti qurmuş, regionun inkişafı üçün geniş imkanlar yaratmışdır.***

***Bu böyük lider ilə hər görüşümdən iftixar hissi duyuram.***

***Səmimi heyranlıq hissi ilə,***
***Zurab Jvaniya***
***Gürcüstanın Baş naziri».***

*Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri Zurab Jvaniya Heydər Əliyev Fondunun yerləşdiyi binanın eyvanından Bakının mənzərəsini seyr etdilər.*

**ATƏT-in HAZIRKI SƏDRİNİN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ÜZRƏ XÜSUSİ ELÇİSİ FİLİPP DİMİTROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*21 sentyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı xalqımız üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Ermənistanın Azərbaycana təcavüzünə toxunaraq bildirdi ki, bu münaqişə ümumilikdə bütün bölgədə sülhün və sabitliyin təmin olunması işinə böyük əngəl törədir. Prezident İlham Əliyev dedi ki, bu münaqişə ilə əlaqədar Azərbaycanın mövqeyi dəyişməzdir. Bu problem beynəlxalq hüquq normaları və prinsipləri – ölkələrin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipləri əsasında həll olunmalıdır. Əgər məsələyə başqa cür yanaşma olarsa, bu münaqişə heç cür həll edilə bilməz. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edildiyi təqdirdə, bölgədə sülh və təhlükəsizlik təmin olunar, firavanlıq, əmin-amanlıq yaranar, iqtisadi inkişaf prosesi sürətlənər. Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, beynəlxalq təşkilatlar – Avropa Birliyi, Avropa Şurası və digər təşkilatlar bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması işinə getdikcə daha çox maraq göstərirlər. ATƏT-in Minsk qrupu bu münaqişənin sülh yolu ilə həll edilməsi sahəsində xüsusi mandata malikdir. Təəssüf ki, Minsk qrupunun fəaliyyəti indiyədək müsbət nəticə verməyibdir. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Minsk qrupu bu sahədə səylərini daha da artıracaqdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Filipp Dimitrov Azərbaycana səfərindən böyük məmnunluq duyduğunu söylədi. O dedi ki, Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərinin münaqişənin sülh yolu ilə həll olunmasında böyük rolu vardır.

Qonaq əmin olduğunu bildirdi ki, tərəflər münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün öz səylərini davam etdirəcəklər.

**SAATLI RAYONUNDAKI ƏLİSOLTANLI KƏND ORTA MƏKTƏBİNƏ**

Hörmətli müəllimlər!

Əziz şagirdlər!

Saatlı rayonu Əlisoltanlı kənd orta məktəbinin 100 illik yubileyi münasibətilə sizi, məktəbin məzunlarını və respublikamızın bütün maarif işçilərini səmimi-qəlbdən təbrik edirəm.

Keçən əsrin əvvəllərində Azərbaycan maarifçilərinin vətənpərvərliyi, böyük səyləri və fədakarlığı nəticəsində fəaliyyətə başlamış Əlisoltanlı kənd orta məktəbi uzun illərdən bəri ölkəmizin tanınmış təhsil ocaqlarından biri sayılır. Ümidvaram ki, məktəbiniz öz zəngin ənənələrini bundan sonra da uğurla davam etdirəcək, gənc nəslin biliklərə dərindən yiyələnməsi, layiqli vətəndaş kimi formalaşması üçün var gücünü əsirgəməyəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə yüz yaşlı məktəbinizin müəllim və şagirdlərinə, məzunlarına, bütün təhsil işçilərinə cansağlığı, xoşbəxtlik, böyük uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 sentyabr 2004-cü il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün Çin xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qədim ənənələrə malik Azərbaycan–Çin əlaqələrinin bugünkü səviyyəsindən məmnunluq duyuruq.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 sentyabr 2004-cü il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA**

Hörmətli cənab Prezident!

Nigeriya Federativ Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Nigeriya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Nigeriya xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 sentyabr 2004-cü il*

**QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LANSANA KONTEYƏ**

Hörmətli cənab Prezident!

Qvineya Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qvineya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qvineya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 sentyabr 2004-cü il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ**

Hörmətli cənab Federal Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Almaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq duyuruq. Əminəm ki, bu yaxınlarda ölkənizə səfərim zamanı Sizinlə görüşümüz, ikitərəfli münasibətlər və onların perspektivləri ətrafında apardığımız fikir mübadiləsi əlaqələrimizin genişlənməsi istiqamətindəki səylərimizə yeni təkan verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 sentyabr 2004-cü il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ**

Hörmətli cənab Federal Kansler!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Almaniya münasibətlərinə böyük əhəmiyyət veririk. Ümidvaram ki, ölkənizə səfərim zamanı Sizinlə görüşümüz, apardığımız danışıqlar, imzaladığımız sənədlər ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq əlaqələrinin yeni səviyyəyə yüksəlməsinə bilavasitə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, ölkənizə əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 sentyabr 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NYU-YORKA SƏFƏRİ

*22 sentyabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 59-cu sessiyasının ümumi müzakirələrində iştirak etmək üçün sentyabrın 22-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə gəlmişdir.*

*Kennedi Hava Limanında dövlətimizin başçısını Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev, ölkəmizin BMT-dəki daimi nümayəndəsi səfir Yaşar Əliyev qarşılamışlar.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 23-də Nyu-Yorkda «Ualdorf Astoriya» mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda ATƏT-in hazırkı sədri, Bolqarıstan Respublikasının Xarici İşlər naziri Solomon Passini qəbul etmişdir.*

*Söhbət zamanı dövlətimizin başçısı ATƏT-in hazırkı sədrini Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün səylərini daha da artırmağa çağırmışdır.*

*Görüşdə ATƏT-in gələcək fəaliyyəti barədə və bu təşkilatın genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır. Cənab Solomon Passi bu məsələ ilə bağlı Bolqarıstanın mövqeyi haqqında prezident İlham Əliyevə ətraflı məlumat vermişdir.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 23-də Nyu-Yorkda «Ualdorf Astoriya» mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda İspaniyanın Xarici İşlər naziri Migel Anxel Moratinos Kuyyaubeni qəbul etmişdir.*

*Cənab Moratinos İspaniya kralı I Xuan Karlosun və Baş nazir Xose Luis Rodriges Sapateronun səmimi salamlarını Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı. O bildirdi ki, İspaniya hökuməti Azərbaycanda gedən prosesləri yaxından izləyir və prezident İlham Əliyevin apardığı siyasəti yüksək qiymətləndirir.*

*Azərbaycan prezidenti İspaniya kralı və Baş nazirinin səmimi salamlarına görə təşəkkürünü bildirərək dedi ki, ölkələrimiz arasında ikitərəfli əlaqələri inkişaf etdirmək üçün böyük potensial vardır. Ölkələrimiz bu potensialdan istifadə edərək siyasi, iqtisadi və digər sahələrdə münasibətləri genişləndirməlidir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanın beynəlxalq strukturlara inteqrasiyası uğurla davam edir. Ölkəmiz Avropa Birliyinin qonşuluq siyasətinə daxil edildikdən sonra biz bu qurumla və onun üzvləri ilə münasibətləri yeni mərhələyə qaldırmaq niyyətindəyik. Dövlətimizin başçısı İspaniya kralına və Baş nazirinə onun səmimi salamlarını çatdırmağı xahiş etdi.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 23-də «Ualdorf Astoriya» mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda Eksson/Mobil şirkətinin prezidenti Tim Seykanı qəbul etmişdir.*

*Cənab Tim Seyka Azərbaycan üçün əlamətdar hadisə – «Əsrin müqaviləsi»nin imzalanmasının onuncu ildönümü münasibətilə prezident İlham Əliyevi təbrik etdi. O, Xəzərin təbii ehtiyatlarının işlənilməsinə dair layihələrin uğurla həyata keçirilməsindən məmnunluqla söhbət açdı.*

*Görüşdə həmin layihələr ətrafında fikir mübadiləsi edildi. Bununla əlaqədar Eksson/Mobil şirkətinin Azərbaycanda gələcək fəaliyyəti də diqqət mərkəzində oldu.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 23-də «Ualdorf Astoriya» mehmanxanasında, onun üçün ayrılmış iqamətgahda Soros Fondunun prezidenti Corc Sorosu qəbul etmişdir.*

*Söhbət zamanı fondun Azərbaycanda həyata keçirdiyi layihələr barədə fikir mübadiləsi aparılmış, keçid dövründə həmin layihələrin əhəmiyyəti vurğulanmışdır.*

*Prezident İlham Əliyev Azərbaycanda aparılan demokratik, iqtisadi islahatlar haqqında söhbət açmış, eyni zamanda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin inkişafına mənfi təsirindən danışmışdır.*

*Corc Soros demişdir ki, Xəzərin karbohidrogen yataqlarının işlənilməsindən əldə olunan gəliri Azərbaycan əhalisinin yaşayışının yüksəldilməsinə yönəldəcək Neft Fondunun yaradılması və onun şəffaf şəkildə idarə edilməsi çox müsbət haldır. O, ümidvar olduğunu bildirmişdir ki, Azərbaycanda aparılan siyasi, sosial-iqtisadi islahatların sürəti ləngiməyəcəkdir.*

## BMT BAŞ MƏCLİSİNİN 59-cu SESSİYASININ ÜMUMİ MÜZAKİRƏLƏRİNDƏ ÇIXIŞI

*Nyu-York*

*24 sentyabr 2004-cü il*

Hörmətli cənab Sədr!

Xanımlar və cənablar!

Əvvəlki natiqlərə qoşularaq cənab Jan Penqi BMT Baş Məclisi 59-cu sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik edirəm. Mən həmçinin onun sələfi cənab Julian Robert Hanteyə 58-ci sessiyaya sədrliyi dövründə Məclisi nümunəvi idarə etməsi münasibətilə təbriklərimi çatdırmaq istərdim.

Cənab Sədr!

Üzv dövlətlər Minilliyin Zirvə Toplantısında özlərinin qlobal həmrəyliyə və ümumi təhlükəsizliyə şərikli baxışlarına sadiqliyini ifadə etmişlər. Biz daha sülhsevər, təhlükəsiz və ədalətli dünya üçün çox zəruri olan BMT və onun Nizamnaməsinə inamımızı bir daha təsdiqləmişdik.

Yeni əsrə qədəm qoyan zaman bütün dövlətlərin lazım olan anda bu təşkilata güvənməsi və öz növbəsində BMT-nin dünyanın ondan gözlədiyini həyata keçirməsi məqsədi ilə beynəlxalq hüququn ümdə vacibliyini təmin etmək üçün əlimizdən gələni etmişik.

Fəaliyyətimizin bir qismi qəddar silahlı münaqişələrin qurbanlarına çevrilmiş milyonlarla günahsız insanların, xüsusilə qadın və uşaqların müdafiə edilməsi məqsədini daşıyır. Fəaliyyətimizin digər qismi isə bütün dövlətlərin doğru rəqabəti üçün bərabər imkanları təmin edən daha ədalətli dünya iqtisadiyyatının qurulmasına yönəlmişdir.

Azərbaycan qlobal və regional təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verməkdədir.

Ölkəmiz beynəlxalq terrorizmə qarşı qlobal koalisiyanın fəal üzvlərindən biri olaraq, günahsız insanlara ölüm və məşəqqət gətirməkdə davam edən bəlanın qarşısını almaq məqsədi ilə həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə etibarlı əməkdaşlıq həyata keçirir.

Azərbaycan öz ərazisində mövcud olan silahlı münaqişələrin nəticələrindən birbaşa əziyyət çəkən ölkələrdəndir.

Əslində bu münaqişələr bir-birinə bağlıdır və bizim bu münaqişələri birgə əməkdaşlıq əsasında kompleks şəkildə aradan qaldırmaqdan başqa yolumuz yoxdur. Bu işdə heç bir «ikili standart»lara yol vermək olmaz.

Cənab Sədr!

Azərbaycan BMT-yə üzv olduğu ilk günlərdən daim beynəlxalq birliyin diqqətini Dağlıq Qarabağ ilə bağlı Ermənistan–Azərbaycan münaqişəsi və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması məsələsinə yönəltmişdir. Ölkəmiz BMT-dən təcavüzkarı işğal olunmuş torpaqlardan geri çəkilməyə məcbur edəcəyini və beləliklə, öz yurdlarından qovulmuş Azərbaycan vətəndaşlarının daimi yaşayış yerlərinə qayıtması üçün imkan yaradılacağını gözləyirdi.

Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 nömrəli 4 qətnaməni yekdilliklə qəbul etdiyini bir daha yada salmaq istərdim. Bu qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırmış və ərazilərin əldə edilməsi məqsədi ilə güc işlədilməsinin yolverilməz olduğunu vurğulamışdır. BMT qətnamələri Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını və köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunmasını tələb etmişdir.

Sülhün, ədalətin, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çağıran qətnamələrin heç biri münaqişənin həlli üçün əsas təşkil edən beynəlxalq hüququn fundamental prinsiplərini heç zaman tanımayan və onlara hörmət etməyən Ermənistan tərəfindən yerinə yetirilməmişdir.

Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və Azərbaycanın 7 digər rayonu on ildən artıqdır ki, Ermənistan tərəfindən işğal olunmuşdur. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Cənab Sədr!

Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzünün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə etibarilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Mühari-

bə Zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti pozulmasıdır.

Bundan əlavə, həmin ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədi ilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir.

İşğal olunmuş Azərbaycan torpaqları Azərbaycan hökumətinin nəzarətindən kənarda qalan «boz ərazi»yə və beynəlxalq monitorinqdən azad bir əraziyə çevrilmişdir.

Öz-özünü elan etmiş və heç kim tərəfindən tanınmayan qondarma «Dağlıq Qarabağ Respublikası» bölgədə sülh və təhlükəsizlik üçün daimi təhlükə mənbəyidir.

Təcavüzkar Ermənistan və Dağlıq Qarabağ separatçıları xarici şirkətləri də qeyri-qanuni biznesə cəlb etməyə çalışaraq işğal olunmuş Azərbaycan ərazilərində təbii sərvətləri də istismar edirlər. Mən üzv dövlətləri öz vətəndaşlarını və şirkətlərini beynəlxalq hüquq normalarına hörmət bəsləməyə məcbur etməyə və onların ölkəmizin ərazisində qeyri-qanuni fəaliyyət göstərməsinin qarşısını almağa çağırıram.

Öz növbəsində Azərbaycan suveren dövlətimizə məxsus olan təbii sərvətlərin mənimsənilməsində iştirak etdiklərinə görə bu şirkətlərin məsuliyyət daşıması üçün bütün lazımi hüquqi və praktiki tədbirləri həyata keçirəcəkdir.

Bundan başqa, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixini saxtalaşdırır, mədəni və arxitektura irsinə qeyri-qanuni şəkildə yiyələnir.

Dini və tarixi abidələrimiz, qədim əlyazmalarımız və digər mədəni sərvətlərimiz dağıdılmış, özününküləşdirilmiş və talanıb aparılmışdır.

Münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir.

Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in və onun Minsk qrupunun problemə passiv və biganə yanaşdığı və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti və onun danışıqlar prosesində tutduğu mövqe bir daha sübut edir ki, Ermənistan münaqişəni baş vermiş fakt əsasında zorla qəbul etdirməyə çalışaraq, nəinki problemin nizamlanması yollarını axtarmır, hətta danışıqların daha da uzadılması və təcavüzün nəticələrini möhkəmləndirmək məqsədi güdür.

Mən bu yüksək tribunadan vurğulamaq istəyirəm ki, münaqişə etnik təmizləmə və de-fakto suveren dövlətin ərazilərinin ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq və demokratiya normaları əsasında həll edilə bilər.

Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır.

Cənab Sədr!

Azərbaycanın məcburi köçkün düşmüş vətəndaşlarının öz doğma yurdlarına qayıtması münaqişənin həlli prosesində bizim üçün ən əsas prioritetlərdən birini təşkil edir. Lakin öz yurdlarından qovulmuş, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş insanlarımız öz yurdlarına qayıdana qədər bütün müvafiq BMT təsisatlarının, donor ölkələrin və beynəlxalq humanitar təşkilatların ən çox zərər çəkmiş əhalinin iztirablarının aradan qaldırılması işinə daha fəal cəlb olunmasına təcili zərurət vardır.

Azərbaycan hökuməti bu işdə bütün vaxtını, səylərini və maliyyə imkanlarını əsirgəmir, lakin məcburi köçkünlərin sayı nəzərə alınarsa, bu, kifayət etmir. Bu işdə müvafiq beynəlxalq təşkilatların hökumətimizə yardımı vacib bir məsələdir.

Bu sahədə sırf maddi yardımdan başqa, problemə beynəlxalq diqqətin yenidən artırılmasına, həmçinin BMT və onun müvafiq təsisatları tərəfindən bütün beynəlxalq təşkilatların fəaliyyətini əlaqələndirmək üçün daha yaxşı şəraitin təmin edilməsinə ehtiyac duyulur. Biz Azərbaycandakı «unudulmuş humanitar böhran»la bağlı BMT-dən daha məsuliyyətli strategiya gözləyirik.

Cənab Sədr!

Azərbaycan yoxsulluğun aradan qaldırılması və yaxşı idarəçilik məqsədlərinə sadiqdir. Bu mövqeyə və həyata keçirilən tədbirlərə əsaslanaraq biz Azərbaycanda iqtisadi fəaliyyətin və artımın genişlənməsini müşahidə edirik. Azərbaycan transregional əməkdaşlığın inkişafı işinə öz töhfəsini verir və TRASEKA, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz boru xətləri kimi nəqliyyat və kommunikasiya şəbəkələrinin inkişafında böyük rol oynayır.

Bu layihələr açıq dənizə çıxışı olmayan ölkələrin ixrac üçün dünya bazarlarına və regional bazarlara sabit çıxışını təmin edəcəkdir. İştirakçı dövlətlərin ən kasıb təbəqələri bundan bəhrələnəcəkdir.

Cənab Sədr!

Bütün təhdidlərin öhdəsindən uğurla gəlmək üçün BMT özünü yeni şəraitə uyğunlaşdırmalıdır. BMT-də uzun müddət söhbəti gedən islahatlar məsələsi, nəhayət, öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının problemləri, xüsusilə də silahlı münaqişələrə aid problemləri həll etməyə qadir olmaması etiraf edilməlidir.

Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ şəkildə cavab verməlidir.

Ümdə məsələ BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasından ibarətdir.

Cənab Sədr!

Hazırkı problemlərin həllinə səmərəli yanaşmanı kollektiv şəkildə tətbiq etmək hər birimizin borcudur. Belə ki, bu, millətlərin davamlı və demokratik inkişafı üçün sabit mühitin yaradılmasına xidmət edə bilər. Buna yalnız beynəlxalq hüququn normaları və prinsiplərinin həyata keçirilməsi, dövlətlər arasında dostluq münasibətləri və qarşılıqlı surətdə faydalı əməkdaşlıq vasitəsilə nail olmaq mümkündür.

Diqqətinizə görə çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KOFİ ANNAN İLƏ GÖRÜŞÜ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 24-də Birləşmiş Millətlər Təşkilatının iqamətgahında BMT-nin Baş katibi Kofi Annan ilə görüşmüşdür.*

*Səmimilik şəraitində keçən görüşdə Azərbaycan ilə BMT arasında əlaqələrə dair fikir mübadiləsi aparılmışdır.*

*Prezident İlham Əliyev Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində görülən işlərdən danışmış, eyni zamanda xüsusi vurğulamışdır ki, uzun illərdən bəri davam edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəinki ölkəmizin, ümumən Cənubi Qafqazın inkişafına əngəl törədir, regionda sülh və sabitlik üçün başlıca təhlükə olaraq qalır.*

*Azərbaycanın problemi sülh yolu ilə həll etmək istədiyini bildirən prezident İlham Əliyev bu işdə BMT-nin rolunun artırılmasının vacibliyini nəzərə çatdıraraq demişdir ki, təcavüzkar Ermənistan bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə məhəl qoymur. Hesab edirik ki, BMT kimi nüfuzlu beynəlxalq təşkilat qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsinə biganə qalmamalıdır. Azərbaycan isə torpaqlarının işğalı ilə heç vaxt barışmayacaqdır.*

*Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan çox insanın problemlərini həll etməyin Azərbaycan üçün ağır yük olduğunu xatırladan dövlətimizin başçısı BMT-nin əlaqədar təsisatlarının, donor ölkələrin bu məsələyə diqqətinin artırılmasının zəruriliyini vurğulamışdır.*

*Cənab Kofi Annan dövlətlərin BMT tərəfindən tanınmış sərhədlərinin dəyişməz olduğunu bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll ediləcəyinə ümid bəslədiyini söyləmişdir.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 24-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının binasında Cibuti Respublikasının prezidenti İsmail Ömər Qulleh ilə görüşmüşdür.*

*Tanışlıq xarakteri daşıyan görüşdə Cibuti dövlətinin başçısı Azərbaycan prezidentinin BMT Baş Məclisinin 59-cu sessiyasındakı çıxışını diqqətlə dinlədiyini bildirdi.*

*Prezidentlər Azərbaycan və Cibutinin beynəlxalq təşkilatlarda əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi apardılar. Belə bir əminlik ifadə olundu ki, ölkələrimiz arasında münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 24-də Nyu-Yorkda, onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından olan həmsədri səfir Stiven Mənni qəbul etmişdir.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi diqqət mərkəzində oldu. Prezident İlham Əliyev problemin tezliklə sülh yolu ilə həllinin vacibliyini bildirərək, ATƏT-in Minsk qrupunun bu istiqamətdə fəaliyyətinin artırılmasının zəruriliyini vurğuladı.*

**NYU-YORKA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ ABŞ-ın ƏN TANINMIŞ ALİ MƏKTƏBLƏRİNDƏN OLAN KOLUMBİYA UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞDƏ* ÇIXIŞ**

*24 sentyabr 2004-cü il*

.

**Kolumbiya Universiteti Yer İnstitutunun direktoru Ceffri Səksin çıxışı**

Xanımlar və cənablar!

Mən institutun direktoru Ceffri Səksəm. İstərdim ki, bu gün hamınızı dünya liderlərinin forumu sessiyasında salamlayım. Bu gün forumumuzun qonağı Azərbaycan Respublikasının prezidenti zati-aliləri İlham Əliyevdir.

Cənab Prezident, görüşə gəldiyinizə görə Sizə minnətdaram. Yəqin özünüz də müşahidə edirsiniz ki, Sizin çıxışınıza hədsiz maraq vardır. Çoxsaylı auditoriya Sizi gözləyir. Düşünürəm ki, Sizin çıxışınıza toplaşmış adamlar, ilk növbədə, yol polisi və təhlükəsizlik xidməti işçilərini ikiqat işləməyə məcbur edir. Prezident buraya Birləşmiş Millətlər Təşkilatından birbaşa gəlir. O, bu gün səhər çıxış etmişdir. Biz çox məmnunuq ki, Siz bizimləsiniz.

Bildiyiniz kimi, bu cür görüşlər bizdə illik keçirilən görüşlərdir. Universitetimizin müəllim-professorları və tələbələri bu forumlarda dünyanın aparıcı fikir sahibləri ilə görüşüb onların baxışlarını öyrənmək, müzakirə aparmaq kimi nadir imkan qazanırlar. Dünya liderlərinin təhsil sahəsindəki qabaqcıl alimlərlə görüşməsi ənənəvi xarakter almışdır. Görüşlərdə həm universitetin tədqiqatçıları, həm də bu sahədəki alimlər iştirak edirlər. Bu gün qonağımız Azərbaycanın prezidentidir. Biz amerikalılar üçün bu ölkə diqqətəlayiq maraq kəsb edir. Qeyri-sabit regionda mühüm lider olan ölkədir. Biz istərdik ki, bu gün regionun gələcəyi ilə bağlı Sizin fikirlərinizi öyrənək.

Prezident İlham Əliyev 1961-ci ildə Bakıda anadan olmuşdur. Dünya liderliyində cavanlaşma prosesi göz qabağındadır. O, Moskvada Beynəlxalq Münasibətlər Universitetini – keçmiş SSRİ-də və bütün dünyada sayılıb-seçilən təhsil ocağını bitirmişdir.

1985-ci ildən 1990-cı ilədək həmin universitetdə dərs demiş, mühazirələr oxumuşdur. Sonra Azərbaycana döndü, 1994-cü ildə Dövlət Neft Şirkətinin vitse-prezidenti oldu. 1995-ci ildə parlamentə seçildi və sonra 2000-ci ildə bir daha seçildi. 2003-cü ildə Baş nazir oldu və elə həmin ildəcə ölkənin prezidenti seçildi.

Cənab Prezident, Sizin burada olmağınızdan hamımız çox həyəcan keçiririk. Sizə minnətdarıq ki, BMT-də çıxışdan və ikitərəfli görüşlərdən dərhal sonra bizi intizarda qoymadınız və Kolumbiya Universitetinə gəldiniz. Kolumbiya Universiteti Sizin burada olmağınızdan qürur hissi keçirir. Biz səbirsizliklə çıxışınızı gözləyirik.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən şərəf hissi keçirirəm ki, sizin universitetdəyəm və bizim ölkə, regionla bağlı fikirləri sizinlə bölüşəcəyik. Əlbəttə, Birləşmiş Ştatlar və Azərbaycanla ikitərəfli münasibətlərin gələcəyi barədə fikirləri də.

Azərbaycan qədim tarixə malik olan ölkədir. Amma müstəqil ölkə kimi 10 ildən bir qədər artıq vaxtdır ki, beynəlxalq aləmin üzvüdür. SSRİ dağıldıqdan sonra Azərbaycan digər keçmiş sovet ölkələri ilə birlikdə müstəqillik qazandı və əlbəttə ki, xalqımızın həyatında yeni bir dövr başlandı.

Müstəqillik qazandıqdan sonra ölkə ağır bir vəziyyətdə idi. Keçmiş əlaqələr kəsilmişdi, ölkə iqtisadi tənəzzül dövrünü keçirirdi. Bu azmış kimi, daxili çəkişmələr, qarşıdurma ölkəni vətəndaş müharibəsinə sürükləmişdi. Üstəgəl, Ermənistanın ölkəmizə qarşı təcavüzü və ərazilərimizin işğal olunması vəziyyəti daha da pisləşdirdi.

Buna baxmayaraq, ölkə birləşə bildi. 1993-cü ildə, Azərbaycanın bütün gələcəyi sual altında olduğu bir vaxtda milli liderimiz Heydər Əliyev prezident seçildi və vəziyyət sabitləşməyə başladı. Siyasi, iqtisadi və sosial sahələrdə vəziyyət dəyişməyə başladı. Artıq 1996-cı ildə biz tənəzzül dövrünə üstün gəlməyə başladıq. 1996-cı ildən bu günə qədər iqtisadi artım sürətlə davam edir. Son 8 ildə iqtisadi göstəricilər üzrə ildə 10 faiz artım müşahidə olunur. Ölkə çox gözəl sərmayə mühiti yarada bilmişdir. Bizdə birbaşa xarici sərmayə yatırımının həcmi kifayət qədər böyükdür. Adambaşına düşən xarici sərmayənin həcmi yüksəkdir. Bu göstəriciyə görə ölkəmiz regionda və keçmiş SSRİ-də lider mövqeyindədir. Neft və qaz sənayesinə çoxmilyardlıq sərmayələr, eləcə də qey-

* Azərbaycan prezidenti ilə görüşü universitetin Yer İnstitutu təşkil etmişdi.

ri-neft sənayesinə sərmayə qoyulması üçün şərait yaradılması bizim prioritet vəzifəmiz olmuşdur. Nəticədə bütün bunlar çox gözəl biznes mühiti yaratmışdır. Bu sərmayələrin hesabına infrastruktur sahələrini inkişaf etdiririk. İqtisadi artım bizə həm də sosial problemləri aradan qaldırmağa yardım edibdir. Xalqımıza daha yaxşı şərait yaratmaq üçün yeni proqramlar həyata keçiririk.

Ölkəmizin yerləşdiyi coğrafi ərazinin özü onun xarici siyasətini müəyyən edir. Biz həm ölkədə, həm də regionda sülh və sabitliyi saxlamağa çalışırıq. Amma region təhlükəsiz deyildir, dünyada təhlükəsiz sayılan region deyildir. Regionumuz əsrlər boyu qarşıdurma, münaqişələr, müharibələr regionu olubdur. Hələ də regionumuzun bəzi hissələrində həmin ağır vəziyyət müşahidə edilir.

Bütün bu məsələlərdə Azərbaycanın siyasi mövqeyi lap əvvəldən müstəqilliyi möhkəmlətməkdən, güclü iqtisadi əsas yaratmaqdan, qonşu ölkələrlə ikitərəfli münasibətləri möhkəmlətməkdən, dostluq əlaqələri yaratmaqdan ibarət olubdur. Əlbəttə ki, həm də Avropaya, Dünya Birliyinə inteqrasiya etmək olubdur. Bu mənada ölkədə böyük uğurlar əldə edilmişdir. Bu gün Azərbaycan fəal surətdə Avratlantik qurumuna inteqrasiya edir. Bizim ölkəmiz Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil olunmuşdur. Biz NATO ilə çox fəal əməkdaşlıq edirik və ilk ölkələrdənik ki, «Sülh naminə tərəfdaşlıq» proqramından sonra NATO ilə fərdi tərəfdaşlıq planı əsasında işləyəcəyik. Azərbaycan bütün digər beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası, MDB ilə və digər qurumlarla sıx işləyərək regional təhlükəsizlik, sabitlik və inkişafa daha çox töhfə verməyə çalışır.

Qarşımızda məqsədlər çoxdur. 2003-cü il prezident seçkilərindən sonra çox ciddi inkişaf proqramları qəbul olunubdur. Beynəlxalq maliyyə təsisatları ilə yoxsulluğun azaldılması proqramı üzrə sıx işləyirik. Növbəti 5 il müddətində 600 min iş yeri açmaq siyasətimiz uğurla həyata keçirilir. Son il ərzində 70 mindən çox iş yeri açılmışdır ki, bunların da böyük qismi qeyri-neft sektorunda, əsasən kənd yerlərindədir. Çünki bu bizim üçün əhəmiyyət kəsb edən məsələdir. Neft sahəsində biz, həqiqətən, çox böyük uğur əldə etmişik. Hazırda biz neft strategiyasının bir hissəsi kimi, karbohidrogen ehtiyatlarının təhlükəsiz, çoxşaxəli nəqlini təmin etmək üzərində işləyirik. Neft və qaz sənayesinə yatırılan sərmayələrin qeyri-neft sahəsi üçün də əhəmiyyəti böyükdür.

Biz bu gün neft strategiyamızın əsas hissəsinin astanasında olarkən regionda təhlükəsizlik böyük əhəmiyyət kəsb edir. Hazırda uğurla inşa olunan neft və qaz kəmərləri təkcə təbii ehtiyatların beynəlxalq ticarət bazarlarına daşınması demək deyildir. Əminəm ki, bu həm də regional təhlükəsizlik və sabitliyə töhfəsini verəcək, praktiki olaraq, regionun gələcək inkişafını bir növ əvvəlcədən müəyyən edəcəkdir. Regional əməkdaşlıq da bizim siyasətimizin əsas elementlərindən biridir. Biz Azərbaycan olaraq məmnuniyyətlə bir sıra regional layihələrin önündə gedirik. Regiondakı nəqliyyat, kommunikasiya, enerji layihələri bizim fəal iştirakımızla həyata keçirilir.

Ölkəmizin və regionumuzun qarşısında duran ən böyük problemlərdən biri hələ də həll olunmayan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi, Azərbaycanın tarixi ərazisidir. Bu ərazidə erməni əhalisi 1828-ci ildən sonra məskən salmışdır. Sovet İttifaqı dağıldıqdan sonra və hətta ondan əvvəl də Dağlıq Qarabağda başlanmış separatist hərəkat bu ərazinin və eləcə də Azərbaycanın digər 7 rayonunun Ermənistan tərəfindən işğalına gətirib çıxartdı. Bu gün bizim 20 faiz ərazimiz Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu işğalın nəticəsi kimi, 1 milyon azərbaycanlı öz torpaqlarını və ev-eşiklərini itirərək qaçqın və köçkünə çevrilmişdir. Bu, böyük humanitar böhran, böyük humanitar faciədir. Nəzərinizə çatdırım ki, Azərbaycan əhalisinin sayı 8 milyondur. Yəqin təsəvvür edirsiniz ki, 8 milyon əhalinin 1 milyonunun qaçqın və köçkün olması böyük problemdir, ölkə üçün ağır yük və humanitar böhrandır. Dünyada mövcud olan digər münaqişələr kimi, bu münaqişənin də həllinin bir yolu vardır: münaqişə beynəlxalq hüquq normalarına riayət olunması əsasında həll edilməlidir. BMT 4 qətnamə çıxarıbdır. Bu qətnamələr erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz geri çəkilməsini tələb edir.

SSRİ dağıldıqdan sonra da BMT Dağlıq Qarabağ ərazisinin Azərbaycanın bir hissəsi olduğunu qəbul edibdir. Bu mənada Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması Ermənistan işğalçı qüvvələrinin Dağlıq Qarabağdan və onun inzibati hüdudlarından kənardakı 7 digər rayondan çıxarılması, münaqişənin sülh yolu ilə həll edilməsi üçün əsas şərtdir.

Bu münaqişə haqqında təfsilatı ilə danışarkən Ermənistan tərəfi millətlərin öz müqəddəratını təyin etməsi prinsipini əsas gətirir. Bu, əlbəttə ki, vacib prinsipdir. Amma qeyd etmək yerinə düşər ki, erməni xalqı artıq öz müqəddəratını təyin edibdir. Onların öz Ermənistan dövləti var və o dövlət beynəlxalq aləmin üzvüdür. Ermənilərin yaşadığı hər bir yerdə öz müqəddəratlarını təyin etməyə başlayacaqları təqdirdə nəyin baş verə biləcəyini təsəvvür etmək çətindir. Beynəlxalq aləmdə azsaylı milli muxtariyyətlər, birliklər kimi tanınmış təsisatlar vardır. Azərbaycan da daxil olmaqla, hər bir ölkədə azlıqlar vardır. Onlar digər xalqlarla sülh şəraitində yaşayırlar. Bu da xalqlar, millətlər və sivilizasiyalar arasında daha yaxşı münasibətlər yaratmağın ən səmərəli yoludur.

Azərbaycan cəmiyyəti tarixən və indi də etnik və dini tolerantlığı ilə səciyyələnibdir. Dini və etnik dözümlülük müasir Azərbaycanın ən böyük nailiyyətlərindən biridir. Beynəlxalq aləm də bu faktı tanıyır və alqışlayır. Ermənistanla olan münaqişəni həll etmək və ərazilərimizin erməni işğalından azad olunması yalnız beynəlxalq hüquq normaları əsasında baş tuta bilər. Çünki dünyada buna alternativ olan mexanizm yoxdur. Hər bir ölkə beynəlxalq hüquq normalarına, BMT-nin qətnamələrinə tabe olmalıdır. Əks təqdirdə, dünyada qanun-qayda ol-

maz. Biz ümid edirik ki, münaqişənin həlli yolu tapılacaqdır. Bu işdə vasitəçilik mandatına malik olan ATƏT-ə və Birləşmiş Ştatların da həmsədri olduğu ATƏT-in Minsk qrupuna ümidlər bəsləyirik.

Birləşmiş Ştatlarla bizim münasibətlərimiz strateji tərəfdaşlıq münasibətləridir. Biz uzun illərdir ki, tərəfdaşıq. Çətin anlarda Azərbaycan yalnız bəyanatlarla deyil, praktik addımlarla da özünün Birləşmiş Ştatların əsl və etibarlı tərəfdaşı olduğunu sübuta yetiribdir. Bizim çox yaxşı əlaqələrimiz, münasibətlərimiz var, müxtəlif sahələrdə – enerji sahəsində, neft və qazın nəqli sahəsində, təhlükəsizlik məsələlərində əməkdaşlıq edirik. Nyu-Yorkdakı dəhşətli fəlakətdən sonra Azərbaycan terrora qarşı beynəlxalq koalisiyaya qoşulan ilk ölkələrdən oldu. Digər mühüm sahələrdə də biz Birləşmiş Ştatlarla sıx işləyərək dünyanı daha çox təhlükəsiz etmək işinə töhfəmizi veririk.

Qeyd etdiyim kimi, bizim regionumuz əlavə diqqət tələb edir. Region kövrək ərazidir, çoxdilli coğrafi ərazidir. Balaca Qafqazda müxtəlif mədəniyyətlərin çoxdilli nümayəndələri yaşayır. Bu ərazini özünə məskən seçmiş bütün xalqlar üçün sülh çox vacibdir. Biz Azərbaycanda sülhü qorumaq üçün əlimizdən gələni edirik. Ölkəmizin sabitliyini qoruyuruq. Bu inkişaf edə biləcəyimiz, məqsədimizə çata biləcəyimiz yeganə yoldur.

Bizim məqsədlərimiz çox aydındır və bunları müxtəlif tədbirlərdə yüksək kürsülərdən bəyan etmişik. Məqsədimiz dünya aləminə daha çox inteqrasiya etmək, əhalimiz üçün daha yaxşı şərait yaratmaqdır. Milli sərvətlərimizin hər bir vətəndaşımıza xidmət etməsini, bəhrə verməsini təmin etməkdir. Beynəlxalq maliyyə təsisatları ilə çox sıx işləyirik. Neftdən gələn gəlirlərlə bağlı maksimum şəffaflıq yaratmaq məqsədi ilə çalışırıq. Bir neçə il əvvəl prezident fərmanı ilə bu məqsədlə Neft Fondu yaradılmışdır və həmin fond adı çəkilən istiqamətdə mühüm rol oynayır. Biz Azərbaycanı müasir, demokratik, regional inkişafa, dünya təhlükəsizliyinə daha çox töhfə verən, təhlükəsizlik və sülh şəraitində yaşayan ölkə kimi görmək istəyirik.

Mənə ayrılmış vaxt azalır. Diqqətinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Suallara cavab verməkdən məmnun olardım. Çox sağ olun.

* * *

**C e f f r i  S ə k s:** Çox sağ olun. Sual vermək istəyənlər üçün iki mikrofonumuz var. Xahiş edirəm, mikrofonlara yaxınlaşasınız. İki tələb var – özünüzü təqdim edin, suallarınızı qısa və konkret verin. Bəyanat və çıxışlara yol verilməsin. Cənab Prezident, suallardan əvvəl istərdim ki, öz üstünlüyümdən istifadə edim, birinci sualı özüm verim. İraqla bağlı sizin fikirlərinizi öyrənmək maraqlı olardı. Sizin birbaşa qonşuluğunuzda olmasa da, regionda olan ölkədir. Oradakı şərait nəzarətsizdir. Sizcə, vəziyyətdən çıxış yolu hansıdır?

**İ l h a m  Ə l i y e v:** Əlbəttə ki, biz istərdik ki, İraqdakı vəziyyət mümkün qədər tez bir zamanda düzəlsin. Azərbaycan İraqın sabitliyi üçün vacib rol oynamağa hazırdır. Bizə elə gəlir ki, İraq xalqının ölkədə həlledici qərar çıxarmaq prosesində daha fəal rol oynaması üçün imkan yaratmaq lazımdır. Hazırkı şərait təhlükəlidir və hadisələrin gələcək inkişafını əvvəlcədən görə bilmək çox çətindir. Beynəlxalq aləm bu məsələ ilə bağlı gərək səylərini cəmləşdirsin. Azərbaycan bu istiqamətdə öz rolunu oynayır. Bizim hərbi kontingent İraqdadır, vəziyyəti nəzarətdə saxlamaq üçün lazımi kömək göstərir. Amma daha çox beynəlxalq diqqət və daha geniş koalisiya lazımdır ki, məsələ mümkün qədər tez həll olunsun. Təəssüf ki, hər hansı bir həllin konturları görünmür və bu da bizi çox narahat edir. Baxmayaraq ki, bizim sərhədlərə çox yaxın ərazi deyil, amma region ölkələri bir-birilə bağlıdır. İraqda vəziyyətin korlanması digər ölkələrə də təsir edə bilər.

**C e f f r i  S ə k s:** Çox sağ olun. Daha 10 sual da verərdim, amma gözləyənlərə imkan verək.

**N i h a d  Ə l i y e v:** Cənab Prezident, mən Kolumbiya Universitetinin məzunuyam. Çox sağ olun ki, bizə şərəf verib gözəl universitetdə çıxış etdiniz. Cənab Prezident, Sizə sualım BMT–Azərbaycan münasibətləri ilə bağlıdır. Üç gün əvvəl Corc Buş BMT-də çıxış etdi. Dedi ki, o, İraqa ona görə daxil oldu ki, 1990-cı ildən bu tərəfə Səddam Hüseynin BMT qətnamələrini saymamasına son qoysun. Corc Buşun dediyinə görə, bu, İraqa daxil olmağın əsas səbəbi idi. Sizin bir az əvvəl dediyiniz kimi, BMT bir neçə qətnaməsində Ermənistandan Azərbaycan ərazilərini azad etməsini tələb etmişdir, amma Ermənistan da, elə İraq kimi, onlara məhəl qoymayıbdır. Siz Azərbaycan prezidenti kimi, BMT ilə münasibətlərdə və Kofi Annanla söhbətdə gələcəkdə bu sanksiyaları həyata keçirməklə bağlı fikirləri nəzərə çatdırdınızmı?

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Bu çox vacibdir. Təəssüf ki, BMT qətnamələri qətnamə olaraq qalır. Onlar yerinə yetirilmək üçün məcburi deyildir. Bizim Ermənistanla münaqişəmizlə bağlı qətnamələrin çıxarıldığı vaxtdan 11 il keçir. Ermənistan isə onları yerinə yetirmir. Onu qətnamələri yerinə yetirməyə məcbur edən beynəlxalq mexanizm də yoxdur. Beynəlxalq aləm sanki bu mövzuda susmağı üstün tutur. Bu da ki, çox təhlükəli göstəricidir. Çünki dünyadakı problemlər, işğallar bir çox ölkələrin ümumi problemidir. Azərbaycan ölkəmizlə bağlı qətnamələrin yerinə yetirilməsini tələb edirsə, bu bizim təbii tələbimizdir. Eyni zamanda, ümumiyyətlə, qətnamələrin yerinə yetirilməsi üçün ümumi mexanizm olmalıdır. Əgər bu yöndə bir iş görə bilməsək, onda BMT qərarlarının əlaqədar ölkələr üçün o qədər əhəmiyyəti olmayacaqdır.

**C e f f r i  S ə k s:** Sağ olun. Buyurun.

**T i q r a n  M i k a e l y a n:** Kolumbiya Universiteti ümumi təhsil fakültəsinin tələbəsiyəm. Sabiq prezident Heydər Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin həll olunması üçün çox işlər gördü. Bu yaxın-

larda isə Siz mətbuatda dediniz ki, Azərbaycan Ermənistanla münaqişəni həll etməkdə tələsmir. Danışıqlarda irəliləyiş olmazsa, Siz tutulmuş əraziləri ermənilərdən istənilən yolla alacaqsınız. Mənim birinci sualım: Sizin Ermənistanla bağlı siyasətiniz əvvəlki prezidentin siyasətindən fərqlidirmi? İkinci sualım: Əgər Ermənistanla danışıqlar durğun vəziyyət alarsa, Azərbaycan münaqişəni hərbi yolla həll edərmi?

**İ l h a m Ə l i y e v:** Bizim Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasətimiz dəyişməz qalır. Münaqişənin başlandığı ilk gündən Azərbaycan beynəlxalq hüquq normalarına riayət etməyi tələb edir. Bu da ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edir.

Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və əlbəttə ki, özünə də eyni münasibət bəsləməyi tələb edir. Ona görə də əvvəllər olan siyasətlə bugünkü siyasət arasında heç bir fərq və ziddiyyət yoxdur. Azərbaycan münaqişənin sülh yolu ilə həll olunmasına sadiqdir. Bu baxımdan da fərq yoxdur. 10 ildən artıq müddətdə danışıq aparmağımız bizim münaqişəni sülh yolu ilə həll etmək istəyimizi göstərir. Əks təqdirdə, nəzərə alınsa ki, danışıqlar və Minsk qrupunun fəaliyyəti heç bir nəticə verməyibdir, bu prosesi çoxdan saxlayardıq. Amma eyni zamanda bir şeyi də açıqlamaq lazımdır ki, Azərbaycan öz suverenliyinin itirilməsi, özünə məxsus olan ərazilərin itirilməsi ilə heç zaman barışmayacaqdır. Bir şey də aydındır ki, danışıqlar həmişəlik davam edə bilməz. Hər bir səbrin sonu olur, vaxtı olur. İndi isə danışıqların davam etdirilməsi üçün şərait vardır.

Biz indi konkret mövzular ətrafında söhbət edirik. Amma görsək ki, nə vaxtsa danışıqlar artıq həll axtarışına kömək eləmir, yəqin ki, danışıqları kəsməli olacağıq. Çünki biz danışıq aparmaq görüntüsü yaratmaq fikrində deyilik.

Sülh həllini tapmaq üçün real imkan varsa, biz sülh yolu ilə həllə sadiq olacağıq. Yoxdursa, dünyadakı hər hansı başqa ölkə kimi, Azərbaycanın da tam haqqı vardır ki, istənilən vasitədən istifadə edib ərazi bütövlüyünü bərpa eləsin.

**E y y u b H a c ı y e v:** Kolumbiya Universiteti. Sualım Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Bu yaxınlarda Ermənistan heç Dağlıq Qarabağa daxil olmayan ərazilərdə – Laçın, Kəlbəcər kimi rayonlarda ermənilərin yerləşdirilməsi prosesinə başlayıbdır. Azərbaycan hökumətinin cavab tədbirləri necədir? Bu məsələ danışıqlar prosesinə necə təsir edir?

**İ l h a m Ə l i y e v:** Azərbaycan bu mövzunu daim qaldırır və bu gün Baş Məclisdəki çıxışım zamanı mən qeyd etdim ki, bu, beynəlxalq hüquq normalarının və 1949-cu il Cenevrə Konvensiyasının – işğal olunmuş ərazilərdə məskunlaşma haqqında olan Konvensiyanın müddəalarının pozulması deməkdir. Bunun çox təhlükəli sonluğu ola bilər. Bu bir daha nəyi göstərir? Onu göstərir ki, Ermənistan beynəlxalq hüquq normalarını saya salmır, düşünür ki, istədiyi cür hərəkət edə bilər. Amma ən pis tərəfi odur ki, beynəlxalq aləm buna heç bir reaksiya vermir. Təkcə Azərbaycan özü reaksiya verir, biz beynəlxalq tədbirlərdə narazılığımızı bildirir, mövzunu gündəliyə gətiririk. Amma beynəlxalq ictimaiyyətin, BMT-nin, digər beynəlxalq təşkilatların adekvat reaksiyası olmayanda, bu, münaqişənin sülh yolu ilə həlli məsələsinə kömək etmir. Bu, Azərbaycan cəmiyyətində münaqişənin sülh yolu ilə həll olunması mexanizminə inamsızlıq yaradır. Bu da ki, tamamilə yeni şəraitə gətirə bilər. Elə şəraitə ki, Azərbaycan hökuməti, Azərbaycan xalqı daha münaqişənin sülh yolu həllinə inanmaz. Sonra nə olacaq, bu hamıya məlumdur: müharibə variantı. Biz müharibə istəmirik, sülh istəyirik. Amma Ermənistanın təcavüzkar siyasəti adekvat cavabını almalı və beynəlxalq ictimaiyyət müvafiq ölçülər götürməlidir.

**E r i k Y a t a y e v:** Mən Azərbaycanın Quba rayonunda anadan olmuş və böyümüşəm. Azərbaycan yəhudi icmasının antisemitizmlə rastlaşmadığı nadir ölkələrdən biridir. Zati-aliləri, Azərbaycanda yəhudi icmasına dəstək verdiyinizə görə Sizə minnətdaram. Gələcəkdə Azərbaycanın inkişafında yəhudi icmasının rolunu necə görürsünüz?

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən çıxışımda qeyd etdim ki, dini və etnik tolerantlıq ölkəmizin əldə etdiyi ən böyük uğurlardandır. Bu heç də təkcə müstəqillik illərinə aid deyildir. Sovetlər Birliyi dövründə də Azərbaycan antisemitizmin olmadığı, milli, dini gərginlik yaşanmayan az ölkələrdən biri olubdur. Ondan da əvvəl, lap qədim dövrlərdə də belə olubdur. Bu yaxınlarda mən Qubaya getmişdim, Qırmızı qəsəbədə oldum. Orada səmimi, gözəl söhbətimiz oldu. Məmnun oldum ki, yəhudilər Azərbaycanda həyatlarından razıdırlar. Digər vətəndaşlar kimi, bütün hüquq və haqlardan istifadə edirlər, azad, sərbəst yaşayırlar. Azərbaycanda çətinlik varsa da, bu hamıya aiddir. Seçki kampaniyası dövründə də bir neçə dəfə açıq demişəm ki, mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam və mənim üçün Azərbaycanda mövcud olan ənənəni davam etdirmək olduqca vacibdir. Bütün millətlər sülh və əmin-amanlıqda yaşamalıdır. Yəhudi icması ölkəmizin inkişafına çoxlu töhfələr veribdir. Eləcə də müstəqillik uğrundakı mübarizədə iştirak edibdir. Ermənistanla müharibə dövründə yəhudilərdən həlak olanlar var və onların xatirəsi bizim üçün çox əzizdir. Əminəm ki, yəhudi mənşəli Azərbaycan vətəndaşları əvvəllər olduğu kimi, gələcəkdə də götürülmüş ümumi xəttə, möhkəm, daha yaxşı Azərbaycan qurmaq işinə, hər bir vətəndaşın sülh şəraitində xoşbəxt yaşaması xəttinə töhfə verəcəklər.

**R a m i l M ə h ə r r ə m o v:** Mən Azərbaycandanam, Massaçusets Universitetində təhsil alıram. Sualım Azərbaycandakı sosial-iqtisadi islahatlarla bağlıdır. Məlumdur ki, son dövrdə Azərbaycan bu sahədə qətiyyətli addımlar atır. Yoxsulluğun azaldılması ilə bağlı proqram qəbul olunubdur. Ölkənin sosial-iqtisadi inkişafının

sürətləndirilməsi ilə bağlı imzaladığınız fərman, eləcə də regionların sosial-iqtisadi inkişafı proqramı böyük əhəmiyyəti olan sənədlərdir.

Cənab Prezident, Sizcə bunlar necə həyata keçirilir? Azərbaycanda sosial-iqtisadi islahatların və eləcə də, idarəçilik sahəsində islahatların gələcəkdə nə cür həyata keçiriləcəyini görürsünüz?

**İ l h a m Ə l i y e v:** Sağ olun. Proqramlar uğurla həyata keçirilir. Proqramları qəbul edərkən biz əmin olmaq istəyirdik ki, bunlar kağızda qalmasın. Onların həyata keçirilməsi mexanizmi birgə fəaliyyətin nəticəsi kimi olmalıdır. Dövlətin məqsədi, siyasəti proqramı həyata keçirmək üçün yaxşı şərait yaratmaqdır. Biznesə, özəl fəaliyyətə yaxşı şərait yaratmaq hökumətin işidir. Prezident seçkilərindən sonra mən bir neçə görüşlərdə özəl biznesin nümayəndələri ilə fikir mübadiləsi apardım və onları ruhlandırdım, fəaliyyətlərinə tam dəstəyimi ifadə etdim. Bugünkü Azərbaycanın gələcəyi bu istiqamətdə olacaqdır. Ölkədə güclü orta sinif yaratmalıyıq. Biznesi başlamaq üçün kreditlər ayırmalıyıq. Bütün bu istiqamətlərdə çox yaxşı nəticələr əldə etmişik. Mən qeyd etdim ki, 70 min iş yeri açılıbdır. Müsbət tərəfi odur ki, əksər iş yerləri regionlarda, qeyri-neft sahəsində açılmışdır. Bu da bizim üçün çox vacibdir. Gələn il üçün büdcədən özəl sektoru dəstəkləmək üçün əlavə maliyyə vəsaitləri ayrılacaq, fermerlərə daha yaxşı şərait yaratmaq üçün tədbirlər görüləcəkdir. Lazımi maşınlar alınacaq, avadanlıqla təchiz olunacaqdır. Əminəm ki, 2005-ci ildə açılan iş yerlərinin sayı daha çox olacaqdır. Ölkənin inkişaf yolları bundan ibarətdir. Bizə çoxşaxəli iqtisadiyyat – yalnız neftdən və neftin qiymətlərindən asılı olmayan iqtisadiyyat lazımdır. Ona görə də son aylar ərzində atdığımız addımlar yalnız bu məqsədi daşıyır. Proqramların həyata keçirilməsindən çox razıyam.

**U l a s S o l v a n:** Mən beynəlxalq məsələlər və hökumət idarəçiliyi bölməsinin tələbəsiyəm. Mən ümid edirdim ki, Siz başqa bir mövzuya, Azərbaycandakı müxalifətlə bağlı mövzuya da toxunacaqsınız. Sonuncu prezident seçkiləri ilə bağlı qeydə alınmış pozuntular haqqında, eləcə də müxalifət üzvlərinin həbsə alınması və döyülməsi barədə nə deyə bilərsiniz?

**İ l h a m Ə l i y e v:** Azərbaycanda siyasi həyat çox uğurla inkişaf edir. Ölkədə bütün siyasi azadlıqlar mövcuddur. Bütün siyasi partiyalar üçün şərait yaradılıb, onların eyni hüquqları və öhdəlikləri var. Bununla bağlı heç bir problem yoxdur. Prezident seçkilərindən sonrakı dövr ərzində bütün siyasi spektr öz proqramını həyata keçirmək imkanından çox fəal istifadə edibdir. Mən seçkilərdən əvvəl və sonra Azərbaycandakı bütün siyasi qüvvələrə bir neçə dəfə açıq müraciət etdim ki, qarşıdurma dayansın. Çünki bizə siyasi münasibətləri küçələrdən normal şəraitə gətirmək lazımdır. Bizə polisi daşqalaq etmək yox, dialoq lazım idi. Bugünkü vəziyyətə gəldikdə, mənim siyasi qüvvələrə olan bütün çağırışlarım, təəssüf ki, cavabsız qaldı. Eyni zamanda hökumət normal siyasi şərait yaratmaq səylərini və siyasi dialoqu davam etdirməlidir. Amma bunu birtərəfli etmək mümkün deyildir. Hər iki tərəf bunda maraqlı olmalıdır.

Keçən ilin oktyabrındakı seçkilərlə bağlı sualınıza isə cavab verim ki, seçkilərdən əvvəl Azərbaycanda bir neçə dəfə əhali arasında rəy sorğusu aparılmışdı. O cümlədən də ABŞ-da yerləşən təşkilatlar tərəfindən, onların biri də Beynəlxalq Respublikaçılar İnstitutudur. Bu institut Azərbaycanda seçkilər ərəfəsində rəy sorğusu keçirmişdi. Həmin sorğunun nəticələri bütün siyasi qüvvələrə təqdim olunmuş və dərc edilmişdi. Respublikaçılar İnstitutunun sorğusu göstərdi ki, hakim partiyanın nümayəndəsi ən azı 65 faiz səs qazanacaqdır. Mən isə 76 faiz səs qazandım. Amma seçkilər ərəfəsindəki şəraiti nəzərə alın. Müxalifət vahid namizəd seçə bilmədi. Müxalifət namizədləri öz aralarında savaşırdılar və iqtidarı təmsil edən namizədlə düzgün, ağıllı mübarizə apara bilmədilər. Bu da, əlbəttə ki, Respublikaçılar İnstitutunun sorğusunda göstərilən rəqəmdən daha artıq səs toplamaq imkanı yaratdı. Ona görə də nə Azərbaycanda, nə də dünyada seçkilərdə kimin qalib gələcəyi barədə heç kimdə şübhə yoxdur. Bu aydındır və buna şübhə yoxdur. Məğlub olan tərəf həmişə bəhanə axtarmağa çalışır. Bunun ən asan yolu da hökuməti bəzi manipulyasiyada günahlandırmaqdır. Amma bu seçkilərdə belə bir şey yox idi. Onu da sizə deyim ki, bu gün Azərbaycan hakimiyyətinin apardığı siyasət Azərbaycan xalqı tərəfindən hətta seçkidən qabaqkı dövrdəkindən daha çox dəstəklənir. Bu o deməkdir ki, Azərbaycan xalqı etdiyi seçimə təəssüflənmir. Xalqın öz prezidentinin təşəbbüslərini dəstəkləməsi prezidentə də öz təşəbbüslərini, proqramlarını həyata keçirməkdə yeni qüvvə verir. Çox sağ olun.

**C e f f r i S ə k s:** Yalnız bir suala vaxt qalır. Sonra isə dekan xanım Liss Andersona söz verəcəyəm.

**K r i s t i n a K a r ş a k y a r:** Mən Corctaun Universitetinin xarici ölkələrdə xidmət fakültəsindənəm. Cənab Prezident, iki məsələyə toxunmaq istəyirəm. Birincisi, öz rejiminizi burada başqa cür qələmə verməyə çalışırsınız. Beynəlxalq təşkilatlar Sizin ölkəni ən rüşvətxor və hüquqların tapdalandığı ölkə kimi səciyyələndirir. Bir ailənin idarə etdiyi təşkilata bənzədir. İkincisi isə, Siz Dağlıq Qarabağ münaqişəsini qəsdən başqa cür qələmə verirsiniz. BMT qətnamələrinin mahiyyətini saxtalaşdırırsınız. 822, nömrəsi yadımdan çıxan digər qətnamələr... Əslində, bu qətnamələrə hər bir adam baxa bilər. Mən özüm internet vasitəsilə bu gün səhər onlara baxmışam. Bu qətnamələrdə deyilmir ki, Ermənistan ərazilərdən çıxmalıdır. Çünki Ermənistan münaqişənin bir tərəfi deyil, yəni mövzu ilə bağlı danışarkən buna aydınlıq gətirilməlidir. Sonda isə soruşmaq istəyirəm ki, Sizin rejiminiz nə zaman sovet üslublu təbliğatına son qoyub münaqişəni konstruktiv həll edəcəkdir. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Mənim dediklərimin hamısı faktlara əsaslanır. Bunlar real şəraitdə baş vermiş real faktlardır. Bu faktları yoxlamaq çətin deyildir. Əlbəttə ki, Ermənistan–Azərbaycan münaqişəsinin digər məsələlərə də təsiri olubdur. Biz ermənilərin azərbaycanlılara qarşı hücumlarını bütün dünyada müşahidə edirik. Bir-

ləşmiş Ştatlarda, erməni diasporunun uzun tarixi və güclü maddi dayaqları olan digər ölkələrdə də biz bunu fakt kimi qəbul edirik. Biz bu amillə mübarizə aparmalıyıq. Əlbəttə ki, Azərbaycanı nüfuzdan salmaqdan, qara boyalarla göstərməkdən ötrü ermənilərin saxta təbliğatı 1990-cı illərin əvvəllərində mühüm rol oynadı. O zamanlar Azərbaycana çıxış etmək üçün yüksək kürsü verilmirdi. Azərbaycanın bu saxta təbliğata və hücumlara cavab vermək imkanı yox idi. Amma bugünkü şərait fərqlidir. Bu gün Azərbaycanda və Ermənistanda olan vəziyyəti hamı asanlıqla ayıra bilər. Azərbaycanda biz bütün siyasi hüquqlara malikik. Biz normal demokratik cəmiyyət yaradırıq, əhalimizi daha yaxşı yaşayışla təmin etmək istəyirik. Əlbəttə ki, Azərbaycan xalqının iradəsi şəraiti əvvəlcədən müəyyən edir. Ermənistandakı şəraitə baxsaq, yoxsulluq, əhalinin sayının azalması və gələcəyə inamsızlıq görəcəyik. Nədir Ermənistanın regional əməkdaşlıqsız gələcəyi? İşğalın gələcəyi nədir? İşğalın gələcəyi yoxdur. Ona görə də mən düşünürəm ki, erməni xalqının xeyrinədir ki, bu siyasət haqqında bir daha düşünsün və Ermənistana məxsus olmayan əraziləri özündə saxlamağa davam etməsin. Ermənistan bunu nə qədər tez başa düşsə, bir o qədər yaxşı olar.

Qətnamələrə gəldikdə isə, onları yazılı formada götürə bilər və nə yazıldığını görərsiniz. Dağlıq Qarabağ Azəbaycanın bir hissəsidir. Və Birləşmiş Millətlər Təşkilatı bu ərazini Azərbaycanın bir hissəsi kimi tanıyır. Dağlıq Qarabağın ətrafında olan 7 rayon Ermənistan və Dağlıq Qarabağın hərbi rejimi tərəfindən işğal edilmişdir. Dağlıq Qarabağ bu gün qara ləkədir ki, Azərbaycanın və hər hansı bir beynəlxalq monitorinqin nəzarətindən tamamilə kənardadır. O ərazidən narkotik daşınması ilə bağlı bizim yetərli məlumatımız var. Orada terrorçular lövbər salıblar. Terrorçu düşərgələrinə ərazilər ayrılır. Qanunsuz iqtisadi fəaliyyət göstərilir, qaçaqmalçılıq çiçəklənir. Beynəlxalq nəzarət də yoxdur. Bugünkü dünyada hər bir ölkəyə beynəlxalq təşkilatlar tərəfindən və bu və ya digər şəkildə nəzarət edilə bilər. Dağlıq Qarabağ və keçmiş SSRİ-dəki digər separatçı rejimlərin olduğu ərazilər Avropada qara ləkələrdir. Münaqişə nə qədər tez həll olunsa, bir o qədər yaxşıdır. Onu da deyim ki, Azərbaycan tam müstəqil siyasət həyata keçirən ölkədir. Biz heç bir ölkədən asılı deyilik, yalnız Azərbaycan xalqının iradəsindən asılıyıq. Mən əminəm ki, ədalət və beynəlxalq hüquq üstün gələcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və təcavüzkar geriyə, yerinə çəkiləcəkdir.

**Ceffri Saks:** Çox sağ olun. Sual vermək istəyənlərin sayı çoxdur, onlardan üzr istəyirəm. Vaxt əvvəlcədən müəyyən olunubdur. Təhlükəsizlik xidməti gərək prezidenti və nümayəndə heyətini müşayiət etsin. Yerlərinizdə əyləşin. Həmkarım Liss Andersonu təqdim edirəm. Beynəlxalq və hökumət məsələləri fakültəsinin dekanı bəzi qeydləri ilə bugünkü sessiyamızı bağlayacaqdır.

**Liss Anderson:** Çox sağ olun. Cənab Prezident, professor Saksə qoşularaq, bugünkü çıxışınıza görə, zati-aliləri, minnətdarlığımı bildirmək istəyirəm. Çox fəxr eləyirik ki, bizdə, Kolumbiya Universitetində tələbələrin, müəllimlərin, tədqiqatçıların dünya liderləri ilə görüşməsi, onların fikrini öyrənməsi, cəmiyyəti narahat edən məsələlərlə bağlı fikir mübadiləsi aparması ənənə halını almışdır. Dünyanın müxtəlif ölkələri haqqında daha dolğun təsəvvür yaratmaq olur. Sizə minnətdarıq ki, razılığınızı bildirib bizimlə bu söhbətə qatıldınız. Ümid edirəm ki, bu davamlı söhbətin başlanğıcı olacaqdır. Beynəlxalq və hökumət məsələləri fakültəsinə Azərbaycandan 10 nəfər gəlibdir. Onların arasında Kaspian Trans Companidə, BMT İnkişaf Proqramında, Dünya Bankında, Azərbaycan Milli Bankında çalışanlar var. Bizim ən son məzunumuz Elşad İsgəndərov Azərbaycanın BMT-dəki nümayəndəliyində işləyir. Elə bilirəm ki, bunlar Azərbaycandan Kolumbiya Universitetinə gələn çoxsaylı nümayəndələrin yalnız bir qismidir. Ümid edirəm ki, hərbi sahədə, təhlükəsizlik, münaqişələrin həlli, insan haqları, humanitar məsələlər, enerji siyasəti və digər sahələrdə ekspertlər buraya gələcəklər. Biz də təhsilimiz vasitəsilə Azərbaycanın inkişafına, dünyanın qalan hissəsi ilə münasibətlərinə öz töhfəmizi verə biləcəyik. Bu, yalnız başlanğıc olmalıdır və cənab Prezident, Siz və Sizin həmkarlarınız bizimlə görüşmək üçün gələcəkdə də vaxt tapacaqsınız. Buraya gəldiyinizə görə çox sağ olun.

* * *

*2004-cü il sentyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyevin Nyu-Yorka səfəri başa çatdı.*

**YUNANISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KONSTANTİNOS STEFANOPULOSA**

Hörmətli cənab Prezident!

Afina–Lamiya yolunda baş vermiş ağır avtonəqliyyat qəzası nəticəsində məktəblilərin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Yunanıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 sentyabr 2004-cü il*

## BÖYÜK BRİTANİYANIN KEÇMİŞ ENERGETİKA NAZİRİ, İNGİLTƏRƏ–AZƏRBAYCAN CƏMİYYƏTİNİN SƏDRİ TİM EQQARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*29 sentyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Böyük Britaniyanın da iştirakçısı olduğu «Əsrin müqaviləsi»nin onuncu ildönümünün bu yaxınlarda Bakıda böyük təntənə ilə qeyd edildiyini bildirdi. Prezident İlham Əliyev «Əsrin müqaviləsi»nin imzalandığı dövrdə Böyük Britaniya hökumətinin və bu ölkənin o vaxtkı Energetika naziri Tim Eqqarın respublikamıza verdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı həmin vaxtdan keçən dövr ərzində Azərbaycanda siyasi, iqtisadi və bütün digər sahələrdə böyük uğurlar qazanıldığını vurğuladı.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən cənab Tim Eqqar Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar bir daha dərin hüznlə başsağlığı verdi və bu hadisədən çox böyük sarsıntı keçirdiyini bildirdi.

İlham Əliyev prezident seçildikdən sonra onunla keçirdyi ilk görüşdən çox məmnun olduğunu söyləyən qonaq dövlətimizin başçısını bir daha səmimi-qəlbdən təbrik etdi, fəaliyyətində yeni-yeni uğurlar arzuladı.

Respublikamıza son səfərindən keçən dövr ərzində Azərbaycanda misli görünməmiş inkişafın şahidi olduğunu bildirən Tim Eqqar dedi ki, onunla ölkəmizə ilk dəfə səfərə gələn nümayəndə heyətinin üzvləri Azərbaycandakı böyük inkişafdan və uğurlardan məmnunluq duyduqlarını söyləyirlər.

## «RÖYTER» AGENTLİYİNİN MDB ÜZRƏ BÜROSUNUN RƏHBƏRİ CONATAN TETÇERƏ VƏ QAFQAZ BÜROSUNUN BAŞ MÜXBİRİ XANIM MARQARİTA ANTİDZEYƏ VERDİYİ MÜSAHİBƏ

*1 oktyabr 2004-cü il*

**C o n a t a n  T e t ç e r: Cənab Prezident, söhbətimizə Sizin bu yaxınlarda BMT Baş Məclisinin ümumi müzakirələrində çıxışınız məsələsindən başlamaq istərdim.**

**İ l h a m  Ə l i y e v:** Mən belə düşünürəm ki, beynəlxalq birliyə bu cür yüksək tribunadan müraciət etmək və Azərbaycanda, regionda və ümumiyyətlə, dünyadakı vəziyyət, üzləşdiyimiz problemlərlə bağlı mövqeyimizin çatdırılması üçün imkanın qazanılması əhəmiyyətli məsələdir.

**C o n a t a n  T e t ç e r: Şübhəsiz ki, ölkənizə aid olan məsələlərlə bağlı mövqeyinizin çatdırılması Sizin üçün vacib məsələdir. Lakin, eyni zamanda, demək olarmı ki, ölkə rəhbərləri və rəsmiləri ilə keçirdiyiniz müxtəlif görüşlərdə Sizi ən çox narahat edən məsələlərlə bağlı inkişafa nail olunub?**

**İ l h a m  Ə l i y e v:** Bizi ən çox narahat edən məsələ torpaqlarımızın Ermənistan tərəfindən davam edən işğalıdır ki, bu da beynəlxalq birliyə, xarici ölkələrin rəsmilərinə, habelə beynəlxalq təşkilatların rəhbərlərinə çox yaxşı məlumdur. Birləşmiş Millətlər Təşkilatına gəldikdə, bu təşkilat Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir.

Qeyd etdiyim kimi, bu məsələ ilə bağlı digər beynəlxalq təşkilatlar da, ümumilikdə, beynəlxalq birlik məlumatlıdır. Demək istəyirəm ki, BMT-dəki çıxışımın məqsədi, sadəcə, bu barədə məlumat verməkdən ibarət deyildi, məqsəd münaqişənin özünün, habelə ermənilərə məxsus olmayan torpaqları geri qaytarmaq istəməyən Ermənistan rəhbərliyinin yeritdiyi siyasətin doğurduğu təhlükənin bir daha diqqətə çatdırılmasından ibarət idi.

**C o n a t a n  T e t ç e r: Kənardan belə görünür ki, Siz Ermənistanı günahlandırırsınız, Ermənistan isə başqa bir şey deyir. Sanki pat vəziyyəti yaranmışdır, heç nə dəyişməyir. Bu məsələdə irəliləyiş əldə etmək üçün hansısa bir şans varmı?**

**İ l h a m  Ə l i y e v:** Mən sizinlə razıyam ki, vəziyyət dəyişməz olaraq qalır. Bu, təhlükəli bir haldır. Azərbaycanın mövqeyi aydındır. Beynəlxalq hüququn normaları və prinsiplərinə əməl edilməli, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxarılmalıdır. Sülhün əldə edilməsi üçün yeganə yol budur. Ermənilər Dağlıq Qarabağ üçün müstəqillik və bu ərazinin Ermənistana birləşdirilməsini tələb edirlər. Bu tələb beynəlxalq hüquq normalarına deyil, ermənilərin güya öz məqsədlərinə çatacaqlarını düşündükləri səhv təsəvvürə əsaslanmışdır. Biz bu cür məsələlərə yanaşmada vahid standartların tətbiq olunmasının tərəfdarıyıq. Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanı separatçı rejimlərinə eyni cür yanaşma prinsipi olmalıdır. Ermənilərin ABŞ-da, Rusiyada və digər ölkələrdə güclü lobbisi fəaliyyət göstərdiyinə görə onlara fərqli yanaşma olmamalıdır. Bu münaqişənin həllinə nail olmağın yeganə yolu ermənilərin öz məqsədlərinə çata bilməyəcəklərini başa düşməsindən ibarətdir.

Dağlıq Qarabağ heç zaman müstəqillik əldə etməyəcəkdir. Biz ərazi bütövlüyümüz və suverenliyimizlə bağlı heç zaman, heç bir kompromisə getməyəcəyik və beynəlxalq birlik Dağlıq Qarabağdakı hərbi rejimi heç zaman özünün bir hissəsi kimi tanımayacaqdır. Dağlıq Qarabağ erməniləri muxtariyyət çərçivəsində milli azlıq kimi yaşamağı davam etdirə bilərlər. Yaxşı məlumdur ki, Avropada və dünyanın digər hissələrində muxtar qurumlar mövcuddur. Dünyanın bir çox ölkələrində milli azlıqlar vardır. İndi təsəvvür edin ki, dünyada hər bir milli azlıq özü üçün müstəqillik tələb etsə, nələr baş verər! Bu cəfəngiyatdır. Bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi ədalətə, həqiqətə və beynəlxalq hüquq normalarına söykənir. Ermənilər vaxtaşırı beynəlxalq hüququn vacib elementi olan «millətlərin öz müqəddəratını təyin etmək» hüququ ilə manipulyasiya etməyə çalışırlar. Lakin bildirmək istəyirəm ki, ermənilər artıq bir millət kimi öz müqəddəratını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti vardır. Ermənilərin yaşadıqları bütün ölkələrdə «öz müqəddəratlarını təyin etməyə» başladıqları halda nələrin baş verəcəyini təsəvvür etmək çətin deyildir. Çünki onlar çox yerdə yaşayırlar. Yeri gəlmişkən, Gürcüstanda Dağlıq Qarabağda olandan 5 dəfə artıq erməni yaşayır. Dağlıq Qarabağda 50 mindən az, Gürcüstanda isə 250 minə yaxın erməni yaşayır. Rusiyada, bəlkə də bir milyondan çox erməni vardır. Həmçinin ABŞ-da, Fransada yaşayırlar və bir daha təkrar edirəm ki, onlar hər yerdə «öz müqəddəratını təyin etməyi» qərara alsalar, onda neçə erməni dövləti olar? Demək istəyirəm ki, ermənilərin mövqeyi çox zəifdir və beynəlxalq hüquq normalarına və reallığa deyil, yalnız öz xülyalarına əsaslanmışdır.

**C o n a t a n  T e t ç e r: Siz deyəndə ki, vəziyyət təhlükəlidir, nəyi nəzərdə tutursunuz, vəziyyət hərbi baxımdanmı təhlükəlidir?**

**İ l h a m  Ə l i y e v:** Əgər neçə illərdir ki, sülhə nail olunmayıbsa və danışıqlar heç bir nəticə verməyibsə, bunun alternativi nə ola bilər? Ümumiyyətlə, Qafqazda vəziyyət o qədər sabit deyildir. Eyni zamanda Cənubi

Qafqazda və Şimali Qafqazda baş verən proseslər müəyyən dərəcədə bir-biri ilə bağlıdır. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülhə nail oluna bilinməməsi, şübhəsiz ki, regional təhlükəsizliyin təmin olunması işinə xidmət etmir. Münaqişənin həll edilməsi uzandıqca, hərbi əməliyyatların yenidən başlanması təhlükəsi bir o qədər artır.

**C o n a t a n  T e t ç e r: Sizin təşəbbüsləriniz nədən ibarətdir?**

**İ l h a m  Ə l i y e v:** Biz münaqişənin sülh yolu ilə həllinə hazırıq və yalnız bircə fakt, on ildən artıq dövr keçməsinə baxmayaraq, hələ də bu prinsipə sadiq qalmağımız faktı onu göstərir ki, biz münaqişəni siyasi yollarla həll etmək istəyirik. Əks təqdirdə Azərbaycan hələ neçə illər bundan əvvəl öz ərazi bütövlüyünü bərpa etmək hüququnu həyata keçirərdi. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik və məsələnin bu cür həllinə ümid edirik. Lakin eyni zamanda hər kəs başa düşməlidir ki, biz torpaqlarımızın işğal olunması faktı ilə heç zaman razılaşa bilmərik və bizim səbrimizin də həddi vardır.

**C o n a t a n  T e t ç e r: Necə fikirləşirsiniz, növbəti addım Ermənistan tərəfindənmi atılmalıdır? Hazırkı danışıqlar prosesində atıla bilən ən təsirli addımlar sırasında hansıları görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Məlumdur ki, danışıqlar prosesi birtərəfli qaydada həyata keçirilə bilməz. Hər iki tərəf addımlar atmalıdır. Lakin heç şübhəsiz, Ermənistan tərəfi praktiki addımlar atmalıdır. Azərbaycanın kompromisə getməyə heç bir şeyi yoxdur. Biz heç kimin ərazisini işğal etməmişik, ermənilərdən fərqli olaraq, heç bir millətə qarşı  etnik təmizləmə siyasəti həyata keçirməmişik. Buna görə bizdə ermənilərə məxsus olan bir şey yoxdur ki, onu geri qaytaraq. Ermənistan bizim torpaqlarımızın 20 faizini işğal altında saxlayır, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşərək əzab çəkir. Əlbəttə ki, ermənilər işğal olunmuş torpaqlarımızdan öz qoşunlarını çıxarmalıdır, bu bizim təbii tələbimizdir. Əgər biz ermənilərin torpaqlarını işğal etsəydik, onda biz öz qoşunlarımızı oradan çıxarmalıydıq. Gördüyünüz kimi, bu baxımdan biz tərəfdən atılası addım yoxdur.

**C o n a t a n  T e t ç e r: Necə düşünürsünüz, Sizin Nyu-Yorkda müzakirə etdiyiniz məsələlər İrəvana beynəlxalq birlik və bu birliyin üzvləri  tərəfindən daha çox təzyiq doğura bilərmi ki, Sizcə Ermənistan müsbət olan addımlar atsın?**

**İ l h a m  Ə l i y e v:** Biz bu məsələ ilə bağlı beynəlxalq birliyi ədalətin bərpa edilməsi və BMT qərarlarının həyata keçirilməsi işinə daha fəal cəlb olunmağa çağırırıq. Bu vəziyyət ümumilikdə regionda təhlükəsizliyin təmin olunması işinə xidmət etmir. BMT TŞ-nin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi dörd qətnamə Ermənistan tərəfindən on ildən artıqdır ki, yerinə yetirilmir. Amma heç nə baş vermir, heç bir sanksiya tətbiq olunmur, heç bir praktik tədbir görülmür, BMT heç bir tələb irəli sürmür. Əgər Ermənistan görsə ki, BMT qərarlarının yerinə yetirilməməsi onun üçün ciddi problemlər yaradır, ona qarşı beynəlxalq sanksiyalar tətbiq olunur, təzyiq göstərilir və ya hər hansı digər bir mexanizm tətbiq edilir, şübhəsiz, onda Ermənistan öz siyasətinə yenidən baxar. Bəs reallıqda nə baş verir? Dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıyır, BMT dörd müvafiq qətnamə qəbul etmişdir, digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı mövqelərini ifadə etmişdir, lakin Ermənistana bunun təsiri yoxdur. BMT qətnamələrinin və digər beynəlxalq təşkilatların mühüm qərarlarının həyata keçirilməsi üçün heç bir mexanizm yoxdur. Şübhəsiz ki, işğalçı dövlətin təcavüzünə son qoyulması üçün ona təzyiq göstərilməsi ilə əlaqədar beynəlxalq birlik tərəfindən praktik addımlar atılmalıdır.

**C o n a t a n  T e t ç e r: Siz deyəndə ki, səbriniz hüdudsuz deyil və bu Sizin üçün çox fundamental bir ərazi məsələsidir, heç şübhəsiz, Siz bir siyasətçi kimi dəqiq vaxtı deməyəcəksiniz, bəlkə də deyəcəksiniz. Səbriniz nə zaman tükənəcək? Bununla bağlı Sizə ölkə daxilindəki təzyiq nə qədər davam edəcək? Siz qeyd etdiniz ki, xeyli sayda qaçqınınız ağır vəziyyətdə yaşayır, münaqişə ilə bağlı beynəlxalq birlik Azərbaycana istədiyiniz dəstəyi vermir. Ermənistan tərəfi danışıqlar prosesində yeni bir təklif vermir. Mənim üçün maraqlıdır, bu məsələlərdən Siz nə gözləyirsiniz?**

**İ l h a m  Ə l i y e v:** Biz belə güman edirik ki, danışıqların indiki mərhələsi bizim hansı mövqedə durduğumuzu göstərəcəkdir. Biz danışıqların müxtəlif dövrlərini keçmişik və bu dövrlərdə müxtəlif məsələlər müzakirə olunmuşdur. Lakin bütün dövrlərdə Ermənistan tərəfinin qeyri-konstruktiv mövqedə durması nəticəsində danışıqlar heç bir nəticə verməmişdir. Danışıqların indiki mərhələsinə ötən il Azərbaycanda və Ermənistanda prezident seçkiləri keçirildikdən sonra başlanılmışdır. Hazırda iki ölkə prezidentləri və xarici işlər nazirləri arasında danışıqlar aparılır. Biz konkret məsələləri müzakirə edirik. Buna görə biz hələ də ümid edirik ki, danışıqların indiki mərhələsi bizi hansısa həll yollarına gətirib çıxara bilər. Lakin mən bir neçə dəfə ictimaiyyət qarşısında bəyanat vermişəm: biz görsək və tam əmin olsaq ki, danışıqların davam etdirilməsinin heç bir mənası yoxdur, sözsüz ki, bu danışıqları dayandıracağıq. Çünki biz danışıqları yalnız danışıqlar prosesinin imitasiya edilməsi naminə aparılmasının əleyhinəyik. Biz görsək ki, bütün siyasi vasitələr tükənmişdir və sülh yolu ilə suverenliyimizin bərpa olunması üçün heç bir yol yoxdur, onda biz digər vasitələri, digər hüquqlarımızı nəzərdən keçirməyə başlayacağıq.

**C o n a t a n  T e t ç e r: Demək olarmı  ki, məsələ bu həddə çatmayıb?**

**İ l h a m  Ə l i y e v:** Biz hələ ümid edirik ki, razılığa gələcəyik, əks təqdirdə, biz bu danışıqları aparmazdıq. Münaqişənin həllində vasitəçilik mandatına malik olan ATƏT-in Minsk qrupu indi, deyəsən, fəallığını artırır,

məsələnin həllinə daha çox cəlb olunur. Mən həmişə ATƏT-in Minsk qrupunun fəaliyyətini tənqid etmişəm, Ermənistan isə həmişə bu qurumun fəaliyyətini tərifləyir. Mən ona görə tənqid edirəm ki, ortalıqda heç bir nəticə yoxdur və bu pis bir vəziyyətdir. Ermənistan isə belə bir vəziyyətdən çox məmnundur, çünki heç bir nəticə yoxdur. Lakin ədalət naminə deməliyəm ki, Minsk qrupu hazırda çox gərgin fəaliyyət göstərir və mən bunu qiymətləndirirəm. Ümid edirəm ki, bu hansısa bir nəticə verə bilər.

**C o n a t a n T e t ç e r: Mən qaçqınlar və məcburi köçkünlərin vəziyyətinə qayıtmaq istərdim. Siz qeyd etdiniz ki, onlar həqiqətən də çox ağır vəziyyətdə yaşayırlar. Bu sahədə nəsə etmək mümkündürmü?**

**İ l h a m Ə l i y e v:** Biz bu sahədə böyük işlər görürük. Mən «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»nı təsdiq etmişəm və digər tədbirlər həyata keçirilir. Biz bu insanların yaşayışının yaxşılaşdırılması, onlar üçün yeni iş yerlərinin açılması, xəstəxanaların, məktəblərin inşa edilməsi, biznes fəaliyyəti üçün şəraitin yaradılması məqsədi ilə böyük miqdarda maliyyə vəsaiti ayırmışıq. Artıq bu işlərə təxminən 100 milyon ABŞ dolları məbləğində vəsait xərclənmiş, bir sıra qaçqın düşərgəsi tamamilə sökülmüş və onların yerində minlərlə yeni evlər inşa edilmişdir. Hazırda digər bir neçə qaçqın düşərgəsinin sökülməsi üzərində də işlər gedir və gələn ilin ortalarına kimi dörd mindən artıq qaçqın ailəsinin yeni, müasir evlərlə təchiz olunması planlaşdırılır. Bu binaların yerləşdiyi yerlər şəhərcik formasındadır. Orada hər şey vardır: məktəblər, xəstəxanalar, müvafiq infrastruktur, yollar, enerji təchizatı, qaz və s. Məqsədimiz, ilk növbədə, ən ağır vəziyyətdə, qaçqın düşərgələrində yaşayan soydaşlarımız üçün normal yaşayış şəraiti yaratmaqdan ibarətdir. Sözsüz ki, biz həmin insanlar üçün hökumət subsidiyasını və humanitar yardımı ildən-ilə artırırıq. Biz əlimizdən nə gəlirsə, onu da edirik. Bizim bir o qədər də böyük maliyyə imkanımız yoxdur, lakin bütün maliyyə ehtiyatlarımız həmin insanlar üçün daha yaxşı yaşayış şəraitinin təmin edilməsinə səfərbər olunmuşdur.

Sözsüz ki, bu məsələdə beynəlxalq yardıma ehtiyac var və donor təşkilatlar öz yardımlarını azaltmamalıdır. Belə ki, münaqişənin uzun illərdir davam etməsi nəticəsində bəzi beynəlxalq humanitar və donor təşkilatlar hazırda bu yardımı azaldırlar. Deməliyəm ki, bu, böyük humanitar bir böhrandır. 8 milyon əhalisi olan ölkəmizdə bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz ümumi əhalinin sayına nisbətdə qaçqın-köçkünlərin sayına görə dünyada birinci yerdəyik.

**C o n a t a n T e t ç e r: Siz təxminən bir ilə yaxındır prezident seçilmisiniz və belə bir təəssürat var idi ki, bəlkə də bu səhv təəssürat idi, Siz bu vəzifəyə namizədliyinizi verməkdən qabaq bir o qədər prezident olmaq arzusunda deyildiniz. Prezidentlik fəaliyyətinizdə bir neçə ay keçdikdən sonra bu haqda nə düşünürsünüz?**

**İ l h a m Ə l i y e v:** Bilirsiz, mən deməzdim ki, bu düz təəssürat idi. Bu təəssüratlar yalnız bəzi şayiələrə əsaslanırdı. Hamıya məlumdur ki, mən 1995-ci ildən siyasətdəyəm. Həmin ildən parlamentin üzvü olmuşam və heç şübhəsiz, mən siyasətlə məşğul olmaq barədə düşünməsəydim, biznesdə qalardım. Eyni zamanda 1990-cı illərin sonlarından etibarən mən hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, sonra isə birinci müaviniyəm. Bu onu aydın göstərir ki, artıq doqquz il bundan əvvəl mən ciddi surətdə siyasətə cəlb olunmuşam. Ona görə də prezidentliyə namizədliyimin irəli sürülməsi heç də Azərbaycan xalqı üçün hansısa gözlənilməz bir hadisə deyildi.

Mənim siyasi fəaliyyətim xalqın gözü qarşısındadır. Lakin, əlbəttə ki, siyasi fəaliyyətlə məşğul olmaq və prezidentlik tam fərqli şeylərdir. Prezident qəbul olunmuş bütün qərarlar üçün məsuliyyət daşıyır. Xüsusilə bizim ölkəmizdə. Uzun illər bərqərar olmuş siyasi təsisatların mövcud olduğu ölkələrdə vəziyyət fərqlidir. Keçid dövrünü yaşayan ölkələrdə isə baş verən hər şey üçün məsuliyyətin yükü prezidentin çiyninə düşür. Bu da fikrimcə, mənim indiki fəaliyyətimi prezidentliyə qədər olan fəaliyyətimdən fərqləndirən əsas amildir. Lakin praktiki baxımdan çox da böyük dəyişikliklər baş verməmişdir. Sadəcə, indi daha çox işləməli və hər zaman müxtəlif məsələləri həll etməyə hazır olmalıyam.

**C o n a t a n T e t ç e r: Siz müstəqil dövlətin təsəvvürləri ilə çox yüksək səviyyədə eyniləşdirilən, çox nüfuzlu və güclü dünya şəxsiyyətlərindən olan atanızın varisisiniz. Sözsüz ki, onun dövlətin idarə edilməsi ilə bağlı öz metodları olmuşdur, yəqin Sizin də müstəqillik barədə öz düşüncələriniz vardır. Necə fikirləşirsiniz, oğlu kimi Siz onun siyasətini davam etdirməlisiniz, yoxsa Sizin siyasətiniz bundan fərqlənməlidir?**

**İ l h a m Ə l i y e v:** Ümumi strategiya dəyişməz olaraq qalır. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə Azərbaycana yenidən hakimiyyətə gələn zaman xalqımız öz tarixi seçimini etmişdi. Bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, xarici siyasət, sosial və digər sahələrdə həyata keçirilən islahatlarla bağlı seçimimiz və siyasətimiz dəyişməz qalır. Biz beynəlxalq birliyə və Avropa ailəsinə gələcəkdə də inteqrasiya edilməsi siyasətinə sadiqik. Ermənistandan fərqli olaraq, biz tam müstəqil şəkildə xarici siyasət həyata keçiririk, siyasi qərarlar qəbul edilməsi məsələsində heç bir dövlətdən asılı deyilik. Mən belə düşünürəm ki, bu, Azərbaycan xalqının, Heydər Əliyev siyasətinin ən böyük uğurlarından biridir. Bu cür çətin vəziyyətdə, ərazisinin bir qisminin işğal olunduğu şəraitdə Azərbaycan öz milli dəyərlərini, müstəqilliyini qoruyub saxlamışdır və bu gün regional və beynəlxalq məsələlərdə çox mühüm rol oynayan bir ölkədir. Bizim bu siyasətimiz dəyişməzdir və biz bu siyasəti

davam etdiririk. Hazırda ölkəmizdə genişmiqyaslı iqtisadi islahatlar aparılır. Mən sizə deyə bilərəm ki, ən cəsarətli iqtisadi islahatlar Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Buraya torpağın özəlləşdirilməsi, qiymətlərin liberallaşdırılması və xeyli sayda digər məqamları aid etmək olar. Qeyd etdiyim kimi, biz bu gün bu siyasəti davam etdiririk.

Yeni iş yerlərinin açılması ilə bağlı siyasətimiz çox uğurla həyata keçirilir. Prezident seçkilərindən keçən dövrdə 70 mindən artıq yeni iş yeri açılmışdır. Mən seçkiqabağı kampaniyamda 600 min yeni iş yerinin açılacağını vəd etmişdim. Ümidvaram ki, biz bu məqsədə nail olacağıq. İqtisadiyyatımız tam bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır, özəl sektorun ümumi daxili məhsulda payı 75%-dən artıqdır, həm də nəzərə almaq lazımdır ki, ölkəmizin əsas ixrac məhsulunu təşkil edən neft dövlət inhisarındadır. Sosial məsələlər də həll olunmaqdadır, dövlət büdcəmiz, əsasən, sosial məsələlərin həllinə yönəlmişdir. Beləliklə, bu aspektlərdə Heydər Əliyev siyasəti davam etdirilir. Həyat dəyişir, yeni məsələlər, yeni problemlər ortaya çıxır və əlbəttə ki, ölkə inkişaf edir. Ölkə statik vəziyyətdə qala bilməz. Biz ölkəmizi müxtəlif istiqamətlərdə, müxtəlif ölçülərə əsaslanaraq inkişaf etdiririk. Sözsüz ki, biz indi elə qərarlar qəbul edə bilərik ki, onlar əvvəlki dövrlərdə olduğundan bəlkə də fərqlənə bilər. Ölkə özünü müasirləşdirir. Biz cəmiyyətimizin demokratikləşməsi, əhalinin müxtəlif qrupları arasında milli birliyə nail olunması istiqamətində uğurla irəliləyirik.

**Conatan Tetçer: Siz demokratikləşmə məsələsinə toxundunuz və Azərbaycan hökuməti arabir belə bir tənqidə məruz qalır ki, ölkədə az-çox real müxalifətin səsi batırılır. Bildiyimə görə, bəzi müxalifət liderləri hələ də həbsdədir, deyəsən, mənə 7 nəfər demişdilər.**

**İlham Əliyev:** Mən düşünmürəm ki, onlar liderlərdir, bəli, siz deyən adamlardan məhkəməyə cəlb olunanlar var.

**Conatan Tetçer: Nəzərə alsaq ki, Qərb ölkələrində daha açıq müzakirələr mövcuddur, Siz demokratikləşməni necə xarakterizə edərdiniz?**

**İlham Əliyev:** Bilirsiniz, mən Azərbaycanın prezidenti seçildikdən sonra ölkədə həyata keçirilən siyasi islahatlarla bağlı heç bir beynəlxalq təşkilat və ya Dünya Birliyi tərəfindən tənqid olunmamışam. Əksinə, adətən, bütün ölkələri tənqid edən Avropa Şurasının qərarlarına və sənədlərinə nəzər salsanız görərsiniz ki, Azərbaycanda prezident seçkilərindən keçən dövr ərzində ölkədəki vəziyyət və baş vermiş müsbət dəyişikliklər çox yüksək qiymətləndirilmişdir. Avropa dəyərlərinə verdiyim töhfələrə görə mən bu il Avropa Şurasının fəxri üzvü medalına və diplomuna layiq görülmüşəm. Həm seçkilərdən əvvəlki, həm də seçkilərdən keçən dövrdə mən ölkəmizdə fəaliyyət göstərən bütün siyasi qüvvələrə dəfələrlə zorakılığa və düşmənçiliyə son qoyulması, siyasi fəaliyyətin küçələrdən normal dialoqa gətirilməsi ilə bağlı ictimai çağırışlar etmişdim. Əfsuslar olsun ki, mənim bu çağırışlarım cavabsız qaldı.

Buna baxmayaraq, seçkilərdən sonra mən bir sıra əfv fərmanı imzaladım və bəzi beynəlxalq təşkilatlar tərəfindən «siyasi məhbus» hesab edilən xeyli sayda insan azadlığa buraxıldı. Hətta onların sırasında ağır cinayətlər törədən şəxslər də vardır. Bir daha təkrar edirəm ki, bu məsələlərlə bağlı mən nəinki tənqid olunmuram, əksinə, Azərbaycanda bu istiqamətdə görülən işlər yüksək qiymətləndirilir. Mən bu məsələdən danışarkən qeyd etmək istəyirəm ki, bununla bağlı yerli müxalifətin mövqeləri tamamilə səhvdir. Belə ki, hökumət nə eləyirsə, onlar bunu düzgün olmayan addım kimi təqdim etməyə çalışırlar. Hazırda həbsdə olan insanlara gəldikdə isə, onlar cinayət törətmişlər və bu cinayətlər bütün televiziya kanalları vasitəsilə nümayiş etdirilmişdir. Seçkilərdən dərhal sonra polisə, adi insanlara qarşı hücuma keçməyə başlamış, nəqliyyat vasitələrini dağıtmış, polisi daş-qalağa tutmuş, hərbi avtomaşını polis nəfərlərinin üzərinə sürmüş bu insanlar törətdikləri cinayətlərə görə məsuliyyətə cəlb olunublar. Onlar bu əməllərinə görə məsuliyyətə cəlb olunmalıdırlar. Təsəvvür etmək çətin deyil ki, misal üçün, ABŞ-da və yaxud digər Qərb ölkələrində polis qüvvələrinə qarşı bu cür qəddarcasına hücum baş versəydi nə olardı. Qanunun aliliyi təmin edilməlidir. Biz ölkəmizdə yenidən xaos və anarxiyanın baş qaldırmasına imkan verə bilmərik, müxalif qüvvələrin qeyri-qanuni şəkildə hakimiyyətə gəlmək istəyinə görə adi vətəndaşların həyatını və səhhətini risk və təhlükə altına qoya bilmərik. Mən prezident seçkilərində qalib gəlmişəm və buna heç kimin şübhəsi yoxdur. Bu fakt bütün beynəlxalq təşkilatlar tərəfindən təsdiq olunmuşdur və mənim üçün ən əsası odur ki, bunu Azərbaycan xalqı təsdiq etmişdir. Müxalifətin seçkilərin nəticələrini zor tətbiq etməklə dəyişmək cəhdləri cinayət əməli idi. Bir də vurğulamaq istəyirəm ki, həbsdə olan və müxalifət adlandırılan bu adamlar müxalifət partiyaların üzvləri olduqlarına görə deyil, qeyri-qanuni əməllərə yol verdiklərinə görə mühakimə edilirlər. Sabitlik, qanunun aliliyi, demokratikləşmə – bütün bunlar bizim üçün çox vacib məsələlərdir. Yeri gəlmişkən, bu gün müxalifətdə olan bir sıra adamlar 1992-ci ildə hərbi çevriliş nəticəsində hökuməti devirərək hakimiyyəti ələ almışdılar, onlar yenidən bunu etməyə cəhd göstərmişlər, lakin bu gün Azərbaycandakı vəziyyət o zamankı vəziyyət deyildir. Hökumət də həmin hökumət deyildir. Bizim ölkəmizdə bütün siyasi azadlıqlar təmin olunub, senzura tamamilə ləğv edilib, bütün siyasi partiyalar, hər bir adam öz fikirlərini hər yerdə, o cümlədən parlamentdə, mətbuatda azad ifadə etmək hüququna malikdir. Lakin hökuməti qeyri-qanuni yolla dəyişmək, devirmək dövrlərinə heç zaman qayıdılmayacaqdır. Biz bu mövqedə möhkəm durmuşuq və mən belə düşünürəm ki, müxalifət indiki şəraitdə hökumətlə bu cür davrana bilməyəcəyini yaxşı anlayır.

**C o n a t a n  T e t ç e r: İcazə verin, yenə də Azərbaycanda demokratikləşmə məsələsinə qayıdım. Siz siyasi, sosial, iqtisadi sahələrdə demokratikləşmənin gələcək inkişaf yollarını necə görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Ölkə gücləndikcə, vəziyyət də dəyişir. Azərbaycanda narahatlıq doğuran məsələlər öz həllini tapmaqdadır. İqtisadiyyatımız inkişaf edir, insanların yaşayış səviyyəsi gün-gündən yaxşılaşır, biz regionların hərtərəfli inkişafı proqramını qəbul etmişik və mən söz vermişəm ki, Azərbaycan vətəndaşlarının həyat səviyyəsi ildən-ilə yaxşılaşacaq və bu reallaşmaqdadır. Mən sizin vaxtınızı rəqəmlərlə almaq istəmirəm, əgər iqtisadi inkişaf göstəricilərinə baxsanız, özünüz bunu görərsiniz. Ona görə də müxalifətin istifadə etdiyi iqtisadi və sosial çətinliklər mövzusu tükənməkdədir. Onlar yaxşı başa düşürlər ki, ölkəmizdə həyata keçirilən nəhəng layihələr, o cümlədən enerji və nəqliyyat layihələri – yeri gəlmişkən bu layihələri onlar deyil, məhz biz başlamışıq və məhz biz həyata keçiririk – bütün bunlar Azərbaycan xalqına yaxın zamanlarda firavanlıq, çox güclü iqtisadi inkişaf gətirəcəkdir. Belə bir şəraitdə onlar səs qazanmaq üçün xalqa nə vəd edə bilərlər? Əgər xalq onlara 2003-cü ildə inanmayıbsa, gələcəkdə necə inanacaq? Xüsusilə də Azərbaycanda qlobal iqtisadi layihələrin reallaşmağa başladığı, 600 min iş yerinin açılması ilə bağlı real işlərin həyata keçirildiyi, iqtisadiyyatımızın daha da gücləndiyi, Azərbaycan xalqının həyat tərzinin yüksəldiyi bir dövrdə! Ona görə bunu təbii bir proses kimi qəbul etmək lazımdır ki, ölkədə nə qədər uğur əldə olunursa, obyektiv olaraq müxalifət daha da zəifləyir. Biz belə düşünürük ki, bu gün onlar Azərbaycan hökumətinə qarşı deyil, Azərbaycanın xoşbəxt gələcəyinə qarşı mübarizə aparırlar. Onlar ölkədəki vəziyyətin pisləşməsini istəyirlər, belə ki, ölkədə vəziyyət nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşı olar. Xalq bunu bilir və yaxşı dərk edir. Bu gün müxalifətin zəifliyi onun öz səhvi ucbatından baş verir. Onlar ortaya heç bir təklif qoya bilməmişlər.

Bundan başqa, mən sizə deyə bilərəm ki, müxalifət dəyişməlidir. Bu gün müxalifətin başında duran adamlar 1992-ci ildə hakimiyyəti ələ keçirmiş insanlardır. 1993-cü ildən, hakimiyyəti hətta bir il əldə saxlaya bilmədikdən sonra on ildən artıqdır ki, müxalifətdədirlər. Eyni sifətlər, eyni sözlər və hakimiyyətə qarşı eyni hücumlar. Müxalifətdə dəyişiklik olmalıdır. Xalq naftalin qoxusu gələn bu insanlardan bezmişdir. Lakin demək istəyirəm ki, biz onların fəaliyyətinə son qoymaq, onlar üçün problemlər yaratmaq fikrində deyilik. Cəmiyyətə sağlam, konstruktiv, bu və ya digər məsələyə hökumətin diqqətini cəlb edə bilən, hökuməti sağlam tənqid edən müxalifət lazımdır, cibinə daş yığıb polisə hücuma keçən müxalifət yox! Beynəlxalq təcrübə onu göstərir ki, məğlubiyyətə uğrayan müxalifət liderləri istefa verir. Biz bunun təkcə inkişaf etmiş ölkələrdə deyil, bəzi qonşu dövlətlərdə də şahidi olmuşuq. Lakin bizdəki müxalifət daim uduzmaqda davam edir, siyasətdən isə getmək istəmir. Onlar belə bir bəhanə gətirirlər ki, səsvermələr zamanı guya manipulyasiyalara, saxtakarlığa yol verilir və s. Bu, bir bəhanədir. Çünki onlar etiraf etsələr ki, bəli, uduzmuşuq, onda nə baş verəcək, onlar siyasətdən getməlidirlər. Əgər onlar, bugünkü qondarma müxalifət liderləri bunu etsələr, onda nə ilə məşğul olacaqlar? Bu insanlar heç zaman, heç bir yerdə ciddi işlə məşğul olmamışlar. Onların heç zaman xalqa xeyri dəyməyibdir. Bircə bunu bacarırlar ki, meydanlara çıxıb qışqırsınlar.

Digər tərəfdən, onların həmişə guya seçkilərin ədalətsiz keçirilməsi barədə əsassız məlumatları təqdim etmək cəhdlərinin də səbəbi elə budur. Cəmiyyətin normal inkişafı tələb edir ki, müxalifət özünü dəyişsin. Oraya yeni insanlar gəlməlidir və bütün hallarda uduzan köhnə adamlar siyasəti tərk etməlidirlər. Hakimiyyətdə olduqları dövrdən cəmi bir il keçmiş, 1993-cü ildə xalq o dərəcədə təngə gəldi ki, onları hakimiyyətdən uzaqlaşdırdı. Onlar 1993-cü ildə prezident seçkilərini, 1995-ci ildə parlament seçkilərini, 1998-ci ildə yenidən prezident seçkilərini, 2000-ci ildə yenidən parlament seçkilərini, 2003-cü ildə yenidən prezident seçkilərini uduzdular. Onlar tutduqları yerləri tərk edənə və gənc nəslə yol açılmasına imkan verənə qədər daha neçə dəfə uduzmağı planlaşdırırlar?

**C o n a t a n  T e t ç e r: Fransua Mitteran bir neçə seçkini uduzduqdan sonra prezident ola bildi.**

**İ l h a m  Ə l i y e v:** Fransua Mitteran siyasətçi idi.

**C o n a t a n  T e t ç e r: Siz müxalifətdə yeni insanları görmək istəyirsiniz, bu, inkişaf etməkdə olan demokratik siyasi sistem deməkdir.**

**İ l h a m  Ə l i y e v:** Bir siyasətçi kimi açığını desəm, bizim hakim partiya üçün yaxşı olardı ki, müxalifətdə heç bir dəyişiklik olmasın. Çünki mən şübhə edirəm ki, növbəti hansısa bir seçkilərdə kimsə bu köhnə sifətlər olan müxalifətə səs versin. Buna görə də siyasi mübarizə nöqteyi-nəzərindən bu müxalifət partiyalarının olduqları kimi qalması bizim hakim partiyanın xeyrinədir. Lakin müxalifətdə dəyişiklik cəmiyyətin mənafeyinə cavab verir. Cəmiyyətin mənafeyi isə tələb edir ki, siyasi partiyalar arasında düşmənçiliyə son qoyulsun. Nəyə görə Azərbaycanda siyasi partiyalar bir-birinə düşmən mövqedə durmalıdırlar, mən bunu başa düşə bilmirəm. Nəyə görə normal dialoq, müzakirələr və təmaslar olmasın. Lakin bu gün müxalifətdə olan adamlarla bunu etmək mümkün deyildir. Hökumət nə edə bilər? Biz onlar üçün nəsə etmək fikrində deyilik. Onlar bu barədə özləri fikirləşməlidirlər. Biz onu edə bilərik ki, normal siyasi mühit, sabit, açıq cəmiyyətin yaradılması ilə bağlı siyasi islahatlar davam etdirilsin. Biz cəmiyyətimizin demokratikləşməsi ilə bağlı Avropa Şurası qarşısında götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk. Daha nə edə bilərik? Qalan şeylər onların boynundadır.

**C o n a t a n  T e t ç e r: Siz iqtisadi məsələlərə toxundunuz. Sizin zəngin neft ehtiyatları baxımından bəxtiniz yaxşı gətirib və neftin qiymətinin qalxması baxımından isə bəxtiniz daha çox gətiribdir. Eyni za-**

**manda burada belə bir riskli məqam da vardır ki, neftin qiymətinin sürətlə qalxması birdən-birə dövlətə planlaşdırılmamış şəkildə gəlir gətirə bilər. Onda yəqin ki, bunun da nəticəsində hökumətinizə təzyiq göstərilə bilər ki, pulu buna xərcləyin, ona xərcləyin və s. Bu problemlə üzləşməmək üçün nə edirsiniz?**

**İ l h a m Ə l i y e v:** Ölkəmizin bu günə kimi əldə etdiyi uğurların səbəbi heç də əsasən neft amili ilə bağlı deyildir. Biz hazırda böyük həcmdə neft çıxarmırıq, böyük həcmdə neft hasilatının yalnız astanasındayıq. Ölkəmizin əldə etdiyi inkişafın böyük qismi həyata keçirdiyimiz iqtisadi islahatların və iqtisadi siyasətin nəticəsində mümkün olmuşdur. Ancaq hamı bilir ki, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi neft və qeyri-neft sektorunun inkişafına güclü təkan vermişdir. Lakin bizi bu məsələ də düşündürür ki, qısa bir zamanda ölkə varlananda bu imkanlardan necə istifadə etmək lazımdır. Bu məqsədlə bir neçə il bundan əvvəl Azərbaycanda Neft Fondu yaradılmışdır. Neftdən əldə olunan bütün gəlirlər çox şəffaf bir şəraitdə bu fondda cəmləşdirilir. Hər bir vətəndaş bilir ki, ölkə neftdən nə qədər gəlir əldə etmişdir, fondda beynəlxalq audit aparılır və o, beynəlxalq maliyyə təsisatlarının tövsiyələri əsasında idarə olunur. Buna görə də prezident seçkilərindən sonra bizim qəbul etdiyimiz regional inkişaf proqramı və sosial-iqtisadi yönümlü digər proqramlar əsasən regionlarımızın inkişafı, iqtisadiyyatımızın çoxşaxəliliyinin təmin olunması, yeni iş yerlərinin açılması – sözsüz ki, bu yeni iş yerləri qeyri-neft sektorunda yaradılacaqdır – məqsədi daşıyır.

Yalnız neftin qiymətlərinə bel bağlamaq çox təhlükəli bir haldır. Məndən soruşsanız, açıq cavab verərdim ki, neftin qiymətlərinin belə yüksək həddə çatması məni çox da sevindirmir. Əlbəttə ki, bu qiymətlər müəyyən həddən aşağı düşsəydi, bizi narahat edərdi, lakin bir barrel neftin qiymətinin 50 ABŞ dolları səviyyəsinə qalxması dünya iqtisadiyyatı üçün yaxşı hal deyildir. Azərbaycan dünya iqtisadiyyatının bir hissəsini təşkil edir, buna görə də dünya iqtisadiyyatında baş verən bütün müsbət və mənfi hallar bizim iqtisadiyyatımıza da təsir göstərə bilər.

Mən həmişə hökumətə də deyirəm ki, biz Azərbaycanda neft amilinin mövcudluğunu sanki unutmalıyıq və iqtisadiyyatımızı bu amili əsas tutmayaraq qurmalıyıq. Neft böyük xöşbəxtlik gətirirsə, eyni zamanda böyük problemlər də yaradır. Bizə bəzi neft hasil edən ölkələrin təcrübəsi yaxşı məlumdur. Bunlar uğurlu təcrübə adlandırıla bilməz və həmin ölkələrdə əhali bu amildən faydalana bilməmişdir. Hər bir Azərbaycan vətəndaşının neft gəlirlərindən faydalanması bizim üçün vacibdir, biz dünyada mövcud olan bütün neft fondlarının təcrübəsini öyrəndik və daha səmərəli olan Norveç modeli üzərində dayandıq. Bizim Neft Fondunda tətbiq etdiyimiz idarəetmə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və əlimizdən gələni edəcəyik ki, neft hasil edən digər ölkələrin buraxdığı səhvlərə yol verməyək.

**C o n a t a n T e t ç e r: Enerji məsələsinə toxunmaq istərdim. Deyəsən, qaz məsələsində siz rəqabətə - davamlı olmağa çalışırsınız, xüsusilə də Rusiya ilə. Bu özünü boru xətləri layihələrində göstərir. Bununla bağlı fikirlərinizi bilmək istərdim.**

**İ l h a m Ə l i y e v:** Qaz da bizim üçün əhəmiyyətlidir. Çünki bildiyiniz kimi, neft ixrac boru kəməri hazırda inşa edilməkdədir və tikinti işlərinin böyük qismi başa çatmışdır. Gələn il bu işlər tamamlanacaqdır. Biz Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsi ilə bağlı məqsədimizə nail oluruq. Vaxtilə çoxları bunu xəyali bir şey kimi qəbul edirdi. Qaz kəməri də çox əhəmiyyətlidir, bu, Azərbaycan qazını Gürcüstana, Türkiyəyə, Avropa bazarlarına çıxaracaqdır. Lakin bu kontekstdə biz heç bir dövlətlə rəqabət aparmağı planlaşdırmırıq və buna cəhd etmirik.

Azərbaycan qazının bazarda öz yeri olacaqdır. Biz Yunanıstanla danışıqlar aparırıq və Azərbaycan qazını, sözsüz ki, adları çəkilən ölkələrə, həmçinin digər Avropa ölkələrinə çıxarmağı planlaşdırırıq. Mən belə güman edirəm ki, bu layihənin də gerçəkləşməsi Avropa istehlakçıları üçün faydalı olacaq, belə ki, zənnimcə, bizim qaz daha ucuz başa gələcəkdir. Çünki qazın ixrac marşrutu daha qısa, nəqletmə xərcləri isə daha aşağı olacaqdır. Bu marşrut Avropa üçün alternativ bir marşrut olacaqdır. Növbəti 5-6 il ərzində qazın Avropaya müxtəlif nəqledilmə variantlarının da həyata keçiriləcəyi güman edilir. Digər ölkələrdə qaz hasilatı azalarsa, Azərbaycan qazı bu fərqi kompensasiya edə bilər. Lakin bir daha mən aydınlıq gətirmək istəyirəm ki, biz rəqabətə girməyi planlaşdırmırıq. Fikrimcə, rəqabət istehsalçılara yaxşı heç bir şey gətirmir, bu, istehlakçıların xeyrinədir. Biz istehsalçıyıq, ona görə də bu məsələyə ehtiyatla yanaşmalıyıq. Mən belə düşünürəm ki, Azərbaycan qazı Avropaya vaxtlı-vaxtında çatdırılacaq, çünki bizim energetika sahəsində bütün layihələrimiz artıq həyata keçirilmişdir və mən ümid edirəm ki, Bakıdan Türkiyəyə və oradan digər ölkələrə gedəcək boru xətti vaxtında hazır olacaqdır.

**C o n a t a n T e t ç e r: Bu məsələlərdə Moskva amilinə toxunmaq istərdim.**

**İ l h a m Ə l i y e v:** Mən bu barədə bir söz deyə bilmərəm. Bilirsiz, biz özümüzə aid olan işi yerinə yetiririk. Xəzərin Azərbaycana aid olan sektorunda beynəlxalq şirkətlərlə həyata keçirdiyimiz birgə işlər, Bakı–Tbilisi–Ceyhan layihəsi, qaz layihəsi – bütün bunları edərkən kiminsə maraqlarına zərbə vurmağı qarşımıza məqsəd qoymuruq. Biz bu işləri sırf öz maraqlarımız və maraqlarımızın qorunması naminə həyata keçiririk. Azərbaycanın buna haqqı vardır. Bizim bu vaxta kimi həyata keçirdiyimiz işlər yalnız beynəlxalq təcrübəyə uyğun və qanuni şəkildə görülmüşdür. Ona görə də kimsə bu işlərdən narahatdırsa, bu bizim problemimiz deyildir. Biz görəndə ki, bu, ölkəmiz üçün əhəmiyyətli və vacibdir, onu da edirik. Mən əminəm ki, planlaşdırıldığı kimi, Azərbaycan nefti Aralıq dənizi hövzəsinə çatdırılacaq, Azərbaycan qazı isə Avropaya nəql ediləcəkdir. Belə düşünü-

rəm ki, bu, hər hansı bir istehsalçını qıcıqlandırmamalıdır. Xüsusilə kəmiyyət nəzərə alınarsa. Azərbaycanın ixrac edəcəyi qaz digər ölkələrin ixrac etdiyi qazla müqayisədə həcmcə böyük olmayacaqdır.

**C o n a t a n T e t ç e r: Uzaq olmayan gələcəkdə iqtisadi perspektivlər məsələsinə toxunmaq istərdim. Siz Neft Fondundan və digər məsələlərdən danışdınız. Hazırkı şəraitdə hansısa spesifik islahatları həyata keçirməyi nəzərdə tutursunuzmu?**

**İ l h a m Ə l i y e v:** Mən belə düşünürəm ki, yuxarıda qeyd etdiyim proqramlar iqtisadi inkişafımıza kömək edəcəkdir. Bildirmək istərdim ki, ölkəmizdə vacib olan iqtisadi islahatlar, əsasən həyata keçirilmişdir, çox mühüm qanunlar qəbul edilmişdir. İqtisadiyyatın liberallaşdırılması, bazarın inhisardan azad edilməsi, özəl sektora dəstəyin verilməsi, sahibkarlara kreditlərin ayrılması və sair mühüm işlər həyata keçirilir. Gələn il özəl sektora maliyyə yardımını iki dəfə artırmağı planlaşdırırıq. Biz iqtisadiyyatı hökumətin hansısa iqtisadi layihəyə birbaşa müdaxiləsi yolu ilə deyil, lazımi infrastrukturun və özəl sektorun sərmayəsi hesabına maliyyə mənbələrinin yaradılması vasitəsilə stimullaşdırmağa çalışırıq. Azərbaycana böyük həcmdə xarici sərmayə qoyulur. Ölkəmiz adambaşına düşən birbaşa xarici sərmayənin həcminə görə MDB və Şərqi Avropa ölkələri sırasında birinci yerlərdə durur.

İndi bizim qarşımızda duran vacib məsələlərdən biri də güclü orta sinfin yaradılmasına kömək göstərməkdən ibarətdir. Yerli şirkətlərimizin ciddi layihələrə sərmayə qoya bilməsi üçün imkanın yaradılması da mühüm məsələdir. Xarici sərmayələr əhəmiyyətlidir, lakin bizim yerli sərmayəçilərimiz də daha güclü olmalıdır. Bunun üçün mümkün olan nə varsa edirik və bu istiqamətdə gələcəkdə də lazımi addımlar atacağıq. Qeyd etmək istəyirəm ki, biz bütün bu işləri səs-küysüz, hansısa güclü təbliğatdan istifadə etmədən, özümüzü tərifləmədən görürük. Biz bunu ona görə edirik ki, bu işlər Azərbaycan xalqına lazımdır. Bu gün Azərbaycan, həqiqətən, bütün sahələrdə çox sürətlə inkişaf edir. Lakin biz bundan şou düzəltmirik, hər yerdə səs-küy salmırıq ki, baxın görün, bizdə işlər necə yaxşı gedir. Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqının bütün bunlardan faydalanmağa haqqı vardır və əgər qarşımıza qoyduğumuz planlar hamısı həyata keçirilsə, növbəti dörd ildə Azərbaycan tamamilə başqa bir ölkəyə çevriləcəkdir.

**C o n a t a n T e t ç e r: Bağışlayın ki, vaxtınızı çox alıram. Tamam başqa bir məsələ ilə bağlı sual vermək olarmı? Bu, siyasi vəziyyətlə əlaqədardır. Ölkəniz çox həssas bir nöqtədə yerləşir. Sizin ABŞ-la çox yaxşı münasibətləriniz var, lakin qonşuluqda həyatı bir balaca çətinləşdirə bilən İran da vardır. Mənim üçün maraqlıdır, İranla yaxın keçmişdə olan gərginliklər indi Sizin üçün başağrısı yaradırmı? Qafqazdakı ümumi siyasi mühit nəzərə alınarsa, İranla münasibətlərinizdə tam tarazlıq yaratmaq çətindirmi?**

**İ l h a m Ə l i y e v:** Hazırda Azərbaycanla İran arasında çox konstruktiv münasibətlər mövcuddur. Bu yaxınlarda İran prezidentinin Azərbaycana çox uğurlu səfəri olmuşdur. Biz İranla yaxşı münasibətlərin olmasını istəyirik və mən belə düşünürəm ki, bu gün buna nail olmuşuq. Ölkələrimiz arasında bir sıra iqtisadi məsələlər, o cümlədən enerji və qaz mübadiləsinə dair və digər infrastruktur layihələr üzrə razılıqlar əldə edilmişdir. Bir daha bildirmək istəyirəm ki, bizim münasibətlər çox konstruktivdir və bundan çox razıyıq. Yuxarıda qeyd etdiyim kimi, Azərbaycan öz milli maraqlarına uyğun və maraqlarının qorunmasına yönəlmiş siyasət həyata keçirir. Biz imkan verə bilmərik ki, Azərbaycan müxtəlif ölkələr arasında qarşıdurma zonasına çevrilsin. Əgər hansısa ölkələr bir-biri ilə qarşıdurmaya girmək istəyirlərsə, onlar bunun üçün başqa yer tapa bilərlər. Biz Azərbaycanda əməkdaşlıq zonası yaratmağa çalışırıq və zənnimcə, buna nail oluruq. Azərbaycan xalqı erməni təcavüzündən, müharibədən çox əziyyət çəkmişdir. Biz ölkəmizdə sülh, təhlükəsizlik, sabitlik, firavanlıq istəyirik. Bütün digər dövlətlərlə, o cümlədən qonşu dövlətlərlə ikitərəfli münasibətləri bir-birinin maraqlarına hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qururuq. Bu kontekstdə Azərbaycan–İran münasibətlərinə xələl gətirə bilən bir amil yoxdur. Bizim münasibətlərimiz yuxarıda sadaladığım prinsiplər əsasında qurulmuşdur və mən əminəm ki, bu əlaqələr gələcəkdə də inkişaf edəcəkdir.

**M a r q a r i t a A n t i d z e: Cənab Prezident, icazənizlə, çox qısa bir sualım var. Mənə elə gəlir ki, prezident olmaq doğrudan da çox gərgin bir işdir. Sizin ən yaxşı məsləhətçiniz kimdir? Çünki prezident kimi Siz mütəmadi olaraq çox mühüm və ciddi qərarlar qəbul edirsiniz. Sizin ətrafınızda çoxlu peşəkar insanlar çalışır. Lakin yenə də təkrar etmək istərdim, ən yaxşı məsləhətçiniz kimdir, Sizin özünüzsünüzmü, yaxud Siz fikirləşirsiniz ki, bu hallarda mərhum atanız nə edərdi?**

**İ l h a m Ə l i y e v:** Mən səmimi demək istərdim, çox məsələlər barədə qərar qəbul etmək mənim üçün çətinlik doğurmur. Çünki zənnimcə, mənim düzgün qərarlar çıxarmaq üçün imkanım çoxdur. Lakin bəzən mən qərar çıxararkən fikirləşirəm ki, mərhum atam bu vəziyyətdə nə edərdi? Mən bu barədə fikirləşirəm, amma... Bilirsiniz, bəzən elə hallar olur ki, fikirləşirsən, güman edirsən, mərhum atam olsaydı, nə edərdi? Lakin təbii ki, sən bunu heç zaman dəqiq bilə bilməzsən. Ona görə də bu, asan bir məsələ deyildir. Əlbəttə ki, prezident olmaq da asan iş deyildir. Eyni zamanda mən sizə deyə bilərəm ki, prezidentlik fəaliyyətimin bu ilk ilində yəqin çox az anlar olub ki, hansısa ciddi qərarın qəbul edilməsi ilə bağlı çətinlik çəkim. Əksər hallarda mənim üçün bütün mənzərə, məqsədlər aydındır. Azərbaycanda siyasi, iqtisadi, ümumi vəziyyət müsbət şəkildə inkişaf edir. Buna görə də çıxardığımız qərarlar bugünkü vəziyyətə uyğun şəkildə qəbul edilir. Mən bütün qərarları özüm qəbul edirəm.

**C o n a t a n  T e t ç e r: Mən Bakıda olduğum qısa müddət ərzində çox yerdə mərhum atanızın portretlərini görmüşəm. Mən bilirəm ki, mərhum atanıza – ilk prezidentə hörmət bəslənilir. Çox yerdə portretlərin olmasının hansısa başqa bir səbəbi də varmı?**

**İ l h a m  Ə l i y e v:** Mən deməzdim ki, çox yerdə portretlər vardır. Heydər Əliyev Azərbaycan üçün təkcə prezident olmamışdır. Heydər Əliyev, həqiqətən, Azərbaycan xalqının ümummilli lideridir. Onun Azərbaycan xalqı qarşısında xidməti yalnız son on illik prezidentlik fəaliyyəti ilə məhdudlaşmır. Heydər Əliyev 1969-cu ildən Azərbaycana rəhbərlik etmiş, hətta müxtəlif siyasi şəraitlər dövründə də o, xalqımızın lideri olmuşdur. Bu dövrlərdə insanlara yenə də yaxşılıqlar etməkdə, xalqın maraqları naminə fəaliyyət göstərməkdə davam etmişdir. Kiçik fasilələrlə o, 35 il Azərbaycana rəhbərlik etmişdir. Ona görə də Azərbaycan xalqı Heydər Əliyevə yalnız bir prezident kimi deyil, Azərbaycanın müasir inkişafında güclü təsiri olan bir şəxsiyyət, bütün həyatını xalqın inkişafına sərf etmiş bir insan kimi münasibət bəsləyir. Heydər Əliyev dünyasını dəyişərkən günlərlə, həftələrlə, aylarla böyük insan axını səhər sübhdən ta gecə yarısına kimi onun xatirəsinə ehtiramını ifadə etmək üçün məzarını yad etməyə gəlirdi.

Ölkənin hər yerindən insanlar gələrək onun məzarını ziyarət edirdilər. Bu, xalqın hisslərinin təbii ifadəsi idi. Heydər Əliyev Azərbaycanın simvoludur, müstəqillik, ləyaqət və cəsarət simvolu! Siz dedikləriniz xalqın Heydər Əliyevə və onun millət qarşısında xidmətlərinə münasibəti və xatirəsinin yad edilməsinin bir ifadəsidir. Şəhərin küçələrində və digər yerlərdə portretlərinin olması Heydər Əliyevin insanların şüurunda, bugünkü həyatımızda mövcudluğu deməkdir.

**C o n a t a n  T e t ç e r: Mən əvvəllər Azərbaycanda olmamışam və ona görə də müqayisə edə bilmirəm.**

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, həm sovet, həm də postsovet dövründə yeni seçilən rəhbərlər, prezidentlər çox hallarda öz populyarlığını özündən əvvəlki prezidentlərin tənqidi üzərində qurmağa çalışırlar. Çünki bunu etmək asandır. Sən hər şeyi tənqid edə bilərsən. Yəqin ki, buna görə də siz digər ölkələrdə keçmiş prezidentlərin portretlərini görə bilməzsiniz. Azərbaycanda vəziyyət fərqlidir. Bilirsiniz, zənnimcə, keçmişi rədd etməklə deyil, keçmişə ədalətli yanaşmaqla, müsbət irsə əsaslanmaqla yeni uğurlar qazanmaq çox stimullaşdırıcı bir faktdır. Buna görə də mən belə düşünürəm ki, digər ölkələrdə bu cür təcrübəni görməməyinizin səbəbi elə dediklərimdir. Orada yalnız iqtidarda olan prezidentlərin portretləri vurulur.

**C o n a t a n  T e t ç e r: Ona görə də biz təəccübləndik ki, bəs Sizin portretləriniz niyə yoxdur?**

**İ l h a m  Ə l i y e v:** Mənim portretlərim prezidentliyə seçki kampaniyası zamanı vurulurdu. Seçkilərdən sonra isə mən tapşırdım ki, onları yığışdırsınlar. Ona görə də siz mənim portretlərimi görə bilməzsiniz. Çünki mən yalnız prezidentəm.

**C o n a t a n  T e t ç e r: Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan hökumətinə bizimlə əməkdaşlığa görə də təşəkkür edirik. Çox sağ olun.**

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**İSPANİYANIN KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı – İspan milləti günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İspaniya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 oktyabr 2004-cü il*

**İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA**

Hörmətli cənab sədr!

İspaniya Krallığının milli bayramı – İspan milləti günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–İspaniya dostluğu və əməkdaşlığı xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, ölkənizə əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 oktyabr 2004-cü il*

**İNDONEZİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İndoneziya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN MÜƏLLİMLƏRİNƏ**

Əziz və hörmətli müəllimlər!

Sizi 5 oktyabr – Beynəlxalq Müəllim günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə, ölkənin bütün təhsil işçilərinə ən xoş arzularımı yetirirəm.

Azərbaycanın daim yüksək amallara xidmət göstərmiş müəllim ordusu ölkəmizin hərtərəfli inkifaşı naminə, gələcəyimiz olan gənclərin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişdirilməsi yolunda var qüvvəsini sərf etmişdir. İftixar hissi ilə qeyd olunmalıdır ki, zəngin maarifçilik ənənələrinə malik təhsil sistemimiz aparılan islahatlar nəticəsində bu gün müasir beynəlxalq standartlara cavab verməkdədir. İnanıram ki, Azərbaycan müəllimləri Birləşmiş Millətlər Təşkilatının «Təhsil əsri» – «İntellekt əsri» elan etdiyi XXI yüzillikdə milli təhsilin davamlı inkişafı və dünya təhsil sisteminə inteqrasiyası üçün əllərindən gələni edəcək, bu sahədə artıq dönməz xarakter almış islahatlar prosesini uğurla davam etdirəcəklər.

Müstəqil Azərbaycan dövlətinin qarşısında geniş inkişaf perspektivləri ilə bağlı mühüm vəzifələr durur. Bu vəzifələrin öhdəsindən gəlməyə qadir olan vətənpərvər, yüksək savadlı gənclərin hazırlanması ölkəmizin tərəqqisinin, xalqımızın firavan həyata qovuşmasının mühüm şərtlərindəndir. Əminəm ki, siz bu məsuliyyətli işin həyata keçirilməsində bilik və bacarığınızı əsirgəməyəcək, əsası ümummilli liderimiz, böyük maarifpərvər Heydər Əliyev tərəfindən qoyulmuş milli təhsil quruculuğu strategiyasının həyata keçirilməsinə öz layiqli töhfənizi verəcəksiniz.

Əziz müəllimlər!

Sizi, bu şərəfli peşə sahiblərini Beynəlxalq Müəllim günü münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə cansağlığı, müstəqil Azərbaycanın intellektual potensialının gücləndirilməsi yolunda yeni nailiyyətlər diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 *oktyabr 2004-cü il*

## HEYDƏR ƏLİYEV ADINA BAKI DƏRİN ÖZÜLLƏR ZAVODUNDA ÜMUMMİLLİ LİDERİMİZİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*5 oktyabr 2004-cü il*

Əziz dostlar!

Mən çox şadam ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Bakı Dərin Özüllər Zavodu indi onun adını daşıyır və burada Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə, ictimai-siyasi quruluşundan asılı olmayaraq xalqa, millətə, doğma vətənə ləyaqətlə və sədaqətlə xidmət etmişdir.

1970–1980-ci illərdə məhz onun fəaliyyəti nəticəsində Azərbaycanda güclü iqtisadi potensial yaranmış, Azərbaycan öz iqtisadiyyatının bütün sahələrini uğurla inkişaf etdirə bilmişdir. Məhz o illərdə Azərbaycanda nəhəng sənaye müəssisələri, mədəniyyət ocaqları, infrastruktur yaradılmışdır. Təsəvvür etmək çətindir ki, əgər o illərdə hazırda Heydər Əliyevin adını daşıyan Bakı Dərin Özüllər Zavodu və digər iri müəssisələr yaranmasaydı, Azərbaycanın indiki vəziyyəti necə ola bilərdi?

Müstəqil Azərbaycanın uğurlu inkişafı məhz bu zəmində mümkün olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə çalışırdı ki, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanda bütün sahələr inkişaf etsin, güclü iqtisadiyyat yaransın, beləliklə, ölkəmiz Dünya Birliyində yerini daha da möhkəm tuta bilsin.

Zavodun yaranma tarixi yəqin ki, sizə bəllidir. O vaxtlar mərkəzi hakimiyyətdə belə fikirlər vardı ki, zavod başqa yerdə tikilsin. Məhz Heydər Əliyev öz fəaliyyəti nəticəsində nail ola bildi ki, zavod Bakıda tikildi. Zavod bu gün müstəqil Azərbaycana çox gözəl xidmət edir. Əgər vaxtilə bu zavod tikilməsəydi və indi fəaliyyət göstərməsəydi, Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi olan «Əsrin müqaviləsi»nin həyata keçirilməsi azı 5–7 il gecikə bilərdi.

Müstəqil Azərbaycanın prezidenti kimi, Heydər Əliyev ölkəni hər cəhətdən inkişaf etdirdi. Azərbaycan 1993-cü ildə çox ağır vəziyyətdə idi. Həm siyasi, həm də iqtisadi cəhətdən ölkədə böhran yaşanırdı. Demək olar ki, müəssisələr dayanmışdı, tənəzzül ölkəmizi iqtisadi cəhətdən uçuruma aparırdı. Məhz o çətin illərdə Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, cəsarəti, apardığı siyasət sayəsində indi Azərbaycan bölgədə iqtisadi cəhətdən lider ölkəyə çevrilibdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Azərbaycan beynəlxalq, regional layihələrdə aparıcı rol oynayır və iqtisadiyyatı ildən-ilə güclənir, xalqın rifah halı getdikcə yaxşılaşır.

Bütün bu uğurları əldə etmək üçün əlbəttə, 1993–1994-cü illərdə çox cəsarətli addımlar atmaq lazım idi. O çətin şəraitdə «Əsrin müqaviləsi»nin imzalanması, demək olar ki, Azərbaycanın müasir inkişafının təməlini qoydu. Təsəvvür etmək çətindir ki, əgər «Əsrin müqaviləsi» 1994-cü ildə imzalanmasaydı, Azərbaycanın indiki durumu necə olardı. «Əsrin müqaviləsi» iqtisadiyyatımızın bütün digər sahələrinə öz müsbət təsirini göstərdi, ölkəyə böyük həcmdə xarici sərmayə gəldi, elə bu zavoda da çoxlu sərmayə qoyuldu. Azərbaycan iri neft şirkətləri ilə, beynəlxalq neft şirkətləri ilə çox uğurlu əməkdaşlığa başladı və bunun nəticəsində həm neft kəmərlərinin tikintisi mümkün oldu, həm də Azərbaycanda neftin hasilatı artırıldı.

Biz bu gün Azərbaycan həyatında çox böyük bir mərhələnin astanasındayıq. Yenə də məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi nəticəsində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi nəinki mümkün olmuşdur, həm də bu tikinti uğurla davam etdirilir və bu yaxınlarda kəmər istismara veriləcəkdir. Bu, ölkəmiz üçün həm iqtisadi, həm siyasi, həm də təhlükəsizlik baxımından müstəsna əhəmiyyəti olan bir layihədir. Azərbaycan bu layihənin hesabına öz iqtisadi potensialını daha da gücləndirəcək, ölkə iqtisadi cəhətdən çox möhkəm olacaqdır. İnsanlarımızın həyat səviyyəsi yaxşılaşacaqdır. Ölkəyə böyük həcmdə gəlir gələcəkdir ki, bu da öz növbəsində, bizə imkan verəcək ki, Azərbaycanda bütün mövcud olan problemlər öz həllini daha sürətlə tapsın.

Bakı–Tbilisi–Ceyhan neft kəməri Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, bu kəmərə Heydər Əliyevin adı verilmişdir.

Növbəti mərhələ isə Azərbaycan qazının dünya bazarlarına çatdırılmasından ibarət olacaqdır. Bu da ölkəmiz üçün çox önəmli bir layihədir və uğurla icra olunur. Heç şübhə etmirəm ki, bu layihə də uğurla başa çatdırılacaqdır.

Beləliklə, 1970-ci illərdə respublikamızda bu zavodun tikilməsi və buna bənzər infrastrukturun, müəssisələrin yaranması, müstəqil Azərbaycanda «Əsrin müqaviləsi»nin və ondan sonrakı müqavilələrin imzalanması imkan verir ki, Azərbaycan yaxın zamanlarda çox qüdrətli dövlətə çevrilsin. Budur əsl siyasi xadimin fəaliyyəti, budur əsl dövlət xadiminin fəaliyyəti!

Bayaq qeyd etdiyim kimi, Heydər Əliyev bütün dövrlərdə xalqa xidmət edirdi. Ömrünün son gününə qədər xalqa xidmət edirdi. Mən xatırlayıram ki, keçən il aprelin 26-da o buraya gəlməli və bu zavodun 25 illiyini bura-

da sizinlə birlikdə qeyd etməli idi. Amma ondan beş gün əvvəl onun səhhətində problemlər yaranmışdı və o buraya gələ bilmədi. Amma mən xatırlayıram, istəyirdi ki, zavoda gəlsin, zavodla bir daha tanış olsun. Bilirsiniz ki, Heydər Əliyev zavodda müxtəlif dövrlərdə dəfələrlə olmuşdur və onun fəaliyyəti ilə maraqlanırdı. Azərbaycanda Heydər Əliyevin neft strategiyasının icrası başlanandan sonra zavodun, demək olar ki, ikinci həyatı başladı.

Bilirsiniz ki, zavod bir müddət fəaliyyətsiz qalmışdı. Burada olan avadanlıq köhnəlmişdi, işçilərin sayı da azalmışdı. Amma yeni neft strategiyasının icrası nəticəsində zavodda yeni həyat başladı. Bu gün mənə verilən məlumata görə, zavodda və onunla birgə fəaliyyət göstərən təşkilatlarda çalışan insanların sayı 5 mindən yuxarıdır. Burada orta əməkhaqqı 300 dollardan 700 dollara qədərdir.

Sadaladığım bütün bu məsələlər müasir Azərbaycanın həyatını göstərir. Göstərir ki, Azərbaycan uğurla inkişaf edir, Azərbaycan Heydər Əliyev siyasətinə sadiq olaraq, bütün dövrlərdə öz imkanlarından istifadə etməklə uğurla irəliyə gedir.

Gələcəkdə bizim vəzifələrimiz çoxdur. Biz Heydər Əliyev siyasətini bütün sahələrdə davam etdirməliyik. Yalnız bu siyasət Azərbaycan xalqına xoşbəxtlik gətirəcəkdir. Yalnız bu siyasət Azərbaycanı iqtisadi cəhətdən daha da güclü edəcəkdir.

Çox şadam ki, bu gün zavod çox uğurla fəaliyyət göstərir. Mən keçmiş işimlə əlaqədar zavodda dəfələrlə olmuşam. Prezident kimi də olmuşam və yəqin ki, hələ çox olacağam. Mən çox şadam ki, zavodda gedən işlər bu gün dünya standartlarına cavab verir. Burada tikilən, inşa edilən qurğular ən yüksək səviyyədə istismara verilir, bu da onu göstərir ki, zavodun çox peşəkar kollektivi var. Çox şadam ki, bu peşəkar kollektiv Azərbaycana çox ləyaqətlə xidmət edir, böyük işlər görür.

Əziz dostlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin zavodda ucaldılmış abidəsinin açılışı münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Zavodun kollektivinə yeni-yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun!

* * *

### Mərasimdən sonra Azərbaycan televiziyasına verdiyi qısa müsahibə

**S u a l: Cənab Prezident, bu gün tarixi bir hadisənin şahidi olduq. Siz Xəzərin dərin qatlarında yataqların istismarı üçün nəzərdə tutulan bu nəhəng qurğuya da baxdınız. Buradan hansı təəssüratla ayrılırsınız?**

**C a v a b:** Bilirsiniz, bu bir daha onu göstərir ki, müasir Azərbaycan nəyə qadirdir. Bir neçə il bundan əvvəl belə bir qurğunun Azərbaycanda tikilməsini heç kim təsəvvür edə bilməzdi. Bu, dünyanın ən yüksək standartlarına cavab verən qurğudur, «Azəri» yatağında quraşdırılacaqdır. Bu bir daha onu göstərir ki, Azərbaycanın potensialı günu-gündən güclənir. Burada başqa qurğular da tikilməkdədir. Beləliklə, «Azəri»–«Çıraq»–«Günəşli» yataqlarında quraşdırılacaq bütün platformalar Azərbaycanda tikiləcəkdir. Bu işlərə böyük sərmayə qoyulubdur, böyük zəhmət çəkilir.

Burada xarici və yerli mütəxəssislər, fəhlələr birgə işləyir və gözəl qurğular yaradırlar. Bu bizə imkan verəcək ki, Azərbaycan öz neft potensialını maksimum dərəcədə səmərəli işə salsın və Heydər Əliyevin neft strategiyası uğurla davam etdirilsin.

Mən bu gün qeyd etdim ki, əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə, onun əməyi nəticəsində «Əsrin müqaviləsi» imzalanmasaydı, bu işləri görmək mümkün olmazdı. Bu gün Azərbaycan dünyada mövcud olan ən yüksək standartlara cavab verən bu işləri görür və gələcəkdə daha da böyük işlər görüləcəkdir.

Mən bu gün böyük sevinc içindəyəm ki, bu işlərin əməli nəticəsini görürəm. Bu yaxınlarda platforma dənizə aparılacaq, orada quraşdırılacaqdır. Ondan sonra oradan çıxarılacaq neft Səngəçal terminalına, oradan da Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft kəmərinə ötürüləcəkdir. Bu da öz növbəsində, Azərbaycan neftini dünya bazarlarına çatdıracaqdır. Azərbaycan daha da güclü, zəngin olacaqdır. Azərbaycanda yaşayan hər bir vətəndaş bundan fayda görəcəkdir.

**YUNANISTANIN PAYTAXTI AFİNADA KEÇİRİLMİŞ XII PARALİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**

*Prezident sarayı*

*6 oktyabr 2004-cü il*

Əziz dostlar!

Hörmətli idmançılar!

Mən sizi ürəkdən salamlayıram və Afinada keçirilmiş Paralimpiya oyunlarında göstərdiyiniz yüksək nəticələr münasibətilə ürəkdən təbrik edirəm.

Biz hamımız sizə azarkeşlik edirdik. Hamımız gözləyirdik ki, idmançılarımız həmişə olduğu kimi, bu dəfə də Azərbaycanın idman şöhrətini yüksək tutacaqlar, Azərbaycanı ləyaqətlə təmsil edəcəklər. Çox şadıq ki, məhz belə də oldu. İki qızıl, bir gümüş, bir bürünc medalın qazanılması, həqiqətən də, böyük uğurdur, böyük nəticədir. Nəzərə alsaq ki, birinci dəfə bizim paralimpiyaçılarımız 1996-cı ildə iştirak edərkən medal qazana bilməmişlər, 2000-ci ildə iki medal qazanmışlar. İndi isə dörd medalın qazanılması göstərir ki, bu sahədə böyük irəliləyiş, böyük tərəqqi var.

Mən bu münasibətlə Milli Paralimpiya Komitəsinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Komitə bu müddət ərzində çox səmərəli işləyib, idmançılara yaxşı şərait yaradıb, təlim-məşq toplantılarının keçirilməsi, ümumiyyətlə, idmançıların hazırlanması üçün çox böyük işlər görübdür. Bu işlərin nəticəsində belə gözəl nəticə əldə edilibdir. Əlbəttə, idmançıların fədakarlığı, onların iradəsi qələbənin başlıca səbəbidir. Hamımız bilirik ki, fiziki cəhətdən qüsurlu insanların idmanla məşğul olması çox böyük iradə, əzmkarlıq tələb edir. Mən çox şadam ki, görülən bütün bu işlər, göstərilən səylər öz gözəl nəticəsini vermişdir. İdmançıları xüsusilə qeyd etmək istəyirəm. Onların məşqçilərini qeyd etmək istəyirəm ki, Azərbaycana belə böyük bir qələbə bəxş edilmişdir.

Bildiyiniz kimi, ümumiyyətlə, Azərbaycanda idman çox sürətlə inkişaf edir. İdmanın bütün növləri Azərbaycanda geniş yayılır, təbliğ edilir. Azərbaycan idmançıları beynəlxalq yarışlarda çox gözəl nəticələr göstərirlər. Qazanılmış medalların sayının ildən-ilə artması da, əldə edilmiş yüksək nəticələr də deməyə əsas verir ki, Azərbaycanda idman çox inamla inkişaf edir və idmançılarımız doğma vətənimizi beynəlxalq yarışlarda çox ləyaqətlə təmsil edirlər. Bu hamımızı sevindirir. Çünki bildiyiniz kimi, müasir dövrdə, müasir dünyada idman hər bir ölkənin ictimai-siyasi həyatında mühüm amilə çevrilibdir, o cümlədən Azərbaycanda da. İdmançılarımızın uğurları bizim hamımızı sevindirir. Eyni zamanda, bu uğurlar ölkənin ümumi potensialını göstərir. Əgər ölkədə işlər yaxşı gedirsə, deməli, idmanda da yaxşı gedir.

Bildiyiniz kimi, bizim ölkəmiz inkişaf edir, qarşıda duran bütün məsələlər, bütün vəzifələr yerinə yetirilir. Ölkə iqtisadiyyatı da güclənir. Sosial məsələlər öz həllini daha sürətlə tapır. Bu meyillər gələcəkdə də davam edəcəkdir. Azərbaycan ildən-ilə daha da qüdrətli, zəngin dövlətə çevriləcəkdir. Əlbəttə, bu ümumi inkişaf Azərbaycanın bütün sahələrinə, o cümlədən idmana da öz təsirini göstərir.

İdmanda son illər ərzində qazanılmış uğurlar deməyə əsas verir ki, bizim əldə etdiyimiz mövqelər gələcəkdə daha da möhkəmlənəcəkdir. Mən çox şadam ki, bizim idman cəmiyyətlərimiz, federasiyalar, idmana rəhbərlik edən bütün qurumlar çox səmərəli işləyir. Mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm.

Fürsətdən istifadə edib demək istəyirəm ki, avqust ayında Afinada keçirilmiş Olimpiya oyunlarında da idmançılarımız çox gözəl nəticə göstəriblər. Beş medalın qazanılması çox böyük hadisədir, uğurdur. Hər sahədə bizdə uğur var. Keçən dövrə nisbətən hər sahədə nailiyyətlərimiz daha böyük, daha inamlıdır.

Mən çox sevinirəm ki, bayaq qeyd etdiyim kimi, paralimpiyaçılarımız da yarışlara çox məsuliyyətlə yanaşıblar, çox yaxşı çıxış ediblər, layiqli qələbə qazanıblar. Əminəm ki, bu qələbə onların, Azərbaycanın bütün azarkeşlərinin xatirəsində uzun illər qalacaqdır. Əlbəttə, qazanılmış bu mövqedən yanaşdıqda, siz növbəti yarışlarda bundan da yüksək nəticələri göstərməlisiniz. Hər halda, biz bunu sizdən gözləyirik və əminik, belə də olacaqdır.

Mən bir daha demək istəyirəm ki, fiziki cəhətdən qüsurlu insanlar idmanla məşğul olarkən, əlbəttə, böyük çətinliklər çəkirlər. Bu, böyük fədakarlıq, böyük iradə tələb edir və sözün əsl mənasında, qəhrəmanlıqdır. Azərbaycan Respublikasının prezidenti kimi, Milli Olimpiya Komitəsinin prezidenti kimi, mən də sizə öz minnətdarlığımı, təşəkkürümü bildirirəm. Ümid edirəm ki, gələcəkdə də biz hamımız vahid bir ailə kimi, vahid komanda kimi, Azərbaycanın idman şöhrətini daha da yüksəklərə qaldıracağıq. Bu gözəl qələbə münasibətilə sizi bir daha təbrik edirəm.

Mən mükafatlandırma ilə əlaqədar müvafiq qərar qəbul etmişəm. Onu da qeyd etmək istəyirəm ki, eyni zamanda Milli Olimpiya Komitəsi də yüksək nəticə göstərmiş idmançılara öz mükafatlarını təsis edibdir. Təbii ki, burada da məsələyə sosial ədalət prinsipi əsasında baxılıbdır və beləliklə, dövlət tərəfindən ayrılmış mükafatla yanaşı, Milli Olimpiya Komitəsi də birinci yeri tutan idmançıya 125 milyon manat mükafat ayırıbdır. İkinci yeri tutan idmançı 75 milyon manat alacaqdır. Üçüncü yeri tutan idmançı isə 50 milyon manat alacaqdır. Məşqçilər – birinci yeri tutan idmançının məşqçisi 62,5 milyon manat, ikinci və üçüncü yeri tutan idmançıların məşqçiləri də buna müvafiq qaydada mükafatlar alacaqlar.

Belə olan halda, ümumiyyətlə, Zəkiyev İlham 375 milyon manat, Panyutin Oleq 375 milyon manat, Bilalov Zeynəddin 200 milyon manat, Yelena Taranova 110 milyon manat alacaqlar. Məşqçilər–Əhmədin Rəcəbli 187,5 milyon manat, Sergey Təhməzov 187,5 milyon manat və Vitali Sotnikov 55 milyon manat alacaqlar.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev XII Yay Paralimpiya oyunlarında medal qazanmış idmançılara və onların məşqçilərinin hər birinə mükafatlar və gül dəstəsi təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, Sizi bu qələbə münasibətilə, yüksək nəticələr münasibətilə bir daha ürəkdən təbrik edirəm. Əminəm ki, bundan sonra da siz doğma vətənimizin idman şərəfini ləyaqətlə qoruyacaq və Azərbaycana yeni qələbələr, yeni uğurlar gətirəcəksiniz.

Sizi bir daha təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun!

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PİRVANOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə Bolqarıstan Respublikasının prezidenti Georgi Pirvanov oktyabrın 7-də ölkəmizə rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Bolqarıstanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Bolqarıstan prezidenti Georgi Pirvanovu və onun xanımını Azərbaycanın Baş naziri Artur Rasizadə, Bolqarıstanın Bakıdakı səfiri İvan Palçev, digər rəsmi şəxslər qarşıladılar.*

*Qarşılanma mərasimindən sonra Bolqarıstan prezidenti Georgi Pirvanov ilə Baş nazir Artur Rasizadə arasında qısa protokol görüşü oldu.*

*Bolqarıstan prezidenti fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Oktyabrın 7-də Prezident sarayında Bolqarıstan Respublikasının prezidenti Georgi Pırvanovun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının asıldığı meydanda ali qonağın şərəfinə fəxri qorovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Bolqarıstan prezidenti Georgi Pırvanovu böyük hörmət və səmimiyyətlə qarşıladı. Dövlətimizin başçısı Bolqarıstan prezidentinin xanımına gül dəstəsi təqdim etdi.*

*Fəxri qarovul dəstəsinin rəisi Bolqarıstan prezidentinə raport verdi.*

*Hərbi orkestrin ifasında Bolqarıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Georgi Pirvanov fəxri qorovul dəstəsinin qarşısından keçdilər. Bolqarıstan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Bolqarıstan prezidenti Georgi Pırvanova, Bolqarıstan nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN**
**PREZİDENTİ GEORGİ PIRVANOVUN**
**TƏKBƏTƏK GÖRÜŞÜ**

*Prezident sarayı*

*7 oktyabr 2004-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.*

*Azərbaycanın dövlət başçısı Bolqarıstan prezidentini səmimi salamlayaraq onun Bakıya səfərinin böyük əhəmiyyət daşıdığını vurğuladı və əmin olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin gələcək inkişafına güclü təkan verəcəkdir. O, ATƏT-in sədri kimi, Bolqarıstanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında böyük səylər göstərdiyini qeyd etdi və bu səylərin bundan sonra da davam edəcəyinə ümidvar olduğunu söylədi.*

*Prezident Georgi Pırvanov Azərbaycanla ikitərəfli əlaqələrin inkişafı üçün böyük potensial olduğunu bildirdi və Avropaya inteqrasiya sahəsində Bolqarıstanın ölkəmizlə sıx əməkdaşlıq etmək istədiyini vurğuladı.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜNDƏN SONRA DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBLİ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN–BOLQARISTAN DANIŞIQLARI**

*Prezident sarayı*

*7 oktyabr 2004-cü il*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana «Xoş gəlmisiniz!» deyirəm.

Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminik ki, bu səfərdən sonra iki ölkə arasında olan münasibətlər daha da inkişaf edəcəkdir. Həm iqtisadi, həm siyasi, həm mədəni, həm də digər sahələrdə münasibətlərin inkişafı üçün çox gözəl zəmin vardır. Hökumətlərarası komissiya da öz işini davam etdirir və əminəm ki, orada müzakirə olunan məsələlər ölkələrimizi iqtisadi baxımdan bir-birinə daha da yaxınlaşdıracaqdır.

Onu da qeyd etmək istəyirəm ki, ATƏT-in sədri kimi, Bolqarıstan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində çox böyük səylər göstərir. Biz bunu çox bəyənirik və bu səylərə görə sizə öz təşəkkürümüzü bildiririk. Bir sözlə, mən ümid edirəm ki, bu səfərdən sonra bütün sahələrdə bizim əməkdaşlığımız daha da sürətlə inkişaf edəcək və Bolqarıstanla Azərbaycan arasında ikitərəfli münasibətlər daha da genişlənəcəkdir. Bilirsiniz ki, bu yaxınlarda Bolqarıstanda Azərbaycan səfirliyi öz işinə başlayacaqdır, bu da öz növbəsində, əlaqələrin daha da sürətlə inkişaf etməsinə imkan verəcəkdir.

Bir daha Sizi ürəkdən salamlayıram. Əminəm ki, bu səfər çox uğurlu olacaq və əlaqələrimiz yeni pilləyə qalxacaqdır.

**G e o r g i  P ı r v a n o v:** Hörmətli cənab Prezident, icazə verin, ilk növbədə, dəvətə və ölkənizə gəlmək imkanına görə Sizə təşəkkür edim. Mən bu fikirdəyəm ki, münasibətlərimiz indiki siyasi əlaqələrə nisbətən daha güclü potensiala malikdir. İnanıram ki, dövlət başçıları kimi, biz münasibətlərimizin və qarşılıqlı fəaliyyətimizin gücləndirilməsi istiqamətində Bolqarıstanın və Azərbaycanın digər təsisatlarına dəqiq və aydın siqnal verə, nümunə göstərə bilərik. Mən hökumətlərarası komissiyanın işindən razıyam və inanıram ki, komissiya Azərbaycana səfərimiz başa çatanadək işini yaxşı yerinə yetirəcəkdir.

Hüquqi bazanın yaradılması və modernləşdirilməsi üzərində indi – səfərim çərçivəsində də işləmək və bunu gələcəkdə də davam etdirmək mənim üçün çox əhəmiyyətlidir. Sazişlərin imzalanmasında iştirak etməyimiz və mərkəzi, yerli hakimiyyət orqanları nümayəndələrinin bu prosesə qoşulması faktının özü çox rəmzidir.

Cənab Prezident, iqtisadi münasibətlərimizdəki əlverişsiz vəziyyətin səbəblərini çox diqqətlə təhlil etmək yaxşı olar. Əgər cəmi 7 milyon dollar olan əmtəə dövriyyəsinin həcmini sizinlə qonşu ölkələrin göstəriciləri ilə müqayisə etsək görərik ki, bu, əsla inandırıcı deyildir və rəmzi xarakter daşıyır. Mənafelər isə, sözsüz ki, mövcuddur. İndi keçirilən Bolqarıstan–Azərbaycan biznes forumunda bolqar biznesmenlərinin iştirakı da buna sübutdur.

Beynəlxalq aləmdə qarşılıqlı fəaliyyətimizlə bağlı bir neçə mühüm məsələ var. İlk növbədə, Bolqarıstan NATO-nun üzvüdür və tezliklə Avropa Birliyinin üzvü olacaqdır. Zənnimcə, Sizin bəyan etdiyiniz niyyətləri nəzərə alaraq, biz çox gözəl qarşılıqlı fəaliyyət göstərə bilərik. Şəxsən mən bu fikirdəyəm ki, Avropa Birliyinin qonşu ölkələr barəsində elan etdiyi yeni siyasət yeni məzmunla dolğunlaşmalıdır. Bolqarıstan bu siyasətin tərəfdarlarından biri olacaqdır.

Digər tərəfdən, ümidvarıq ki, Azərbaycan, xüsusən, ölkəmizin biznesmenləri Bolqarıstanın simasında Avropa Birliyinə, bir növ, qapı tapacaq.

Cənab Prezident, beynəlxalq terrorizmlə mübarizədə bir sırada olmağımız çox vacibdir. Eyni münaqişə nöqtələrində olmağımız sübut edir ki, toqquşmalar dini və etnik əsasda baş vermir. Onlar tamam başqa xarakterlidir. Bolqarıstanın NATO üzvü, Azərbaycanın isə bu təşkilatın fəal tərəfdaşı olduğunu nəzərə alaraq, biz bu sahədə yaxşı qarşılıqlı fəaliyyət göstərə bilərik.

Sonda demək istərdim ki, qarşılıqlı fəaliyyətimizin səviyyəsini qaldırmağımız çox vacibdir. Bolqarıstanın artıq Azərbaycanda səfiri var və yaxın vaxtlarda Sofiyada səfirlik açmaq barədə qərarınızı alqışlayıram. Bu, bəlkə də, ilk baxışdan texniki xarakterli kiçik amildir, amma bilirik ki, çox vaxt belə məsələlər böyük rol oynayır.

## AZƏRBAYCAN–BOLQARISTAN SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*Prezident sarayı*

*7 oktyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev və Bolqarıstan prezidenti Georgi Pırvanov Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında birgə bəyannamə imzaladılar.*

*Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında birgə bəyannamə; Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında saziş;*

*Azərbaycan Respublikası hökuməti və Bolqarıstan Respublikası hökuməti arasında səhiyyə və tibb elmi sahəsində saziş;*

*Azərbaycan Respublikası hökuməti və Bolqarıstan Respublikası hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında saziş;*

*Ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan–Bolqarıstan hökumətlərarası komissiyasının ikinci iclasının protokolu;*

*Azərbaycan Respubilkası hökuməti və Bolqarıstan Respublikası hökuməti arasında ticarət gəmiçiliyi haqqında saziş;*

*Azərbaycan Respublikası hökuməti və Bolqarıstan Respublikası hökuməti arasında beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında saziş imzalandı.*

## AZƏRBAYCAN–BOLQARISTAN SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA PREZİDENTLƏR İLHAM ƏLİYEVİN VƏ GEORGİ PIRVANOVUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Prezident sarayı*

*7 oktyabr 2004-cü il*

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Sizə bir daha xoş gəlmisiniz! deyirəm.

Bolqarıstan Respublikasının prezidenti cənab Pırvanovun Azərbaycana rəsmi səfəri böyük əhəmiyyət kəsb edir. Biz bu səfəri çox səbirsizliklə gözləyirdik. Çox şadıq ki, bu səfər çox uğurlu keçir. Keçirdiyimiz danışıqlar bir daha onu göstərir ki, iki ölkə arasında olan münasibətlər inkişaf edir və əlaqələrimiz güclənir. Əminəm ki, bu səfərdən sonra siyasi, iqtisadi, mədəni və bütün digər sahələrdə əməkdaşlığımız daha da güclənəcəkdir.

Siyasi baxımdan ölkələrimiz bir-birinə çox yaxındır. Biz Avropa və Avratlantika strukturlarına uğurla inteqrasiya edirik və ikitərəfli münasibətlər də bu baxımdan çox müsbət istiqamətdə inkişaf edir. ATƏT-in sədri kimi, Bolqarıstan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması işində çox fəal rol oynayır və biz çox məmnunuq ki, bu fəaliyyət nəticəsində danışıqlar prosesində yeni irəliləyiş müşahidə oluna bilər.

İqtisadi sahədə də böyük potensial var, lakin bu potensial hələlik tam gücü ilə işə salınmayıbdır. Amma ümid edirəm ki, bu səfərdən sonra ölkələrimiz arasında iqtisadi əlaqələr inkişaf edəcəkdir.

Hökumətlərarası birgə komissiyanın iclası keçirilmiş, işçi qrupunun yaradılması haqqında qərar qəbul edilmişdir. Ümid edirəm ki, komissiyanın fəaliyyəti və eyni zamanda bu gün Azərbaycana gəlmiş çoxsaylı Bolqarıstan biznesmenlərinin azərbaycanlı həmkarları ilə danışıqları nəticəsində iqtisadi sahədə də böyük uğurlar əldə edə biləcəyik.

Bolqarıstan və Azərbaycanın iqtisadiyyatı sürətlə və dinamik şəkildə inkişaf edir. Əlbəttə, iqtisadi potensial gücləndikcə bizə imkan verəcək ki, iki ölkə arasında iqtisadi əlaqələr daha da sürətlənsin və hər iki tərəfə böyük fayda gətirsin. Ümid edirəm, yaxın zamanlarda Azərbaycanın Bolqarıstanda açılacaq səfirliyinin fəaliyyəti də ümumi işimizə böyük töhfə verəcəkdir.

Qeyd etmək istəyirəm ki, bizim həm təkbətək, həm də geniş tərkibdə danışıqlarımız çox səmimi şəraitdə keçmişdir. Biz çox geniş əhatəli məsələləri müzakirə etdik. İkitərəfli münasibətləri, regional əməkdaşlıq məsələlərini müzakirə etdik və əlbəttə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında fikir mübadiləsi apardıq. Mən çox şadam ki, aramızda yaranmış gözəl münasibət, bu səmimiyyət bizə imkan verəcək ki, ölkələrimizin münasibətlərini yeni pilləyə qaldıraq.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram. Əminəm ki, çox uğurla başlanmış bu səfər uğurla da davam edəcəkdir. Sizin səfərinizin nəticəsində iki ölkə bir-birinə daha da yaxın olacaqdır.

**Bolqarıstan prezidenti Georgi Pırvanovun bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Hesab edirəm ki, nümayəndə heyətimizin Azərbaycana səfəri uğurla başlanır. Bu səfər iştirakımızla imzalanmış çoxsaylı sazişlərlə çox yaxşı şəkildə dolğunlaşır. Danışıqlarımızdan sonra belə bir qənaətə gəlməyə əsasım var ki, bu səfər siyasi sahədə ikitərəfli münasibətlərimizin inkişafına təkan verəcəkdir. Etiraf etmək lazımdır ki, bu dialoq indiyədək rəvan aparılmamışdır. Əvvəla, iqtisadi münasibətlərimizin fəallaşdırılacağına ümid bəsləyirəm və buna əsas var. Ekspertlərimiz ölkələrimiz arasında əmtəə dövriyyəsinin vəziyyəti məsələsini müzakirə etmişlər. Demək olmaz ki, əmtəə dövriyyəsinin real vəziyyəti qənaətbəxşdir. Əmtəə dövriyyəmizi artırmağın konkret forma və metodlarından danışarkən biz, ilk növbədə, normativ bazanı nəzərdən keçirməli və lazım olarsa, ona əlavələr etməliyik. Nəqliyyat məsələlərini nəzərdən qaçırmaq olmaz, əmtəə dövriyyəsinin strukturunu konkret şəkildə tamamlamaq lazımdır.

Çox vaxt eyni mövqelərdən çıxış etdiyimiz Birləşmiş Millətlər Təşkilatından tutmuş ölkələrimizin əlaqə saxladıqları Avropa strukturlarınadək dövlətlərimizin üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində gözəl qarşılıqlı fəaliyyət imkanı mövcuddur.

Biz regional təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etməliyik.

Ölkəmizin ATƏT-də sədrliyini yüksək qiymətləndirdiyinə görə prezident İlham Əliyevə təşəkkür edirəm. Mən onu əmin etdim ki, Bolqarıstan bu istiqamətdə bundan sonra da fəal mövqe tutacaqdır. Həqiqətən Bolqarıstan əvvəllər bu təşkilatda sədrlik edən bütün ölkələrdən fərqlənməyə, xüsusən bu konkret problem barəsində fərqlənməyə çalışır. Bu fəallıq təkcə xarici işlər nazirlərinin qarşılıqlı əlaqələrində deyil, missiyaların təsis olunmasında və digər məsələlərdə də öz ifadəsini tapmışdır. Hesab edirəm ki, biz beynəlxalq terrorizmlə mübarizə məsələsində eyni mövqedəyik. Digər tərəfdən, Bolqarıstanın və Azərbaycanın konkret nöqtələrdə – İraqda və Əfqanıstanda olması, bu münaqişələrin dini və etnik zəmində baş verməməsi faktının özü bizi müəyyən mənada yaxınlaşdırır.

* * *

**S u a l: Mənim sualım prezident İlham Əliyevədir. Cənab Prezident, xahiş edirəm deyəsiniz, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi hansı mərhələdədir və Bolqarıstanın maraq göstərə biləcəyi digər neft layihələri varmı?**

**İ l h a m Ə l i y e v:** Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurla tikilib istifadəyə verilməsi Azərbaycanın qarşısında duran ən önəmli məsələlərdən biridir. Bu kəmərin tikintisi yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə, onun əməyi nəticəsində mümkün olmuşdur. Təsadüfi deyil ki, bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri Heydər Əliyevin adını daşıyır. Tikinti işləri çox uğurla davam edir və gələn il Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi böyük bayram kimi qeyd ediləcəkdir. Çoxlu sərmayə qoyulubdur. Ümumi sərmayənin həcmi təqribən 3 milyard dollara bərabərdir. Böyük beynəlxalq konsorsium bu işləri icra edir və hər şey vaxtında başa çatacaqdır. Beləliklə, Azərbaycan nefti dünya bazarlarına çıxarılacaqdır.

Azərbaycan qazının dünya bazarlarına, Avropaya çıxarılması üçün də çox önəmli addımlar atılır. Əminəm ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də uğurla başa çatacaq və beləliklə, Azərbaycan qazı Gürcüstana, Türkiyəyə və ondan sonra digər Avropa ölkələrinə çatdırılacaqdır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin illik gücü təxminən 50 milyon tona bərabərdir. Nəzərə alsaq ki, Azərbaycanda və digər Xəzəryanı ölkələrdə neftin hasilatı kəskin surətdə artacaq, əlbəttə, gələcəkdə biz digər ixrac marşrutları haqqında ciddi fikirləşəcəyik. Bu baxımdan da Bolqarıstanla Azərbaycan arasında əməkdaşlıq çox uğurlu ola bilər.

**S u a l: Mənim sualım Bolqarıstan prezidentinədir. Cənab Prezident, bildiyiniz kimi, Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olmaq üçün mandatı verilmiş ATƏT-in Minsk qrupundan Azərbaycan tərəfi narazıdır. Bu narazılıq, qrupun fəaliyyətinin Azərbaycanı qane etməməsi rəsmi dairələr tərəfindən dəfələrlə bəyan edilibdir. İndiyə kimi, sanki müşahidəçi funksiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun fəaliyyətində ATƏT-ə Bolqarıstanın sədrlik etdiyi müddətdə ciddi irəliləyişlər əldə oluna bilərmi?**

**G e o r g i P ı r v a n o v:** Hörmətli cənab Prezident, hörmətli xanımlar və cənablar! Qeyd etdiyim kimi, ATƏT-in sədri kimi Bolqarıstan münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin həllinə yönəldilmiş fəaliyyəti gücləndirməyi qarşısına məqsəd qoyur. Hesab edirəm ki, Minsk qrupunun fəaliyyəti həmin münaqişənin həllində vasitəçiliyin gücləndirilməsinə yönəldilməlidir. Həmçinin hesab edirəm ki, Avropa Birliyinin bu prosesə fəal qoşulması yollarını axtarmaq lazımdır. Mən bu ölkələrin prezidentləri və xarici işlər nazirləri arasında görüşləri yüksək qiymətləndirirəm. ATƏT-in sədri kimi, Bolqarıstan bu məsələnin həllinə yönəldilmiş bütün formaları dəstəkləməyə hazırdır.

**S u a l: Mənim sualım Azərbaycan prezidenti İlham Əliyevədir. Siz dediniz ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin vəziyyətini araşdıracaqsınız. Bu vəziyyətin əsas səbəblərini və onun yaxşılaşdırılmasına yönəldilmiş tədbirləri konkret olaraq göstərə bilərsinizmi? Bir də, Siz həm Bolqarıstan, həm də Azərbaycan iqtisadiyyatında neft sektoruna və digər sahələrə real sərmayə axını variantını necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Biz hesab edirik ki, iqtisadi əlaqələrin mövcud səviyyəsi nə Bolqarıstanı, nə də Azərbaycanı qane edir. Hökumətlərarası birgə komissiya bu məsələ ilə ciddi məşğul olur və ona tapşırıq verilmişdir ki, bu vəziyyətin səbəbləri araşdırılsın, təhlil edilsin və konkret təkliflər irəli sürülsün. Nəzərə alsaq ki, həm Bolqarıstanda, həm də Azərbaycanda iqtisadiyyat yüksək sürətlə inkişaf edir, əlbəttə, deyə bilərik ki, bu sahədə əlaqələrin genişlənməsi üçün çox gözəl şərait vardır.

Qarşılıqlı sərmayələrin qoyulması istiqamətində də çox mühüm addımlar atıla bilər. Azərbaycanda çox gözəl sərmayə mühiti vardır. Adambaşına düşən xarici sərmayələrin həcminə görə ölkəmiz keçmiş sovet respublikaları arasında qabaqcıl yerlərdədir. Burada xarici sərmayələr çox etibarlı şəkildə qorunur və əminəm ki, Bolqarıstandan olan iş adamları da bu imkandan istifadə edəcəklər.

Mən bilirəm ki, Bolqarıstandan Azərbaycana bir qrup iş adamı gəlmişdir. Burada biznes forum keçiriləcəkdir. Ümid edirəm, yaranacaq əlaqələr imkan verəcək ki, qarşılıqlı sərmayələrin qoyulması mümkün olsun. Böyük həcmdə sərmayələrin qoyulması imkan versin ki, ölkələrimiz arasında iqtisadi əlaqələr yeni pilləyə qalxsın.

**S u a l: Bolqarıstanın prezidenti cənab Pırvanov bildirdi ki, Azərbaycan–Bolqarıstan danışıqlarında əsas müzakirə obyektlərindən biri nəqliyyat problemləri ilə bağlı olubdur. Bilmək istərdim, TRASEKA proqramının perspektivləri barədə prezidentlərin mövqeyi necədir?**

**G e o r g i  P ı r v a n o v:** TRASEKA nəqliyyat dəhlizinin inkişafı ilə bağlı artıq yeni faktlar məlumdur. Çox güman ki, bu faktlar barədə bizə bir qədər sonra məlumat verəcəklər. Məsələn, parlamentlərin imzalanmış sazişlərdə dəyişikliklər etməsi nəzərdə tutulur. Bu layihədə struktur dəyişiklikləri ilə əlaqədar ölkələrimizin öz üzərinə götürdükləri öhdəliklər mənim üçün xüsusilə vacibdir. Deməliyəm ki, nəqliyyat dəhlizinin inkişafı iqtisadi problemlərin həllində əsas məsələdir. Məsələn, energetika və nəqliyyat infrastrukturları ölkələrimizin inkişafına daha ciddi töhfədir, eyni zamanda regionda təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayırlar. Odur ki, Bolqarıstan TRASEKA proqramında və enerji layihələrində fəal iştirak etməyə maraq göstərir.

Mən cənab Əliyevin diqqətini Bakı–Tbilisi–Ceyhan layihəsindən əlavə, digər uzunmüddətli layihələrə yönəltməyə cəhd göstərdim və ümidvaram ki, Azərbaycan bu ideyalara baxılmasına müsbət yanaşacaqdır. Çünki Azərbaycanda neft və qaz vardır, Avropa onları almağa, Bolqarıstan isə karbohidrogen ehtiyatlarını nəql etməyə maraq göstərir. Biz bu istiqamətdə münasibətlərin inkişafında maraqlıyıq.

### AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Bakı Əyləncə Mərkəzi*

*7 oktyabr 2004-cü il*

Bolqarıstan Respublikasının prezidenti zati-aliləri cənab Georgi Pırvanov!
Hörmətli xanım Pırvanova!
Əziz qonaqlar!
Xanımlar və cənablar!
Sizi Azərbaycanda salamlamaqdan böyük məmnunluq duyur, Sizə bir daha xoş gəlmisiniz deyirəm!.

Hörmətli cənab Prezident, mən Sizin Azərbaycana rəsmi səfərinizi yüksək qiymətləndirir, onun ölkələrimiz və xalqlarımız arasında münasibətlərdə yeni mərhələ olacağına inanıram. Şübhə etmirəm ki, keçirilmiş görüşlər, aparılmış danışıqlar və imzalanmış sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Bu gün Azərbaycanla Bolqarıstan arasında münasibətlərin yeni səhifəsi açılır, bütün sahələrdə əməkdaşlığın inkişafı üçün səmərəli dialoq aparılır. Artıq inamla deyə bilərik ki, səfər uğurludur və ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycanla Bolqarıstan arasında hələ sovet dövründə kifayət qədər sıx əlaqələrimiz olmuşdur. Bu onu göstərir ki, müxtəlif sahələrdə əlaqələrimizin inkişafı və genişlənməsi üçün güclü potensial vardır. Bolqarıstanda səfirlik açmaq qərarımız ikitərəfli münasibətlərimizə xüsusi əhəmiyyət verməyimizə sübutdur.

Rəhbərlik etdiyiniz geniş tərkibli nümayəndə heyəti Azərbaycan nümayəndələri ilə səmərəli danışıqlar aparır. İkitərəfli əlaqələrimizin və əməkdaşlığımızın daha da inkişafı və genişlənməsi üçün siyasi, iqtisadi, humanitar, mədəniyyət və turizm sahələrində əlavə səylərin göstərilməsini məqsədəuyğun hesab edirəm. Eyni zamanda düşünürəm ki, Milli Məclisin Azərbaycan–Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu və hökumətlərarası birgə komissiya da ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verməlidir.

Bu gün Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu daxili və xarici siyasət xəttini davam etdirir. Bu baxımdan, Azərbaycanın Avropa və Avratlantik strukturlara inteqrasiyası önəmli yer tutur. Ölkəmiz Avropa Şurasının üzvüdür. «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində NATO və Avropa təhlükəsizlik sisteminin strukturları ilə əməkdaşlıq edir. Qeyd etmək istərdim ki, Azərbaycan tərəfindən NATO rəhbərliyinə «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı» təqdim olunmuşdur.

Azərbaycan Avropada qonşuluq siyasətinə qoşulmuşdur. Bu strukturlarda Bolqarıstanın Azərbaycana dəstəyinə görə təşəkkürümü bildirir, gələcək əməkdaşlığa ümid edirəm.

Müstəqillik illərində Azərbaycanda siyasi, iqtisadi-sosial, hüquqi islahatlar həyata keçirilmişdir. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır.

1996-cı ildən Azərbaycanda ümumi daxili məhsul orta hesabla ildə 10 faiz artmışdır. Son 7 ildə ümumi daxili məhsulun həcmi 90 faiz artmışdır. 2004-cü ilin birinci rübündə iqtisadiyyatda artım 10 faiz olmuşdur. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur, növbəti üç ildə daha 10 milyard dollar sərmayə yatırılacaqdır. Azərbaycanda yoxsulluğun azaldılması, regionların inkişafı ilə bağlı hökumət proqramları təsdiq edilmişdir və onlar uğurla həyata keçirilir. Sosial məsələlərin həllində mühüm addımlar atılır.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü olmasaydı, ölkəmiz və ümumən region bu müddətdə daha böyük uğurlar əldə edə bilərdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın torpaqlarının 20 faizi işğal edilmişdir, bir milyondan artıq qaçqın və məcburi köçkün doğma yurd-yuvalarından didərgin düşmüşdür. Hazırda Bolqarıstan ATƏT-ə başçılıq edir. İnanıram ki, ATƏT-ə sədrliyi dövründə Bolqarıstan bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli, beynəlxalq hüquq normalarına uyğun həllinə öz dəstəyini verəcəkdir.

Mən tarixi Böyük İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsinin, TRASEKA proqramının həyata keçirilməsinin həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında mühüm rol oynayacağına əminəm.

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasına rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram. Cənab Prezident, bu badəni Sizin şərəfinizə, Azər-

baycanla Bolqarıstan arasında səmimi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

Sağ olun.

### Bolqarıstan prezidenti Georgi Pırvanovun nitqi

Zati-aliləri cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Xanımlar və cənablar!

Hörmətli cənab Prezident, ilk növbədə nümayəndə heyətimizə qarşı göstərilən səmimi münasibətə və xoş qəbula görə Sizə öz təşəkkürümü bildirmək istərdim.

Dəvətinizi, Bolqarıstan Respublikasına qarşı dostluq münasibətinin göstərilməsini qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişaf etdirilməsinə hazır olmağınız kimi qəbul edirəm.

Dövlətlərarası münasibətlərin tarixi nisbətən qısadır, lakin xalqlararası əlaqələr uzaq keçmişdə də mövcud idi. Bolqarıstanda Nizami Gəncəvinin dahi yaradıcılığı ilə tanışdırlar. Onun «Leyli və Məcnun», «Xosrov və Şirin» poemaları Azərbaycan və dünya ədəbiyyatının parlaq nümunələridir. Bolqarların əksəriyyətinə məlumdur ki, XII əsrdə Marağa şəhərində astronomik cədvəlləri ilə bütün Şərqdə və Avropada şöhrət qazanan rəsədxana mövcud idi. Ən müdrik şəxslərdən biri, ən zəngin kitabxanalardan birini toplayan Şah İsmayıl Xətai idi. Onun müdrikliyi qarşısında ehtiramla diz çökmək lazımdır. Bizim qonaqpərvər dostlarımız həmin zəngin mədəniyyətlə və öz tarixi irsi ilə ləyaqətlə fəxr edirlər.

Böyük İpək Yolunun ayrılmaz hissəsi olan ölkələr olaraq Avropa–Qafqaz–Asiya dəhlizinin reallaşdırılması vasitəsilə həmin yolun artıq yüksək keyfiyyətlə yeni əsasda bərpasında ümumi mənafelərimizi qeyd etmək istərdim.

Bu gün Bolqarıstan və Azərbaycanın coğrafi-siyasi mövqeyi çox vacibdir və bundan iki xalqın rifahı naminə birgə səylərlə istifadə etmək imkanımız var.

Azərbaycan Respublikası bizim üçün dost ölkə və vacib tərəfdaşdır. Dünyada siyasət və iqtisadiyyat sahəsində öz əhəmiyyətini artıran Azərbaycanı Qafqaz regionunda ən mühüm dövlət hesab etmək olar.

Bu gün Bolqarıstan Azərbaycanla Avratlantik inteqrasiyası yolunda müvəffəqiyyətlə əməkdaşlıq edir və həmin əməkdaşlıqla beynəlxalq terrorizmə, narkotrafikə və qanunsuz insan alverinə qarşı mübarizəyə qoşulur.

Bolqarıstan Respublikasının Azərbaycan Respublikası ilə ikitərəfli əməkdaşlığın fəal inkişafına marağını yenidən təsdiq etmək istərdim. Bolqarıstan Respublikasının Bakıdakı səfirliyinin açılması və bir neçə gün öncə Bolqarıstan Respublikasının fövqəladə və səlahiyyətli səfirinin təyin olunması niyyətimizin ciddiliyi və səmimiyyətinə, xalqlarımızın mədəniyyəti, tarixi və milli sərvətləri ilə daha da tam və yaxından tanış olmağa göstəriləcək səyləri iqtisadi maraqlarla uzlaşdırmaq istəyimizə sübutdur.

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Səfərimizin məzmunlu proqramı, eyni zamanda səmərəli danışıqlar ticarət-iqtisadi və elmi-texniki sahədə əməkdaşlıq, mədəniyyət, elm və digər qarşılıqlı mübadilə sahələrində əlaqələrimizin məqsədyönlüyünü əks etdirir.

Cənab Prezident, həmin danışıqların siyasi nəticələri bu gün Sizinlə imzalanmış birgə bəyannamədə öz əksini tapmışdır. Azərbaycana rəsmi səfərimizin əlaqələrimizə yeni impuls verəcəyinə və dövlətlər arasında olan dialoqu yeni mərhələyə gətirəcəyinə öz qəti inamımı yenidən ifadə etmək istərdim.

Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının və dost Azərbaycan xalqının rifahı və əmin-amanlığı şərəfinə, Bolqarıstan–Azərbaycan münasibətlərinin gələcəyi şərəfinə, Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab İlham Əliyevin, hörmətli xanım Əliyevanın şərəfinə, bütün bu məclisdə iştirak edənlərin sağlığına badə qaldırmağı təklif edirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOV HEYDƏR ƏLİYEV FONDUNDA

*Oktyabrın 8-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Bolqarıstan Respublikasının prezidenti Georqi Pırvanov və xanımı Zorka Pırvanova Heydər Əliyev Fondunda olmuşlar.*

*Burada Bolqarıstanın dövlət başçısına və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsinin öyrənilməsindən, Azərbaycanın tərəqqisinə yönəldilmiş genişmiqyaslı layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə bağlı işlərin görülməsinə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.*

*Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, dünyanın məşhur siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Bolqarıstanın dövlət başçısı və xanımı Azərbaycan prezidenti Heydər Əliyevin Avropa ölkələrinin liderləri ilə birgə çəkilmiş fotoşəkillərinə xüsusi maraqla baxdılar.*

*Bolqarıstan prezidenti Georgi Pırvanov Fondla tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

***«Azərbaycanın ümummilli lideri Heydər Əliyevin işıqlı xatirəsi önündə baş əyirəm.***

***Biz öz ölkəsinin inkişafı, regionda sabitliyin və təhlükəsizliyin təmin olunması, Avropaya inteqrasiya istiqamətində çoxlu enerji və qüvvə sərf etmiş bu siyasətçini və dövlət xadimini həmişə minnətdarlıqla xatırlayacağıq.***

***İnanıram ki, Heydər Əliyevin dost Azərbaycan xalqının işıqlı gələcəyi naminə gördüyü işlər və onun ideyaları bundan sonra da layiqincə davam etdiriləcəkdir».***

*Dövlət başçıları və qonaqlar Fondun eyvanından Bakının mənzərəsini seyr etdilər.*

*Sonra söhbət çay süfrəsi ətrafında davam etdirildi.*

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN ELMİ-TƏDQİQAT AĞCİYƏR XƏSTƏLİKLƏRİ İNSTİTUTUNA**

Hörmətli institut əməkdaşları!

Sizi Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun yaradılmasının 60 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, nəcib və xeyirxah fəaliyyətinizdə uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Fəaliyyəti ağciyər xəstəlikləri və vərəmlə mübarizəyə yönəlmiş Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu ölkədə tanınmış elm və müalicə mərkəzlərindən biri kimi, əhalinin sağlamlığının qorunması işində mühüm rol oynayır. Azərbaycanda vərəm xəstəliyi ilə mübarizəni gücləndirmək, xəstəliyin profilaktikası və müalicəsi üsullarını işləyib hazırlamaq və həyata keçirmək bütövlükdə ftiziatriyanın inkişafına təkan vermək məqsədilə yaradılmış institutunuzun bu ağır xəstəliklə mübarizə işində xidmətləri böyükdür.

Əsaslı təmir edilmiş və ən müasir tibb avadanlıqları ilə təchiz edilərək xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı ilə 1998-ci ildə yenidən istifadəyə verilmiş, fəaliyyət dairəsi genişləndirilmiş institutunuz hazırda elmi-metodik mərkəz olaraq respublikada ağciyər xəstəlikləri və vərəmin profilaktikası, erkən aşkarlanması müalicəsi işini uğurla həyata keçirir. Hamılıqla vaksinasiya işinin və profilaktik müayinələrin ardıcıl həyata keçirilməsi sayəsində son illər ərzində vərəmlə xəstələnmə və bu potologiyadan ölüm halları xeyli azalmışdır. Xüsusilə qaçqın və məcburi köçkünlər arasında aparılan profilaktik müayinələr və sağlamlaşdırıcı tədbirlərin gerçəkləşdirilməsi təqdirəlayiqdir.

Ümidvaram ki, ölkəmizin tibb işçiləri, o cümlədən Elmi- Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun əməkdaşları əhalinin sağlamlığının qorunması işində bundan sonra da öz qüvvələrini əsirgəməyəcəklər.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 oktyabr 2004-cü il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA RƏSMİ SƏFƏRİ**

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev oktyabrın 11-də Rumıniyanın paytaxtı Buxarestə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş «Henri Koande» beynəlxalq hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi təyyarənin pilləkəni yanında Rumıniyanın İqtisadiyyat və Ticarət naziri İoan-Dan Popesku və xanımı Yelena Popesku, bu ölkə prezidentinin müşaviri Dmitri Xonçu, hökumətin yüksək vəzifəli şəxsləri, respublikamızın Buxarestdəki səfiri Eldar Həsənov, səfirliyin əməkdaşları, Rumıniyanın Bakıdakı səfiri Nikolaye Ureke, Azərbaycan diasporunun nümayəndələri qarşıladılar. Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Azərbaycan prezidenti hava limanından fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə Buxarestdə onun üçün ayrılmış «Vila Lak–1» iqamətgahına gəldi.*

* * *

*Rumıniyada ilk rəsmi səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin oktyabrın 11-də Rumıniya prezidentinin iqamətgahında–«Kortoçen» sarayında rəsmi qarşılanma mərasimi keçirilmişdir.*

*Sarayın üzərində Rumıniyanın və Azərbaycanın dövlət bayraqları qaldırılmış, meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Rumıniya prezidenti İon İliyesku Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi sarayın önündə səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi. Hərbi orkestrin ifasında Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev rumın əsgərlərini salamladı. Rumıniyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidentinə, ölkəmizin nümayəndə heyətinin üzvləri Rumıniya prezidentinə təqdim olundu.*

* * *

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan və Rumıniya prezidentləri arasında təkbətək görüş keçirildi.*

*Dövlət başçıları Azərbaycan prezidentinin bu səfərini yüksək dəyərləndirdilər və bunun ikitərəfli əlaqələrin daha yüksək səviyyəyə qalxmasında önəmli rol oynayacağına əminliklərini ifadə etdilər.*

*Görüş zamanı Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin perspektivləri, regional əməkdaşlıq, eləcə də beynəlxalq məsələlər ətrafında geniş müzakirələr aparıldı.*

*Prezidentlər Azərbaycan–Rumıniya əlaqələrinin daha da inkişafı üçün görülən işlərdən və hökumətlərarası komissiyanın fəaliyyətindən məmnunluqlarını bildirdilər.*

*Dövlət başçıları regionda sabitlik və təhlükəsizlik məsələləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi etdilər.*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜNDƏN SONRA NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RUMINİYA–AZƏRBAYCAN DANIŞIQLARI**

*11 oktyabr 2004-cü il*

*Görüşdə Rumıniya prezidenti prezident İlham Əliyevi və onu müşayiət edən şəxsləri salamlayaraq bildirdi ki, Azərbaycanla Rumıniya bir sıra regional layihələr çərçivəsində uğurla əməkdaşlıq edirlər. TRASEKA layihəsi çərçivəsində əməkdaşlıq çox sürətlə inkişaf edir və işbirliyini daha da genişləndirmək üçün görülən tədbirlər davam etdirilməlidir.*

*Prezident İlham Əliyev rəsmi səfərə dəvət etdiyinə və göstərilən qonaqpərvərliyə görə Rumıniya rəhbərinə təşəkkür edərək dedi ki, ölkələrimiz arasında əlaqələrin yaradılması və möhkəmləndirilməsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Rumıniya prezidenti İon İliyeskunun böyük səyləri olmuşdur. İndiki səfər çərçivəsində imzalanacaq 11 sənəd siyasi, iqtisadi və humanitar sahədə ikitərəfli əlaqələrin inkişafında yeni mərhələ açacaqdır.*

*Azərbaycanın və Rumıniyanın Avropa strukturlarına, Avropa və Avratlantika məkanına inteqrasiya məsələlərini geniş müzakirə edən dövlət başçıları Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq bunun regional əməkdaşlığın mödkəmlənməsinə xidmət edəcəyini bildirdilər.*

*Tərəflər Avropa Birliyinin yeni qonşuluq siyasətini bəyəndiklərini vurğuladılar və Qafqaz ölkələrinin, xüsusilə Azərbaycanın bu siyasətə daxil olunmasını çox əlamətdar hal kimi qiymətləndirdilər.*

*Görüşdə Azərbaycanın təbii qazının Rumıniyaya və buradan Avropanın digər ölkələrinə nəqli məsələsinə də toxunuldu. Avropa Birliyinin Qafqazdakı münaqişələrin həlli sahəsində səylərinin gücləndirilməsi zərurəti qeyd olundu.*

*Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında həm ikitərəfli, həm də regional əməkdaşlıq baxımından daha da yaxınlaşma prosesi gedir. Bu gün təkbətək və geniş tərkibdə aparılan danışıqlar dost ölkələr – Rumıniya və Azərbaycan üçün çox vacibdir və ikitərəfli əlaqələrdə yeni mərhələ olacaqdır.*

*Tərəflər Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə də fikir mübadiləsi apardılar. Prezident İlham Əliyev xatırlatdı ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın 20 faiz ərazisi işğal olunmuş, bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları əsasında həllinin tərəfdarıdır və öz ərazi bütövlüyünün bərpa olunmasını tələb edir.*

## RUMİNİYA – AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*11 oktyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev və Rumıniya prezidenti İon İliyesku birgə bəyannamə imzaladılar.*

*Azərbaycan və Rumıniya hökumətləri arasında narkotik vasitələrin, psixotron maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında saziş;*

*Azərbaycan və Rumıniya arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş;*

*Azərbaycan Ədliyyə Nazirliyi və Rumıniya Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş;*

*Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rumıniyanın Əmək, Sosial Həmrəylik və Ailə İşləri Nazirliyi arasında əməkdaşlıq protokolu;*

*Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Rumıniya Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında saziş;*

*Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti ilə Radio və Azad Rumın Televiziyası arasında əməkdaşlıq haqqında saziş;*

*Azərbaycan Respublikası Milli Arxiv İdarəsi ilə Rumıniya Milli Arxivi arasında əməkdaşlıq haqqında saziş;*

*Azərbaycan Dövlət Neft Akademiyası və Ployeşti Neft-Qaz Universiteti arasında əməkdaşlıq haqqında protokol;*

*Azərbaycan Təhsil Nazirliyi ilə Rumıniya Təhsil və Elmi Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında saziş;*

*Bakı Dövlət Universiteti ilə Buxarest Lazer Plazma və Radiasiya Fizikası üzrə Milli İnstitutu və Konstansa Universiteti arasında əməkdaşlıq haqqında saziş imzalandı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Buxarest*
*Prezident sarayı*

*11 oktyabr 2004-cü il*

### Rumıniya prezidenti İon İliyeskunun bəyanatı

Hörmətli Azərbaycan Respublikasının prezidenti!
Hörmətli nümayəndə heyətinin üzvləri!
Xanımlar və cənablar!

Buxarestdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi salamlamaq bizim üçün böyük şərəfdir. Azərbaycanla Rumıniya arasında bütün sahələrdə çox yüksək səviyyədə münasibətlər yaranmışdır və əməkdaşlığımız uğurla davam edir.

Bizim aramızda keçirilmiş ikitərəfli görüş bütün sahələri əhatə etdi. Biz həm ikitərəfli münasibətlərə toxunduq, həm də daha geniş səpkidə – regionda və beynəlxalq aləmdə baş verən prosesləri nəzərdən keçirdik. Eyni zamanda, böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ötən həftə Rumıniya ilə Azərbaycan arasında yaradılmış birgə komissiya iqtisadiyyat, elm və mədəniyyət sahəsində çalışaraq yaxşı nəticələr əldə etmişdir. Danışıqlarda Rumıniya Avropa Birliyinə daxil olduqdan sonra və bu ərəfədə iqtisadi münasibətlərin inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldı. Görüşlərin nəticəsi olaraq biz qərara gəldik ki, ölkələr arasında əlaqələr daha intensiv xarakter almalıdır, hökumətlərin, parlamentlərin əməkdaşlığı daha da genişləndirilməlidir. Ən vacibi isə biz xalqlarımız və iş adamları arasında əlaqələrin daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetirdik. Qərara alındı ki, iqtisadi münasibətləri mümkün qədər, siyasi münasibətlər səviyyəsinə qaldırmaq lazımdır.

Bu gün imzaladığımız sənədlər, xüsusilə Birgə bəyannamə onu göstərir ki, xalqlarımız arasında əlaqələri genişləndirmək üçün möhkəm iradə vardır. Prezident İlham Əliyev Azərbaycanda və regionda gedən son inkişaf prosesləri barədə bizi məlumatlandırdı. Biz də eyni keçid dövrünü yaşamış ölkəyik və hələ də bu dövrü yaşayırıq. Ona görə də bu dövrün problemlərini, çətinliklərini çox yaxşı anlayırıq. Biz azərbaycanlı dostlarımızla Rumıniyanın bu sahədə qazandığı təcrübəni bölüşməyə hazırıq.

Məlum olduğu kimi, bu il Rumıniyada seçkilər keçiriləcəkdir. Biz prezident Əliyevlə bu barədə də ətraflı müzakirələr apardıq. Rumıniya üçün çox vacib olan məqam Avropa Birliyinə daxil olmaq, danışıqlardan işə keçməkdir. Bu bizim strateji məqsədimizdir. NATO-nun üzvü kimi, Rumıniyanın yeni statusunu da müzakirə etdik. Biz prezident İlham Əliyevlə, eyni zamanda, əməkdaşlığımızın digər imkanlarını da geniş müzakirə etdik, habelə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyəti ətrafında da söhbət apardıq. Belə qərara gəldik ki, bu təşkilatın işinin daha da fəallaşdırılması regionda sülhə, sabitliyə və inkişafa xidmət edir. Məlum olduğu kimi, artıq Konstansa ilə Batumi arasında bərə vasitəsilə kommunikasiyalar vardır. Bizim fikrimiz ondan ibarətdir ki, Azərbaycan da bu kommunikasiyalara qoşulsun və beləliklə, yük daşımalarının həcmini artıraq.

NATO-nun yeni üzvü və Avropa Birliyinin gələcək üzvü kimi, Rumıniyanın əsas məqsədi ondan ibarətdir ki, Qara dəniz və Xəzər hövzəsi, Mərkəzi Asiya ölkələri arasında əlaqələr daha da gücləndirilsin. Biz Cənubi Qafqaz ölkələrinin Avropa Birliyinin yeni qonşuluq siyasətinə cəlb olunmasını alqışlayırıq. Bu həm də Rumıniyanın məqsədidir. Başlıca məqsəd ondan ibarətdir ki, Avropa Birliyi Qara dənizə və ondan sonra Xəzər dənizinə və Şərqə doğru irəliləsin.

Biz qazın nəqli məsələləri üzrə də ətraflı müzakirələr apardıq. Bu barədə təşəbbüs ilk dəfə Azərbaycanın mərhum prezidenti Heydər Əliyev tərəfindən qaldırılmışdı. Plana əsasən, biz qazın Azərbaycandan Rumıniyaya və buradan Avropa ölkələrinə nəqlini nəzərdə tuturuq. Əslində, bu, qədim İpək Yolunun bir hissəsidir.

Biz çox istəyirik ki, Avropa Birliyi Cənubi Qafqazda daha fəal rol oynasın və buradakı dondurulmuş münaqişələrin həllində öz sözünü deyə bilsin. Rumıniya bu bölgədə olan bütün münaqişələrlə bağlı ATƏT-in təşəbbüslərini dəstəkləyir. Eyni zamanda inanırıq ki, Avropa Birliyi də bu təşəbbüsə qoşula bilər. Bundan başqa, Avropa Birliyi iqtisadi məsələlərdə də öz fəallığını artıra və islahatların uğurla həyata keçirilməsi üçün bu ölkələrə kömək edə bilər.

Bizim əsas prioritetimiz sabitliyi qoruyub saxlamaq və Avropa dəyərlərini inkişaf etdirməkdir. Azərbaycan regionda sabitliyə töhfə verə biləcək çox mühüm ölkədir. Rumıniya NATO-nun İstanbul sammitinin qərarlarını da dəstəkləyir və ilk növbədə, düşünürük ki, nəqliyyat və təhlükəsizlik sahəsində Qafqaz və Mərkəzi Asiya ölkələrinə kömək göstərmək zəruridir.

Sonda ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim bütün səylərimiz öz məntiqi nəticəsini verəcək, Azərbaycanla Rumıniya arasında münasibətlər yüksək səviyyədə inkişaf edəcəkdir.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident İon İliyesku!

Hörmətli xanımlar və cənablar!

Hörmətli cənab Prezident, ilk növbədə, məni Rumıniyaya səfərə dəvət etdiyinizə görə Sizə öz dərin təşəkkürümü bildirirəm. Mənə göstərilən qonaqpərvərliyə görə Sizə minnətdaram.

Rumıniya–Azərbaycan əlaqələri sürətlə inkişaf edir. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Rumıniya onu tanıyan ilk ölkələrdən olmuşdur. Əlaqələrimizin inkişafı istiqamətində atılmış mühüm addımlar bizə siyasi, eyni zamanda iqtisadi və digər sahələrdə uğurla əməkdaşlıq etməyə imkan vermişdir. Bu əlaqələr həm ikitərəfli formatda, həm də regional əməkdaşlıq baxımından yüksək səviyyəyə qalxmışdır. Əlaqələrimizin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Rumıniya prezidenti cənab İliyeskunun müstəsna xidmətləri vardır. Əminəm ki, bu səfər də bizim ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəkdir. Səfər çərçivəsində imzalanmış sənədlər bizə imkan verəcək ki, həm siyasi, həm də iqtisadi və mədəni sahələrdə Rumıniya və Azərbaycan daha da yaxın olsunlar, xalqlarımız bir-birini daha yaxından tanısınlar.

Bu gün səmimi danışıqlar aparıldı, ikitərəfli münasibətlər müzakirə olundu, eyni zamanda, regionda və dünyada baş verən hadisələr haqqında fikir mübadiləsi aparıldı. Rumıniya ilə Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələrdir. Bizim iqtisadi potensialımız ildən-ilə güclənir və bu, əməkdaşlığımızı daha da gücləndirməyə imkan verir. Azərbaycanın iştirakı və rəhbərliyi ilə regionda həyata keçirilən nəhəng enerji, nəqliyyat layihələri həm ölkəmiz, həm region, həm də Azərbaycana dost olan digər ölkələr üçün böyük əhəmiyyətə malikdir.

Region üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında da fikir mübadiləsi aparmışıq. Bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi zəbt olunmuş, bir milyon azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüşdür.

Biz tələb edirik ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın və Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin.

Rumıniya kimi, Azərbaycan da Avropa və Avratlantik strukturlarına inteqrasiya siyasəti aparır. Biz NATO ilə fərdi tərəfdaşlıq planı üzərində işləyəcəyik, eyni zamanda, Avropa Birliyi də Azərbaycanı yeni qonşuluq siyasətinə daxil etmişdir. Hər iki amil Azərbaycanın gələcək inkişafı üçün çox vacibdir. Biz Avratlantika strukturlarına inteqrasiya siyasətinə bundan sonra da sadiq qalacağıq.

Mən əminəm ki, bu səfərdən sonra Rumıniya ilə Azərbaycan arasında olan münasibətlər daha da inkişaf edəcək, yeni pilləyə qalxacaqdır. Bu isə bizə imkan verəcək ki, hər iki ölkə bundan sonra da müttəfiqlər kimi öz siyasətini aparsınlar, iqtisiadi potensialını gücləndirsinlər və regional əməkdaşlıq məsələlərində gələcəkdə də fəal iştirak etsinlər.

* * *

**S u a l**: **Mənim sualım cənab İliyeskuyadır. Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. Bu səfər zamanı keçirdiyiniz görüşlərdə Ermənistanın Azərbaycana təcavüzü məsələsi də müzakirə olunmuşdur. Azərbaycanın torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması faktına Sizin münasibətinizi bilmək istəyirəm. Dost ölkə kimi, Rumıniya bu münaqişənin həllində Azərbaycana hansı köməyi göstərə bilər?**

**İ o n İ l i y e s k u:** Biz həmişə bu münaqişə ilə bağlı Azərbaycanın mövqeyinə hörmətlə yanaşmışıq və bu məsələdə Azərbaycanı həmişə dəstəkləmişik. Azərbaycan sülh danışıqlarına sadiqdir və danışıqlar yolu seçmişdir. Məqsəd odur ki, münaqişə beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həll olunmalıdır. Biz həmişə beynəlxalq qurumların bu məsələnin həllində daha fəal rol oynamasının tərəfdarı olmuşuq. ATƏT artıq bu problemin həllində fəal rol oynayır və düşünürəm ki, Azərbaycanın yeni qonşuluq siyasətinə daxil edilməsindən sonra Avropa Birliyi də bu məsələdə daha fəal olacaqdır. Rumıniya isə həm NATO üzvü, həm də Avropa Birliyinin sərhədində yerləşən bir dövlət kimi, bu geniş ərazidə baş verən bütün münaqişələrdən narahatdır.

**S u a l: İmzalanmiş sənədlər arasında təhsil sahəsində əməkdaşlığı gücləndirmək barədə sənəd də vardır. Siz necə bilirsiniz, bundan sonra Rumıniya və Azərbaycan arasında tələbə mübadiləsi genişlənəcəkmi?**

**İ o n İ l i y e s k u:** Bu sənədə görə nazirliklər arasında birbaşa münasibətlər yaranacaq və eyni zamanda, təhsil ocaqları arasında da əlaqələr gücləndiriləcəkdir. Əlbəttə ki, burada geniş tədbirlər nəzərdə tutulub, o cümlədən rektorların və tələbələrin görüşləri keçiriləcəkdir. Bundan başqa, tədqiqat sahəsində də geniş əməkdaşlıq aparılacaqdır.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Siz həm iqtisadi, həm də siyasi sahədə əməkdaşlığın perspektivləri haqqında geniş məlumat verdiniz. Bizi maraqlandırır ki, ölkələrimiz arasında mədəni sahədə əlaqələrin perspektivləri necə olacaqdır?**

**İ o n İ l i y e s k u:** İnanıram ki, artıq ölkələrimiz arasında mədəni sahədə müəyyən bir ənənə yaranmışdır və bu, gələcəkdə də inkişaf etdiriləcəkdir. Təhsil nazirlikləri arasında yaranmış münasibətlər və universitetlər arasında imzalanmış sənədlər də mədəniyyətin bir hissəsidir. Bu sahədə, həqiqətən, geniş imkanlar vardır və inanıram ki, gələcəkdə də bunlardan istifadə olunacaqdır. Rəssamlar, musiqiçilər bir-birilərinin ölkələrinə gedib-gələcək, mədəni tədbirlər keçiriləcəkdir. Bu sahədə imkanlar olduqca böyükdür.

**İ l h a m Ə l i y e v:** Mən qeyd etmək istəyirəm ki, Rumıniya ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə olduğu kimi, mədəni və humanitar sahələrdə də uğurla inkişaf edir. Bizim xalqlarımız həmişə bir-birinə böyük maraqla və hörmətlə yanaşmışlar. Bu gün imzalanan sənədlər arasında iki ölkənin humanitar sahədə gələcək inkişafını təmin edən sənədlər də vardır. Mədəni sahədə əlaqələrimizi gücləndirmək üçün, əlbəttə ki, biz bundan sonra daha da çox işləməliyik. Elm və mədəniyyət xadimlərinin qarşılıqlı səfərləri bu baxımdan böyük əhəmiyyət kəsb edir. Əminəm ki, başqa sahələrdə olduğu kimi, bu sahədə də, əlaqələrimiz daha da inkişaf edəcək və güclənəcəkdir. Amma hamı üçün aydındır ki, bunu etmək üçün gərək iqtisadi, maliyyə potensialı da güclü olsun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Buxarest, «Kortçen» sarayı*

*11 oktyabr 2004-cü il*

### Rumıniya prezidenti İon İliyeskunun nitqi

Hörmətli cənab Prezident!
Hörmətli xanım Mehriban Əliyeva!
Əziz qonaqlar!

Burada – Rumıniyada Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab İlham Əliyevi, onun hörmətli xanımı Mehriban Əliyevanı və Rumıniya ilə bütün sahələrdə dostluq və əməkdaşlıq münasibətlərini inkişaf etdirmiş Azərbaycan Respublikasının nümayəndə heyətinin bütün digər üzvlərini böyük məmnuniyyətlə salamlayıram.

Bir daha hamınız dost ölkəyə xoş gəlmisiniz. Mənim fikrimcə, Azərbaycan özünü müstəqil dövlət elan etdikdən sonra ölkələrimiz arasında münasibətlərin bu cür uğurla inkişaf etdirilməsinə əvəzsiz töhfələr vermiş böyük dövlət xadimi, vəfatına həddindən artıq kədərləndiyimiz Heydər Əliyevin rolunu xatırlamağın əsl yeri və vaxtıdır.

Hörmətli cənab Prezident, xanımlar və cənablar!

İkitərəfli münasibətlərimizin keçdiyi yola nəzər salarkən mən belə qənaətə gəlirəm ki, bizim ölkələrimiz nisbətən qısa zaman kəsiyində uzunmüddətli dostluq və əməkdaşlığın həm təməlini qoymuş, həm də bu dostluq və əməkdaşlığı möhkəmləndirə bilmişlər.

Siyasi sahədə birlikdə səmərəli işləyərək birgə səylərlə ikitərəfli hüquqi baza yaratmışıq. Biz istəyirik ki, XXI əsrin tələblərinə cavab verə bilməkdən ötrü bu hüquqi bazanı daha da inkişaf etdirək.

Mən Azərbaycan Respublikasına 2002-ci ildəki rəsmi səfərimi böyük məmnuniyyətlə xatırlayıram. O zaman prezident Heydər Əliyevlə apardığımız müzakirələr vaxtı siyasi və iqtisadi sahədə ikitərəfli əməkdaşlığı sürətləndirmək iradəmiz aydın oldu. Cənab prezident İlham Əliyev, Sizin burada, Buxarestdə olmağınız Azərbaycanın xarici siyasətinin davam etdirilməsinə, xüsusilə də Rumıniya ilə münasibətləri inkişaf etdirmək istəyinə dəlalət edir.

Keçən müddət ərzində ikitərəfli münasibətlərimizin inkişaf dinamikası bizə əlaqələrimizin gələcəyi ilə bağlı nikbin olmağa haqq verir.

Bizim əsas məqsədimiz siyasi sahədə olduğu kimi, ticarət dövriyyəsi və iqtisadi əməkdaşlıq sahəsində də eyni əla nəticələrə nail olmaqdır. Mən qəti inanıram ki, Sizin Rumıniyaya səfərinizin nəticələri və bizim danışıqlarımız ikitərəfli iqtisadi əməkdaşlığımıza, ticarət əlaqələrinə də təkan verəcəkdir.

Biz azərbaycanlı biznesmenlərin Rumıniyada çalışmasını arzulayır və təşviq edirik. Eyni zamanda, Rumıniyanın biznes dairələrinə tövsiyə edirik ki, Azərbaycanın iqtisadi bazarını gələcəkdə mümkün hədəf kimi nəzərdə tutsunlar. İş adamlarının fəaliyyətini sürətləndirmək məqsədi ilə biz ümumi siyasi səylər vasitəsilə müvafiq hüquqi baza və lazımi infrastruktur yaratmağa hazırıq ki, bu da ölkələrimiz arasındakı coğrafi məsafəni qısaldar. Bu sahədəki marağımızın aydın ifadəsi kimi istərdim ki, ölkələrimiz arasındakı nəqliyyat marşrutlarının inkişaf etdirilməsi ilə bağlı səyləri qeyd edim.

Bununla biz müstəqil təşəbbüsün inkişaf edə biləcəyi bazanı təmin edirik. Məqsədimiz özəl şirkətlər arasındakı əməkdaşlıqdan başlayaraq ölkələrimiz üçün qarşılıqlı maraq kəsb edən yeni layihələrədək bütün mühüm sahələrdə demokratik şəraitdə, azad bazar iqtisadiyyatı qanunlarına uyğun şəkildə əməkdaşlıq etməkdir.

Mən qəti inanıram ki, Rumıniya–Azərbaycan hökumətlərarası birgə iqtisadi komissiyasının bir neçə gün əvvəl keçirilən ilk iclası bizim iqtisadi əlaqələrimizin yeni meyarlarla ölçülməsinə təkan verəcəkdir. Keçid dövründən azad bazar iqtisadiyyatınadək olan prosesin təcrübəsindən istifadə edərək, rumıniyalı biznesmenlər azərbaycanlı tərəfdaşları ilə birgə Azərbaycan Respublikasının milli maraqlarına cavab verən məqsədlərə nail olmaq işinə mühüm töhfə verə bilərlər. Bu məqsədlərə bu günlərdə ölkəmizdə həyata keçirilən iqtisadi və sosial inkişaf proqramı da daxildir.

Cənab Prezident, əziz dostlar, Rumıniya Azərbaycan Respublikasının Avropa və Avratlantik strukturlarına sadiqliyini və yaxınlaşma səylərini diqqətlə müşahidə edir və bu səylərə hörmət bəsləyir. Biz həm də Azərbaycan Respublikasının beynəlxalq antiterror əməliyyatlarındakı fəal iştirakına və «Sülh naminə tərəfdaşlıq» proq-

ramı çərçivəsindəki fəaliyyətinə hörmətlə yanaşırıq. Azərbaycan hərbçilərinin dünyanın Kosovo, Əfqanıstan və İraq kimi qaynar nöqtələrindəki sülhməramlı əməliyyatlarında iştirakına rəğbətimizi bildiririk.

Avropa və Avratlantik strukturlarına inteqrasiya çətin bir prosesdir və Rumıniya onu tamamlamaq üzrədir. Rumıniya artıq NATO-nun üzvüdür və bununla biz bugünkü əzablı dünyada həddindən artıq qorxulu, gözlənilməz hallardan təhlükəsizlik sipəri ilə təmin olunuruq. Yaxın gələcəkdə, yəqin ki, 2007-ci ildə Rumıniya Avropa Birliyinin də tamhüquqlu üzvü olacaqdır.

Vaxtilə prezident Heydər Əliyev Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyinə həsr olunmuş nitqini əsl böyük dövlət xadimi kimi tamamlayaraq demişdir. Mən həmin nitqdən sitatı olduğu kimi gətirirəm: «İqtisadiyyatın sürətli inkişafını təmin etmək, ölkədə işsizliyi azaltmaq, əhalinin rifahını yüksəltmək Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına doğru atılacaq vacib addımlardır». O, sadəcə olaraq, öz ölkəsinin xarici siyasət məqsədini bir daha təsdiq edirdi ki, bu məqsəd də dünya iqtisadiyyatına inteqrasiyadır.

Rumıniya dost Azərbaycanla birgə işləməyə, təcrübəsini bölməyə hazırdır ki, ən qısa müddətdə və ən az xərclərlə inteqrasiya prosesinin bütün fazaları əhatə olunsun.

Rumıniya BMT, Avropa Şurası və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan Respublikası ilə əməkdaşlığı yüksək qiymətləndirir. Biz hesab edirik ki, Rumıniya və Azərbaycan birlikdə fəaliyyət göstərərək Şərq–Qərb nəqliyyat dəhlizindəki strateji-coğrafi mövqelərindən daha yaxşı istifadə edə, Qara dəniz hövzəsi regionunda daha mühüm rol oynaya bilərlər.

Rumıniya Cənubi Qafqazdakı və bütün MDB məkanındakı hadisələrə böyük diqqət yetirir və əmin olduğunu bildirir ki, beynəlxalq ictimaiyyətin davamlı səyləri vasitəsilə bu region tədricən sabitlik və iqtisadi əməkdaşlıq məkanına çevriləcəkdir. Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını dəstəkləyirik. Belə bir həll yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət əsasında tapıla bilər. Rumıniya tərəflərin münaqişəni həll etmək üçün razılığa gəldiyi hər hansı bir həlli dəstəkləməyə hazırdır.

Rumıniya və Azərbaycan Respublikası birlikdə fəaliyyət göstərərək beynəlxalq aləmin məsuliyyətli üzvləri kimi, digər demokratik ölkələrlə birgə sülh və sabitlik prinsiplərini irəli çəkə bilər, əsaslı töhfələri vasitəsilə həm öz xalqlarının, həm də gələcək nəsillərin maraqları naminə münaqişə zonalarına sülh gətirərlər.

Ölkələrimiz heç bir anlaşılmazlıq olmadan aralarındakı dostluğu möhkəmləndirərək sülh, sabitlik və firavanlıq naminə fəaliyyət göstərəcəklər.

Bu fikirlərlə mən zati-alinizin şərəfinə, Rumıniya və Azərbaycan arasındakı dostluğun möhkəmlənməsi şərəfinə, xalqlarımıza daha yaxşı və təhlükəsiz gələcək şərəfinə, Sizin və hörmətli xanımınızın şərəfinə badə qaldırıram.

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!
Xanımlar və cənablar!
Əziz dostlar!

Rumıniya torpağında mənə və Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Məmnunluqla bildirmək istəyirəm ki, Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Mən iki ölkə arasında yüksək səviyyədə qarşılıqlı anlaşmanın, siyasi dialoqun, iqtisadi əməkdaşlığın, bütövlükdə, müxtəlif sahələrdə əməkdaşlığın formalaşmasına xüsusi əhəmiyyət verirəm. Ölkələrimiz arasında münasibətlərin inkişaf etməsi, möhkəmlənməsi və keyfiyyətcə yeni mərhələyə qalxması üçün səylərimizi əsirgəməyəcəyik. Bu, ölkələrimizin mənafelərinə tam uyğundur. Ümidvaram ki, ikitərəfli münasibətlərimiz bundan sonra da yeni əməkdaşlıq formaları ilə zənginləşəcəkdir.

Bu gün Azərbaycan dövləti xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu siyasəti davam etdirir. Bu baxımdan Azərbaycanın Avropaya və Avratlantik strukturlarına inteqrasiyası bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz Avropa Şurasının üzvüdür və NATO ilə «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində uğurlu əməkdaşlıq edir. Azərbaycan fərdi əməkdaşlıq üzrə əməliyyat planını NATO-ya təqdim edən ilk ölkələrdən biridir. Avropa Birliyi Azərbaycanı genişlənmiş Avropa və qonşuları siyasətinə daxil etmişdir. Bu strukturlarda Rumıniyanın Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürümü bildirirəm.

Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının işlədilməsi, TRASEKA proqramı, Böyük İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. Bu layihələrin həyata keçməsi ilə həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında yeni mərhələ başlanacaqdır. Bu istiqamətdə Rumıniya ilə əməkdaşlığımıza böyük əhəmiyyət veririk. Azərbaycan regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Yalnız Ermənistan özünü bu əməkdaşlıqdan təcrid etmişdir. Bu ölkənin Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkəmizdə 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

BMT-nin 4 qətnaməsi, ATƏT-in qərarları icra olunmamış qalır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində öz həllini tapmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Hörmətli cənab Prezident, Siz hələ gəncliyinizdən Azərbaycanla bağlı olduğunuzu və Mingəçevir Su Elektrik Stansiyasının tikintisi zamanı ölkəmizdə çalışdığınızı həmişə məmnuniyyətlə xatırlayırsınız. Bu xatirələr bizim üçün də əzizdir. Azərbaycan Respublikası ilə Rumıniya, rumın xalqı ilə Azərbaycan xalqı arasında mehriban dostluq münasibətlərinin formalaşmasında və əməkdaşlıq münasibətlərinin inkişafında, möhkəmlənməsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Sizin böyük xidmətlərinizi ayrıca qeyd etmək istəyirəm. Bu istiqamətdə yorulmaz fəaliyyətinizi nəzərə alaraq mən Sizi Azərbaycanın ən ali mükafatı olan «İstiqlal» ordeni ilə təltif etmək haqqında qərar qəbul etmişəm. Bu münasibətlə Sizi bir daha ürəkdən təbrik edirəm. Məni Rumıniyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Çox məmnunam ki, səfər zamanı olduqca səmərəli görüşlər keçirildi, danışıqlar aparıldı, sənədlər imzalandı. Bu badəni Azərbaycan və Rumıniya xalqları arasında mövcud olan və daim inkişaf edən dostluq və qardaşlıq əlaqələrinin və Rumıniyanın prezidenti İon İliyeskunun şərəfinə qaldırıram.

## BUXARESTDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜN AÇILIŞ MƏRASİMİNDƏ* NİTQ

*Buxarestin mərkəzi, «8 May» parkı*

*12 oktyabr 2004-cü il*

Hörmətli cənab prezident İon İliyesku!
Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Rumıniya torpağında, Rumıniyanın paytaxtı olan Buxarest şəhərində büstünün ucaldılmasına görə bütün rumın xalqına və ilk növbədə, prezident cənab İliyeskuya öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə öz xalqına sədaqətlə xidmət etmişdir. O, Azərbaycanda hakimiyyətə gələndə ölkəmiz çox çətin dövr yaşayırdı. Ölkə siyasi cəhətdən təcrid olunmuş vəziyyətdə idi, iqtisadiyyat tamamilə dağılmışdı və total böhran yaşanırdı. Ermənistanın Azərbaycana təcavüzü davam edirdi və torpaqlarımız işğal altına düşürdü. Məhz Heydər Əliyevin cəsarəti, qətiyyəti, uzaqgörənliyi nəticəsində ölkəmiz bu çətin vəziyyətdən çıxa bildi və bu gün Azərbaycan çox dinamik şəkildə inkişaf edir. Onun səyləri nəticəsində müharibə dayandırıldı, ölkədə vətəndaş müharibəsinə son qoyuldu, sülh və əmin-amanlıq yarandı. Azərbaycan beynəlxalq aləmdə özünə layiq yerini tuta bildi, Avropa, Avratlantik strukturlarına inteqrasiya etməyə başladı.

Bu gün Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə regionda irimiqyaslı layihələr həyata keçirilir. Bu layihələrin təşəbbüskarı da məhz prezident Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə başlanmış iqtisadi islahatlar ölkəmizi iqtisadi cəhətdən gücləndirdi və deyə bilərəm ki, son səkkiz il ərzində Azərbaycanın ümumi daxili məhsulu yüz faiz artmışdır. Bu meyllər indi də davam edir.

Heydər Əliyevin neft strategiyası nəticəsində ölkəmizə milyardlarla dollar sərmayə qoyulubdur və bu gün adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bölgədə lider dövlətdir. Aparılmış iqtisadi islahatlar bizə imkan verdi ki, ölkədə mövcud olan çoxlu sosial problemlər öz həllini tapsın. Heydər Əliyevin təşəbbüsü ilə ilk növbədə Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkünlər üçün yeni layihələr həyata keçirilməyə başlandı. Onlar üçün yeni qəsəbələr, şəhərciklər salındı. Yenə də qeyd etməliyəm ki, bu gün bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də siyasət davam etdirilir və biz bundan sonra da bu məsələ ilə ciddi məşğul olacağıq.

Bir sözlə, bütün sahələrdə – beynəlxalq, siyasi, iqtisadi, sosial, regional istiqamətlərdə Heydər Əliyevin siyasi xətti ölkəmizi yeni mərhələyə gətirib çıxarmış, Azərbaycanı möhkəmləndirmiş, beynəlxalq aləmdə onun mövqelərini gücləndirmiş və iqtisadi potensialını artırmışdır. Bu gün Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Biz bu gün də ölkəmizdə bu siyasəti davam etdiririk.

Heydər Əliyevin Rumıniyaya və rumın xalqına xüsusi münasibəti var idi. Burada qeyd olundu ki, Azərbaycanın Şərqi Avropada ilk səfirliyi Rumıniyada açılmışdır. Prezident Heydər Əliyevin Rumıniyaya və prezident İon İliyeskunun Azərbaycana etdikləri səfərlər iki ölkə arasında olan əlaqələri daha da gücləndirmişdir. Bu gün ölkələrimiz arasında çox gözəl münasibətlər mövcuddur. Onu da demək istəyirəm ki, prezident Heydər Əliyevlə prezident İon İliyeskunu çox güclü dostluq telləri bağlayırdı. Bu iki lider həm öz ölkələri üçün, həm də regionun inkişafı üçün çox böyük işlər görmüşlər. Onların öz ölkələrinin inkişafında müstəsna xidmətləri vardır.

Ölkəmizdə bütün başqa sahələrdə olduğu kimi, Rumıniya–Azərbaycan münasibətlərində də bu gözəl ənənələr yaşayır, Heydər Əliyev siyasəti davam etdirilir. Mənim Rumıniyaya səfərim buna gözəl sübutdur. Fürsətdən istifadə edərək mənə və nümayəndə heyətimizə göstərilmiş gözəl münasibətə, qonaqpərvərliyə görə hörmətli cənab prezident İon İliyeskuya bir daha öz təşəkkürümü bildirirəm.

Əziz dostlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün ucaldılması münasibətilə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Büstün qoyulmasında iştirak etmiş bütün insanlara dərin minnətdarlığımı bildirirəm. Heydər Əliyevin xatirəsini əziz tutduqları üçün rumın xalqına, prezident İon İliyeskuya bir daha həm Azərbaycan Respublikasının prezidenti kimi, həm də Heydər Əliyevin oğlu kimi öz təşəkkürümü bildirirəm.

---

* Mərasimdə Rumıniya prezidenti İon İliyesku və Rumıniya Senatının üzvü İoan rop de Pop da çıxış etdilər.

**AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ VƏ RUMINİYA–AZƏRBAYCAN DOSTLUQ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**

*12 oktyabr 2004-cü il*

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Sizin hamınızı ürəkdən salamlayıram və mənə göstərilən yüksək qonaqpərvərliyə, deyilən xoş sözlərə görə sizə minnətdarlığımı bildirirəm.

Rumıniya–Azərbaycan Dostluq Cəmiyyətinin fəaliyyəti iki ölkə arasında əməkdaşlıq üçün çox böyük əhəmiyyətə malikdir. Çox şadam ki, Rumıniya ilə Azərbaycan bütün sahələrdə əməkdaşlıq edirlər və bunun nəticəsində ölkələrimiz siyasi, iqtisadi və digər sahələrdə əlaqələrini gücləndirirlər. Mənim bu rəsmi səfərim də gələcək əməkdaşlığımız üçün yeni bir addımdır, yeni bir mərhələdir və şübhə etmirəm ki, bu səfərdən sonra əlaqələrimiz bütün sahələrdə daha da genişlənəcəkdir. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra daim Rumıniyanın dəstəyini görmüşdür və bunu bu gün də hiss edirik. Buna görə bir daha sizə və bütün rumın xalqına öz dərin minnətdarlığımı bildirirəm.

Müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox ağrılı keçmişdir. Ölkədə xaos, anarxiya, hərc-mərclik hökm sürürdü, vətəndaş müharibəsi başlanmışdı, iqtisadi böhran yaşanırdı. Bir sözlə, Azərbaycanın müstəqil dövlət kimi yaşaması təhlükə altında idi. Yalnız Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xalqın tələbi ilə ölkəyə rəhbərliyə gəlməsindən sonra vəziyyət dəyişdi, sabitlik yarandı, böhrana son qoyuldu və bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Ölkəmiz çox sürətlə beynəlxalq təşkilatlara inteqrasiya edir.

Ölkəmizdə həm siyasi, həm də iqtisadi sahələrdə çox ciddi islahatlar aparıldı. Bu islahatların nəticəsində dünyada və regionda Azərbaycanın mövqeyi möhkəmləndi və indi iqtisadi inkişaf baxımından ölkəmiz bütün postsovet məkanında qabaqcıl yerlərdədir.

Ötən il keçirilmiş prezident seçkilərində də xalqımız son illər ərzində ölkədə aparılmış siyasətə öz dəstəyini bir daha bildirərək yenidən Heydər Əliyev siyasətinə, Heydər Əliyev siyasi xəttinə səs verdi. Bu dövr ərzində ölkəmizin iqtisadiyyatı daha da güclənmişdir. Ümumi daxili məhsulun orta illik artımı on faizə bərabərdir. Azərbaycanda həyata keçirilən regional sosial-iqtisadi inkişaf proqramı nəticəsində ölkədə 70 mindən çox iş yeri açılmışdır. Dünyanın ən böyük enerji layihəsi uğurla həyata keçirilir – region və bütün dünya üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir və yaxın zamanlarda biz onun açılışını qeyd edəcəyik. Bu, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsinin bariz nümunəsidir. Çox əlamətdar hadisədir ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinə və Türkiyənin Ceyhan şəhərində tikilən böyük terminala ümummilli liderimiz Heydər Əliyevin adı verilmişdir.

Azərbaycan beynəlxalq aləmdə də öz mövqelərini möhkəmləndirir. Bizim NATO və Avropa Birliyi ilə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Azərbaycan NATO-ya fərdi tərəfdaşlıq planını təqdim edən ilk ölkələrdəndir. Avropa Birliyinin ölkəmizi yeni qonşuluq siyasətinə daxil etməsi də çox mühüm hadisədir və Azərbaycanın Avropaya inteqrasiyası istiqamətində gələcəkdə atılacaq addımlar üçün böyük bir zəmindir.

Əlbəttə, bizim müxtəlif ölkələrlə ikitərəfli əlaqələrimiz də sürətlə inkişaf edir və genişlənir. Bu baxımdan Rumıniya ilə Azərbaycan arasında olan əlaqələrə xüsusi əhəmiyyət veririk və deyə bilərəm ki, Azərbaycanın bu regionda ilk səfirliyi məhz Rumıniyada açılmışdır. Mən çox şadam ki, bu səfirlik uğurla işləyir, bütün aidiyyəti orqanlarla əlaqədədir. Bu da bizə imkan verir ki, Azərbaycan haqqında həqiqətlər, reallıqlar geniş rumın ictimaiyyətinə dolğun şəkildə çatdırılsın.

Mən bu səfərdən çox razıyam. Əminəm ki, bu səfərdən sonra bizim əlaqələrimiz daha da güclənəcəkdir. İmzalanmış sənədlər bunu deməyə əsas verir.

Bilirsiniz ki, ölkəmiz və region üçün ən təhlükəli, ən ağrılı problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsidir.

Biz tələb edirik ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bizim üçün çox vacibdir ki, Rumıniya dövlətinin mövqeyi də məhz bundan ibarətdir və hörmətli cənab prezident İon İliyesku dünən mətbuat konfransında və digər çıxışlarda bu mövqeyi açıq şəkildə bəyan etmişdir. O demişdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Sizin ölkənizin bu açıq bəyanatı və

bizə açıq dəstəyi bizim üçün çox vacibdir və mən əminəm ki, münaqişənin nizama salınması istiqamətində öz rolunu oynayacaqdır.

Biz bütün dövlətlərin ərazi bütövlüyünü tanıyırıq. Əlbəttə, tələbimiz ondan ibarətdir ki, bizim də ərazi bütövlüyümüz bərpa edilsin, Ermənistan öz işğalçı siyasətindən əl çəksin, işğal olunmuş torpaqlardan çıxsın və bir milyondan artıq qaçqın və köçkün öz doğma torpaqlarına qayıda bilsin. Onu da qeyd etmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair dörd qətnamə qəbul edibdir və bu qətnamələrdə deyilir ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Biz istəyirik ki, dünyada ikili standartlar siyasətinə son qoyulsun və Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş qərarlar icra olunsun. Bu məsələ ilə əlaqədar Rumıniyanın birmənalı mövqeyi və digər Avropa ölkələrinin bizə verdiyi dəstək münaqişənin həllində böyük rol oynaya bilər. Bu münaqişə öz həllini tapar-sa, regionda sülh bərqərar olunar, təhlükəsizlik möhkəmləndirilər və bütün maneələr aradan qaldırılar. Biz istəyirik ki, regiondakı bütün xalqlar əmin-amanlıq şəraitində yaşasınlar.

Əziz dostlar, bir daha qeyd etmək istəyirəm ki, mənim Rumıniyaya rəsmi səfərim çox mühümdür. Mən bu səfərə böyük əhəmiyyət verirəm və şadam ki, o çox uğurlu keçir. Qeyd etdiyimiz kimi, ölkələrimiz arasında əlaqələr çox yüksək səviyyədədir. Çox şadam ki, insanlarımız arasında da mehriban münasibət vardır. Mən Rumıniyaya böyük nümayəndə heyəti ilə gəldim. Burada aparılan danışıqlar, söhbətlər və imzalanmış sənədlər gələcək əməkdaşlığımız üçün çox gözəl şərait yaradır. Biz istəyirik ki, əlaqələrimiz bütün sahələrdə və bütün səviyyələrdə inkişaf etsin. Hökumətlərarası birgə komissiya daha fəal işləməlidir, parlamentlərarası əlaqələr güclənməlidir, humanitar sahədə əməkdaşlıq da yeni mərhələyə çıxmalıdır. Mən ümid etmək istəyirəm ki, bu səfər bütün sadaladığım məsələlərə təkan verəcəkdir.

Əlbəttə, mənim üçün çox önəmli və əzizdir ki, burada, Rumıniya torpağında xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılmışdır. Bu, iki ölkə arasında olan əlaqələrə çox müsbət təsir göstərəcəkdir. Bunun Azərbaycan və rumın xalqları arasında mehriban və səmimi münasibətlərə də güclü təsiri olacaqdır. Buna görə mən Rumıniya dövlətinə və hökumətinə, şəxsən cənab İon İliyeskuya öz minnətdarlığımı bildirirəm. Çox istərdim ki, Rumıniya–Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri də tez-tez Azərbaycana gəlsinlər, biz daha da sıx əlaqədə, təmasda olaq və cəmiyyətin fəaliyyəti bundan sonra da xalqlarımızın yaxınlaşmasına xidmət etsin.

Verilən ödüllərə və dediyiniz xoş sözlərə görə sizin hamınıza bir daha öz dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, Rumıniya ilə Azərbaycan arasında olan əlaqələr yüksələn xətt üzrə davam edəcəkdir.

## BUXARESTDƏ AZƏRBAYCAN SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*12 oktyabr 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Rumıniyanın paytaxtı Buxarest şəhərində Azərbaycan Respublikasının səfirliyinin yeni binası açılır və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm.

Bir neçə ildir ki, Azərbaycanın Rumıniyada səfirliyi açılmışdır və onun fəaliyyəti çox uğurludur. Bu illər ərzində iki ölkə arasında olan əlaqələr daha da güclənmiş, yeni mərhələyə qədəm qoymuşdur.

Çox şadam ki, ümummilli liderimiz Heydər Əliyevin və Rumıniya prezidenti İon İliyeskunun xalqlarımız arasında münasibətlərin möhkəmlənməsi sahəsindəki səyləri öz bəhrələrini verir. Mənim də Rumıniyaya rəsmi səfərim bu gün başa çatır və deyə bilərəm ki, bu səfər çox uğurlu olubdur, çoxlu mühüm sənədlər imzalanıb və geniş fikir mübadiləsi aparılıbdır. Bu səfərdən sonra qətiyyətlə deyə bilərəm ki, Rumıniya–Azərbaycan əlaqələri həm ikitərəfli formatda, həm də regional əməkdaşlıq baxımından çox sürətlə inkişaf edir. Ölkələrimiz bir-birinə çox yaxındır. Dünyada sülhün, təhlükəsizliyin təmin olunmasında Rumıniya və Azərbaycan fəal iştirak edirlər və bu amil bizi daha çox birləşdirir. Rumıniyanın Avropa və Avratlantik strukturlarına inteqrasiya siyasəti öz gözəl nəticələrini veribdir. Biz də buna çox sevinirik və bildirmək istəyirəm ki, Azərbaycan da bu yolla gedir. Ölkəmizin də siyasəti Avropa və Avratlantik strukturlarına inteqrasiyadan ibarətdir. Bu bizim strateji seçimimizdir. Bu seçim 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra edilibdir və bu gün Azərbaycan dövləti və hökuməti bu siyasi xəttə sadiqdir, bu siyasəti davam etdirir.

Bir sözlə, deyə bilərəm ki, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Məqsədimiz ondan ibarətdir ki, iqtisadi əlaqələrimizi də yüksək səviyyəyə çatdıraq. Bunu etmək üçün bütün imkanlar vardır. İqtisadi baxımdan Rumıniya ilə Azərbaycan ən dinamik inkişaf edən ölkələrdir. Bizim iqtisadi potensialımız günü-gündən güclənir. Yeni istehsal sahələri işə salınır, yeni infrastruktur layihələri həyata keçirilir. Azərbaycanın enerji daşıyıcılarının Avropaya və ümumən dünyaya çatdırılması istiqamətində çox mühüm addımlar atılıbdır və bu sahədə iki ölkə arasında çox gözəl əməkdaşlıq mümkündür. Əminəm ki, biz buna nail olacağıq. Hökumətlərarası birgə komissiyanın bundan sonrakı fəaliyyəti ondan ibarət olmalıdır ki, bizim iqtisadi əlaqələrimizi bütün sahələrdə daha da gücləndirsin, iş adamlarına gözəl şərait yaratsın, ümumiyyətlə, iqtisadi-ticarət əlaqələrinin inkişafında daha da fəal rol oynasın.

Humanitar sahəni əhatə edən mühüm sazişlər imzalanıbdır. Bu, Azərbaycan dövlətini, hökumətini qane edir. Çalışmalıyıq ki, bu əlaqələri bundan sonra da inkişaf etdirək və gücləndirək. Səfirliyimizə də bu işdə yeni uğurlar arzulayıram. Bu gözəl binanın açılışı münasibətilə bir daha sizin hamınızı təbrik edirəm.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev səfirliyin yeni binasının açılışında iştirak edən xarici ölkələrin diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşüb söhbət etdi.*

*Dövlətimizin başçısı jurnalistlərin suallarına cavab verdi:*

**S u a l: Cənab Prezident, Sizin çıxışlarınızdan da məlum oldu ki, Rumıniya səfərinizdən razı qalmısınız...**

**C a v a b:** Bəli, razı qalmışam. Çox uğurlu səfərdir. Bizim aramızda olan qarşılıqlı anlaşma apardığımız danışıqlar əsnasında bir daha təsdiqini tapdı. Biz çox geniş fikir mübadiləsi apardıq, həm ikitərəfli, həm də regional məsələləri müzakirə etdik. Əlbəttə ki, imzalanmış sənədlər gələcək əməkdaşlıq üçün hüquqi baza yaradır. Bütün görüşlər çox uğurlu keçibdir. Mən çox razıyam. Rumıniya–Azərbaycan əlaqələri bizim üçün çox vacibdir.

**S u a l: Dünənki mətbuat konfransında Rumıniya prezidenti xatırlatdı ki, umummilli liderimiz Heydər Əliyevin vaxtında Azərbaycan qazının Rumıniyadan keçməklə Avropaya nəql olunması məsələsi qaldırılmışdı. Rumıniyanın enerji layihələrində iştirakı ilə bağlı konkret müzakirələr oldumu?**

**C a v a b:** Biz bu məsələni müzakirə etdik. Bilirsiniz ki, Azərbaycan qazı Avropaya çatdırılacaqdır. Bu istiqamətdə önəmli addımlar atılıb. Gürcüstan və Türkiyə üzərindən Avropanın digər ölkələrinə qaz nəql olunacaqdır. Bu barədə Avropa Birliyində də müzakirələr aparılmışdır. Əlbəttə, bu baxımdan Rumıniya ilə Azərbaycan arasında da əməkdaşlıq ola bilər. Mən bu gün maraqlandım, Rumıniya ildə təxminən 5 milyard kubmetr qaz idxal edir və Azərbaycanın onu bu qazla təmin etməyə imkanı olacaqdır. Bizim «Şahdəniz» yatağından böyük

həcmdə qaz çıxarılacaq və onu istənilən yerə çatdıra biləcəyik. Odur ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərini də Bakı–Tbilisi–Ceyhan neft kəməri kimi uğurla başa çatdırmalıyıq və öz öhdəliyimizi yerinə yetirməliyik.

**S u a l: Cənab Prezident, səfər zamanı Dağlıq Qarabağ münaqişəsi ətrafında da müzakirələr apardınız. Ümumiyyətlə, Rumıniyanın bu məsələ ilə bağlı mövqeyi Sizi qane edirmi?**

**C a v a b:** Əlbəttə, qane edir. Siz dünən bu sualı Rumıniya prezidentinə verdiniz və o da cavabında, sonrakı çıxışlarında da birmənalı şəkildə dedi ki, Rumıniya bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Bu çox önəmli bəyanatdır. Bildiyiniz kimi, son müddət ərzində bir neçə dövlət başçısı birmənalı şəkildə belə bir bəyanatla çıxış etmişdir. Mənim əksər səfərlərimdə tərəf-müqabilim buna oxşar bəyanatla çıxış etmişdir. Bu çox önəmli haldır, bu bir də onu göstərir ki, dünyada ikili standartlara yol verilməməlidir. Bütün məsələlər yalnız beynəlxalq hüquq normaları prizmasından öz həllini tapmalıdır. Əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Ermənistanda bunu nə qədər tez başa düşsələr, o qədər yaxşıdır. İndi əsas məsələ bundadır ki, BMT-nin və ATƏT-in mühüm qərarları həyata keçirilsin, bunun üçün mexanizm yaradılsın. Əfsuslar olsun ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsindən biri də icra olunmur, Ermənistana qarşı bir dəfə də olsun sanksiya tətbiq edilmir. Əlbəttə, bu, dözülməz haldır. Əgər beynəlxalq hüquq mexanizmləri hazırlanarsa və tətbiq olunarsa, onda bu münaqişə daha tez öz həllini tapacaqdır.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağ məsələsi AŞ PA-nın sessiyasında da müzakirə olunmuşdur. Siz sessiyanın nəticələrindən razı qaldınızmı?**

**C a v a b:** Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanvar sessiyasında baxılacaqdır. Bilirsiniz ki, məruzə hazırlanıb, Terri Devis məruzəni təqdim edibdir və o, mətbuatda da öz əksini tapıbdır. Bu çox obyektiv reallıqları əks etdirən məruzədir. Bu sessiyada da həmin məsələyə toxunuldu, müəyyən fikirlər səsləndi. Amma deyə bilərəm ki, onların hamısı bizim təməlini qoyduğumuz prinsipləri əks etdirir. Əsas məsələ o idi ki, işğal haqqında məlumatlar Avropa Şurasının sənədlərinə salınsın, Azərbaycanın ərazi bütövlüyünün pozulması barədə fikirlər öz əksini tapsın. Artıq bu sənəddir, hüquqi bazadır. Əminəm ki, müzakirə olunacaq məruzə də Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini bir daha göstərəcəkdir. Əlbəttə ki, müəyyən sanksiyalar da nəzərdə tutula bilər. Bəri başdan Avropa Şurasından bizim tələbimiz və istəyimiz ondan ibarət idi ki, bu münaqişəyə siyasi qiymət verilsin. Avropa Şurasının başqa mexanizmi yoxdur və biz ondan möcüzə gözləməməliyik. Amma siyasi qiymət veriləndən sonra bu, siyasi danışıqlar prosesi üçün də güclü baza olacaqdır. Deyə bilərəm ki, artıq dünyada bu münaqişə ilə əlaqədar dolğun məlumat var, Azərbaycanın haqlı olması regionda və beynəlxalq aləmdə qəbul edilir. Bizim vəzifəmiz ondan ibarətdir ki, öz siyasi iradəmizi, təzyiqi daha da gücləndirək, Ermənistanı işğalçı dövlət kimi bütün kürsülərdən ifşa edək və öz siyasi həmlələrimizi davam etdirək. Bunu prezident də, deputatlar da, mətbuat da, hər bir Azərbaycan vətəndaşı da etməlidir. Yalnız bu təqdirdə biz istəyimizə nail olacağıq.

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN**
**RUMINİYADA RƏSMİ GÖRÜŞLƏRİ**

*Azərbaycan Respublikasının prezidenti İham Əliyev oktyabrın 12-də Rumıniyanın Xarici İşlər naziri Mirça Coananı qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycanla Rumıniya arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Bildirildi ki, ölkələrimizin nümayəndələri beynəlxalq təşkilatlarda da fəal əməkdaşlıq edirlər.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev oktyabrın 12-də Rumıniya Senatına gəldi.*

*Dövlətimizin başçısını Senatın binası önündə Senatın sədri Nikolae Vekeroyu və parlamentin Deputatlar Palatasının sədri Valeri Dornyanu böyük hörmətlə qarşıladılar.*

*Sonra Azərbaycan prezidentinin Rumıniya parlamentinin hər iki palatasının sədrləri ilə görüşü oldu.*

*Görüş zamanı prezident İlham Əliyev Rumıniyaya rəsmi səfərinin çox uğurla keçdiyini qeyd edərək bu səfərin ölkələrimiz arasında əlaqələrin inkişafında yeni mərhələ olacağını söylədi.*

*Hökumətlərarası komissiyanın və xüsusilə parlamentlərin fəal əməkdaşlığı da xüsusi vurğulandı. Bildirildi ki, Milli Məclisdə Rumıniya parlamenti ilə dostluq qrupu fəaliyyət göstərir və gələcəkdə parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi zəruridir.*

*Görüşdə Milli Məclislə Rumıniya parlamenti arasında qanun yaradıcılığı sahəsində əməkdaşlığın inkişaf etdirilməsi barədə də söhbət getdi.*

*Prezident İlham Əliyevə Rumıniya parlamentinin 140 illiyi münasibətilə buraxılmış xatirə medalı təqdim olundu.*

*Azərbaycan prezidenti Rumıniya Senatının fəxri qonaqları kitabına ürək sözlərini yazdı.*

* * *

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Senatda görüşünü başa çatdırdıqdan sonra Buxarestdəki «Karol-1» xiyabanına gələrək naməlum əsgərin məzarını ziyarət etdi.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu və İkinci dünya müharibəsi zamanı həlak olmuş rumın əsgərlərinin xatirəsini yad etdi.

Azərbaycan rəhbəri xatirə kitabını imzaladı.

* * *

*Oktyabrın 12-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri başa çatdı.*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI**
**PAPA II İOANN PAVEL HƏZRƏTLƏRİNƏ**

Zati-müqəddəsləri!

Vatikan Dövlətinin milli bayramı – Tacqoyma günü münasibətilə Sizi və Sizin simanızda bütün katolikləri şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Vatikan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ümumbəşəri ideallar naminə fədakar işinizdə uğurlar, bütün həmməzhəblərinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 13 oktyabr 2004-cü il*

## AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ, NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YAN PETERSENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Azərbaycanda demokratik islahatların uğurla həyata keçirilməsindən bəhs edərək dedi ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Avropa strukturlarına inteqrasiya xətti bizim siyasətimizin əsas prioritetlərindən birini təşkil edir və Azərbaycan bu xəttə daim sadiqdir.

Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin dinamik, qarşılıqlı surətdə faydalı şəkildə inkişaf etdiyini məmnunluqla vurğulayan prezident İlham Əliyev ölkəmizin bu təşkilata üzv olduğu ilk gündən Avropa Şurasının və onun Parlament Assambleyasının işində fəallıqla iştirak etdiyini nəzərə çatdırdı.

Respublikamızın bu təşkilat qarşısında götürdüyü öhdəliklər məsələsinə toxunan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu öhdəlikləri tam şəkildə yerinə yetirir. Bunu təkcə təşkilat qarşısında öhdəlik götürdüyümüzə görə etmirik, bu, əsasən, Azərbaycanda cəmiyyətin demokratikləşdirilməsi istiqamətində həyata keçirilən siyasətin təsdiqidir.

Ermənistanın ölkəmizə təcavüzü və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsindən bəhs edən dövlətimizin başçısı bu münaqişənin həllində Azərbaycanın mövqeyinin yalnız beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslandığını bir daha diqqətə çatdırdı.

Bu münaqişənin Avropa Şurasında, o cümlədən Parlament Assambleyasında müzakirəsi məsələsinə toxunan prezident İlham Əliyev dedi ki, ölkəmiz bu problemin geniş müzakirə edilməsinə daim tərəfdar olmuşdur, çünki Azərbaycanın mövqeyi ədalətli mövqedir. Ölkəmiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Avropa Şurası Parlament Assambleyasının məruzəçisinin təyin olunması təşəbbüsünü qaldırarkən Ermənistan həmişə bunun əleyhinə çıxış etmişdir. Bu isə aydın surətdə göstərir ki, Ermənistan münaqişənin dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırılmasında maraqlı deyildir.

Dövlətimizin başçısı dedi ki, Avropa Şurası və AŞ PA ilə Azərbaycanın digər sahələrdə də əməkdaşlığı qarşılıqlı anlaşma əsasında həyata keçirilir və bu həm Azərbaycan üçün, həm də Avropa Şurası üçün çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Avropa inteqrasiya prosesində fəal iştirak edir, bu baxımdan həm Avropa Şurası, həm də Avropa Birliyi kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm veririk.

Səmimi sözlərə görə prezident İlham Əliyevə təşəkkür edən Yan Petersen ölkəmizdə səfərdə olduğu müddətdə çox səmərəli görüşlər keçirdiyini bildirdi. Qonaq Bakıya səfərinin həm Azərbaycan–Norveç, həm də Azərbaycan–Avropa Şurası əməkdaşlığı baxımından böyük əhəmiyyət daşıdığını vurğuladı.

Azərbaycan ilə Norveç arasında əlaqələrin uğurla inkişaf etməsindən məmnunluqla bəhs edən cənab Yan Petersen dedi ki, bu, ilk növbədə, özünü iqtisadi sahədəki əməkdaşlıqla göstərir. Norveçin «Statoyl» şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirən nazir ölkələrimiz arasında iqtisadi əməkdaşlığın təkcə neft və qaz sektorunda deyil, digər sahələrində də genişlənəcəyinə əmin olduğunu vurğuladı.

Azərbaycan – Avropa Şurası münasibətlərinə toxunan cənab Petersen bildirdi ki, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə yalnız öhdəlik kimi yox, ölkənin demokratik inkişafı baxımından yanaşır. Qonaq Azərbaycanın həmin öhdəliklərə belə münasibətini yüksək qiymətləndirdi. O qeyd etdi ki, bu əməkdaşlığın inkişafı həm Azərbaycan, həm də Avropa Şurası üçün qarşılıqlı əhəmiyyət kəsb edir.

**MACARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB FERENTS MADLA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Macarıstan Respublikasının elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 oktyabr 2004-cü il*

## BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ YOZEF SEPP BLATTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2004-cü il*

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev FİFA prezidentinin onun dəvətini qəbul edib, gərgin işinə baxmayaraq, vaxt tapıb Azərbaycana səfərə gəlməsini yüksək qiymətləndirdi.

Azərbaycan futbolunun inkişafında cənab Blatterin xidmətlərini xüsusi qeyd edən prezident İlham Əliyev ölkəmizlə FİFA arasında əməkdaşlığın gündən-günə inkişaf etdiyini nəzərə çatdırdı. Azərbaycanda idmanın inkişafından bəhs edən dövlətimizin başçısı bu prosesin sürətlə getdiyini vurğuladı, idmançılarımızın beynəlxalq yarışlarda yeni-yeni uğurlar qazandığını diqqətə çatdırdı.

Azərbaycan Respublikasının prezidenti həm də Olimpiya Komitəsinə rəhbərlik etdiyini vurğulayaraq dedi ki, ölkəmizdə idmanın inkişafı prioritet məsələlərdən biridir və futbol sahəsində də irəliləyişin əldə edilməsi üçün böyük səylər göstərilir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, idmanın ən mühüm sahələrindən biri olan futbol gələcəkdə Azərbaycanda daha da inkişaf etdiriləcəkdir.

Prezident İlham Əliyev Azərbaycan futbolunun inkişafında və onun beynəlxalq əlaqələrin genişləndirilməsindəki xidmətlərinə görə cənab Yozef Sepp Blatterin «Şöhrət» ordeni ilə təltif olunması barədə sərəncam imzaladığını bildirərək həmin yüksək mükafatı ona təqdim etdi.

Səmimi sözlərə və yüksək mükafata görə minnətdarlığını bildirən qonaq Azərbaycan prezidenti İlham Əliyevin Bakıya səfər etmək barədə dəvətini böyük məmnunluqla qarşıladığını söylədi. O dedi ki, işinin çox gərgin olmasına baxmayaraq, bu dəvəti qəbul edərək Bakıya gəlməyi özünə borc bilmişdir. Qonaq Bakıda keçirdiyi görüşlərindən çox məmnun qaldığını söylədi, Azərbaycan prezidenti İlham Əliyevin onu «Şöhrət» ordeni ilə təltif etməsindən böyük şərəf duyduğunu bildirdi.

Cənab Yozef Sepp Blatter Azərbaycan prezidenti İlham Əliyevə FİFA-nın 100 illiyinə həsr olunmuş xatirə medalı təqdim etdi.

**AZƏRBAYCAN RUS İCMASININ**
**II QURULTAYININ NÜMAYƏNDƏLƏRİNƏ**

Hörmətli qurultay nümayəndələri!

Əziz həmvətənlər!

Sizi – Azərbaycan Rus İcması təşkilatının II qurultayının nümayəndələrini ürəkdən salamlayır, hamınıza ən xoş arzularımı yetirirəm.

170 ildir ki, Azərbaycanda məskunlaşıb yaşayan ruslar bu gün haqlı olaraq buranı özlərinin ikinci doğma vətəni hesab edirlər. Çünki Azərbaycanda tarixən mövcud olmuş tolerantlıq, xalqımızın yüksək humanist keyfiyyətləri müxtəlif dilli və dinli xalqlar arasında sivil etnik-dini münasibətlərin formalaşmasına və bütün milli azlıqların əmin-amanlıq şəraitində yaşamasına gözəl şərait yaratmışdır.

Rus əhalisi ötən tarixi dövr ərzində Azərbaycan cəmiyyətinə sürətlə inteqrasiya olunmuş, milli özünəməxsusluğunu, etnik-dini adət-ənənələrini, dil və mədəniyyəti qoruyub saxlamaqla ölkəmizdə gedən tarixi proseslərdən, ictimai-siyasi və elmi-mədəni həyatdan kənarda qalmamışdır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixi ənənələrinə sadiq qalaraq ölkədə beynəlxalq normalara uyğun demokratik hüquqi prinsiplərin bərqərar edilməsi sahəsində ardıcıl siyasət xətti həyata keçirir. Bu gün demokratik təsisatların azad fəaliyyəti və dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın insan hüquq və azadlıqlarının təminatı üçün respublikada zəruri hüquqi-siyasi şərait yaradılmışdır. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri kimi, ruslar da ölkə Konstitusiyası ilə təsbit edilmiş hüquq və azadlıqlarından hərtərəfli yararlanaraq rəsmi dövlət strukturlarında, elmi-mədəni, sosial-iqtisadi və istehsalat sahələrində geniş təmsil olunur, demokratik hüquqi islahatların həyata keçirilməsində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Xüsusi vurğulamaq istərdim ki, SSRİ-nin süqutundan sonra milli müstəqillik qazanmış bir sıra respublikalarda ruslara və rusdilli əhaliyə qarşı müəyyən mənfi hallar Azərbaycanda baş verməmiş və bəzi MDB ölkələrindən fərqli olaraq bizim respublikada rus dilinə və rus dilində təhsilə heç bir qadağa və məhdudiyyət qoyulmamışdır. Hazırda ölkəmizdə onlarca rusdilli orta ümumtəhsil məktəbi, ali təhsil ocaqlarında rus bölmələri, Bakı Slavyan Universiteti fəaliyyət göstərir, rus dilində çoxsaylı mətbuat orqanları və kitablar çap olunur.

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu gün Cənubi Qafqazda ən böyük rus icması Azərbaycandadır və postsovet məkanında yaşayan rusların sayına görə respublikamız öncül yerlərdən birini tutur. Ermənistanda azərbaycanlılara qarşı həyata keçirilən son etnik təmizləmə və deportasiya siyasəti zamanı mürtəce erməni şovinizmindən əziyyət çəkən minlərlə rusun daimi yaşayış yeri kimi məhz Azərbaycanı seçməsi heç də təsadüfi deyildi.

Azərbaycan dövləti hər cür milli müstəsnalığın, irqi ayrı-seçkiliyin, etnik-dini dözümsüzlüyün əleyhinə olmuşdur və bundan sonra da öz daxili və xarici siyasətinin prioritet xətti kimi, bu sahədə ardıcıl fəaliyyətini davam etdirəcəkdir.

Hörmətli qurultay iştirakçıları!

Respublikamızın ən kütləvi ictimai təşkilatlarından olan və sıralarında 80 minədək üzvü birləşdirən Azərbaycan Rus İcması yarandığı on ildən artıq bir müddətdə ictimai fəallığı ilə seçilmiş, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, azad vətəndaş cəmiyyəti quruculuğunda yaxından iştirak etmişdir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ictimai-mədəni əlaqələrin və xalq diplomatiyasının gücləndirilməsi, xalqlarımızın bir-birinə daha da yaxınlaşması, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və Dağlıq Qarabağ münaqişəsi barədə obyektiv gerçəkliyin dünya ictimaiyyətinə çatdırılması sahəsində təşkilatınız diqqətəlayiq işlər görmüşdür.

Əminəm ki, Azərbaycan Rus İcması ictimai birliyi bundan sonra da ölkəmizin rus əhalisini layiqincə təmsil edəcək və öz fəaliyyətini xalqlar arasında mehriban dostluq münasibətlərinin inkişafına, cəmiyyətimizdə vətəndaş həmrəyliyinin və monolit birliyin qorunub saxlanmasına, müstəqil Azərbaycan dövlətçiliyinin daha da qüdrətlənməsi işinə səfərbər edəcəkdir.

Bu nəcib və xeyirxah fəaliyyətdə hər birinizə cansağlığı, qurultayınızın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 oktyabr 2004-cü il*

## RUS İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞI

*Prezident sarayı*

*14 oktyabr 2004-cü il*

**İ l h a m  Ə l i y e v**: Əziz dostlar!

Mən sizi salamlamağa çox şadam. Azərbaycanın Rus İcmasının qarşıdakı ikinci qurultayı ölkəmizin həyatında əlamətdar hadisədir. Bu gün sizinlə görüşmək və mövcud olan məsələləri müzakirə etmək mənə çox xoşdur.

Mən böyük məmnunluqla demək istəyirəm ki, müstəqil dövlət kimi təşəkkül tapan Azərbaycan bütün istiqamətlərdə çox uğurla inkişaf edir və bu inkişafda xalqımızın lideri Heydər Əliyevin böyük xidmətləri var. Bu, ilk növbədə, əmin-amanlıq, firavanlıq və ölkəmizdə yaşayan bütün xalqlar arasında dostluq və etimad mühiti yaradılması işində olan xidmətlərdir və bunlar çox böyükdür. Heydər Əliyev siyasəti Azərbaycanda bütün istiqamətlərdə, bütün sahələrdə davam edir və bizə beynəlxalq işlərdə də, iqtisadiyyatda da, daxili problemlərin həllində də uğurlar gətirir.

Əlbəttə, Azərbaycanda yaşayan xalqların qarşılıqlı zənginləşməsinin təməli Heydər Əlirza oğlu Əliyev tərəfindən hələ 1970-ci illərdə qoyulmuş və o, Azərbaycana müstəqil ölkənin prezidenti kimi qayıtdıqdan sonra bərpa edilmişdir və biz bu gün də bu yolla gedirik.

Mənə çox xoşdur ki, Azərbaycanın Rus İcması çox uğurla inkişaf edir, bütün istiqamətlərdə çox fəal işləyir. Azərbaycanda millətlərarası məsələlər, problemlər heç vaxt olmayıbdır. Yəqin ki, Azərbaycan keçmiş SSRİ-nin və daha geniş regionun çox az ölkələrindən biridir ki, burada dostluq, səmimi münasibətlər, milli və dini dözümlülük həmişə mövcud olmuşdur.

Azərbaycanın rus vətəndaşları ölkəmizin inkişafı işinə çox böyük töhfə vermişlər və verirlər. Mənə çox xoşdur ki, cəmiyyətimizdə belə dostluq, qardaşlıq münasibətləri mövcuddur. Bizdə milli mənafelərə görə heç bir fərqli yanaşma yoxdur və bu, müstəqil Azərbaycanın ən böyük nailiyyətlərindən biridir. Çətin iqtisadi, siyasi, sosial dövrlər keçirməyimizə baxmayaraq, Azərbaycanda məskunlaşan xalqlara dostcasına yaşamağa heç nə – nə erməni təcavüzü, nə 1990-cı illərin axırlarındakı vətəndaş müharibəsi, nə də qarmaqarışıqlıq və anarxiya mane ola bilməmişdir. Bu çox böyük nailiyyətdir. Əlbəttə ki, biz onu qorumalı və inkişaf etdirməliyik.

Prezident seçkilərindən əvvəl də, sonra da mən dəfələrlə rəsmi bəyanat vermişəm, çıxış etmişəm və demişəm ki, milliyyətindən, dini etiqadından, baxışlarından və sairdən asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşı mənim üçün əzizdir. Əlbəttə ki, Azərbaycanda yaşayan xalqlar arasında sülh, xoş münasibətlər, qardaşlıq münasibətləri çiçəklənən Azərbaycanın gələcəyi üçün təməldir.

Bütün bunlar bizə sanki təbii görünür, axı hər hansı digər vəziyyət qeyri-real və sadəcə olaraq, ağlasığmaz görünə bilər. Lakin bunu qonaqlardan eşitdikdə – dəfələrlə belə olmuşdur – Azərbaycana səfər etmiş müxtəlif ölkələrin prezidentləri və eləcə də ölkəmizdə tez-tez olan digər nümayəndə heyətləri səviyyəsində eşitdikdə, əslində hamısı, böyük əksəriyyəti deyir ki, Azərbaycanda bu məsələ həll edilir. Mən isə deyirəm: Bu məsələ bizdə həll edilmir, çünki bizdə, Azərbaycanda belə məsələ yoxdur, belə məsələ bizim üçün yersizdir. Amma təəssüf ki, bu haradasa başqa yerlərdə belə deyildir.

Bax, buna görə də bu əvəzsiz təcrübə olduqca nadirdir. Əlbəttə ki, bizim vəzifəmiz rus millətindən olan vətəndaşların ictimai həyatın bütün sahələrində, elmi, siyasi sahələrdə daha fəal iştirak edə bilməsi üçün onlara hər cür şərait yaratmaqdan ibarətdir. Bizdə rus dilinə də çox qayğı ilə yanaşırlar. Zənnimcə, bu baxımdan Azərbaycan dünyanın digər ölkələri üçün, qonşularımız üçün nümunə ola bilər. Biz çox mühüm olan rus dilinə həm də müxtəlif xalqlar arasında ünsiyyət vasitəsi kimi yanaşırıq. Bilirsiniz ki, bir çox qəzetlər və digər kütləvi informasiya vasitələri rus dilində çıxır və çox populyardır. Sovet dövrü ilə müqayisədə onların sayı hətta daha çoxdur. Xoşdur ki, belə meyllər var. Bu da təbii haldır. Biz Rusiya televiziyasının verilişlərinin yayımlanması faktını da təbii qəbul edirik. Halbuki mən keçmiş SSRİ-nin başqa ölkələrində oluram, görürəm ki, orada belə deyildir. Yalnız seçmə verilişlər var, kabel televiziyası var. Biz bunu qiymətləndirəcək, qoruyacaq və inkişaf etdirəcəyik.

Çox istərdim ki, Azərbaycanın rus vətəndaşları, Rus İcması ölkənin həyatında getdikcə daha fəal iştirak etsinlər. Ölkəmiz inkişaf edir, dünyada çox yaxşı coğrafi-siyasi mövqelərimiz var. Azərbaycan inkişaf edir və müasir dövlətə çevrilir. Demokratik proseslər çox intensiv gedir, iqtisadiyyat inkişaf edir, yeni iş yerləri yaradılması proqramı həyata keçirilir. Əlbəttə, bütün bunlar vətəndaşların maddi rifahının yüksəlməsinə kömək edəcəkdir.

Gələn il yeni sosial proqramların həyata keçirilməsi planlaşdırılır. Biz irəli gedirik, öz inkişafımızda irəliləyirik. Əlbəttə ki, bu müsbət dəyişiklikləri Azərbaycanın hər bir vətəndaşının hiss etməsi çox vacibdir. İqtisadçılar,

iqtisadiyyatla məşğul olan insanlar rəqəmlər gətirirlər. Əlbəttə ki, hamı bu rəqəmlərin arxasında nələr durduğunu başa düşür, bu prosesin əhəmiyyətini başa düşür. Rifahın yaxşılaşmasını – əmək haqqının artmasını, böyük sosial müdafiə olduğunu hər bir insan, hər bir vətəndaş öz üzərində hiss etməlidir. Onda biz deyə bilərik ki, məqsədlərimizə çatmışıq.

Mən sizi bir daha salamlamaq və Azərbaycanın Rus İcmasının uğurla işləməsi münasibətilə təbrik etmək istəyirəm. O, ölkəmizin ictimai-siyasi həyatında çox mühüm rol oynayır və belə bir təşkilatın olması, çox fəal işləməsi xoşdur. Sizə gələcəkdə uğurlar diləmək, Rus İcmasının sıralarının genişlənməsini, yeni qüvvələr, gənclər gəlməsini, böyüməkdə olan gənclərin Azərbaycanda gedən bütün faydalı proseslərə daha fəal qoşulmasını arzulamaq istəyirəm.

Sizə qurultayı uğurla keçirməyi arzulayıram. Düşünürəm ki, belə də olacaqdır. Sizə uğurlar arzulayır, ən səmimi diləklərimi bildirirəm. Xahiş edirəm, ən xoş arzularımı Rus İcmasının bütün üzvlərinə, Azərbaycanın bütün rus vətəndaşlarına yetirəsiniz. Sağ olun.

**M i x a i l   Z a b e l i n** (*Rus İcmasının sədri, Milli Məclisin deputatı*): Hörmətli cənab Prezident, İlham Heydər oğlu!

İcazə verin, Sizə belə müraciət edim. Məşğul olmağınıza baxmayaraq, vaxt tapıb bizi qəbul etdiyinizə görə Rus İcması qurultayının nümayəndə heyəti adından Sizə təşəkkürümüzü bildirim. Siz Azərbaycanın, Azərbaycan xalqının tərəqqisi naminə çox işlər görürsünüz və belə bir zamanda vaxt tapıb Rus İcmasının nümayəndə heyətini qəbul etmisiniz. Bizim üçün prezidentin qəbulunda olmaq, onunla söhbət etmək, sonra isə, bəlkə də, onunla şəkil çəkdirmək, şübhəsiz ki, böyük şərəfdir. Yəqin ki, bu hər adama qismət olmur və hər il baş vermir. Buna görə də biz son dərəcə  şadıq və çox həyəcan keçiririk. Azərbaycanda yaşayan ruslar, bəzən onlara azərbaycanlı ruslar da deyirlər, burada böyümüşlər, buranın adət-ənənəsi onların qanına hopmuşdur. Siz Rusiyanın bir çox guşələrində olmusunuz və bilirsiniz ki, Azərbaycandakı ruslar Rusiyada yaşayan ruslardan çox fərqlənirlər. Çünki biz Azərbaycan xalqının ən yaxşı ənənələri ruhunda tərbiyə almışıq. Çoxlarımız, burada qalanlar, burada yaşamağı davam etdirənlər şübhəsiz, hesab edirik ki, bu bizim vətənimizdir, bu bizim torpağımızdır və bu torpağın həqiqətən tərəqqi etməsi, burada müharibə olmaması üçün, günahsız insanların həlak olmaması üçün, çiçəklənən, demokratik Azərbaycanda yaşamağımız üçün əlimizdən gələni edirik.

Ötən il bütün Azərbaycan xalqına, o cümlədən bizə böyük kədər üz verdi – görkəmli ictimai-siyasi xadim, prezidentimiz Heydər Əlirza oğlu Əliyev vəfat etdi. Biz hamımız onu çox sevirdik, onu çox qiymətləndirirdik, biz hamımız ona ümid bəsləyirdik, onun nə vaxt sağalıb ayağa qalxacağını gözləyirdik. Lakin təəssüf ki, bu, baş vermədi. Heydər Əlirza oğlunun bizimlə olmamasından bu gün də çox kədərlənirik. Allah rəhmət eləsin, biz Heydər Əliyevə ona görə çox minnətdarıq ki, o, Azərbaycan torpağında sülhü qoruyub saxlamaq üçün, insanların həlak olmaması üçün, buradakı bütün millətlərin sülh, anlaşma və dinclik şəraitində yaşaması üçün hər şeyi etmişdir və bu, Azərbaycan xalqına xas olan xüsusiyyətdir.

İlham Heydər oğlu, biz Sizə dərin təşəkkürümüzü bildiririk. Çünki görürük ki, Ermənistan–Azərbaycan münaqişəsinin, nəhayət, həll olunması üçün, qaçqınlarımızın öz evlərinə, ocaqlarına qayıtması üçün Siz çox iş görürsünüz, çox çalışırsınız, çox qüvvə sərf edirsiniz. Biz bunu televiziya ilə də görürük, qəzetlərdən də bilirik. Sizin çox böyük səylərinizi qiymətləndiririk. Biz görürük ki, Azərbaycan xalqının sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün Siz çox şey edirsiniz. Ümidvarıq ki, ruslar Azərbaycanın iqtisadi cəhətdən həqiqətən inkişaf etmiş, möhkəmlənmiş və qüdrətli dövlət olacağını görəcəklər. Bütün bunlara görə Sizə çox sağ olun deyirik.

Vaxtımız az olduğundan, bütün Rus İcmasının arzularını Sizə yetirməyə imkanımız olmadığından, təkcə onu deyəcəyəm ki, Sizi qurultayımızın fəxri nümayəndəsi seçmişik. Sizi Rus İcmasının Gəncə şəhər təşkilatı seçmişdir. Bizim üçün böyük şərəfdir ki, Siz Rus İcmasının fəxri nümayəndəsisiniz. Buna görə Sizə çox sağ olun deyirik.

Qurultayın nümayəndəsi kimi Sizə, habelə Mehriban xanıma qurultay nümayəndələrinin qovluqlarını vermək istəyirik. Burada Azərbaycan–Rusiya əlaqələrinə dair materiallar var. Biz Rusiya Dövlət Duması, Federasiya Şurası nümayəndələrinin, Milli Məclis deputatlarının iştirakı ilə «Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmlənməsində xalq diplomatiyasının rolu» mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirdik. Rus dilinin əhəmiyyətinə həsr olunmuş çox yaxşı konfrans keçirdik, çox zəngin materiallar toplandı, nəhayət, «Bizim Heydər Əliyeviç» kitabını nəşr etdirdik.

Biz çox iş görürük. Təşkilat işləyir, yaşayır. Şadıq ki, təşkilatımız, Rus Mədəniyyəti mərkəzimiz var. Bunlar heç də bütün MDB ölkələrində mövcud deyildir. Bu mərkəzin direktoru indi buradadır.

Ötən il Azərbaycan hökuməti və şəxsən Siz bizə Rus İcmasının 10 illiyini keçirməyə kömək etdiniz, sabah isə Sizin köməyiniz sayəsində keçirilən qurultayımızı açırıq. Bütün bunlara görə Sizə çox sağ olun deyirik.

**L a r i s a   K o v a l y o v a** (*Rus İcmasının Nizami rayon şöbəsinin sədri, Milli Qəhrəman Yuri Kovalyovun anası*): Hörmətli İlham Heydər oğlu!

Bizim Nizami rayonuna, Heydər Əliyev adına parkın açılışına gəldiyiniz yadınızdadırmı? Siz Heydər Əlirza oğlu ilə birlikdə gəlmişdiniz, Siz maşından düşəndə o mənə əl verib qucaqladı və dedi ki, mən sizi xatırlayıram, mən sizi tanıyıram.

Bu gün bizi qəbul etdiyinizə görə Sizə minnətdaram. Çox sağ olun. Ürək sözlərimi demək, Heydər Əlirza oğlunun vəfatından kədərləndiyimi bildirmək istəyirəm. Biz onu xatırlayırıq, bilirik ki, mənim ailəm üçün də çox iş görmüşdür, övladlarıma yaxşılıq etmişdir, onlar mənzil aldılar. O, şəhid ailələrinin qayğısına qalırdı, onları mənzillə təmin edirdi, necə yaşaması ilə maraqlanırdı. Mən Sizə də minnətdaram. Düşünürəm ki, Siz də bizim ailələrimizi nəzərdən qaçırmayacaqsınız. Çox sağ olun. Siz artıq bir ildir prezidentimizsiniz. Allah eləsin ki, prezidentliyiniz uzun olsun, birinci və ikinci müddətə prezident olasınız.

**Viktor Tatarenko** (*Cəmiyyət sədrinin müavini*): Hörmətli cənab Prezident. Gələn il bizim üçün əlamətdar bir ildir, böyük Qələbənin 60 illiyidir. Bu yubileyin bayram edilməsi haqqında sənəd imzaladığınıza, tədbirlər planı olduğuna görə müharibə və silahlı qüvvələr veteranları adından Sizə təşəkkür etmək istərdik.

Rus İcması gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi ilə də məşğul olur. Biz bu fikirdəyik ki, gəncləri, ilk növbədə, ümummilli liderimiz, hörmətli Heydər Əlirza oğlunun timsalında, həyat tarixi əsasında tərbiyə etmək lazımdır. Biz onun biliklərini, ideyalarını öyrənmişik. Heydər Əlirza oğlunun vəfatının ildönümü ilə əlaqədar Rus İcmasının köməyi ilə kitab nəşr etdirmişik. Rusiyada sadə insanlar, ziyalılar onun həyatı haqqında məlumata malik olmaq istəyirlər. Düşünürük ki, gəncləri bu təcrübə əsasında tərbiyə etmək olar. Heydər Əlirza oğlunun Ali Baş Komandan kimi Beyləqana, Füzuliyə getməsindən bəhs edən kitabı Sizə təqdim etmək istəyirik. Onun bu səfərindən sonra Azərbaycan ordusu düşmənə bir qarış da torpaq verməmişdir.

**Svetlana Barinova** (*Rus Mədəniyyəti Mərkəzinin direktoru*): Mən Rus Mədəniyyəti Mərkəzinə başçılıq edirəm. Rus və Azərbaycan mədəniyyətlərinin qarşılıqlı əlaqələrini yetərincə qiymətləndirmək çətindir. Bütün bunların dərin kökləri var. Azərbaycanda həmişə başa düşmüşlər ki, Mlli mədəniyyətlərin çiçəklənməsi arxasında dövlətin qüdrəti durur.

Biz çox minnətdarıq. Şəhərin mərkəzində yerləşən Mədəniyyət mərkəzimizə lap çox insanlar gəlir. Onların arasında çoxlu azərbaycanlı var. Kiçik bir misal çəkim – mərkəzimizdə ənənəyə görə ən yaxşı rus mahnısı, rəqsləri və musiqi ifaçılarının müsabiqəsi keçirilir. Bu, respublikada böyük əks-səda doğurur, bütün millətlərin nümayəndələri iştirak edirlər. Bu müsabiqədə iştirak edən 12 yaşlı Esmira Rzayeva məşhur Ruslanovanın oxuduğu "Valinki" mahnısını elə ifa etdi ki, burada, sonra isə Moskvada hamı onu alqışladı, hətta Yuri Mixailoviç Lujkov onu ayaq üstə alqışlayaraq uzun müddət "əhsən" deyə qışqırırdı. Yetirməmiz Həmid Mahmudov bizim bütün bayramların aparıcısıdır, o Sizin atanızın, unudulmaz Heydər Əlirza oğlunun sevimlisi idi. Demək istəyirəm ki, çox gözəl gənclərimiz var, burada böyük iş görülür. Biz çox xoşbəxtik ki, bizim belə gözəl bağçamız var, orada çox maraqlı Yeni il şənlikləri keçiririk. Mən çox danışmaq istəmirəm, Sizə kitab təqdim etmək istərdim, Moskvada bu yaxınlarda çox az tirajla çıxmışdır. Sizin xanımınız Mehriban Əliyeva bizim Rusiya səfərimizə sponsorluq etdiyi üçün mərkəzimizin tarixinə düşmüşdür. Onun sayəsində mərkəzimizin üç yetirməsi – onlardan 2-si azərbaycanlıdır, çox istedadlı uşaqlardır – Suzdala getmiş və orada yaradıcı adlar müsabiqəsində iştirak etmək imkanı qazanmışdır. Onlar bu müsabiqədə baş mükafatlara – Dövlət Dumasının, Moskva merinin mükafatlarına layiq görülmüşlər. Rus Mədəniyyəti Mərkəzi adından xanımınıza böyük minnətdarlığımızı çatdırın. Əlbəttə, bizim də problemlərimiz və çətinliklərimiz var. İstərdik ki, mərkəzimizə gələsiniz, bizim fəxri qonağımız olasınız. Heydər Əlirza oğlu bizim mərkəzi tanıyırdı, bizim milad bayramlarında iştirak edirdi. Sizə böyük təşəkkürümü bildirirəm.

**Valeri Kozin** (*təşkilatın Gəncə şəhər şöbəsinin sədri, Gəncə hava limanı rəisinin müavini*): Mən təşkilatın Gəncə şöbəsinin və bütün qərb bölgəsinin sədriyəm. Ərazimizdə 10 mindən çox rus və bizimlə dostluq edən rusdilli əhalinin nümayəndələri yaşayır. Biz Sizin necə bir yol keçdiyinizi bilirik. Hamımız yekdilliklə Sizə səs vermişdik. Biz gəncəlilər fəxr edirik ki, belə fəal, gözəl və gənc prezidentimiz var. Ölkənin qərb bölgəsinin inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına qayğı göstərdiyinizə görə Sizə təşəkkür edirik. Gündən-günə gözəlləşən Gəncə şəhərinə qayğı göstərdiyinizə görə Sizə sağ olun deyirik. Gəncə şəhərinin bütün sakinləri adından təşəkkür edirik. Mən Sizin yanınıza gəlməyə hazırlaşarkən onlar özlərinin çox böyük təşəkkürünü Sizə yetirməyi və bunu bildirməyi xahiş etdilər ki, Gəncə sakinləri Sizi sevir və Sizə hörmət bəsləyirlər, doğma şəhərimizdə Sizi qarşılamağa həmişə şaddırlar.

Hava limanının işçisi kimi, mən isə Sizə həm də ona görə çox böyük minnətdarlığımı bildirmək istəyirəm ki, Siz yeni aerovağzal kompleksinin tikintisi haqqında sərəncam vermisiniz. Onun tikintisinə yaxın vaxtlarda başlanacaqdır. Bütün aviatorlarımız adından Sizə təşəkkür edirik. Biz çox şadıq.

**İlham Əliyev:** Çox sağ olun. Doğrudan da, Gəncədə gözəl dəyişikliklər baş verir. Mən məhz şəhərin özünün inkişafına çox böyük diqqət yetirirəm. Çünki Azərbaycanın zəngin tarixinin bir hissəsi bu şəhərlə bağlıdır. O, ölkənin ikinci böyük şəhəridir. Buna görə də ona xüsusi münasibət göstərilməlidir. Mən prezident seçilməzdən əvvəl də, seçildikdən sonra da orada dəfələrlə olmuşam. Biz orada yeni iş yerləri yaradılmasına, infrastrukturun yaxşılaşdırılmasına dair çox böyük proqramlar həyata keçiririk. Bilirsinizmi, biz bu ilin büdcəsini yaxşı iqtisadi göstəricilər hesabına artırmaq məsələsini müzakirə edərkən, mən şəhərdə küçələrə yenidən asfalt döşənməsi üçün xüsusi olaraq vəsait ayırdım.

Mən şəhər icra hakimiyyətinin başçısı Eldar Əzizovla danışdım, soruşdum ki, nə qədər vəsait lazımdır. O nə qədər vəsait lazım olduğunu dedi, mən isə bundan iki dəfə çox vəsait ayırdım. Sonra dedim ki, çatmasa, bir də

xahiş edin. Çünki istəyirəm ki, uzun müddət baxımsız vəziyyətdə olmuş bu çox gözəl, qədim şəhər daha da gözəl olsun. Biz əhalinin böyük əksəriyyətinə qaz verilməsini tamamilə bərpa etdik. İşıq sarıdan həmişə problemlər olmuşdur, indi vəziyyəti yaxşılaşdırırıq. Ümumiyyətlə, abadlaşdırma sahəsində çox böyük işlər görülür.

O ki qaldı hava limanının tikintisinə, bir məsələni dəqiqləşdirmək istərdim – mən razılıq verməmişəm, bu işin təşəbbüsçüsü olmuşam. Bu mənim təşəbbüsüm idi. Əlbəttə, hava limanı həm mənəvi cəhətdən, həm də fiziki cəhətdən köhnəlmişdir. Öz vəzifələrinin öhdəsindən gəlmir, görkəmsizdir. İndi mütəxəssislərimiz yaxşı layihə hazırlamışlar. Mən artıq ona baxmışam. Tikinti elə bu il başlanacaqdır. Gələn ildə də vəsait ayrılacaqdır. Mən tapşırmışam ki, hava limanı gələn ilin axırınadək tamamilə yenidən qurulsun. Təkcə hava limanının binası deyil, ən ağır təyyarələri qəbul etmək mümkün olsun deyə, hər şey, o cümlədən uçuş zolağı da yenidən qurulmalıdır. Hava limanından qərb istiqamətindəki avtomobil magistralınadək olan yol da yenidən çəkiləcəkdir. O da yenidən qurulur. Bakı ilə Gəncə arasında elə yol olacaq ki, o yolla getmək sizə çox xoş təsir bağışlayacaqdır.

Əlbəttə, mən Cavad xanın mavzoleyinin necə ucaldılması ilə, meydanın necə yenidən qurulması ilə ətraflı məşğul olacağam. Çox şadam ki, şəhər rəhbərliyi belə fəal işləyir. Rəhbərlik insanların rifahı üçün hər şey etdikdə, ona kömək göstərmək bizim üçün də asan olur. Amma görəndə ki, nə qədər kömək etsək də, bunun bir nəticəsi olmur və hər şey əbəsdir, onda, əlbəttə, biz ölçü götürürük. Mənə çox xoşdur ki, Gəncənin siması dəyişir. Məndən gəncəlilərə çoxlu salam yetirin.

**N i k o l a y  M i n n i k o v** (*təşkilatın üzvü, İsmayıllı rayonundakı Nikitin adına kolxozun sədri)*: Bu bizim üçün böyük şərəf və fəxrdir. Əlbəttə, biz burada nədən söhbət getdiyi barədə kollektivlərimizdə danışacağıq.

İlham Heydər oğlu, bizim İvanovka kəndi Azərbaycanda rusların yaşadığı ən iri məntəqələrdən biridir. Orada üç mindən çox adam yaşayır. Sizə minnətdarlıq hissi ilə demək istəyirəm ki, bu kənd ancaq mərhum Heydər Əlirza oğlunun sayəsində qalmışdır. Allah ona rəhmət eləsin. Biz onu çox sevirdik. O, kəndimizdə iki dəfə olmuşdu – 1981-ci ildə zəlzələ zamanı və 1982-ci ildə. Heydər Əlirza oğlunun Azərbaycanda sabitliyi bərqərar etməsi sayəsində kəndimizdə də sabitlik yarandı. Cavanlarımız orduda xidmət etməmək üçün müxtəlif yollarla Rusiyaya gedirdilər, hərbi xidmətə getməkdən çox qorxurdular. İndi 140-adək gəncimiz Azərbaycanın Milli Ordusunda xidmət edir. Biz onları təntənə ilə yola salır, təntənə ilə də qarşılayırıq.

Mən burada prezidentimiz İlham Heydər oğlunun ünvanına söylənilmiş bütün səmimi sözlərə qoşuluram. Sizə arzu və xahişimizi də yetirmək istərdim. Hesab edirəm, əgər Sizin köməyinizlə kəndimizi və kollektivimizi saxlaya bilsək, həyatımız da belə gözəl olacaqdır. Adamlarımız, bütün kollektivimiz Sizə çox böyük salam göndərir, xalqın və ölkənin rifahı naminə geniş, çətin fəaliyyətinizdə Sizə uğurlar arzulayırlar. Görüşə və səmimi sözlərə görə sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Şadam ki, sizdə hər şey yaxşıdır. Heydər Əlirza oğlunun kəndinizə və orada yaşayan vətəndaşlara necə münasibət bəslədiyini bilirsiniz. Azərbaycanda torpaq islahatı başlandıqda o, yeganə kolxoz idi ki, xüsusi status aldı. Bu, yenə də ümummilli liderimiz Heydər Əlirza oğlunun müdrikliyidir. Müdriklik də bundadır ki, o hər bir məsələyə fərdi şəkildə yanaşırdı. Bunun özü də bizim üçün böyük məktəbdir. Mənə çox xoşdur ki, sizin bütün işləriniz yaxşı gedir. Bu xüsusi status gələcəkdə də saxlanılacaqdır. Sizə necə münasibdirsə, necə yaxşıdırsa, elə də olacaqdır. Köməyə tam ümid bəsləyə bilərsiniz. Hamıya salam yetirin. İsmayıllı rayonunda olanda, kəndinizə də gələcəyəm.

**Q a l i n a  H a c ı y e v a** (*təşkilatın üzvü, Sabunçu rayon polis şöbəsinin əməkdaşı, şəhid Milli Qəhrəman Əlif Hacıyevin həyat yoldaşı*): Cənab Prezident, bizim ailəmiz beynəlmiləldir, ərim həlak olandan sonra mən burada yaşayıram. Heydər Əlirza oğlu ilə bir neçə dəfə görüşmüşdük. Uşaqlarım süfrə arxasında onun yanında oturmuşdular, onunla necə plov yediklərini və Heydər Əlirza oğlunun onlara necə xörək çəkdiyini indiyədək xatırlayırlar. Allah rəhmət eləsin! Əlbəttə, o, dövlətimizin görkəmli lideri idi.

Heydər Əlirza oğlundan sonra bu yolu Sizin davam etdirməyiniz çox xoşdur. Biz Sizi tamamilə dəstəkləyirik. Hər şeyə görə çox sağ olun. Biz burada azad yaşayırıq. Bura bizim vətənimizdir. Ərim həlak olandan sonra mən uşaqlarla burada qaldım, çünki Azərbaycanı öz vətənim bilirəm. Heç bir ayrı-seçkilik görmürəm. Çox sağ olun.

**M i x a i l  Z a b e l i n:** Bizim gənclər, rus gəncləri Azərbaycan dilini, dövlət dilini, demək olar, bilmirlər. Bu çox böyük mənfi haldır. Biz bu vəziyyəti öz qüvvəmizlə düzəltməyə çalışırıq. Axı Azərbaycanda yaşamaq, ictimai-siyasi fəallıq göstərmək, yaxşı vəzifələrdə işləmək üçün, şübhəsiz, dövlət dilini bilmək lazımdır. Bu çox düzdür. Lakin bununla yanaşı, keçmişin səhvlərini düzəltmək üçün insanları buna istiqamətləndirmək lazımdır. Zənnimcə, təhsil müəssisələrində Azərbaycan dilinin öyrədilməsini gücləndirmək, yaxşılaşdırmaq üçün, eyni zamanda orta, ali məktəbləri çoxdan bitirmiş adamlara dili öyrənməkdə kömək etmək üçün hökumət müəyyən addımlar atmalı, müəyyən tədbirlər görməlidir. Mənə elə gəlir ki, bu çox vacibdir. Hesab edirəm ki, Azərbaycan dilinin öyrədilməsinin texniki bazası çox zəifdir. Lüğətlər, dili müstəqil öyrənməyə kömək edən vəsait, audio-video yazılar, demək olar, yoxdur. İndi biz öz qüvvəmizlə mədəniyyət mərkəzində, rayon təşkilatlarında təlim kursları yaratmağa çalışırıq. Lakin bütün bunlar ictimai əsaslarladır. Görək, bir şey çıxacaqmı. Amma gərək hökumət də bir iş görsün.

**İ l h a m  Ə l i y e v:** Mütləq bunu etmək lazımdır. Azərbaycan dilini müstəqil öyrənmək üçün vəsait hazırlamaq gərəkdir. Bir vaxt rusca-azərbaycanca və azərbaycanca-rusca lüğətlər nəşr olunmuşdu. Lakin onlar artıq köhnəlibdir. Onları təzələmək, kurslar təşkil etmək lazımdır.

**M i x a i l  Z a b e l i n:** İkinci mühüm məsələ, oktyabrın 19-da biz Ümumrusiya Azərbaycan Konqresinin qurultayında iştirak edəcəyik. Rusiyadakı Azərbaycan diasporu ilə gözəl əlaqələrimiz var. Biz onlarla işgüzar əlaqələr saxlayırıq. Lakin düzünü deyəcəyəm, biz onlara həsəd aparırıq, çünki Rusiyada Azərbaycan biznesi inkişaf etmişdir. Bizim respublikada isə rus biznesi qətiyyən inkişaf etməyibdir.

Ölkəmizin iqtisadiyyatında rus biznesmenlər yoxdur. Bu da mənfi haldır, çünki öz işi olan və bu işlə bağlı olan adam heç yana getmək istəmir. Hesab edir ki, bura onun torpağıdır. Ona görə də heç yerə getməyə çalışmır. Biz bu məsələlərlə də məşğul oluruq. İşgüzar adamların «Rus dünyası» assosiasiyasını yaratmışıq. Bu assosiasiya işgüzar əməkdaşlıq palatasına daxil olmuşdur. İndi biz bütün bunları qaydasına salmağa çalışırıq. Sözsüz ki, bizə şəhər icra hakimiyyətinin, İqtisadi İnkişaf Nazirliyinin dəstəyi gərəkdir. Biz onlarla görüşəcəyik. Düşünürəm ki, onlar proqramlarımızın həyata keçirilməsində köməklərini əsirgəməyəcəklər.

**İ l h a m  Ə l i y e v:** Bütün məsələləri həll etməyə çalışacağam ki, Azərbaycanda ruslar üçün daha yaxşı olsun, sakitlik olsun, Rus İcması daha mütəşəkkil olsun. Dövlətimizin gücü də bax, bundadır. Biz ona görə güclüyük ki, birlikdəyik. Xalqların qarşılıqlı mədəni zənginləşməsi prosesi çox mühüm prosesdir. Qapalı şəkildə yaşayan xalqlar, monorespublikalar özlərini qarət edirlər. Onlar özlərinə qapılırlar, bu isə, əslində, onların təklənməsinə, təcrid olmasına gətirib çıxarır. Biz isə tərəqqiyə, yaxşılığa can atmalı, bir-birimizdəki ən yaxşı cəhətləri əxz etməyə çalışmalıyıq. Əsrlər boyu necə dostluq etmişiksə, eləcə də dostluq edəcəyik.

Azərbaycanda Rus İcmasının formalaşması işindəki böyük uğurlar münasibətilə sizi bir daha təbrik edir və arzulamaq istəyirəm ki, qurultayınız yaxşı keçsin. Xahiş edirəm, mənim ən yaxşı arzularımı və xoş niyyətlərimi təşkilatın hər bir üzvünə, Azərbaycanın hər bir rus vətəndaşına yetirəsiniz. Sağ olun.

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!
Əziz dostum, qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və Sizin simanızda bütün Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Biz qardaş Türkiyənin dünyada nüfuzunun gündən-günə artmasına, qazandığı uğurlara ürəkdən sevinirik.

Əminəm ki, xalqlarımız arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq münasibətləri əbədi olaraq yaşayacaq, daim əlaqələrimizin daha da genişlənməsinə, əməkdaşlığımızın inkişafına xidmət edəcəkdir.

Hörmətli cənab Prezident, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyəyə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2004-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz dostum, qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Atatürk yolu ilə inamla irəliləyən Türkiyə Dünya Birliyinin nüfuzlu bir üzvü kimi, beynəlxalq həyatda fəal iştirak edir, ardıcıl şəkildə öz mövqeyini yeridir.

Əminəm ki, xalqlarımızın sarsılmaz dostluğundan və qardaşlığından qaynaqlanan dövlətlərarası münasibətlərimiz, müttəfiqliyimiz qarşılıqlı iradə və səylərimiz sayəsində daim yaşayacaq və möhkəmlənəcəkdir. Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2004-cü il*

**AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HAYNTS FİŞERƏ**

Hörmətli cənab Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Avstriya arasında dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 oktyabr 2004-cü il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAPARMURAD NİYAZOVA**

Hörmətli Saparmurad Atayeviç!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və dost Türkmənistan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycanla Türkmənistan arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətləri xalqlarımızın rifahı naminə, regionda sülh və sabitlik naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, Türkmənistan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 oktyabr 2004-cü il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının milli bayramı – Müstəqil Çexoslovakiyanın yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Çexiya arasındakı mövcud dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2004-cü il*

## AĞSTAFA RAYONUNUN BÖYÜK KƏSİK KƏNDİNDƏ GÜRCÜSTANIN QARDABANİ RAYONU İLƏ SƏRHƏDDƏ HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ƏRAZİLƏRİNDƏN KEÇƏN HİSSƏSİNİN BİRLƏŞDİRİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*16 oktyabr 2004-cü il*

Hörmətli cənab prezident Mixail Saakaşvili, əziz dostum Mixail!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün çox tarixi bir gündür. İnşası uğurla davam edən Bakı–Tbilisi–Ceyhan neft kəməri iki qardaş ölkənin sərhədində birləşir. Bu əlamətdar, tarixi gündə sizin hamınıza öz dərin minnətdarlığımı və salamlarımı çatdırmaq istəyirəm. Bu kəmərin tikintisində iştirak etmiş bütün insanları xüsusilə qeyd etmək istəyirəm. Bəziləri tərəfindən əfsanə kimi təqdim edilən Bakı–Tbilisi–Ceyhan neft kəməri onların əməyi nəticəsində gerçəyə çevrilmişdir.

Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycanda 1994-cü ildən başlanmış Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir. On il bundan əvvəl, «Əsrin müqaviləsi»sinin imzalanmasından sonra Azərbaycanda yeni neft strategiyası həyata keçirilməyə başlandı. Bu müddət ərzində böyük uğurlar qazanıldı, böyük məsələlər öz həllini tapdı. Azərbaycan iqtisadi cəhətdən gücləndi. Ölkəmizin iqtisadiyyatına, sənayesinə milyardlarla dollar sərmayə qoyuldu. Bu çox mühüm bir hadisədir və onu göstərir ki, ölkəmizdə gedən proseslərə, Azərbaycanın gələcəyinə çox böyük inam var. Əgər bu inam olmasaydı, əlbəttə ki, milyardlarla dollar sərmayə qoyulmazdı. Bu müddət ərzində Azərbaycanın neft infrastrukturu, demək olar ki, tamamilə yeniləşdi, yenidən quruldu və indi dünyanın ən yüksək standartlarına cavab verir. Qazma qurğularının tikintisi, digər infrastrukturun yaranması və əlbəttə ki, iki neft kəmərinin – Bakı–Novorossiysk və Bakı–Supsa kəmərlərinin tikintisi neft strategiyasının tərkib hissəsi idi. Əgər 1994-cü ilin sentyabrın 20-də «Əsrin müqaviləsi» imzalanmasaydı, bunların heç biri mümkün olmazdı.

Azərbaycan öz iqtisadi potensialını çox böyük dərəcədə gücləndirə bildi. Bütün bu işləri həll etmək üçün böyük iradə, cəsarət və uzaqgörənlik lazım idi. Mənim dostum Mixail öz çıxışında qeyd etdi ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra çox ağır vəziyyətdə idi. Ölkədə xaos, böhran, hərc-mərclik hökm sürürdü. İqtisadiyyat ildən-ilə tənəzzülə uğrayırdı və demək olar ki, tamamilə dağılmışdı. Yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra vəziyyət dəyişdi, Azərbaycan tədricən böhrandan çıxmağa başladı və təxminən 1996-cı ildən sonra ölkədə bütün sahələrdə inkişaf başlandı. Biz bu gün sizinlə bu inkişafın nəticələrini görürük. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır.

Eyni zamanda bütün bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də bu layihə öz töhfəsini verəcəkdir. Təəssüflər olsun ki, regionda sülh və təhlükəsizlik hələ də tam mənada bərqərar olunmayıbdır. Biz ümid edirik ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri bu baxımdan da bizə kömək edəcəkdir.

Regionda əməkdaşlıq uğurla davam edir, Gürcüstanla Azərbaycan arasında əlaqələr həmişə çox yüksək səviyyədə olmuşdur. Əsrlər boyu xalqlarımız mehriban dostluq və qardaşlıq şəraitində yaşamışlar. Bu gün də belədir. Çox vacibdir ki, aramızda olan ənənəvi dostluq və qardaşlıq münasibətləri xalqlarımız, ölkələrimiz müstəqilliyini əldə etdikdən sonra daha da inkişaf etsin. Bu gün ölkələrimiz çox mühüm bir mərhələdədir. Hər iki ölkədə rəhbərliyə yeni insanlar gəlmişlər. Onların fəaliyyətindən, bir-birinə olan münasibətindən çox şey asılıdır. Çox şadam ki, ilk görüşdən, ilk təmasdan Mixaillə mənim aramda olan münasibətlər əsl mənada qardaşlıq münasibətləridir. Biz həmişə bir-birimizi görməyimizə çox sevinirik, çox şadıq. İştirak etdiyimiz elə bir beynəlxalq tədbir olmayıb ki, biz orada görüşməyək. Xalqlarımızın gələcəyi, müstəqil dövlətlərimizin birgə yaşaması və güclənməsi, dünyada öz mövqelərini möhkəmləndirməsi üçün bizim dostluğumuz vacibdir. Hər bir Azərbaycan, hər bir Gürcüstan vətəndaşının dostluğu vacibdir. Bu məsələdə də ölkə rəhbərləri öz vətəndaşlarına gözəl nümunə göstərir. Əminəm ki, bu hamı üçün örnək olacaqdır, hamımız gündəlik həyatımızda, gündəlik fəaliyyətimizdə çalışacağıq ki, iki ölkə arasında olan münasibətləri daha da gücləndirək, daha yüksək pilləyə qaldıraq.

Bu gözəl gündə qeyd etməliyəm ki, həm Gürcüstanda, həm Azərbaycanda, həm də Türkiyədə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi istiqamətində böyük işlər görülmüşdür. Mən bu gün bu kürsüdən bizim türkiyəli qardaşlarımızı da təbrik etmək, onların fəaliyyətini də yüksək qiymətləndirmək istəyirəm. Bu layihə, ümumiyyətlə, bütün dünyaya sübut edir ki, regional əməkdaşlıq hansı formada həyata keçirilməlidir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər enerji layihələri dünyanın ən böyük layihələridir. Əlbəttə, bizim bütün

uğurlarımız gələcək əməkdaşlıq prosesinə müsbət təsir edəcəkdir. Regional əməkdaşlıq daha da güclənəcək, yeni formalarla zənginləşəcəkdir. Əminəm ki, bizim uğurumuz başqa regional məsələlərə də öz gözəl təsirini göstərəcəkdir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində bilavasitə iştirak etmiş, əməyini qoymuş şirkətləri, insanları, dostlarımızı salamlayıram və onları təbrik edirəm, öz minnətdarlığımı bildirirəm. Bakı–Tbilisi–Ceyhan Ko şirkəti və bu şirkətdə aparıcı rol oynayan *bp* şirkəti Azərbaycanın çox gözəl tərəfdaşlarıdır. 10 ildən artıqdır ki, *bp* ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında çox gözəl əməkdaşlıq var, biz əsl mənada tərəfdaşıq. Biz çox minnətdarıq ki, *bp* Azərbaycana böyük həcmdə sərmayə qoyubdur, ölkəmizdə müxtəlif layihələrdə aparıcı rol oynayır və əminəm ki, bundan sonra əməkdaşlığımız daha da güclənəcəkdir. Gələcəkdə bizi böyük işlər gözləyir. Kəmərlər tikiləndən və istismara veriləndən sonra onların normal fəaliyyəti və təhlükəsiz istismarı bizim hamımızın diqqət mərkəzində olacaqdır.

Bu illər ərzində Azərbaycan Dövlət Neft Şirkəti çox böyük işlər görübdür. Şirkətdə çalışan mütəxəssislərin, fəhlələrin, danışıqları aparan şəxslərin hamısının bu işlərdə böyük əməyi vardır. Azərbaycan Dövlət Neft Şirkəti də bu son 10 il ərzində daha yüksək nəticələr əldə edib, daha da müasirləşibdir və əlbəttə ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində bu şirkətin böyük, 25 faizə bərabər payının olması bizim üzərimizə əlavə məsuliyyət qoyur.

Bütün digər şirkətlərin, Azərbaycan tərəfindən inşaatı aparan SSİS və Gürcüstan tərəfindən inşaatı aparan «Kapak–Petrofak» şirkətlərinin də fəaliyyətini yüksək qiymətləndirirəm. Əgər bu məsələdə bizim dostumuz Amerika Birləşmiş Ştatlarının iştirakı və fəaliyyəti olmasaydı, əlbəttə ki, bütün bunları həyata keçirmək çox çətin olardı. Biz bu dəstəyi ilk anlardan hiss etmişik, bu gün də hiss edirik. Bu məsələlərlə 10 ilə yaxın məşğul olan bir adam kimi tam səmimiyyətlə deyə bilərəm ki, əgər Amerika hökumətinin bu məsələ ilə əlaqədar qətiyyətli mövqeyi nümayiş etdirilməsəydi, bizim işlərimiz daha çətin ola bilərdi. Fürsətdən istifadə edərək, bu tədbirdə bizimlə bərabər olan və məxsusi buraya gəlmiş dostumuz, səfir Stiven Mənni salamlayıram və onun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm.

Sadaladığım bütün məsələlər bizə bu nəhəng layihəni həyata keçirməyə imkan veribdir. Burada Azərbaycanda və Gürcüstanda görülən işlər, bizim neft şirkətlərimiz və tərəfdaşlarımız, Amerika Birləşmiş Ştatlarının fəaliyyəti və bu işlərə töhfəsi mühüm rol oynamışdır. Beynəlxalq maliyyə qurumlarının yardımı olmasaydı, biz bu qədər vəsaiti toplaya bilməzdik. Bütün bu amillər bir daha göstərir ki, beynəlxalq və regional əməkdaşlıq olan yerdə uğurlar da, nəticələr də olur.

Mən çox şadam və sevinirəm ki, biz bu əlamətdar günü qeyd edirik. Bilirsiniz ki, bu məsələlərdə, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna rolu var idi. Təsadüfi deyildir ki, bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri Heydər Əliyevin adını daşıyır. Ceyhanda tikilən nəhəng terminal Heydər Əliyevin adını daşıyır. Bunların hamısı təbiidir. Ona görə ki, Heydər Əliyevin fəaliyyəti, rəhbərliyi, uzaqgörənliyi, cəsarəti nəticəsində bütün bu məsələlər öz həllini tapmışdır.

Mən 1994-1995-ci illəri də yaxşı xatırlayıram. O zaman bəziləri buna inanmırdı, bəziləri bizə maneçilik törətmək istəyirdi. Amma heç kim buna müvəffəq ola bilmədi. Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının iradəsi, əzmkarlığı, birliyi bizə imkan verdi ki, biz bu gün burada bu gözəl bayramı qeyd edə bilək. Bu əlamətdar hadisə bir daha göstərir ki, bizim qarşımızda heç bir maneə, heç bir əngəl ola bilməz və heç kim bizi tutduğumuz yoldan döndərə bilməz.

Əziz dostlar!

Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Bu gözəl hadisə münasibətilə hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla, vaxtında istismara verilsin, biz də bunu qeyd edək. Bakı–Tbilisi–Ərzurum qaz kəmərini də oxşar tale gözləsin və ölkələrimiz bir-birinə daha da yaxın olsun. Bu bizim arzumuzdur, istəyimizdir və buna nail olacağıq. Çünki bu, Gürcüstan və Azərbaycan rəhbərliyinin, insanlarının, vətəndaşlarının arzusudur.

Bir daha sizin hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, belə bayramlar çox olsun və biz həmişə görüşəndə bir-birimizi təbrik edək, sevinək, elə edək ki, xalqlarımız həmişə yaxşı, firavanlıq içində yaşasın və xoşbəxt olsunlar.

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev oktyabrın 16-da Ağstafa rayonunun Böyük Kəsik kəndində Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsinə həsr olunmuş mərasimdə iştirak edən ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə müşaviri, səfir Stiven Mənni qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev «Əsrin müqaviləsi»ndə iştirak edən bütün tərəflər üçün əlamətdar hadisənin baş verdiyini bildirdi, Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsində Birləşmiş Ştatların daimi dəstəyini yüksək qiymətləndirdi.*

*Bu dəstəyə görə Amerika hökumətinə təşəkkür edən, kəmərin istifadəyə verilməsinin region ölkələrinin iqtisadi tərəqqisində mühüm rol oynayacağını nəzərə çatdıran Azərbaycan prezidenti İlham Əliyev Cənubi Qafqaz boru kəmərinin Azərbaycan hissəsində tikinti işlərinə başlandığını da xatırlatdı və ABŞ-ın yaxından dəstəyi ilə onun da uğurla başa çatdırılacağına əmin olduğunu bildirdi.*

*Cənab Stiven Mənn bu əlamətdar hadisələr münasibətilə prezident İlham Əliyevi və xalqımızı təbrik edərək dedi ki, Birləşmiş Ştatlar Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi ilə bağlı irimiqyaslı layihələrin həyata keçirilməsi sahəsində Azərbaycanla əməkdaşlıqdan məmnundur və bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəkdir.*

*Söhbət zamanı bütün bu uğurların Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörən neft strategiyasının bəhrəsi olduğu xüsusi vurğulandı, bu sahədə hər iki ölkəni maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Ümumrusiya Azərbaycan Konqresinin II qurultayında iştirak etmək üçün oktyabrın 18-də Moskvaya yola düşmüşdür.*

*«Vnukovo-2» hava limanında dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı Rusiya Federasiyası Xarici İşlər nazirinin birinci müavini Valeri Loşşinin, Azərbaycan Respublikasının Rusiyadakı səfiri Ramiz Rizayev, səfirliyin əməkdaşları və digər rəsmi şəxslər, habelə Moskvadakı Azərbaycan diasporunun numayəndələri böyük ehtiramla və səmimiyyətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## RUSİYA FEDERASİYASI XİN-in MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN (UNİVERSİTETİNİN) 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*18 oktyabr 2004-cü il*

«Rossiya» dövlət mərkəzi kino-konsert salonunda keçirilən mərasimə Rusiya Federasiyasının dövlət və hökumət nümayəndələri, müxtəlif ölkələrdən dəvət olunmuş qonaqlar gəlmişlər.

Görüşü MDBMİ (U)-nun rektoru Anatoli Torkunov və Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov açdılar. S.Lavrov Rusiya Federasiyasının prezidenti Vladimir Putinin təbrik məktubunu oxudu. Xarici İşlər naziri təntənəli mərasimdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi xüsusi salamladı.

MDBMİ (U)-nun rektoru Anatoli Torkunov mərasim iştirakçılarına Rusiyanın ən nüfuzlu ali məktəblərindən birinin tarixi və bu günü haqqında ətraflı məlumat verdi.

Azərbaycan prezidenti İlham Əliyev mərasimdə təbrik nitqi söylədi.

Əziz müəllimlər və tələbələr!

Əziz dostlar!

Sizin hamınızı – MDBMİ-nin müəllimlərini və tələbələrini şanlı yubiley münasibətilə təbrik edirəm. Mən bu gün burada sizinlə birlikdə olmaq barədə dəvəti böyük məmnunluqla qəbul etdim. Moskvaya bu gün gəldim və elə bu gün də sizinlə birlikdəyəm.

İnstitutda təhsil illəri hər bir kəs üçün yəqin ki, ömrün ən yaxşı illərindəndir. Bu, gənclik illəridir, yetkinləşmə illəridir. Bizim dövrümüzdə – mən bunu da mühüm hesab edirəm – institutumuzda dostluq, qarşılıqlı yardım və qarşılıqlı anlaşma mühiti hökm sürürdü. Müəllimlərlə tələbələr arasında münasibətlər çox böyük hörmət əsasında qurulurdu. Çox yüksək tələbkarlıq vardı və bu tələbkarlığı biz hamımız öz üzərimizdə hiss edirdik, xüsusən də təhsilin ilk illərində. Bununla yanaşı, xoş münasibət, həssas münasibət vardı. Müəllimlərimizin bizə təkcə öz biliklərini deyil, həm də diplomat kimi praktiki işdə qazandıqları təcrübəni də öyrətmək arzusu vardı. Təhsillə diplomat olmağı öyrənmək kifayət qədər çətindir. Bu elə bir peşədir ki, sən onu özünün sonrakı həyatında, karyeranda hiss etməlisən. Amma, əlbəttə ki, müəllimlərimizin bizə öyrətdikləri çox böyük bünövrə idi. Ona görə də bu imkandan istifadə edərək, ilk növbədə, institutumuzda mənə təhsil verənlərin hamısına dərin təşəkkürümü bildirmək və indi çox gərəyim olan bilikləri mənə öyrətdiklərinə görə onlara təşəkkür etmək istərdim. İnstitutumuzda müxtəlif ölkələrdən, o cümlədən SSRİ-nin bütün müttəfiq respublikalarından olan uşaqlar oxuyurdular. MDBMİ-nin məzunları bu gün Azərbaycanda bir çox məsul vəzifələrdə işləyirlər. İndiki halda mən özüm buna canlı nümunəyəm.

Bu ilin fevralında mən Moskvada olarkən böyük məmnuniyyətlə institutumuza gəldim, köhnə dostlarımla görüşdüm, dedim ki, belə görüşlərimiz hələ çox olacaqdır. Mən bu imkandan istifadə edərək, Azərbaycana dəvətimi bir daha təsdiqləmək istəyirəm.

Azərbaycan Rusiya üçün dost ölkədir. Ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir və keyfiyyətcə tamamilə yeni səviyyəyə qalxmışdır. İndi bu münasibətlər ikitərəfli əsasda aktiv qarşılıqlı fəailyyət göstərən, istər regional məsələlərə, istərsə də dünya siyasəti məsələlərinə baxışları, əsasən, uyğun gələn tərəfdaşlar, dost ölkələr arasında olan münasibətlərdir. Mən bu münasibətlərin inkişaf etməsindən çox məmnunam. Bu münasibətlər ölkələrimizin rifahı naminə, xalqlarımızın rifahı naminə inkişaf edir. Rusiyanın və Azərbaycanın, əvvəllərdəki kimi, həmişə dost, tərəfdaş olması, beynəlxalq aləmdə daim aktiv qarşılıqlı fəaliyyət göstərməsi üçün mən öz tərəfimdən bundan sonra da var qüvvə ilə səy göstərəcəyəm.

Bu gün onu da demək mənə xoşdur ki, müxtəlif beynəlxalq tədbirlərdə keçirilmiş çoxsaylı görüşlərdə institutun bugünkü həyatı haqqında çox müsbət, tərifli rəyləri tez-tez eşitmişəm. Bu gün MDBMİ ümumdünya təhsil və elmi-tədqiqat mərkəzidir və bu, ikiqat xoşdur. Bu, ömrünün 10 ildən çoxu bu institutla bağlı olmuş insan kimi, mənə ikiqat xoşdur. İnstituta bu şan-şöhrəti gələcəkdə də yüksək tutmağı arzulamaq istəyirəm. Gələcəkdə də beynəlxalq aləmdə tanınmış mərkəz olaraq qalmağı arzulamaq istəyirəm. Elə bir mərkəz ki, burada müxtəlif ölkələrin nümayəndələri təhsil alırlar, müxtəlif dövlətlərdən olan tələbələr mehriban ailə şəraitində oxuyur və aralarındakı əlaqələri sonralar heç vaxt itirmirlər. Şəxsən mənim həyatımda, eləcə də bir çox həmkurs dostlarımın həyatında məhz belədir. Bəzən öz həmkurslarınla, dostunla haradasa təsadüfən görüşürsən və buna sevinirsən. Məzunlarımız harada – diplomatiya sahəsində, siyasətdə, biznesdə işləmələrindən asılı olmayaraq, uğurlar qazanırlar. Mən MDBMİ-nin gələcək bütün tələbələrinə, instituta yeni nailiyyətlər, yeni uğurlar arzulayıram, arzu edirəm ki, biz məzunlar fərəhli günlərdə də, bayram günlərində də həmişə birlikdə olaq.

Yubiley münasibətilə Sizi bir daha təbrik edirəm.

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNLƏ GÖRÜŞÜ**

*Moskva, Kreml*

*19 oktyabr 2004-cü il*

Dövlətimizin başçısını mehribanlıqla və səmimiyyətlə salamlayan prezident Vladimir Putin onun Moskvaya işgüzar səfərindən çox məmnun olduğunu qeyd edərək, Azərbaycan prezidenti ilə ikitərəfli problemlərin müzakirəsi üçün daha bir imkan yarandığını bildirdi və görüşün tam qarşılıqlı anlaşma şəraitində keçəcəyinə əminliyini vurğuladı.

Rusiya prezidentini yenidən görməyindən məmnunluğunu söyləyən prezident İlham Əliyev dedi ki, bu onun prezident seçildikdən sonra Moskvaya üçüncü səfəridir və bu səfərlər ikitərəfli əlaqələrin imkişafında mühüm rol oynayır.

Azərbaycanla Rusiya arasında mal dövriyyəsinin dinamik şəkildə artmasından razılığını bildirən prezident İlham Əliyev, eyni zamanda ikitərəfli siyasi dialoqun da yüksək səviyyədə olduğunu vurğuladı və dedi ki, bütün bunlar xalqlarımızın mənafeyi naminə əlaqələri inkişaf etdirmək üçün geniş imkanların mövcudluğunu sübut edir.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiya öz səylərini artıracaqdır.

Prezident Vladimir Putin Azərbaycan dövlətinin başçısına müraciətlə dedi: «Mən çox şadam ki, Sizin Moskvaya səfərinizin şəxsi aspekti var. Mənə məlumat verdilər ki, Sizi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun 60 illiyinə həsr olunmuş mərasimdə çox böyük hərarətlə qarşılayıblar. Siz artıq özünüzü moskvalı kimi hiss edirsiniz».

Dövlətimizin başçısı ömrünün 10 ilinin həmin institutla bağlı olduğunu və burada çoxlu dostlar qazandığını xatırlatdı.

Görüşdə prezident İlham Əliyevin 2004-cü ilin fevralında Rusiyaya səfəri zamanı əldə olunmuş razılaşmaların həyata keçirilməsi, mal dövriyyəsinin iki dəfə artırılması barədə qarşıya qoyulmuş vəzifənin icrası, terrorizmə qarşı mübarizə sahəsində Rusiya və Azərbaycanın birgə fəaliyyətinin gücləndirilməsi perspektivləri də müzakirə olundu. Tərəflər beynəlxalq terrorizmə qarşı mübarizədə bütün dünya ictimaiyyətinin səylərinin artırılmasının zəruriliyini bildirdilər.

Dövlət başçıları habelə Qafqaz regionunda vəziyyətlə əlaqədar fikir mübadiləsi apardılar. Rusiya prezidenti Vladimir Putin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində prezidentlər səviyyəsində keçirilən görüşlərin davam etdirilməsini alqışlayaraq söylədi ki, Rusiya bu münaqişənin məqbul həlli yollarının tapılması üçün tərəflərə fəal yardım etməyə hazırdır.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN II QURULTAYINDA

*Moskva*
*İttifaqlar Evinin sütunlu salonu*

*19 oktyabr 2004-cü il*

*Qurultay nümayəndələri və qonaqlar əvvəlcə foyedəki stendlərlə tanış oldular. Azərbaycanla Rusiya arasında tarixi dostluq münasibətlərini əks etdirən fotoşəkillər buraya gələnlərdə böyük maraq doğururdu. Soydaşlarımızın, Rusiya ictimaiyyəti nümayəndələrinin səmimi, işgüzar söhbətləri, yaxşı əhval-ruhiyyə xoş münasibətlərin heç də ötəri xarakter daşımadığını, xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin hər iki ölkə üçün vacibliyini bir daha nümayiş etdirirdi. Bu münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsində Rusiyada yaşayan, bu ölkənin ictimai-siyasi və iqtisadi həyatında öz yeri olan soydaşlarımızın, xüsusilə ümummilli liderimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü və qayğısı sayəsində yaradılmış Ümumrusiya Azərbaycan Konqresinin də mühüm rolu vardır. ÜAK yarandığı vaxtdan bəri böyük inkişaf yolu keçmiş və hazırda Rusiyanın nüfuzlu ictimai təşkilatlarından birinə çevrilmişdir.*

*ÜAK-ın II qurultayında Rusiya Federasiyasının bütün regionlarından soydaşlarımız, digər MDB ölkələrindəki Azərbaycan diasporlarının təmsilçiləri, Moskva şəhərinin meri Yuri Lujkov və başqa rəsmi şəxslər iştirak edirdilər. Salona toplaşanlar Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi və Rusiya Federasiyasının prezidenti Vladimir Putini hərarətli alqışlarla qarşıladılar.*

*Rusiya və Azərbaycan prezidentləri qurultayda nitq söylədilər.*

### Rusiya prezidenti Vladimir Putinin nitqi

Hörmətli İlham Heydər oğlu!
Əziz dostlar!
Hörmətli xanımlar və cənablar!

Sizin forumun qonağı olmaq dəvətinə görə Ümumrusiya Azərbaycan Konqresinin rəhbərliyinə təşəkkür edir, onun həm rusiyalı iştirakçılarını, həm də bizə dost olan Azərbaycandan Moskvaya gəlmiş bütün qonaqlarını salamlayıram.

Mən bəri başdan iki məqamı vurğulamaq istərdim. İlk növbədə, Rusiyada biz Azərbaycan icmasını dövlətlərimiz arasında münasibətlərin möhkəmlənməsinin mühüm amili hesab edirik, onun təşəbbüsləri həm siyasi əməkdaşlığımızın, həm də işgüzar əməkdaşlığımızın xeyrinədir. İkincisi, biz hamımız bilirik ki, – mən burada yüksək üslubda danışmaq istərdim – konqres Azərbaycan xalqının görkəmli oğlu və ölkəmizin, Rusiyanın səmimi, həqiqətən səmimi dostu Heydər Əlirza oğlu Əliyev tərəfindən yaradılmışdır. Bizim hamımızın sevdiyi və hörmət etdiyi insanın oğlunun – Azərbaycan prezidentinin burada olmasının nəinki ciddi rəmzi mənası var, həm də xalqlarımız arasında münasibətlərin varisliyinə, ən səmimi dostluğa və tərəfdaşlığa sübutdur.

Əziz dostlar, yüzilliklər ərzində Rusiya və Azərbaycan xalqlarının, mübaliğəsiz, ümumi tarixi taleyi olmuşdur. Biz, necə deyərlər, bir ailədə birlikdə işləmiş və yaşamışıq, çətin anlarda bir-birimizi daim dəstəkləmişik. Gələn il ümumi böyük bayramımızı – Böyük Vətən müharibəsində qələbənin 60 illiyini də birlikdə qeyd edəcəyik. Azərbaycan xalqının Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuş yarım milyondan çox oğul və qızının hünərləri haqqında xatirə Rusiyada daim yaşayacaqdır. Biz qələbə üçün neft mədənlərindən strateji yanacaq göndərmiş, ordunu silah, döyüş sursatı, ərzaq ilə təchiz etmiş arxa cəbhə işçilərinin fədakar əməyindən də yaxşı xəbərdarıq. Müharibədən sonrakı illərdə Bakı neftçiləri Sibirin yataqlarının işlənilməsinə kömək etmiş, ölkənin güclü yanacaq-energetika kompleksinin əsaslarını qoymuşlar. On minlərlə rusiyalı mütəxəssis isə Azərbaycanın istehsal, aqrar potensialını möhkəmləndirmiş, yeni ali məktəblər və elmi mərkəzlər yaradılmasına kömək etmişlər.

Rusiyada ürəkdən istəyirlər ki, Azərbaycan sabit, təhlükəsiz, iqtisadi cəhətdən güclü dövlət olsun. Yalnız iqtisadi cəhətdən müstəqil ölkələr nüfuzlu, Rusiya üçün çox vacib olan müstəqil və deməli, xalqlar arasında mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq siyasəti formalaşdıra və həyata keçirə bilərlər. Rusiya da məhz belə ölkələrlə qonşu olmaq istəyir, Rusiya Azərbaycanın məhz belə olmasını istəyir. Əminəm ki, biz böyük zəhmət və qan bahasına əldə edilmiş mehriban qonşuluq və əməkdaşlıq kimi çox dəyərli nailiyyətimizi qoruyub saxlamalı və inkişaf etdirməliyik, xalqlarımızın nümayəndələri üçün hər cür şərait yaratmalıyıq, əlimizdən gələni et-

məliyik ki, Azərbaycanda yaşayan ruslar və Rusiyada yaşayan azərbaycanlılar özlərini rahat hiss etsinlər. Bütün bunlar xalqlarımızın həm indiki firavanlığının, həm də gələcək tərəqqisinin çox mühüm amilləridir.

Sizin konqres Azərbaycan diasporunun tanınmış və nüfuzlu təşkilatıdır. Siz mədəni-maarifçilik fəaliyyəti ilə məşğul olursunuz, sosial uyğunlaşma proqramlarına kömək edirsiniz, bir çox başqa istiqamətlərdə çalışırsınız. Biz də Rusiya cəmiyyəti həyatının bütün sahələrinə Azərbaycan diasporunun töhfəsini yüksək qiymətləndiririk. Bir məsələni də qeyd etmək istəyirəm. Ən böyük və bayaq dediyim kimi, təşəbbüskar diasporlardan biri olan Azərbaycan diasporunun həyat və fəaliyyəti ilə bağlı məsələlər həmişə ikitərəfli siyasi dialoqun diqqət mərkəzindədir. Bununla əlaqədar bu iki dövlətdə vətəndaşların təhsil alması, işləməsi və əlbəttə ki, zəngin milli ənənələrin qarşılıqlı surətdə inkişafı, doğma dilin, doğma mədəniyyətin öyrənilməsi üçün geniş, bərabərhüquqlu imkanlar yaradılmasını mühüm strateji vəzifə hesab edirəm. Bunun üçün isə, ilk növbədə, biz birlikdə miqrasiya və əmək münasibətlərinin müasir hüquqi bazasını formalaşdırmalıyıq. Etnik münasibətlər məsələsinin həllinə diasporun nümayəndələrini cəlb etmək də bu gün mühüm vəzifələrdən biridir. Təkcə dövlət orqanları deyil, cəmiyyət də əcnəbilərə nifrətin və dini dözümsüzlüyün hər cür təzahürlərinə dərhal öz münasibətini bildirməli, məişət səviyyəsində millətçiliyin hələ də rast gəlinən təzahürləri ilə qətiyyətlə mübarizə aparmalıdırlar.

Rusiyada da, Azərbaycanda da xalqların qarşılıqlı hörmət, millətlərarası və konfessiyalararası həmrəylik ənənələrini qoruyub saxlayırlar. Sizin konqres də digər ictimai, dini, maarifçilik təşkilatları ilə bir yerdə bu işə öz ciddi töhfəsini verə bilər.

Bir daha qeyd edirəm ki, bu işin səmərəliliyi konqresin ölkəmizin həm vətəndaş cəmiyyəti təsisatları ilə, həm də dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətindən çox asılıdır.

İqtisadi əməkdaşlığımız haqqında da bir neçə söz demək istərdim.

İndi əlaqələr – Rusiya və Azərbaycan müəssisələri arasında əvvəlki əlaqələr fəal surətdə bərpa edilir və yeni kooperasiya əlaqələri meydana gəlir. Sərmayələrin həcmi artır, regionların xətti ilə birbaşa əlaqələr genişlənir. 2003-cü ildə qarşılıqlı əmtəə dövriyyəsi təxminən 40 faiz artaraq yarım milyard dollardan çox olmuşdur. Lakin hər iki ölkənin hökumətləri bu müsbət meyli nəinki möhkəmlətməli, həm də mütləq irəliləməlidirlər. Onlar Rusiyanın və Azərbaycanın işgüzar mənafelərinin üçüncü ölkələrin bazarlarında irəliləməsinə qarşılıqlı köməyin yolları barədə düşünməlidirlər.

Nəhayət, bizim münasibətlərimizdə mədəni və humanitar əməkdaşlıq xüsusi yer tutmalıdır. Mədəniyyət günlərinin, teatrların və musiqi kollektivlərinin qastrollarının keçirilməsi, digər yaradıcılıq layihələri iki xalqın bir-birinin həyatı barədə biliklərini zənginləşdirir. Zənnimcə, siz bununla razılaşarsınız ki, bu, indi – müstəqil dövlətlər kimi inkişaf etdiyimiz bir dövrdə xüsusilə vacibdir. Əlbəttə ki, elmi əlaqələrin, gənclər, təhsil mübadilələrinin, birgə idman yarışları keçirilməsinin olduqca böyük əhəmiyyəti var. Bütün bunlar siyasi dialoq üçün, tərəfdaşlığımızı möhkəmlətmək üçün ciddi bazadır. Bütün bunlar dövlətlərarası münasibətlərin inkişafı üçün əlverişli mühit yaradır.

Əminəm ki, sizin konqres, ümumən, Azərbaycan diasporu iqtisadi, işgüzar əməkdaşlığımızın səmərəliliyini nəzərəçarpacaq dərəcədə yüksəltməyə, humanitar əlaqələrin inkişafına, dövlətlərimiz arasında münasibətlərdə etimad ruhunun möhkəmlənməsinə ciddi təsir göstərməyə qadirdir.

Hörmətli dostlar, biz başqa bir məsələni də unutmamalıyıq. Tərəfdaşlığımızın səmərəliliyi Müstəqil Dövlətlər Birliyində müsbət proseslərin gedişinə birbaşa təsir göstərir. Ölçülüb-biçilmiş xarici siyasət xətti, bir çox məsələlərdə vahid mövqelər beynəlxalq aləmdə işimizin səmərəsini yüksəldir, dünyada Rusiyanın da, Azərbaycanın da nüfuzunu, onların əhəmiyyəti və rolunu yüksəldir. Bundan başqa, biz beynəlxalq terrorizmlə mübarizədə səngərin bir tərəfindəyik. Bu bəla vətəndaşlarımız üçün, bütün Avrasiya məkanı üçün real təhlükə törədir. Ölkələrimizdə bu təhlükənin nə demək olduğunu yaxşı bilirlər. Odur ki, ümumi vəzifəmiz həqiqi antiterror tərəfdaşlığını gücləndirməkdən, terrorçular və onların əlaltıları üçün əlverişli mühit olan millətçiliyin və ekstremizmin hər cür təzahürlərinin qarşısını qətiyyətlə almaqdan ibarətdir.

Daha bir vəzifəni xüsusi qeyd etmək istərdim. Rusiya və Azərbaycan Qafqazda ziddiyyətlərin mürəkkəb və qarışıq düyününü açmaqda sıx əməkdaşlıq edirlər. Bizim ölkəmiz bu bərəkətli diyarın sülh və sabitlik şəraitində inkişafında olduqca maraqlıdır. Bu strateji məqsədə nail olmaq üçün biz sülhyaratma danışıqları sahəsində aktiv fəaliyyətimizi davam etdirmək, onu sizinlə və MDB üzrə digər tərəfdaşlarımızla birlikdə davam etdirmək niyyətindəyik.

Bugünkü Rusiyada M.Maqomayevin, İbrahimbəyovlar kimi yazıçıların və teatr xadimlərinin, rəssam T.Salahovun yaradıcılığını yüksək qiymətləndirir və sevirlər. Biz F.Salmanov, Məmməd Əliyev kimi alimlərin elmə verdikləri ciddi töhfələri bilirik. Bu adamların adları və nailiyyətləri, mübaliğəsiz demək olar ki, həm Rusiyanın, həm də Azərbaycanın, rus və Azərbaycan xalqlarının fəxridir. Əminəm ki, ölkəmizin digər vətəndaşları kimi, Rusiyada yaşayan azərbaycanlılar da Rusiyanın möhkəmlənməsinə, onun beynəlxalq nüfuzunun və statusunun yüksəlməsinə bundan sonra da kömək edəcəklər.

Mən sizin qurultayınıza səmərəli iş və uğurlar, bütünlükdə Azərbaycan Konqresinə dövlətlərimizin rifahı naminə, Azərbaycanın və bütün Azərbaycan xalqının tərəqqisi naminə yeni təşəbbüslər arzulayıram.

Çox sağ olun!

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Vladimir Vladimiroviç!

Əziz dostlar!

Bu gün Ümumrusiya Azərbaycan Konqresinin ikinci qurultayının işində iştirak etməyimə çox şadam. Mən həmçinin çox şadam ki, Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putin bu qurultayın işində iştirak edir. Əminəm ki, qurultayın keçirilməsi, habelə Rusiya və Azərbaycan rəhbərliyinin ikitərəfli əlaqələrə, Rusiyadakı azərbaycanlıların və Azərbaycandakı rusların həyat və fəaliyyətinə diqqət yetirməsi dövlətlərimiz arasında dostluq, mehriban qonşuluq əlaqələrinin bundan sonra da möhkəmlənməsinə təkan verəcəkdir.

Konqresin yaradılmasının özü əlamətdar hadisə olmuşdur. Hamımızın bildiyi kimi, azərbaycanlılar Rusiyanın müxtəlif regionlarında çoxdan yaşayırlar. Əlbəttə ki, təşkilatın strukturca formalaşması, regional qurumların əksəriyyətini öz ətrafında sıx birləşdirən güclü təşkilat yaradılması azərbaycanlıların birləşməsi işində, onların Rusiyada gedən ictimai proseslərə daha fəal cəlb edilməsi işində çox mühüm amil olmuşdur. Ümumrusiya Azərbaycan Konqresinin yaradılması ümummilli liderimiz Heydər Əliyevin xaricdə yaşayan azərbaycanlıların müvafiq qurumlarının formalaşdırılması sahəsində məqsədyönlü siyasətinin bir mərhələsi idi. Bildiyiniz kimi, Heydər Əliyevin qərarı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, habelə dünya azərbaycanlılarının birinci qurultayı keçirilmişdir. Mən çox şadam ki, Ümumrusiya Azərbaycan Konqresi qısa müddətdə çox güclü, nüfuzlu struktura – bütün regional təşkilatları öz ətrafında birləşdirə bilmiş və istər Rusiyada yaşayan azərbaycanlıların hüquqlarının qorunması məcrasında, istərsə də ikitərəfli əlaqələrimizin genişlənməsi və möhkəmlənməsi məcrasında fəal işləyən struktura çevrilmişdir. Konqres bu istiqamətdə çox mühüm rol oynayır.

Böyük məmnunluqla demək istəyirəm ki, son illər məhz Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putinin və Azərbaycan prezidenti Heydər Əlirza oğlu Əliyevin səyləri sayəsində dövlətlərimiz arasında münasibətlər tamamilə yeni səviyyəyə qalxmışdır. İnamla demək olar ki, ölkələrimiz arasındakı müasir mehriban qonşuluq münasibətlərinin bünövrəsini məhz onlar qoymuşlar.

Bizim hamımız Rusiya prezidentinin Azərbaycana ilk rəsmi səfərini yaxşı xatırlayırıq. Bu səfər böyük uğurla keçdi və ondan sonra qarşılıqlı surətdə faydalı əməkdaşlığın tamamilə yeni perspektivləri açıldı. Biz bir daha əmin olduq ki, Rusiya və Azərbaycan əməkdaşlığın bütün sahələrində çox böyük potensiala malikdirlər. Məhz Vladimir Vladimiroviçin Azərbaycana səfərindən sonra bizim iqtisadi münasibətlərimizdə yeni mərhələ başlandı. Əmtəə dövriyyəsinin inkişafı buna çox yaxşı əyani sübutdur. Rusiyanın da, Azərbaycanın da iqtisadi potensiallarının çox böyük sürətlə inkişaf etdiyini nəzərə alsaq, deyə bilərik ki, ölkələrimiz iqtisadi dirçəliş və iqtisadi qüdrətin möhkəmlənməsi mərhələsini yaşayırlar və əlbəttə, dövlətlərimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığı üçün yeni perspektivlər açılır.

Ölkələrimizin iqtisadiyyatı həmişə bir-biri ilə sıx bağlı olmuşdur. Bu gün də Rusiya bazarı Azərbaycan malları üçün və Azərbaycan bazarı Rusiya malları üçün, əlbəttə ki, öncül istiqamətlərdir. Mən çox şadam ki, iqtisadi əlaqələrimiz elə bir səviyyəyə gəlib çatmışdır ki, bu, bizə əmtəə dövriyyəmizi ikiqat artırmağa imkan verəcəkdir. Bu ilin ilk aylarının nəticələri sübut edir ki, biz bu istiqamətdə çox sürətlə irəliləyirik.

Siyasi əlaqələrin səviyyəsi bu gün ölkələrimizin qarşılıqlı mənafelərinə tam cavab verir. Rusiya ilə Azərbaycan arasında həll olunmamış heç bir problem yoxdur. Vaxtilə mövcud olan problemlərin hamısı artıq arxada qalmışdır və mən bu məsələdə prezident Vladimir Putinin böyük rolunu xüsusi qeyd etməliyəm. Rusiya ilə Azərbaycan arasında münasibətlər hər iki dövlət müstəqillik qazandıqdan sonra da var idi, lakin məhz Vladimir Vladimiroviç hakimiyyətə gəldikdən sonra bu münasibətlər daha fəal surətdə inkişaf etməyə başlamışdır. Siyasi planda lap çoxdankı, yığılıb qalmış siyasi dialoqun normal inkişafına mane olan problemlər həll olunmuşdur. Bu gün bir daha böyük sevinclə təkrar etmək istəyirəm ki, ölkələrimiz arasında həll olunmamış heç bir problem yoxdur. Siyasi dialoqun, ünsiyyətin çox yüksək səviyyəsi mövcuddur. Siz bilirsiniz ki, bütün səviyyələrdə, o cümlədən prezidentlər səviyyəsində çox fəal ünsiyyətlər vardır, Azərbaycanda prezident seçkilərindən sonra bu mənim Rusiyaya üçüncü səfərimdir. Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti səviyyəsində, mədəni, elmi səviyyələrdə də çox fəal əlaqələr yaranmaqdadır. Bütün bunların hamısı Azərbaycanın da, Rusiyanın da xeyrinədir.

Biz regional məsələlərdə, dünya siyasəti məsələlərində də çox aktiv qarşılıqlı fəaliyyət göstəririk. Əksər məsələdə baxışlarımız uyğun gəlir. Bu bizə beynəlxalq aləmdə də vahid mövqelərdən çıxış etməyə imkan verir. Mənə çox xoşdur ki, bütün bu nailiyyətlər adamlarımıza bir-biri ilə daha fəal qarşılıqlı əlaqə saxlamağa, bir-birini daha yaxşı tanımağa imkan yaradır.

Bildiyiniz kimi, Azərbaycanda ruslara münasibət həmişə son dərəcə xeyirxah olmuşdur. Bu gün də belədir. Azərbaycanda heç bir rus məktəbi bağlanmayıbdır. Azərbaycanda yaşayan hər hansı xalqlar barəsində heç vaxt ayrı-seçkilik siyasəti aparılmayıbdır. Deməliyəm ki, Azərbaycanın bütün dövlət ali məktəblərində rus dilində tədris şöbəsi var. Əgər sovet dövrünün statistikası ilə müqayisə etsək, görərik ki, Azərbaycanda rus dilində çıxan

qəzetlərin sayı bir neçə dəfə artmışdır. Zənnimcə, Azərbaycan Rusiya televiziya kanalları verilişlərinin sərbəst qəbul edildiyi bir neçə ölkədən biridir.

Bütün bunlar keçmişimizə necə qayğı ilə yanaşdığımıza sübutdur, artıq tamamilə başqa mühitdə, müstəqillik mühitində böyüyüb formalaşan vətəndaşlarımızın yeni nəsillərinin, rusiyalıların və azərbaycanlıların yeni nəsillərinin əsası əvvəlki nəsillər tərəfindən qoyulmuş yaxşı və xeyirxah ənənələri davam etdirməsi üçün bu əlaqələri necə qoruyub saxlamağımıza və möhkəmləndirməyimizə sübutdur.

Bununla əlaqədar, mən bu gün qürur duyduğumuz əməkdaşlığımızın yüksək səviyyədə olmasında çox mühüm rol oynamış daha bir məqamı qeyd etmək istərdim. Bu, ümummilli liderimiz mərhum prezident Heydər Əliyev ilə Vladimir Putin arasındakı şəxsi hörmət, dostluq hissləridir. Onların arasında ən məhrəmanə, ən səmimi dostluq münasibətləri mövcud idi. Mən bunu, necə deyərlər, kimdənsə eşitməmişəm. Əlbəttə ki, indi Rusiyanın və Azərbaycanın tərəfdaşlar, mən deyərdim, strateji tərəfdaşlar olmasına bu münasibətlər də çox kömək etmişdir. Bu istiqamətdə, eləcə də ölkəmizin fəaliyyətinin bütün digər sahələrində Heydər Əliyevin siyasəti davam edir.

Əsası son 3-4 ildə qoyulmuş ənənələrin inkişaf və davam etməsi üçün öz tərəfimdən mən səy göstərirəm və bundan sonra da var qüvvə ilə çalışacağam. Bu ənənələr regionumuza, sülhün hələ tamamilə gəlmədiyi regiona, çox həssas, olduqca özünəməxsus regiona, xüsusi tarixə, xüsusi ənənələrə malik regiona, müxtəlif millətlərin yaşadıqları və əlbəttə ki, özünə çox qayğıkeş münasibət göstərilməsini tələb edən regiona firavanlıq, əmin-amanlıq, dinclik gətirəcəkdir. Əminəm ki, Rusiya və Azərbaycanın regionda riskin azaldılmasına, təhlükəsiz mühit yaranmasına yönəldilmiş fəaliyyəti Qafqaza sülhün, firavanlığın və təhlükəsizliyin gəlməsinə kömək edəcəkdir.

Əziz dostlar, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinə bu gün qurultayın işində iştirakına görə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Konqresə uğurlar arzulamaq istəyirəm, Rusiyada yaşayan bütün azərbaycanlılara firavanlıq, xoşbəxtlik, müvəffəqiyyətlər arzulamaq istəyirəm. Rusiya sizin vətəninizdir, amma bilin ki, Azərbaycan da vətəninizdir. Biz istəyirik ki, Rusiyada azərbaycanlıların həyatı firavan, zəngin, rəngarəng olsun. Bunu demək bəlkə də artıqdır, əlbəttə, istərdik ki, öz tarixi vətəninizlə saxladığınız əlaqələr də möhkəmlənsin. Mən Rusiyada yaşayan bütün azərbaycanlılara, Azərbaycanda yaşayan bütün ruslara əmin-amanlıq, xoşbəxtlik, firavanlıq arzulayıram.

Sağ olun.

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEV**
**İTAR-TASS AGENTLİYİNDƏ**

*Moskva*

*19 oktyabr 2004-cü il*

*Dövlətimizin başçısı İlham Əliyevi binanın önündə İTAR–TASS-ın baş direktoru Vitali İqnatenko, baş direktorun birinci müavini Mixail Qusman və agentliyin əməkdaşları böyük hörmət və ehtiramla qarşıladılar.*

*Sonra İTAR–TASS-da prezident İlham Əliyevin agentliyin rəhbərliyi və Rusiyanın digər kütləvi informasiya vasitələrinin başçıları ilə görüşü oldu. Görüşdə çıxış edən İTAR–TASS-ın baş direktoru Vitali İqnatenko Rusiyanın və Azərbaycanın kütləvi informasiya vasitələri arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğunu söylədi. O, dövlətimizin başçısına məlumat verdi ki, İTAR–TASS-ın binasında Azərbaycan Dövlət Teleqraf Agentliyinin – AzərTAc-ın müxbir məntəqəsinin ofisi açılmış və müasir avadanlıqla təchiz edilmişdir. Bildirildi ki, MDB ölkələri arasında ilk dəfə olaraq məhz Azərbaycanın dövlət informasiya agentliyinin Rusiyadakı bu cür əsaslı nümayəndəlikləri açılır. Bu münasibətlə Azərbaycan dövlətinin başçısının İTAR–TASS agentliyinə gəlişi əlamətdar hadisə kimi qiymətləndirildi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Rusiyanın kütləvi informasiya vasitələrinin rəhbərləri ilə səmimi söhbət etdi.*

*Prezident İlham Əliyevə «İTAR–TASS-ın 100 illiyi» xatirə medalı təqdim olundu.*

*Oktyabrın 19-da axşam Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatdı. Prezident İlham Əliyev həmin gecə Bakıya gəldi.*

## MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*20 oktyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev bu yaxınlarda onunla keçirdiyi görüşü məmnunluqla xatırladı. Ölkəmizin MDB-də iştirak etmək məsələsinə böyük əhəmiyyət verdiyini vurğulayan prezident İlham Əliyev Birliyin dövlət başçılarının Astanadakı son zirvə görüşünün yüksək səviyyədə keçdiyini nəzərə çatdırdı, həmin tədbirin hazırlıq işlərində cənab Ruşaylonun böyük rolu olduğunu qeyd etdi.

Oktyabrın 19-da gecə Moskvaya səfərdən qayıtdığını bildirən dövlətimizin başçısı İlham Əliyev Rusiya prezidenti Vladimir Putin ilə Kremldə keçirdiyi görüşün çox böyük əhəmiyyət daşıdığını vurğuladı, Rusiya rəhbərinin Astana zirvə görüşündə yekdilliklə MDB-nin sədri seçildiyini xatırlatdı. Dövlətimizin başçısı bildirdi ki, Moskvaya bu dəfəki səfəri zamanı Kremldə Vladimir Putinlə görüşdə həm ikitərəfli, həm də regional əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Prezident İlham Əliyev MDB qərarlarının daha səmərəli şəkildə yerinə yetirilməsi üçün daha işlək mexanizmin yaradılmasının vacibliyini nəzərə çatdırdı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, cənab Ruşaylo MDB-nin səmərəliliyinin artırılması sahəsində səylərini daha da artıracaqdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq MDB İcraiyyə Komitəsinin gördüyü işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. O, MDB müşahidəçilərinin Belarusda və Qazaxıstanda keçirilən seçkilərdə iştirakı, Ukraynada və Özbəkistanda keçiriləcək seçkilərdə iştirakı, Ukraynada və Özbəkistanda keçiriləcək seçkilər barədə müşahidəçilərin planları haqqında ətraflı söhbət açdı.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Astanada keçirilmiş zirvə görüşünə toxunan cənab Ruşaylo orada qaldırılan məsələlərin daha səmərəli şəkildə yerinə yetirilməsi məqsədi ilə hazırda böyük işlər görüldüyünü vurğuladı.

**MDB ELEKTROENERGETİKA ŞURASININ PREZİDENTİ, «RUSİYANIN VAHİD ENERGETİKA SİSTEMİ» SƏHMDAR CƏMİYYƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ ANATOLİ ÇUBAYS İLƏ GÖRÜŞÜ**

*Prezident sarayı*

*20 oktyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev onunla əvvəlki görüşünü məmnunluqla xatırlatdı, ölkələrimizin arasında müxtəlif istiqamətlərdə, o cümlədən elektroenergetika sahəsində əlaqələrin sürətlə inkişaf etdiyini vurğuladı.

Moskvaya son səfərinin çox səmərəli olduğunu nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, biz Rusiya prezidenti Vladimir Putin ilə Kremldə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsi barədə fikir mübadiləsi apardıq, qarşılıqlı ticarət dövriyyəsinin artdığını qeyd etdik. Eyni zamanda, ölkələrimizin bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün səylərin artırılmasının vacib olduğunu vurğuladıq. Bu baxımdan elektroenergetika sahəsində əməkdaşlığımız ümumi münasibətlər çərçivəsində böyük əhəmiyyət daşıyır. Bu sahədə əlaqələrə regional əməkdaşlıq prinsipləri də uyğundur.

Prezident İlham Əliyev dedi ki, elektroenergetika sahəsində əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanlar vardır, hazırda Azərbaycan ilə Rusiya arasında enerji mübadiləsinin həcmi artmaqdadır, bu da əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı zəmin yaradır.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, cənab Anatoli Çubaysın Azərbaycana səfəri ölkələrimizin əməkdaşlığının genişləndirilməsi işinə xidmət edəcəkdir.

Səmimi sözlərə görə minnətdarlığını bildirən Anatoli Çubays cənab İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə onunla ikinci dəfə görüşməsindən böyük şərəf duyduğunu söylədi.

MDB Elektroenergetika Şurasının növbəti iclasının oktyabrın 19-da Azərbaycanda müvəffəqiyyətlə keçdiyini vurğulayan qonaq, Energetiklər günü münasibətilə dövlətimizin başçısını və Azərbaycandakı bütün həmkarlarını səmimi- qəlbdən təbrik etdi.

Ölkəmizdə elektroenergetika sahəsində böyük işlər görüldüyünü, Bakıya səfəri zamanı «Şimal» DRES-də 400 meqavatlıq buxar-qaz qurğusu ilə tanış olduğunu vurğulayan Anatoli Çubays tam əminliklə bildirdi ki, o, dünyada bu qəbildən ən güclü, səmərəli qurğulardan biri, MDB-də isə yeganədir. Belə bir nəhəng qurğunun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradıldığını məmnunluqla xatırladan qonaq dedi ki, bu məhz Heydər Əliyev kimi dünyamiqyaslı, güclü siyasi xadimin gərgin səyləri nəticəsində mümkün ola bilərdi.

Cənab Çubays Azərbaycan ilə Rusiya arasında təkcə energetika sahəsində deyil, regional əməkdaşlıq sahəsində də uğurlar qazanıldığını nəzərə çatdırdı. O, Azərbaycanın yaxın gələcəkdə energetika tranziti üzrə çox mühüm ölkəyə çevriləcəyini bildirərək qeyd etdi ki, Azərbaycanın regional əməkdaşlıq sahəsinlə rolu gündə-günə artır. Anatoli Çubays regional əməkdaşlıq üzrə yaradılan işçi qrupunun bu işlərin daha da sürətləndirilməsinə kömək göstərəcəyini bildirdi.

Qonaq əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq, o cümlədən energetika sahəsində əlaqələr bundan sonra daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ, SƏFİR XANIM LORA KENNEDİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*21 oktyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan və onunla görüşdən məmnun qaldığını bildirən dövlətimizin başçısı İlham Əliyev Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etməsində xüsusilə son illər çox böyük uğurlar əldə olunduğunu nəzərə çatdırdı. Prezident İlham Əliyev dedi ki, bu, həm ikitərfli, həm də regional əməkdaşlıqda özünü aydın surətdə göstərir. Hər iki ölkə beynəlxalq münasibətlərlə bağlı məsələlərdə çox yaxın mövqedən çıxış edir.*

*Qlobal enerji layihələrindən bəhs edən dövlətmizin başçısı Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan ərazilərindən keçən hissəsinin birləşdirilməsi ilə bağlı bu yaxınlarda keçirilmiş mərasimin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. Prezident İlham Əliyev ABŞ hökumətinin bu layihənin reallaşdırılması sahəsində dəstəyini yüksək qiymətləndirdi, bu prosesdə ABŞ-ın rolunu xüsusilə qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, bu, regional əməkdaşlığın gözəl nümunəsi, eyni zamanda, Azərbaycanın ABŞ-la ikitərəfli əlaqələrinin yüksək səviyyəsinin göstəricisidir.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, xanım Lora Kennedinin ölkəmizə səfəri Azərbaycan–ABŞ əlaqələrinin daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir.*

*Səmimi sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycan Respublikasının müstəqilliyi günü münasibətilə prezident İlham Əliyevi təbrik etdi. O, ABŞ prezidenti Corc Buşun bu münasibətlə prezident İlham Əliyevə təbrik məktubu göndərdiyini bir daha nəzərə çatdırdı.*

*Xanım Kennedi dövlətimizin başçısı İlham Əliyevi prezidentlik fəaliyyətinin bir illiyi münasibətilə səmimi-qəlbdən təbrik etdi. O ilk dəfə respublikamızda 1992-ci ildə olduğunu bildirərək hazırda Bakıya ikinci dəfə gəldiyi zaman Azərbaycanda çox böyük uğurlar və irəliləyişlərin əldə edildiyinin şahidi olduğunu söylədi.*

*Azərbaycan–ABŞ əməkdaşlığının strateji tərəfdaşlıq səviyyəsində yüksəldiyini vurğulayan qonaq bu əlaqələrin çox böyük sürətlə inkişaf etdiyni bildirdi. Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən xanım Kennedi bu işdə Azərbaycanın ABŞ ilə çiyin-çiyinə mübarizə aparmasının strateji əhəmiyyət daşıdığını nəzərə çatdırdı.*

*Bu yaxınlarda Azərbaycanda «Əsrin müqaviləsi»nin on illiyi münasibətilə keçirilən tədbirə toxunan qonaq bunun çox böyük əhəmiyyətli tədbir olduğunu bildirdi. O, Şərq–Qərb enerji dəhlizinin reallaşmasının həm regional əməkdaşlığın inkişaf etdirilməsinə, həm də regionda xalqların firavanlığının yüksəldilməsinə, iqtisadi tərəqqisinə böyük təkan olduğunu söylədi. Xanım Kennedi Azərbaycan xalqının bu layihələrdən çox böyük fayda götürəcəyini qeyd etdi.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan ərazilərindən keçən hissəsinin birləşdirilməsi ilə əlaqədar bu yaxınlarda keçirilmiş tədbirin çox böyük əhəmiyyət daşıdığını bildirən qonaq regional layihələrin reallaşdırılmasında Azərbaycanın fəal iştirakını yüksək qiymətləndirdi. O dedi ki, Azərbaycanın səyləri olmadan bu layihələrin gerçəkləşməsi mümkün deyildir.*

*Xanım Lora Kennedi Azərbaycanda bütün sahələrdə əldə olunmuş uğurlardan, ölkədə irimiqyaslı islahatların həyata keçirilməsindən çox məmnun qaldığını qeyd etdi. O, prezident İlham Əliyevin Azərbaycanda 600 min iş yerinin açılması ilə bağlı səylərini yüksək qiymətləndirdi və bu istiqamətdə real addımlar atılmasından məmnunluğunu söylədi. Qonaq prezident İlham Əliyevin Azərbaycan cəmiyyətində siyasi dialoqa nail olmaq səylərini alqışladı və bunu çox mühüm addım kimi dəyərləndirdi. Bildirdi ki, prezidentin bu səyləri Azərbaycanda yeni siyasi mühitin yaradılması baxımından çox böyük əhəmiyyət daşıyır. Qonaq «siyasi məhbus» adlandırılan şəxslərlə bağlı məsələnin Azərbaycanda tam həll edilməsi üçün atılan addımları yüksək qiymətləndirdi.*

*Xanım Lora Kennedi əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Amerika arasında bütün sahələrdə əlaqələr bundan sonra da sürətlə inkişaf edəcəkdir.*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ MDB İŞLƏRİ ÜZRƏ KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ, AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ VƏ RF FEDERAL MƏCLİSİNİN PARLAMENTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ KONSTANTİN MARKELOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 oktyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Rusiya arasında əlaqələr bütün sahələrdə inkişaf edir. Dövlətimizin başçısı Moskvaya sonuncu səfərini xatırladaraq Rusiya prezidenti Vladimir Putinlə Kremldə keçirilmiş görüşün çox uğurlu və səmərəli olduğunu vurğuladı.

Prezident İlham Əliyev Moskvada Ümumrusiya Azərbaycan Konqresinin II qurultayının da müvəffəqiyyətlə keçdiyini bildirdi, prezident Vladimir Putinin qurultaydakı çıxışını yüksək qiymətləndirərək dedi ki, hər iki dövlətin rəhbərlərinin bu forumda iştirakı ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir.

Dövlətimizin başçısı vurğuladı ki, qarşılıqlı siyasi, iqtisadi əlaqələrimiz uğurla inkişaf edir, prezidentlər arasında olan səmimi münasibətlər iki ölkənin əməkdaşlığının yaxşı nümunəsidir. Azərbaycan–Rusiya əlaqələrini daha da inkişaf etdirmək üçün böyük potensial vardır. Prezident İlham Əliyev dedi ki, ölkələrimizin ali qanunvericilik orqanları arasında da əməkdaşlıq uğurla davam edir. Azərbaycan müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin, o cümlədən nazirlərin, qubernatorların, parlament üzvlərinin qarşılıqlı səfərlərinə böyük əhəmiyyət verir. Dövlətimizin başçısı dedi ki, mən prezident Vladimir Putinlə görüşdə də vurğuladım ki, hazırda ölkələrimiz arasında həll olunmamış problemlər yoxdur və əlaqələrimiz çox sürətlə inkişaf edir.

Azərbaycan prezidenti qarşılıqlı əlaqələrin gələcəkdə də uğurla davam edəcəyinə əmin olduğunu bildirdi.

Vaxt ayırıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlıq edən cənab Konstantin Markelov təmsil etdiyi Həştərxan vilayəti rəhbərliyinin səmimi salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Qonaq vurğuladı ki, Azərbaycan prezidentinin Moskvaya səfəri Rusiyada çox böyük maraqla izlənilirdi. Səfər sox səmərəli olmuşdur. Hazırda qanunvericilik orqanları qarşısında duran ən əsas vəzifələrdən biri dövlət başçılarının tapşırıqları və tövsiyələrinin real surətdə həyata keçirilməsi üçün müvafiq tədbirlər görməkdən ibarətdir.

K.Markelov dedi ki, Azərbaycan Respublikası ilə Rusiyanın Həştərxan vilayəti arasında konkret iqtisadi əməkdaşlıq vardır. Vilayətdə Nərimanovun adını daşıyan şəhərdə Azərbaycanın bu görkəmli oğlunun abidəsinin qoyulması uğurlu əlaqələrimizin yaxşı nümunəsidir. Qonaq Həştərxandakı çoxsaylı Azərbaycan icmasının fəaliyyətini də yüksək qiymətləndirdi. O, Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə, o cümlədən parlamentlər səviyyəsində əməkdaşlığın sürətlə inkişaf etdiyini bildirərək dedi ki, ölkələrimizin ali qanunvericilik orqanları çox sıx əlaqələr saxlayırlar və müxtəlif məsələlərin müzakirəsində tam qarşılıqlı anlaşma vardır.

## SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORU EDUARD ROSSEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 oktyabr 2004-cü il*

Qonağı səmimi salamlayan dövlətimizin başçısı İlham Əliyev Bakıda Sverdlovsk vilayəti mədəniyyət günlərinin keçirilməsini Azərbaycan–Rusiya əlaqələri tarixində əlamətdar bir hadisə kimi qiymətləndirdi. Prezident İlham Əliyev bu mədəniyyət günlərinin uğurla davam etdiyini vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın Rusiya ilə bütün sahələrdə əlaqələri, o cümlədən Sverdlovsk vilayəti ilə iqtisadi əməkdaşlığı sürətlə inkişaf edir. Rusiya Federasiyasına oktyabrın 18-19-da işgüzar səfərindən danışan prezident İlham Əliyev bildirdi ki, bu səfər çox uğurlu və səmərəli keçmişdir.

Cənab Eduard Rossel ilə sonuncu görüşünü məmnunluqla xatırlayan dövlətimizin başçısı həmin görüşdə Sverdlovsk vilayətində ölkəmizin konsulluğunun açılması məsələsinin mümkünlüyünün müzakirə edildiyini nəzərə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfi bu məsələ üzərində ciddi şəkildə işləmişdir və ona verilən məlumata görə, Rusiya Xarici İşlər Nazirliyindən bu məsələnin müsbət həlli barədə cavab alınmışdır.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən Eduard Rossel Sverdlovsk vilayəti ilə Azərbaycan arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etməsindən məmnun qaldığını söylədi, bu əməkdaşlığın əsasının məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu nəzərə çatdırdı.

Cənab Edurad Rossel Azərbaycanda keçirdiyi görüşlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi, Sverdlovsk vilayətinin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlardan geniş söhbət açdı. Qonaq ümidvar olduğunu bildirdi ki, Azərbaycan ilə Sverdlovsk vilayəti arasındakı iqtisadi əlaqələr bundan sonra da daim genişlənəcəkdir.

Sverdlovsk vilayətində Azərbaycan konsulluğunun açılması məsələsinə toxunan və bundan çox məmnun qaldığını bildirən qonaq dedi ki, həmin konsulluq böyük bir regionu əhatə edəcəkdir.

## ÇİN XALQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ Lİ ÇJAOSİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 oktyabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev Çinin Xarici İşlər nazirinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizə dair qarşılıqlı maraq doğuran məsələlərin daha geniş şəkildə müzakirə olunmasına imkan yaradacağını nəzərə çatdırdı.

Cənab Li Çjaosin ilə keçən il BMT Baş Məclisinin sessiyasında görüşünü məmnunluqla xatırlayan prezident İlham Əliyev həmin görüşdə ölkələrimizin bir çox sahələrdə əməkdaşlığına dair əhəmiyyətli məsələlərin müzakirə olunduğunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, həmin görüşdən keçən bir il ərzində ikitərəfli münasibətlərimiz daha da möhkəmlənmiş və inkişaf etmişdir.

Prezident İlham Əliyev dedi ki, biz Çin ilə ikitərəfli münasibətlərə böyük əhəmiyyət veririk, siyasi əlaqələrimizin də yüksək səviyyədə olmasından çox məmnunuq. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan ilə Çin daim bir-birini dəstəkləyir, ölkəmiz Tayvan məsələsi ilə bağlı həmişə vahid Çin mövqeyindən çıxış edir və bu mövqeyimiz gələcəkdə də dəyişməyəcəkdir.

Qarşılıqlı iqtisadi əlaqələrin də sürətlə inkişaf etdiyini nəzərə çatdıran prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfi Çin şirkətlərinin ölkəmizə böyük maraq göstərməsini alqışlayır. Ümidvarıq ki, qarşılıqlı surətdə faydalı əlaqələrimiz bundan sonra da inkişaf edəcəkdir. Azərbaycanın neft sektorunda Çin şirkətlərinin də böyük uğurla fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı ölkəmizdə bütün xarici sərmayədarlara, o cümlədən Çin sərmayədarlarına əlverişli şərait yaradıldığını nəzərə çatdırdı.

Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, ÇXR sərmayədarları ölkəmizin qeyri-neft sektorunda da fəallıqla iştirak edəcəklər.

ÇXR Kommunist Partiyasının yüksək vəzifəli nümayəndə heyətinin Azərbaycana səfərindən və onlarla keçirdiyi görüşdən söhbət açan dövlətimizin başçısı partiyalararası əməkdaşılığın da genişlənməsində hər iki tərəfin maraqlı olduğunu vurğuladı.

Prezident İlham Əliyev bir daha əmin olduğunu bildirdi ki, ÇXR Xarici İşlər nazirinin ölkəmizə səfərinin əməkdaşlığımızın möhkəmlənməsi baxımından böyük əhəmiyyəti var və bu səfər əlaqələrimizin daha da inkişaf etməsinə xidmət göstərəcəkdir.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Çin Xalq Respublikasının sədri Xu Szintaonun səmimi salamlarını və xoş arzularını prezident İlham Əliyevə çatdırdı. Cənab Li Çjaosin dedi ki, ÇXR-in sədri və ümumiyyətlə, Çin rəhbərliyi prezident İlham Əliyevin Çinə gələn il üçün planlaşdırılmış rəsmi səfərini böyük səbirsizliklə gözləyirlər. Qonaq qeyd etdi ki, dövlətimizin başçısının bu səfəri Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Çinə böyük uğurla başa çatmış rəsmi səfərindən sonra ölkələrimizin ikitərəfli münasibətləri tarixində çox böyük hadisə olacaq, dostluq əlaqələrinin daha da möhkəmlənməsi işinə yeni təkan verəcəkdir.

BMT Baş Məclisinin sessiyasında prezident İlham Əliyevlə görüşünü həmişə çox böyük məmnuniyyətlə xatırladığını bildirən qonaq həmin görüşün onda böyük təəssürat doğurduğunu nəzərə çatdırdı. O bildirdi ki, bu görüş Azərbaycan rəhbərinin ÇXR-ilə əlaqələrə böyük əhəmiyyət verdiyini nümayiş etdirir.

Dost, zəngin və gözəl ölkə olan Azərbaycana ilk səfərindən çox böyük məmnunluq duyduğunu bildirən qonaq dedi ki, respublikamıza bu səfərin əsas məqsədi Azərbaycanın və Çinin yaşlı nəsil rəhbərləri arasında vaxtilə əldə edilmiş razılıqların yerinə yetirilməsi məsələlərini azərbaycanlı həmkarları ilə birlikdə müzakirə etməkdən ibarətdir. Cənab Li Çjaosin bildirdi ki, onun Bakıya səfəri eyni zamanda prezident İlham Əliyevin Çinə qarşıdakı səfərinə siyasi hazırlıq məqsədi daşıyır.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan qonaq Azərbaycanın və Çinin suverenliyi sayəsində dövlətlərimizin bir-birinə böyük etimad və hörmət göstərməsini, bir-birini dəstəkləməsini, qarşılıqlı anlaşmanın mövcud olmasını yüksək qiymətləndirdi. O, Azərbaycanın vahid Çin barədə mövqeyinə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.

Azərbaycanın Xarici İşlər Nazirliyində keçirdiyi görüşə toxunan qonaq bu görüş zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlıq məsələsinin də müzakirə olunduğunu bildirdi. Cənab Li Çjaosin ölkələrimizin iqtisadi, ticarət əlaqələrinin də daim genişlənməsindən məmnunluq ifadə etdi. Qonaq ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında dostluq münasibətləri daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

## «KEÇİD DEMOKRATİYALARI LAYİHƏLƏRİ» FONDUNUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ BRYUS CEKSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ * İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 oktyabr 2004-cü il*

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev bu görüşdən məmnun olduğunu bildirdi və onların Azərbaycana səfərinin uğurlu keçəcəyinə əminliyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, yeni müstəqillik qazanmış Azərbaycan Respublikası haqqında dünyada daha geniş məlumatın olması çox əhəmiyyətlidir.

Dövlətimizin başçısı Marşall Fondu çərçivəsində Almaniyada və Türkiyədə keçirilmiş tədbirlərdə iştirakını məmnunluqda xatırladaraq, həmin tədbirlərdə bir sıra mühüm məsələlərin müzakirə edildiyini nəzərə çatdırdı. Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə ölkəmizin fəal iştirak etdiyini vurğulayaraq dedi ki, Azərbaycanın əldə etdiyi uğurların, qarşılaşdığı problemlərin və çətinliklərin dünya ictimaiyyətinə çatdırılmasının bizim üçün böyük əhəmiyyəti vardır. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, bu cür tərkibdə nümayəndə heyətinin ölkəmizə səfəri Azərbaycan haqqında dolğun məlumatların beynəlxalq aləmdə geniş yayılması işinə xidmət edəcəkdir.

Ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən birinin Azərbaycanın Avropa və Avratlantik strukturlarına inteqrasiyası təşkil etdiyini vurğulayan prezident İlham Əliyev bu siyasətin dəyişməz olaraq qaldığını nəzərə çatdırdı. Azərbaycanın bu sahədə böyük uğurlar qazandığını vurğulayan prezident İlham Əliyev dedi ki, Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının ən fəal üzvlərindən biridir, indidən belə fərdi tərəfdaşlıq planı əsasında əməkdaşlıq edəcəkdir. Avropanın nüfuzlu təşkilatları, o cümlədən Avropa Birliyi ilə əlaqələri yüksək qiymətləndirən dövlətimizin başçısı Azərbaycanın bu təşkilatın yeni qonşuluq siyasətinə daxil edilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev dedi ki, ölkəmiz dünyanın müxtəlif nöqtələrində sülhməramlı əməliyyatlarda fəal iştirak edir. Bütün bunlar Azərbaycanın təkcə regionda deyil, ümumilikdə dünyada sülhün və təhlükəsizliyin təmin olunması işinə sadiqliyini nümayiş etdirir.

Azərbaycan prezidenti bir daha ümidvar olduğunu bildirdi ki, nümayəndə heyətinin səfəri həm ölkəmizin «Keçid demokratiyaları layihələri»i fondu ilə, həm də Avropa strukturları ilə əməkdaşlığının daha da genişlənməsi işinə xidmət edəcəkdir.

Səmimi qəbula görə dövlətimizin başçısına nümayəndə heyəti adından minnətdarlığını bildirən İspaniyanın keçmiş Xarici İşlər naziri Anna Palasiyo Azərbaycan prezidenti İlham Əliyev ilə görüşdən çox böyük məmnunluq duyduqlarını bildirdi. O dedi ki, Avropa ailəsi və Avropa Birliyi Avratlantik strukturlarında Azərbaycanın mövqeyini yüksək qiymətləndirir. Neft boru kəmərləri və digər infrastrukturlar, Avropa Birliyinin yeni qonşuluq siyasətində Azərbaycanın iştirakı – bütün bunlar ölkənin Avropa strukturlarına inteqrasiyasının bariz nümunəsidir.

Azərbaycan Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil edilərkən özünün bu təşkilatın Nazirlər Komitəsinin üzvü olduğunu diqqətə çatdıran qonaq dedi ki, komitənin bütün üzvləri bu qonşuluq siyasətində Azərbaycanın iştirakını vaxtında atılmış mühüm addım kimi qiymətləndirmişlər. Azərbaycanın NATO ilə əməkdaşlığı hamıda belə bir əminlik yaradır ki, o, təkcə enerji layihələrində deyil, həm də regional təhlükəsizliyin və sabitliyin təmin olunmasında fəal iştirak edən bir ölkədir.

Qonaq Azərbaycanın Avropa Şurası və ATƏT kimi nüfuzlu təşkilatların üzvü olduğunu məmnunluqla vurğulayaraq dedi ki, Azərbaycan demokratiyanın inkişafı sahəsində böyük irəliləyişlər əldə etmişdir. O, əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin üzvləri bütün proseslər barədə səfər zamanı ətraflı məlumatlar əldə edəcəklər.

Görüşün sonunda Azərbaycan prezidenti İlham Əliyev «Financial Times» qəzetinin Moskva bürosunun rəhbəri Endryu Cekin, «Frankfurter Allgemeine Zeitunq» qəzetinin xarici xəbərlər üzrə redaktoru Klaus Diter Frankenburqgerin və «Le Fiqaro» qəzetinin baş müxbiri Lor Mandevilin suallarına cavab verdi.

* Nümayəndə heyətinə İspaniyanın keçmiş Xarici İşlər naziri Anna Palasiyo, Yunanıstanın xüsusi tapşırıqlar üzrə səfiri, keçmiş milli təhlükəsizlik üzrə müşaviri Aleks Rondos, Fransa Milli Assambleyasının deputatı Pyer Lölüş, Alman Marşall Fondunun sədri Kreyq Kennedi, Alman Marşall Fondunun məsləhətçisi və keçmiş direktoru Den Tvininq və başqaları daxildirlər.

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKƏ**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı – Əlcəzair inqilabı günü münasibətilə Sizi və Sizin simanızda bütün Əlcəzair xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Əlcəzair arasındakı ənənəvi dostluq münasibətlərinin, ikitərəfli əlaqələrimizin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *25 oktyabr 2004-cü il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ**

*26 oktyabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə Moldova Respublikasının prezidenti Vladimir Voronin ölkəmizə rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Moldovanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qorovul dəstəsi düzülmüşdü.*

*Moldova prezidenti Vladimir Voronini Azərbaycanın rəsmi şəxsləri qarşıladılar.*

*Milli geyimli uşaqlar Moldova rəhbərinə gül-çiçək təqdim etdilər.*

*Qarşılanma mərasimindən sonra Moldova prezidenti Vladimir Voronin ilə Azərbaycanın Baş naziri Artur Rasizadə arasında qısa protokol görüşü oldu.*

*Moldova prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

**PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ**

*Prezident sarayında Moldova Respublikasının prezidenti Vladimir Voroninin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyətindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Moldova prezidenti Vladimir Voronini böyük hörmət və səmimiyyətlə qarşıladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Moldova prezidenti Vladimir Voroninə, Moldova nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

## MOLDOVA PREZİDENTİ
## VLADİMİR VORONİN İLƏ
## TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*26 oktyabr 2004-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Moldova Respublikasının prezidenti Vladimir Voroninin təkbətək görüşü olmuşdur.*

*Azərbaycan dövlətinin başçısı Moldova prezidentini səmimiyyətlə salamlayaraq dəvətini qəbul edib Bakıya rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirdi. Bu səfəri yüksək qiymətləndirən prezident İlham Əliyev əmin olduğunu vurğuladı ki, aparılacaq danışıqlar, imzalanacaq sənədlər Azərbaycan ilə Moldova arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin gələcək inkişafına böyük təkan verəcəkdir. Dövlətimizin başçısı Moldova rəhbərinin ölkəmizə rəsmi səfərinin uğurla keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Bakıya rəsmi səfərə dəvətə, Azərbaycan paytaxtında özünə və Moldova nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlıq edən prezident Vladimir Voronin dost ölkələr arasında münasibətlərin inkişafına böyük önəm verdiyini vurğuladı.*

*Prezidentlər məmnunluqla xatırlatdılar ki, müstəqillik illərində ölkələrimiz arasında əlaqələr xeyli möhkəmlənmiş və genişlənmişdir. Azərbaycan və Moldova həm MDB və GUÖAM çərçivəsində, həm də BMT-də və digər beynəlxalq təşkilatda fəal əməkdaşlıq edirlər. Hazırda ölkələrimizdə iqtisadiyyat sürətlə inkişaf edir ki, bu da gələcəkdə birgə layihələrin həyata keçirilməsinə əlverişli imkan yaradır.*

*Dövlət başçıları xüsusi vurğuladılar ki, Azərbaycan və Moldova təcavüzkar separatizmin nəticəsi olan işğala məruz qalmışlar. Buna son qoyulması, ölkələrimizin ərazi bütövlüyünün beynəlxalq hüquq normaları əsasında bərpa edilməsi üçün beynəlxalq təşkilatların səylərinin gücləndirilməsi vacibdir.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

* * *

*Təkbətək görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Moldova prezidenti Vladimir Voroninin geniş tərkibdə görüşü oldu.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

Mən sizi bir daha salamlamaq və sizə «Xoş gəlmisiniz!» demək istərdim. Biz Moldova prezidentinin Azərbaycana səfərinə böyük əhəmiyyət veririk. Xalqlarımız arasında həmişə çox səmimi münasibətlər olub, biz bir çox illər ərzində fəal əməkdaşlıq etmiş, görüşmüş, təcrübə mübadiləsi aparmışıq. Əlbəttə, çox mühümdür ki, Moldova və Azərbaycan müstəqilliyə qovuşduqdan sonra bu əlaqələri itirmədilər. Bu əlaqələr itirilmədi, əksinə, hətta deyərdim ki, indi əməkdaşlığımız tamamilə yeni səviyyəyə yüksəlir. Biz ikitərəfli formatda fəal əməkdaşlıq edirik, müxtəlif beynəlxalq təşkilatların, o cümlədən ölkələrimizin fəal əməkdaşlıq etdikləri GUÖAM kimi təşkilatın üzvləriyik. İqtisadi əməkdaşlıq sahəsində yaxşı perspektivlər var.

Vladimir Nikolayeviç, bu gün biz Sizinlə ölkələrimizin iqtisadi təsərrüfatında işlərin vəziyyəti barədə məlumat mübadiləsi apardıq və məmnunluqla qeyd etdik ki, Moldovada da, Azərbaycanda da çox ciddi iqtisadi yüksəliş müşahidə olunur. Ölkələrimizin potensialı möhkəmləndikcə səmərəli ikitərəfli iqtisadi əməkdaşlıq imkanları da artır. Ümidvarıq ki, Sizin səfəriniz və imzalanacaq sənədlər iqtisadi layihələrin tam həyata keçirilməsinə təkan verəcəkdir.

Əlbəttə, beynəlxalq qurumlara inteqrasiya proqramlarımız baxımından hər iki ölkə böyük uğurlar qazanmışdır. Lakin bizi birləşdirən problemlər də var. Təəssüf ki, ölkələrimizin ərazilərində təcavüzkar separatizm ünsürləri baş qaldırır və bu, həm regeonal əməkdaşlıq üçün, həm də regional təhlükəsizlik üçün böyük bəla və təhlükədir. Ümidvarıq ki, beynəlxalq hüquq normaları zəfər çalacaq və hər iki ölkənin ərazi bütövlüyü bərpa ediləcəkdir.

Mənim üçün çox xoşdur ki, Siz böyük nümayəndə heyəti ilə gəlmisiniz və əminəm ki, nazirlərimiz də fəal əlaqə yaradacaq, əməkdaşlıq edəcək, görüşəcəklər. İndiki halda prezidentlər onlara yaxşı nümunə göstərirlər. Biz Sizinlə MDB çərçivəsində bütün görüşlərimizdə həmişə çox fəal surətdə fikir mübadiləsi aparırıq və zənnimcə, nazirlərimiz bizdən nümunə götürməlidirlər.

Mən bir daha Sizi ürəkdən salamlamaq və arzu etmək istəyirəm ki, səfəriniz uğurlu olsun. Siz vətənə ən xoş təəssüratlarla qayıdasınız.

**Vladimir Voronin:** Cənab prezident İlham Əliyev, çox sağ olun!

Hörmətli azərbaycanlı dostlar!

Mən ilk dəfədir ki, Azərbaycandayam və bu mənim Cənubi Qafqaz dövlətinin paytaxtına ilk səfərimdir. Hərçənd biz aydınlaşdırmışdıq ki, bu dəfə səfər etmək növbəsi Azərbaycan tərəfinin idi. Lakin biz prezident Əliyevlə belə razılığa gəldik ki, indi o, iki dəfə dalbadal Moldovaya gələcək və bu da bizi çox qane edir. Bunu rəsmi dəvət kimi qəbul edin.

Həqiqətən mən Sizinlə razıyam ki, ölkələrimizin və xalqlarımızın taleyində ümumi cəhətlər çoxdur –həm Sovet İttifaqının tərkibində tarixi keçmişimiz baxımından, həm də dövlətlərimizin müstəqillik qazandığından sonra təşəkkül tapdığı ağır illərdə baş verən hadisələr baxımından. Lakin bizim əməkdaşlığı və ikitərəfli əlaqələri möhkəmləndirmək üçün çox yaxşı perspektivlərimiz də vardır. Biz beynəlxalq təşkilatlar, MDB çərçivəsində də fəal əməkdaşlıq edirik. Səfərimizin məqsədi də bütün bunlardır. Mən bu səfərə dəvət edildiyimə görə Sizə təşəkkür edirəm və görülmüş böyük hazırlıq işlərinə görə azərbaycanlı həmkarlarıma minnətdarlığımı bildirirəm, çünki bütün səfərlərim ərzində heç bir ölkədə bu qədər sənəd imzalamamışıq.

Ona görə də hesab edirəm ki, həqiqətən bizim qarşılıqlı surətdə faydalı ikitərəfli əməkdaşlıq üçün çox yaxşı perspektivlərimiz var.

Biz Sizin ölkənizə, xalqınıza həmişə çox böyük hörmətlə yanaşmışıq və yanaşırıq. Moldovada heç də kiçik olmayan diaspor – təxminən 2 min etnik azərbaycanlı var. Ölkəmizin parlamentinin deputatı buradadır, o da azərbaycanlıdır. Qarşılıqlı münasibətlərimizin dərinləşməsi üçün digər çoxlu imkanlar da mövcuddur. Zənnimcə, nazirlərimizin, rəhbər işçilərimizin şəxsi tanışlığı daha geniş əməkdaşlığa xidmət edəcəkdir. Hesab edirəm ki, biz əməkdaşlığın yeni yollarını tapa biləcəyik. Bizim Sizinlə BMT çərçivəsində ölkələrimizin dəstəklənməsi, ayrı-ayrı namizədlərin irəli sürülməsi, habelə qətnamələrin qəbul edilməsi baxımından çoxlu vəzifələrimiz var. Ən kədərlisi budur ki, ümumi problemimiz də mövcuddur: ərazi bütövlüyü məsələsi həll edilməyibdir. Bizim Dnestryanı bölgə problemimiz, sizin isə öz separatçılarınız var. Bunlar çox ağrılı məsələlərdir.

Nümayəndə heyətimizin tərkibinə Qaqauziyanın başqanı da daxildir. Demək istəyirəm ki, dekabrın 23-də biz Qaqauziya muxtariyyətinin 10 illiyini qeyd edəcəyik. Bu, muxtar ərazi qurumu probleminin sülh yolu ilə həlli sahəsində Avropada ilk nümunədir. Biz bu muxtariyyətin normal inkişaf etməsinə, orada yaxşı iqtisadi baza olmasına çox böyük diqqət yetiririk.

* * *

## Azərbaycan–Moldova sənədlərinin imzalanması

Geniş heyətdə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Moldova prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan prezidenti İlham Əliyev və Moldova prezidenti Vladimir Voronin Azərbaycan Respublikası və Moldova Respublikası arasında Birgə Bəyannamə imzaladılar.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdarşlıq haqqında saziş; Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Moldova Respublikasının Kənd Təsərrüfatı və Qida Sənayesi Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş. Azərbaycan Respublikasının hökuməti və Moldova Respublikasının hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Moldova Respublikasının Xarici İşlər Nazirliyi arasında 2005–2006-cı illər üçün məsləhətləşmələr planı; Azərbaycan hökuməti və Moldova hökuməti arasında vətəndaşların qarşılıqlı gediş-gəlişi haqqında saziş; Azərbaycan Respublikası hökuməti və Moldova Respublikası hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında müqavilə imzalandı.

## AZƏRBAYCAN – MOLDOVA SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA PREZİDENT İLHAM ƏLİYEVİN VƏ VLADİMİR VORONİNİN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*26 oktyabr 2004-cü il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, əziz dostlar!

Prezident Vladimir Nikolayeviç Voronin başda olmaqla, Moldova nümayəndə heyətini bir daha salamlamaq və Azərbaycana xoş gəlmisiniz demək istəyirəm.

Biz bu səfərə çox böyük əhəmiyyət veririk və əminik ki, o, ölkələrimiz və xalqlarımız arasında çox dərin kökləri olan mehriban dostluq əlaqələrinin inkişafı və möhkəmlənməsi işinin davamlı təməlini qoyacaqdır. Fərəhli haldır ki, bu əlaqələr itirilməmişdir, mövcuddur, möhkəmlənir və ümidvaram ki, gələcəkdə də möhkəmlənəcəkdir. O cümlədən, bu gün imzalanmış sazişlər də qarşılıqlı surətdə faydalı əməkdaşlığı daha tam həcmdə həyata keçirməyimizə imkan verəcəkdir.

Bizim çox yaxşı siyasi əlaqələrimiz var. Moldova və Azərbaycan beynəlxalq aləmdə də, beynəlxalq təşkilatlar çərçivəsində də bir-birini dəstəkləyirlər. Biz GUÖAM təşkilatı, digər beynəlxalq qurumlar çərçivəsində çox fəal əməkdaşlıq edirik, ölkələrimizi və xalqlarımızı düşündürən məsələlərdə bir-birimizi həmişə dəstəkləyirik.

Əlbəttə, bizi ölkələrimizdəki mövcud ümumi problemlər də yaxınlaşdırır. Təəssüf ki, ölkələrimiz təcavüzkar separatizm halları ilə, ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin pozulması ilə qarşılaşmışlar. Əlbəttə, biz bu proseslərin necə böyük təhlükə olduğunu başa düşürük. Azərbaycan Ermənistanın təcavüzündən, ərazilərimizi işğal etməsindən çox böyük ziyan çəkmişdir.

Ərazilərimizin 20 faizindən çoxu işğal altındadır, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Biz, əlbəttə, ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etməyə səy göstəririk. Biz diqqətin bu məsələyə cəlb edilməsi, beynəlxalq hüququn zəfər çalması, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ikili standartlara son qoyulması üçün beynəlxalq birliyin daha çox səy göstərməsinə çalışırıq.

Biz bilirik ki, keçmiş SSRİ məkanında – Abxaziyada, Cənubi Osetiyada, Dnestryanı bölgədə, Dağlıq Qarabağda bir neçə bu cür münaqişə ocağı vardır. Əlbəttə, beynəlxalq təşkilatlar bütün bu münaqişələrə eyni prizmadan yanaşmalıdırlar, həmin münaqişələrə, onların nizama salınması yollarına yanaşmalarında heç bir fərq qoyulmamalıdır.

Ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün də yaxşı potensial mövcullur. Hələlik bu sahədə öyünməyə elə bir əsas yoxdur. Lakin mən əminəm ki, aparılan danışıqlar, imzalanmış sazişlər, habelə fəal işləyəcəyinə ümid etdiyim hökumətlərarası komissiya ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması üçün yaxşı baza yaradacaqdır. Biz Vladimir Nikolayeviçlə həm təkbətək görüşdə, həm də geniş heyətdə görüşdə fikir mübadiləsi apardıq və belə bir qənaətə gəldik ki, Moldova da, Azərbaycan da iqtisadi cəhətdən çox sürətlə inkişaf edirlər. İqtisadi potensiallarımız möhkəmlənir, sosial və iqtisadi inkişaf xarakterli bir çox məsələlər həll olunur. Potensiallarımızın möhkəmləndiyi şəraitdə, əlbəttə, iqtisadiyyatda əməkdaşlıq üçün yeni perspektivlər açılır. Ümidvaram ki, biz buna nail olacağıq və ölkələrimiz arasında əmtəə dövriyyəsi artacaqdır.

Biz xarici siyasət, Avropada inteqrasiya proseslərinin müzakirəsi ilə əlaqədar keçirdiyimiz məsləhətləşmələrə də çox böyük əhəmiyyət veririk. Həm Moldova, həm də Azərbaycan beynəlxalq qurumlara inteqrasiya prosesini həyata keçirirlər. Biz Moldovaya görə çox şadıq ki, o, keçmiş SSRİ respublikaları və MDB dövlətləri arasında Avropa Birliyinə inteqrasiya yolunda ön sıradadır.

Bu çox böyük nailiyyətdir və Moldova rəhbərliyinin, onun prezidentinin müdrik siyasətinin nəticəsidir. Bu bizi çox sevindirir və bildiyiniz kimi, Azərbaycanın Dünya Birliyinə inteqrasiyası üçün öz tərəfimizdən çox mühüm səylər göstəririk.

Bizim aramızda çox açıq, dostcasına fikir mübadiləsi oldu, bir çox məsələləri müzakirə etdik. Mən həmçinin qeyd etməyə çox şadam ki, Vladimir Nikolayeviçin dediyi kimi, bu onun Qafqaz regionuna ilk səfəridir və mənə çox xoşdur ki, bu ilk səfər bizim ölkəmizə edilmişdir.

Moldova prezidentinin buraya belə mötəbər nümayəndə heyəti ilə gəlməsindən böyük sevinc hissi keçirdiyimi bir daha ifadə etmək istəyirəm. Vladimir Nikolayeviçin dəvətimi qəbul edib buraya gəldiyinə görə

məmnunluğumu və təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu səfər gələcəkdə ölkələrimizin inkişafında çox mühüm mərhələ olacaqdır.

Sağ olun.

### Moldova prezidenti Vladimir Voroninin bəyanatı

İlham Heydər oğlu, sağ olun.

Biz, həqiqətən, böyük həvəslə, böyük maraqla və yaxşı əhval-ruhiyyə ilə hazırlaşırdıq və Azərbaycana gəlmək dəvətinizi qəbul etdik. Biz Sovet Azərbaycanını xatırlayır və tanıyırdıq, bu gün biz özümüz üçün yeni, suveren Azərbaycan kəşf edirik.

Biz beynəlxalq səviyyədə, Avropa səviyyəsində, MDB səviyyəsində münasibətlərimizdən məmnunuq. İndi ikitərəfli münasibətlərimizdən də məmnunluq duymaq dövrü çatmışdır. Zənnimcə, xaricə səfərlərimiz və Moldovaya edilmiş səfərlər zamanı indicə imzalanmış sənədlər qədər sənəd olmayıbdır. Bu, ölkələrimizin ikitərəfli münasibətləri inkişaf etdirmək və möhkəmlətmək niyyətlərinin ciddiliyinə sübutdur. Sükürlər olsun ki, heç bir parametr üzrə, heç bir mövqe üzrə aramızda hansısa fikir ayrılığı yoxdur. Yalnız münasibətlərimizi möhkəmlətmək məsələsində vahid anlaşma var. Bizim oxşar problemlərimiz var. Moldova da ərazicə parçalanmışdır və bu ərazi parçalanmasna görə çox ciddi həyəcan keçiririk. Ölkəmizin sənaye, iqtisadi və mədəni potensialının 40 faizindən çoxu Dnestr çayının o biri sahilindədir ki, bu da, əlbəttə, dövlətimizin bütün istiqamətlərdə – istər daxili, istərsə də xarici məsələlərdə ardıcıl inkişafına təsir göstərməyə bilməz.

Biz bu problemin sülh yolu ilə həllini axtarırıq. Dekabrın 23-də Qaqauziya muxtariyyətinin yaranmasının 10 illik yubileyini qeyd edəcəyik. Bu, müasir Avropada milli azlıqların ərazi qurumları məsələsinin dinc yolla həllinin birinci və təəssüf ki, yeganə nümunəsidir. Biz fəxr edir və sevinirik ki, buna nail olmuşuq. Bu problemə, bu məsələyə həsr olunmuş beynəlxalq konfrans keçirməyə hazırlaşırıq ki, bəlkə separatçılar və onları dəstəkləyən dövlətlər anlayarlar ki, belə nümunə var və onu axtarmaq üçün uzağa getmək lazım deyildir. Yalnız bir çox şeylərdən imtina etmək və ciddi, uzunmüddətli siyasi dövlət quruculuğuna keçmək lazımdır.

Bizim təmas nöqtələrimiz, həqiqətən, çoxdur. Biz də aqrar və sənaye dövlətiyik. Əhalimizin 60 faizindən çoxu kəndlərdə yaşayır, biz bu əraziləri inkişaf etdirməliyik. Orada aqrar və emal sahələrindən başqa, digər sahələri tezliklə inkişaf etdirmək mümkün deyil, çünki sərmayə qoymaq, digər imkanlardan istifadə etmək lazımdır, buna isə hələlik gücümüz çatmır. Odur ki, bizim xeyir gətirə biləcək, ölkələrimizin xalqlarının rifahına xidmət edə biləcək ciddi layihələrimiz ola bilər və olmalıdır.

Mənim Heydər Əlirza oğlu ilə çox gözəl şəxsi münasibətlərim var idi, biz onunla dəfələrlə görüşmüşdük. Bu gün Baş nazirlə hava limanından gələrkən xatırladıq ki, mən Heydər Əlirza oğlu ilə ilk dəfə 1974-cü il oktyabrın 12-də, 30 il əvvəl o, Moldova SSR-in və Moldova Kommunist Partiyasının yaranmasının 50 illiyi münasibətilə ölkəmizə gələrkən tanış olmuşdum. Onunla bağlı çox gözəl və xoş xatirələrim, təəssüratlarım qalıbdır. O, nadir şəxsiyyət, çox maraqlı insan idi. Allah rəhmət eləsin. Mən görürəm ki, müasir Azərbaycanda onun ideyaları həyata keçirilir və xeyirxah işlərdə davam etdirilir. Azərbaycan torpağında bunu görmək çox xoşdur.

Mən bu səfəri həyata keçirmək üçün imkan yaratdığınıza görə təşəkkürümü bildirirəm. Biz Azərbaycan prezidentini rəsmi səfərə, özü də 4-5 günlük, bir həftəlik səfərə dəvət edirik. Fikir mübadiləsi aparmağa çox şad olarıq, müzakirə etmək üçün bir çox maraqlı məsələlər taparıq.

Bu gün imzalanmış sazişlərin layihələrini hazırlayan azərbaycanlı dostların hamısına təşəkkür edirəm.

* * *

**S u a l: Mənim sualım Moldova prezidenti cənab Voroninədir. Moldovanın MDB çərçivəsində intğeqrasiya məsələsində mövqeyi və Rusiya, Ukrayna, Belarus və Qazaxıstanın əməkdaşlığı çərçivəsində vahid iqtisadi məkana daxil olması perspektivləri necədir?**

**V l a d i m i r V o r o n i n:** Son 3 ildə Moldova MDB-nin mövcudluğunun bütün illəri ərzində Birlik çərçivəsində imzalanmış sənədlərin ratifikasiyası üzrə rekordçudur. İndiyədək biz sazişlərin 80 faizindən çoxunu ratifikasiya etmişik. Bu isə MDB-də yüksək fəallığımıza sübutdur. Həmin dövrdə biz müxtəlif zirvə toplantılarının gündəliklərinə bir çox təkliflər irəli sürmüşük və bunlar dövlət başçıları tərəfindən müsbət qarşılanmış və qəbul olunmuşdur. Biz özümüz 2002-ci ildə Kişinyovda zirvə toplantısı təşkil edib keçirdik. Biz daha fəal iştirak etmək və bu iştirakın nəticələrini görmək istərdik.

Biz həmişə mübahisə edir, deyirik ki, MDB daxilində iş mexanizmi səmərəli deyildir, MDB-yə daxil olan ölkələrin bütün başçılarının görmək istədikləri nəticə yoxdur. Biz Avropa qurumlarına inteqrasiya edərkən MDB-dən çıxmaq və ya onun işinə əngəl törətmək fikrində deyilik. Bu birmənalıdır. Mən bir daha təkrar edirəm ki, xarici siyasətimizin starateji vektoru və dövlətin inkişaf perspektivləri birmənalı olaraq Avropaya inteqrasiyadan ibarətdir. Bundan əlavə, İlham Heydər oğluna da demişəm ki, 2002-ci ilin sammitinədək təklif vermişdim ki, MDB çərçivəsində qəbul etdiyimiz sənədləri Avropa Birliyinin standartları üzrə uyğunlaşdıraq və

standartlaşdıraq ki, ikiqat iş görməyimizə ehtiyac qalmasın. Mən çox istərdim ki, MDB-nin işində bu məsələlərdə Avropa Birliyinə yaxınlaşaq, yaxud, heç olmasa, bu modellərdən istifadə edək.

O ki qaldı Moldovanın vahid iqtisadi məkana daxil olmasına, bu, prinsipcə, mümkün deyildir. Nəyə görə? Ona görə ki, 4 ölkədən ibarət olan vahid iqtisadi məkan həmin dövlətlərin Dünya Ticarət Təşkilatına (DTT) qoşulması üçün eyni platforma hazırlanması məqsədilə təşkil edilmiş və yaradılmışdır. İxrac-idxal əməliyyatlarının həcmlərinə görə onlar MDB-nin qalan üzvləri arasında daha yüksək yer tuturlar. Bu səbəbdən də onlar bütün bünları eyniləşdirməli və DTT-yə daxil olmalıdırlar. Hər halda, ilkin mərhələdə bu, vahid iqtisadi məkanın birinci və yeganə vəzifəsidir. Digər vəzifələr, hər halda, bu gün mənə məlum deyildir. Odur ki, biz oraya daxil ola bilmərik və bizdən bunu heç kim xahiş etməmişdir və heç kimdən dəvət almamışıq. Bu saziş MDB üzvləri kimi bizə məlumat verilmədən imzalanmışdır. Vahid iqtisadi məkan Müstəqil Dövlətlər Birliyi daxilində yaradılmışdır. Ona görə də, yaxşısı budur, gəlin MDB çərçivəsində işi yaxşılaşdıraq və təkmilləşdirək. Bu daha düzgün qərar olar.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında suverenliyin və ərazi bütövlüyünün təmin edilməsi sahəsində əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz? Sağ olun.**

**İ l h a m Ə l i y e v:** Biz artıq qeyd etdik, təəssüflər olsun ki, ölkələrimizin ikisi də bu məsələdə ziyan çəkmişdir. Təcavüzkar separatizmin fəaliyyəti nəticəsində Azərbaycanın və Moldovanın ərazi bütövlüyü pozulmuşdur. Əlbəttə, bu məsələdə qarşılıqlı fəaliyyət çox mühüm elementdir. Çünki hər bir ölkənin – həm Moldovanın, həm də Azərbaycanın bu münaqişədə, bu problemdə öz təcrübəsi var. Bu təcrübə müəyyən mənada eynidir, bəzi cəhətlərdən isə müxtəlifdir, lakin bu onun mahiyyətini dəyişmir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, beynəlxalq hüququn əsas prinsipləri kobud şəkildə pozulmuşdur. Dünyanın əslində, bütün ölkələrini birləşdirən Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələri – indiki halda söhbət Azərbaycandan gedir –yerinə yetirilmir. Başqa sözlə, bu gün nə BMT-nin, nə də ATƏT-in qərarlarının yerinə yetirilməsi mexanizmi yoxdur. Belə vəziyyətdə, sadəcə olaraq, hüquqi qanunsuzluq və indiki halda Ermənistanın həm beynəlxalq hüququn əsas prinsiplərinə, həm də beynəlxalq təşkilatların qərarlarına məhəl qoymaması meydana çıxır.

Odur ki, bu məsələdə, əlbəttə, bütün beynəlxalq birliyin səylərini birləşdirmək lazımdır. Nail olmaq lazımdır ki, bütün beynəlxalq birlik bu məsələyə böyük diqqətlə yanaşsın və problemin həllində iştirak etsin. Əlbəttə, təcavüzkar ölkəyə və separatçılara qarşı sanksiyalar, özü də kifayət qədər sərf sanksiyalar tətbiq olunmasını nəzərdə tutan mexanizmlər işləyib hazırlamaq lazımdır.

Separatizm qlobal hərəkatdır. Bu hərəkat bir çox ölkələrdə mövcuddur, lakin təəssüf ki, Dünya Birliyinin həmin problemə münasibətində vahid yanaşma görmürük. Nə qədər ki, ikili standartlar mövcuddur, prinsipial problemlərdən heç biri həll oluna bilməz. Yaxşı və yaxud pis separatçılar ola bilməz. Başqa ölkədə separatizmi dəstəkləyib, öz ölkəndə separatizmlə mübarizə aparmaq qeyri-mümkündür. Bu heç vaxt uğur gətirməz. İkincisi də, bu, vicdanlı siyasət deyildir. Hesab edirəm ki, həqiqət, tarixi ədalət və beynəlxalq hüquq Moldovanın və Azərbaycanın tərəfindədir və biz ədalətin və beynəlxalq hüququn, ölkələrimizin ərazi bütövlüyünün bərpa edilməsinə nail olacağıq.

**V l a d i m i r V o r o n i n:** Birləşmiş Millətlər Təşkilatında Moldova BMT-nin Dağlıq Qarabağa dair qətnaməsinə səs vermişdir. Moldova parçalanmış bütün ərazilərin bərpası uğrunda ədalətli mübarizəni dəstəkləyir və dəstəkləyəcəkdir. Biz Çinlə Tayvana dair saziş imzalamışıq. Harada problem varsa, biz oradayıq, çünki daimi və səngiməyən bu ağrını daxilən hiss edirik, bu problemi sülh yolu ilə həll edən mübarizənin bütün forma və metodlarına çox həssaslıqla yanaşır və onları dəstəkləyirik.

Həqiqətən, mən Azərbaycan prezidenti ilə razıyam və əlavə etmək istəyirəm ki, hər şey millətçilik təzahüründən başlayır. Narazı olan millətçilər öz hüquqları uğrunda ekstremist qüvvələrin köməyi ilə mübarizə aparmağa başlayırlar və bu, separatizmə çevrilir, sonra isə separatizmin yanında, lap yanında terrorizm dayanır. Yəni onlar qarşıya qoyulan məqsədə istənilən yolla çatmağa can atırlar. Nə üçün bu problem Dnestryanı anklavda həll edilmir? Ona görə ki, hər il bu anklavda 2-3 milyard dollar əllərdə gəzir və bundan kim imtina edər? Bu pullar bölüşdürülmüşdür və müəyyən kanallara gedir. Bu, qaçaqmalçılıq, insan alveridir, silah istehsalı və satışıdır. Mən ilk dəfə 2002-ci ildə Praqada NATO-nun sammitində məsələ qaldırdım və bu problemi Avropanın özünün təhlükəsizliyi üçün böyük əhəmiyyəti olan regional problem adlandırdım. Axı Moldova Avropanın mərkəzindədir. Təxminən 30 min ton hərbi texnikadan, hərbi təchizat vasitələrindən ibarət cəbhəxanaya malik olmaq zarafat deyildir. Məlum deyil ki, bu nə ilə qurtaracaqdır.

Bunlar çox ciddi məsələlərdir. Ona görə də biz Dnestryanı bölgə problemini beynəlmiləlləşdiririk. Bunu tamamilə şüurlu surətdə edirik. Çünki neçə illərdən bəri mövcud olan bu təzahürlə Moldova təkbaşına mübarizə apara bilməz. Biz dünya ictimaiyyətinin bu məsələyə cəlb edilməsinə tərəfdarıq. Onun həllində eyni problemi olan Azərbaycan kimi, Çin kimi ölkələrin və digər ölkələrin köməyi lazımdır. Mən bundan məmnunam ki, bu məsələ daim ATƏT-in diqqət mərkəzindədir. İndi bu, qonşuluğumuzla və Avropa Birliyinə daxil olmaq barədə

ciddi niyyətimizlə əlaqədar bu təşkilatın gündəliyindən düşmür. Bu məsələnin həllinə başqa ölkələr də qoşulur. Zənnimcə, biz bu problemi ancaq birgə səylərlə həll edə bilərik.

**S u a l: Cənab Voronin, Sizcə, bu gün Moldovanın və Azərbaycanın artıq yaxın gələcəkdə həyata keçirə biləcəyi iri iqtisadi layihələr varmı?**

**V l a d i m i r V o r o n i n:** Var, amma onlar hələlik məxfidir. Lakin bəzi şeyləri deyə bilərik. Məsələn, üzümçülüyün və şərabçılığın inkişafı layihəsində ölkələrimizin iştirakının mümkünlüyünü söyləyə bilərik. Bu, sirr deyil, strateji layihə deyildir. Demək lazımdır ki, kənd təsərrüfatında lap çox layihələrin gerçəkləşdirilməsi mümkündür. Bu gün biz Avropada ən ensiz tırtılı olan Moldova traktorundan danışdıq, o, çuğundur plantasiyalarında, üzüm bağlarında işləyə bilir. Biz həmin modeli traktor zavodunda bərpa edirik.

Biz GUÖAM-da üzvlüklə bağlı digər layihələrdən, respublikamızın informasiya texnologiyaları departamentinin əhalinin pasportlaşdırılması, uçotu və icbari tibbi sığortanın tətbiqi üzrə, vergi ödəyicilərinə nəzarət üzrə xüsusi təcrübəsindən və hər iki tərəf üçün maraq doğuran başqa mühüm layihələrdən danışdıq. Razılığa gəldik ki, ölkələrimizin baş nazirlərinin birinci müavinləri səviyyəsində hökumətlərarası komissiya yaxın vaxtlarda işləməyə başlayacaq, habelə Azərbaycan və Moldova baş idarələri rəhbərlərinin yaxın vaxtlarda qarşılıqlı səfərləri həyata keçiriləcəkdir. Yəni bütün bunlar ölkələrimizin rifahına xidmət edəcəkdir.

**S u a l: Mənim sualım hər iki prezidentədir. GUÖAM ölkələrinin nümayəndələri bu təşkilatın perspektivləri barədə bəzən bədbin fikirlər söyləyirlər. GUÖAM-ın gələcəyini necə görürsünüz və sizcə, bu təşkilatın bütün potensialından istifadə etmək üçün nə kimi addımlar atmaq lazımdır?**

**İ l h a m Ə l i y e v:** Bizim ölkəmizə gəldikdə, biz bədbin fikirlər söyləmirik. Azərbaycan GUÖAM-da öz üzvlüyünə çox ciddi yanaşır və hesab edir ki, bu təşkilat yarandığı vaxtdan bəri inteqrasiya proseslərində çox mühüm rol oynamışdır. Artıq qeyd edildiyi kimi, bu gün biz ikitərəfli danışıqlarımız və müzakirə edilən problemlər çərçivəsində, beynəlxalq siyasətin ümdə məsələlərinin əksəriyyətində, o cümlədən regional əməkdaşlıq məsələlərində çox oxşar mövqelərə malikik.

Azərbaycan regional əməkdaşlıq baxımından öz fəaliyyətini, o cümlədən GUÖAM çərçivəsindəki fəaliyyətini çox uğurla həyata keçirir. Odur ki, bu təşkilat inteqrasiya proseslərini sürətləndirmək üçün yaxşı vasitədir, mexanizmdir.

Avropa öz sərhədlərini genişləndirdiyi, Avropa Birliyi, əslində, bizim sərhədlərimizə yaxınlaşdığı bir vaxtda bu əməkdaşlığı gücləndirmək olduqca vacibdir. Moldova Avropanın mərkəzində yerləşən ölkədir və əlbəttə, Avropa inteqrasiyası proseslərinin Moldovaya və bu ölkənin gələcəyinə çox ciddi şəkildə təsiri vardır. Bu baxımdan Avropa Birliyinin yeni qonşuluq proqramının üzvü kimi, Azərbaycan da ikitərəfli münasibətlərimizi və GUÖAM çərçivəsindəki münasibətlərimizi nəzərdən keçirir. Hesab edirəm ki, GUÖAM mövcud olduğu illər ərzində özünün həyat qabiliyyətini sübut edə bilmişdir. Təşkilat mövcuddur, mütəmadi olaraq müxtəlif görüşlər, tədbirlər, konfranslar keçirilir. Zənn edirəm ki, bu təşkilatın gələcəyi kifayət qədər nikbindir.

**V l a d i m i r V o r o n i n:** Mən GUÖAM-ın işinə şübhə ilə yanaşmaqda hələ də davam edirəm. Biz GUÖAM-da sədrliyi Gürcüstandan qəbul etməyə hazırıq. Bu yaxınlarda GUÖAM-a daxil olan ölkələrin parlament üzvlərinin Parlament Assambleyasını keçirdik və bu assambleyanı yaratdıq. Artıq bu şəkk-şübhə məni tərk edir və onu nikbinlik əvəz edir, çünki GUÖAM təşkilatı çərçivəsində konkret fəaliyyət layihələri meydana çıxmağa başlamışdır.

Moldovada miqrasiyaya və bu proseslə bağlı digər problemlərə nəzarət üzrə regional mərkəz fəaliyyətə başlayır. Bu mərkəz həm GUÖAM üçün, həm də Cənub–Şərqi Avropada Sabitlik Paktı üçün fəaliyyət göstərəcəkdir. Mənə məlumdur ki, növbədə digər layihələr də durur. Məsələ yalnız bundan ibarətdir ki, GUÖAM haqqında əvvəllər qəbul edilmiş bəyannamələrdə konkretlik yoxdur. Artıq bu konkretlik görünməyə başlayır. Əgər bu konkretlik digər istiqamətlərdə baş verənləri üstələsə, əlbəttə, bizim hamımız bu təşkilatı dəstəkləyəcəyik. Bu təşkilat həm bizim MDB-də üzvlüyümüzə, həm Avropaya inteqrasiya olunmaq niyyətimizə, həm də Moldovanın üzv olduğu Cənub–Şərqi Avropada Sabitlik Paktındakı işimizə zidd deyildir. Bu bizim qarşılıqlı fəaliyyətitmizi yalnız möhkəmləndirəcək və gücləndirəcəkdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*Bakı Əyləncə Mərkəzi*

*26 oktyabr 2004-cü il*

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən prezident Vladimir Nikolayeviç Voronin başda olmaqla Moldova nümayəndə heyətini bir daha salamlamağıma çox şadam. Biz bu səfəri çox gözləyirdik və məmnunuq ki, səfər uğurla keçir. Biz ikitərəfli münasibətlərin, regional əməkdaşlığın mühüm məsələləri, beynəlxalq münasibətlərlə bağlı məsələlər barədə fikir mübadiləsi apardıq. Məmnunluqla deyə bilərik ki, bütün bu məsələlərdə Moldovanın və Azərbaycanın mövqeləri uyğun gəlir. Siyasi sahədə aramızda çox səmərəli əməkdaşlıq vardır. Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik. Moldovanın və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək məsələlərində mövqeləri tamamilə üst-üstə düşür, bu mövqelər beynəlxalq hüquq normalarına da tam uyğundur. Ümidvarıq ki, beynəlxalq hüquq normaları zəfər çalacaq və dövlətimizin ərazi bütövlüyü bərpa ediləcəkdir.

İqtisadi əməkdaşlıq üçün çox yaxşı potensial mövcuddur. Biz bu əməkdaşlığın üstün istiqamətlərini müəyyənləşdirdik. Məlumdur ki, xalqlarımızın arasında tarixən həmişə çox səmimi münasibətlər olmuşdur. Əlbəttə ki, biz bu potensialı artırmaq istəyirik, istəyirik ki, müstəqil dövlətlər olan Moldova və Azərbaycan sıx əməkdaşlıq etsin, öz aralarında sərfəli şəkildə ticarət etsin, təcrübə mübadiləsi aparsın, inteqrasiya istiqamətlərində işləsinlər. Bizi bu da birləşdirir.

Bizim strateji məqsədimiz Avropa strukturlarına inteqrasiyadır və bu sahədə qarşılıqlı yardım, səylərin əlaqələndirilməsi də çox vacibdir.

Mənə olduqca xoşdur ki, səfər çərçivəsində çoxlu sazişlər imzalanmışdır və mən əminəm ki, bu sazişlər əlaqələrimizin gələcək inkişafının bir çox istiqamətlərini müəyyənləşdirəcəkdir. Belə çoxsaylı sənədlərin imzalanması qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın böyük potensiala malik olduğunu da sübut edir.

Mənim üçün bu da xoşdur ki, Moldova prezidenti Vladimir Nikoloyeviç Voronin Qafqaz regionuna ilk səfərini məhz Azərbaycana etmişdir. Biz bunu yüksək qiymətləndirir və ikitərəfli əlaqələrimizin çox mühüm amili hesab edirik. Keçmişdə də bizim çox yaxşı və mehriban münasibətlərimiz olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ötən illərdə dəfələrlə Moldovada olmuş və həmişə bu ölkəyə, onun xalqına çox səmimi münasibət bəsləmişdir. Heydər Əliyevi 1970–80-ci illərdə Azərbaycanda işlədiyi dövrdə də, Moskvada çalışdığı vaxtlarda da bu respublika ilə çox səmimi münasibətlər birləşdirirdi. O, müstəqil Azərbaycanın rəhbəri kimi də, əlbəttə, ikitərəfli münasibətlərimizə böyük diqqət yetirirdi. Biz Azərbaycanda bu ənənəni və onun siyasətini və onun siyasətini bütün istiqamətlərdə, o cümlədən ikitərəfli münasibətlərimizdə davam etdirik.

Mən əminəm ki, Moldova prezidentinin səfəri və imzalanmış sənədlər, habelə ikitərəfli əlaqələrimizdə mühüm element olacağına ümid bəslədiyimiz hökumətlərarası komissiyanın fəaliyyəti ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına kömək edəcəkdir. Bizim ümumi vəzifələrimiz, ümumi prioritetlərimiz, regiondakı vəziyyətə və ikitərəfli əlaqələrimizə ümumi baxışlarımız vardır.

Mən bu badəni Moldova xalqının, Moldovadan gəlmiş dostlarımızın, Moldova prezidenti Vladimir Nikolayeviç Voroninin sağlığına qaldırmaq istəyirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VLADİMİR VORONİN HEYDƏR ƏLİYEV FONDUNDA

*27 oktyabr 2004-cü il*

*Moldova dövlətinin başçısına və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənməkdən, Azərbaycanın tərəqqisinə yönəlmiş genişmiqyaslı layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək etməkdən ibarətdir.*

*Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.*

*Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış olmuşlar. Vladimir Voronin Azərbaycan prezidenti Heydər Əliyevin Avropa ölkələrinin liderləri ilə birgə çəkilmiş fotoşəkillərinə böyük maraqla baxdı.*

*Moldova pezidenti Vladimir Voronin fondla tanış olduqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərni yazdıi:*

***«Çox şadam ki, Azərbaycan xalqının tarixində belə bir lider olmuşdur və indi də vardır. Mənə 1974-cü ilin oktyabr ayından Heydər Əlirza oğlunu tanımaq xoşbəxtliyi nəsib olmuşdur. Mən ondan çox şeyləri əxz etmişəm. Azərbaycanlıların Heydər Əlirza oğluna, öz prezidentinə və ölkənin suverenliyinin və müstəqilliyinin müdafiəçisinə dərin ehtiram hisslərini bu gün də qoruyub saxlaması böyük rəğbət doğurur. İnanıram ki, Azərbaycanın indiki rəhbərliyi prezident Heydər Əliyevin işini layiqincə və etibarlı şəkildə davam etdirəcəkdir».***

**TÜRKİYƏ RESPUBLİKASININ**
**9-cu PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**

Möhtərəm Süleyman Dəmirəl!

Əlamətdar yubileyiniz – anadan olmağınızın 80 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz dərin məzmunlu ömrünüzü büsbütün doğma Türkiyənin rifahına, Atatürk ideallarının təntənəsinə həsr etmisiniz. Bu böyük yolda Siz möhkəm dəyanət, yenilməz iradə və qətiyyət nümayiş etdirərək, ağır məhrumiyyətlərdən və mübarizələrdən keçmiş, öz əqidənizdən və inamınızdan heç zaman dönməmisiniz.

Yola saldığımız əsrin ikinci yarısından başlayaraq, Sizin adınız dünya siyasətindədir. Siz ən yeni tariximizin siyasət Olimpinin zirvəsinədək ucalmış nəhəng simalarından birisiniz.

Türk düynasının oyanışı və tərəqqisi, türkdilli dövlətlərin birliyi və inkişafı naminə səylərimiz Sizin tarix qarşısındakı böyük missiyanızın təməl prinsiplərinin ifadəsidir.

Sizin qəlbiniz həmişə Azərbaycanla döyünür. Azərbaycanın dövlət müstəqilliyinə, Azərbaycan–Türkiyə dostluğunun möhkəmlənməsinə dəstəyiniz, ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişaf etidirilməsində, dövlətlərarası münasibətlərin strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlməsində xidmətləriniz əvəzsizdir.

Müstəqilliyə qədəm qoyduqdan bəri ən ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, ölkəmizin ərazi bütövlüyünün qorunması naminə dəyişməz mövqeyiniz, ardıcıl fəaliyyətiniz xalqımız tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaqdır.

Bu gün dünyanın ən perspektivli iqtisadi layihələrindən biri sayılan, tikintisi artıq son mərhələyə qədəm qoymuş Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin gerçəkləşdirilməsi yolunda ümummilli liderimiz prezident Heydər Əliyev ilə Sizin çiyin-çiyinə, birgə mübarizəniz, qarşıya çıxan hər cür maneələri aşmaq üçün göstərdiyiniz mətanət, əzmkarlıq və fədakarlıq sayəsində biz əfsanəni reallığa çeviririk.

Uzun illər boyu atam prezident Heydər Əliyev ilə Sizi möhkəm dostluq, qardaşlıq münasibətləri birləşdirmişdir. Bu münasibətlər əsl dostluğun gücünü, qüdrətini bariz anladan canlı örnəkdir, bizim üçün, bütün ailəmiz üçün çox dəyərlidir.

Əziz Süleyman Dəmirəl!

Bu əlamətdar gündə bir daha öz təbriklərimi yetirir, Sizə, ömür-gün dostunuz Nəzmiyə xanıma möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və uğurlar diləyirəm.

*Səmimiyyətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 oktyabr 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ

*27 oktyabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Ukrayna prezidenti Leonid Kuçmanın dəvəti ilə bu ölkənin faşist işğalçılarından azad olunmasının 60 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün Kiyevə işgüzar səfərə yola düşmüşdür.*

* * *

*Ukraynanın faşist işğalçılarından azad olunmasının 60 illiyi münasibətilə Kiyevdə keçiriləcək tədbirlərdə iştirak etmək üçün bu ölkəyə yola düşən Azərbaycan prezidenti İlham Əliyev təyyarədə Böyük Vətən müharibəsi zamanı Ukraynada döyüşlərdə iştirak etmiş azərbaycanlı veteranlarla görüşüb səmimi söhbət etmişdir.*

*Veteranlar Ukraynada keçiriləcək təbirdə onlarla birlikdə Azərbaycanın dövlət başçısının da iştirak etməsindən məmnun olduqlarını ifadə etdilər, xalqımızın ümummilli lideri Heydər Əliyevin veteranlara göstərdiyi qayğı və diqqəti indi prezident İlham Əliyevin də davam etdirməsindən razılıqlarını bildirdilər.*

*Prezident İlham Əliyev müharibə veteranlarının qayğılarının Azərbaycan dövləti başçısının daim diqqət mərkəzində olduğunu bildirdi, onların problemlərin həlli üçün bütün lazımi tədbirlərin görüldüyünü vurğuladı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Ukrayna prezidenti Leonid Kuçmanın dəvəti ilə bu ölkənin faşist işğalçılarından azad olunmasının 60 illiyi münasibətilə keçirilən təbdirlərdə iştirak etmək üçün Ukraynaya işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş «Borispol» beynəlxalq hava limanında Azərbaycan dövlətinin başçısını Ukrayna Prezident Administrasiyası rəhbərinin müavini Leonid Kojara, Xarici İşlər nazirinin müavini İqor Dalqov, digər rəsmi şəxslər, ölkəmizin Kiyevdəki səfirliyinin əməkdaşları, Azərbaycan diasporunun nümayəndələri böyük hörmətlə qarşıladılar.*

*Milli geyimli qızlar adət-ənənəyə uyğun olaraq prezident İlham Əliyevə duz-çörək təqdim etdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından Kiyevdə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN «ƏBƏDİ ŞÖHRƏT» PARKINA ZİYARƏTİ

*Oktyabrın 27-də Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin, Ukrayna prezidenti Leonid Kuçma və Belarus prezidenti Aleksandr Lukaşenko Kiyev şəhərində «Əbədi şöhrət» parkında yerləşən naməlum əsgərin məzarını ziyarət etmək üçün buraya gəldilər.*

*Parkın qarşısında dövlət başçılarını Ukrayna Ali Radasının sədri Vladimir Litvin və Baş nazir Viktor Yanukoviç qarşıladılar.*

*Sonra matəm marşının sədaları altında prezidentlər İhlam Əliyev, Vladimir Putin, Leonid Kuçma və Aleksandr Lukaşenkonun adından «Əbədi məşəl» abidə kompleksi önünə əklil qoyuldu. İkinci dünya müharibəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Dövlət başçıları «Əbədi məşəl»in önünə gül dəstələri düzdülər. Fəxri qarovul dəstəsinin əsgərləri silahlardan yaylım atəşi açdılar.*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YAN KOVİÇLƏ GÖRÜŞÜ**

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev oktyabın 27-də Kiyevdə onun üçün ayrılmış iqamətgahda Ukraynanın Baş naziri, prezidentliyə namizəd Viktor Yanukoviçlə görüşmüşdür.*

*Dövlətimizin başçısı Ukraynanın faşist işğalçılarından azad edilməsinin 60 illiyi münasibətilə keçiriləcək tədbirlərdə iştirak etmək üçün Kiyevə gələn Azərbaycan nümayəndə heyətinin tərkibində İkinci dünya müharibəsi veteranlarının da olduğunu vurğulayaraq bu tədbirlərdə iştirak imkanından məmnunluğunu bildirdi.*

*Ukraynanın Baş naziri Viktor Yanukoviç ölkəmizin nümAyəndə heyətinin, xüsusilə Azərbaycan prezidenti İlham Əliyevin bu tədbirlərdə iştirakını yüksək qiymətləndirdi və bundan razılığını vurğuladı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında, Ukrayna–Azərbaycan əlaqələrinin perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı. Bildirdi ki, Ukrayna ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir və qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial vardır.*

**UKRAYNANIN FAŞİST İŞĞALÇILARINDAN AZAD OLUNMASININ 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM**

*Kiyev*

*27 oktyabr 2004-cü il*

*Ukraynanın faşist işğalından azad olunmasının 60 illiyinə həsr edilmiş təntənəli mərasimdə iştirak etmək üçün Azərbaycan prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin, Ukraya prezidenti Leonid Kuçma və Belarus prezidenti Aleksandr Lukaşenko «Ukrayna» milli sarayına gəldilər.*

*Mərasimə toplaşanlar dövlət başçılarını hərarətli alqışlarla qarşıladılar.*

*Ukraynanın dövlət himni səsləndi və səhnəyə Böyük Vətən müharibəsində iştirak etmiş hərbi hissələrin döyüş bayraqları gətirildi. Ukraynanın faşist işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə həlak olmuş qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

*Ukrayna prezidenti Leonid Kuçma mərasimdə çıxış edərək Böyük Vətən müharibəsi illərində Ukraynada baş vermiş hadisələrdən danışdı, təntənəli yubiley tədbirlərində iştirak edən qonaqları səmimiyyətlə salamladı. O bildirdi ki, məhz xalqların dostluğu təkcə Ukraynanın deyil, o vaxtkı Sovet İttifaqının, Avropanın faşizm taunundan xilas edilməsində həlledici rol oynamışdır.*

*Ukraynanın azadlığı uğrunda döyüşlərdə 4 minə yaxın adamın Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü və bunlardan 17-sinin azərbaycanlı olduğunu vurğulayan prezident Leonid Kuçma dedi ki, ümumiyyətlə, Ukrayna uğrunda döyüşlərdə 3 milyondan çox adam həyatını qurban vermişdir.*

*Rəsmi hissə başa çatdıqdan sonra Ukraynanın incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etdilər.*

* * *

*Oktyabrın 27-də Ukrayna prezidenti Leonid Kuçmanın adından ölkənin faşist işğalçılarından azad olunmasının 60 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevin, Rusiya prezidenti Vladimir Putinin, Belarus prezidenti Aleksandr Lukaşenkonun şərəfinə «Ukrayna» milli sarayında rəsmi qəbul olmuşdur.*

*Qəbulda Ukrayna prezidenti Leonid Kuçma çıxış etdi.*

*Sonra dövlət başçıları süfrə arxasında səmimi söhbət etdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN HƏRBİ PARADDA İŞTİRAKI

*28 oktyabr 2004-cü il*

*Azərbaycan Respubilkasının prezidenti İlham Əliyev, Rusiya Federasiyasının prezidenti Vladimir Putin və Ukrayna prezidenti Leonid Kuçma Ukraynanın faşist işğalçılarından azad edilməsinin 60 illiyi münasibətilə keçirilən hərbi paradı izləmək üçün Kiyevin baş küçəsi olan Kreşşatikdəki «Müstəqillik» meydanına gəldilər. Dövlət başçıları burada Böyük Vətən müharibəsi veteranları ilə səmimiyyətlə görüşərək onları əlamətdar yubiley münasibətilə təbrik etdilər, ən xoş arzularını yetirdilər.*

*Ali qonaqlar mərkəzi tribunaya qalxdılar. Ukraynanın dövlət himni səsləndi.*

*Ukraynanın Müdafiə naziri general-polkovnik Aleksandr Kuzmuk hərbi paradı qəbul etdi. Hərbi paradda müxtəlif qoşun növlərini təmsil edən 6 min 500 nəfər iştirak edirdi. Parad xüsusi olaraq Moskvadan gətirilmiş, Berlində Reyxstaqa sancılmış Qələbə bayrağının dalğalandığı məşhur T-34 tankının keçməsi ilə başlandı. Sonra 4-cü Ukrayna və 2-ci Belorusiya cəbhələrinin təmsilçiləri döyüş bayraqları ilə birlikdə tribunanın önündən keçdilər. İkinci dünya müharibəsi dövrünün hərbi geyimlərində olan piyada döyüşçülər, tankçılar, artilleriyaçılar, təyyarəçilər, dənizçilər və nəhayət, Böyük Vətən müharibəsi veteranları hərbi marşın sədaları altında meydandan keçdilər.*

*Sonra Ukraynanın Müdafiə naziri general-polkovnik Aleksandr Kuzmuk tribunaya qalxaraq bu ölkənin ali Baş komandanı, prezident Leonid Kuçmaya raport verdi.*

*Dövlət başçılarının və müxtəlif ölkələrdən gəlmiş qonaqların maraqla izlədiyi hərbi rapord sona yetdi.*

* * *

*Oktyabrın 28-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Ukraynaya işgüzar səfəri başa çatdı.*

**AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKE TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ**

*Prezident sarayı*

*28 oktyabr 2004-cü il*

*Qonaqları səmimiyyətlə salamlayan, cənab Talvitiye ilə yenidən görüşündən məmnunluq duyduğunu bildirən dövlətimizin başçısı İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daim genişləndiyini və möhkəmləndiyini, xüsusilə Avropa İttifaqının yeni qonşuluq siyasətində ölkəmizin fəal iştirak etdiyini nəzərə çatdırdı. Prezident İlham Əliyev bütün bu proseslərin həm də Azərbaycan üçün qarşılıqlı əhəmiyyət daşıdığını bildirdi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Avropa İttifaqının nümayəndə heyəti ilə bu görüşün həm münaqişənin, həm də regional məsələlərin müzakirəsi üçün yaxşı şərait yaratdığını vurğuladı. Prezident İlham Əliyev uzun illərdən bəri cəbhədə atəşkəs əldə edilməsinə baxmayaraq, sülhün də olmadığını, danışıqların bu günə kimi heç bir nəticə vermədiyini nəzərə çatdırdı.*

*Dövlətimizin başçısı bildirdi ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal edilməsi, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq qaçqın düşməsi regionda gərginlik yaradır, sülhün və təhlükəsizliyin təmin edilməsi işinə böyük əngəl törədir. Prezident İlham Əliyev qeyd etdi ki, bu münaqişə yalnız beynəlxalq hüquq normaları və prinsipləri əsasında – ölkəmizin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin olunması şərti ilə həll edilə bilər. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, bu münaqişə tezliklə sülh yolu ilə həll ediləcəkdir.*

*Vaxt tapıb onları qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən cənab Talvitiye Yerevana və Tbilisiyə səfərləri, eyni zamanda, Bakıda keçirdiyi görüşlər barədə prezident İlham Əliyevə məlumat verdi. O, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdiyini və yeni qonşuluq siyasətində Azərbaycanın fəal iştirakını nəzərə çarpdırdı.*

*Yaxın zamanlarda ölkə üzrə məruzənin hazır olacağını nəzərə çarpdıran qonaq həmin məruzəni konstruktiv şəkildə hazırlanacağına əminliyini vurğuladı.*

*O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq ümidvar olduğunu bildirdi ki, bu münaqişə tezliklə sülh yolu ilə həll ediləcəkdir. Cənab Talvitiye dedi ki, münaqişənin həlli regionda vəziyyətin normallaşdırılması işinə xidmət edə bilər.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edildi.*

## *bp* ŞİRKƏTİNİN XƏZƏRİN İŞLƏNMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVÜ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*29 oktyabr 2004-cü il*

*Qonaqları səmimiyyətlə salamlayan, bu görüşdən məmnun qaldığını vurğulayan dövlətimizin başçısı İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətinin üzvləri ölkəmizə bu səfər zamanı Azərbaycan ilə bp şirkəti arasında əməkdaşlığın uğurlu nəticələrini öz gözləri ilə görəcəklər.*

*Ölkəmizin bp şirkəti ilə uğurlu əməkdaşlığından bəhs edən prezident İlham Əliyev Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri kimi dünya əhəmiyyətli layihənin reallaşmasının bu əməkdaşlığın gözəl nümunəsi olduğunu nəzərə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, bu kəmər təkcə ölkəmiz üçün deyil, ümumiyyətlə, regional əməkdaşlığın həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyır.*

*Ən iri boru xətti olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin və ölkəmizdə həyata keçirilən digər layihələrin dünya miqyaslı enerji layihələrinin tərkib hissəsi olduğunu nəzərə çatdıran prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu işlərdə həmişə çox yaxşı tərəfdaşdır.*

*Enerji sahəsində xarici şirkətlərlə Azərbaycanın əməkdaşlığının bir-birinin maraqlarına qarşılıqlı hörmət əsasında həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bp şirkətinin Azərbaycanda reallaşdırılan neft və qaz layihələrində aparıcı rol oynadığını nəzərə çatdırdı. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin də uğurla reallaşacağına əmin olduğunu bildirən prezident İlham Əliyev dedi ki, bütün bunlar ölkəmizdə güclü iqtisadiyyatın qurulması üçün möhkəm əsas yaradır və eyni zamanda, problemlərin, xüsusilə də sosial problemlərin həlli baxımından böyük əhəmiyyət daşıyır.*

*Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Azərbaycanın bp ilə enerji sahəsində əməkdaşlığı bundan sonra da davam edəcək və daha da möhkəmlənəcəkdir.*

*Vaxt tapıb onları qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən cənab Yan Leşli cənab İlham Əliyevi Azərbaycan Respublikasının prezidenti seçilməsinin ildönümü münasibətilə də təbrik etdi.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatından çox kədərləndiklərini bildirən qonaq nümayəndə heyəti adından dövlətimizin başçısına başsağlığı verdi.*

*O dedi ki, cənab İlham Əliyev, biz Sizin rəhbərliyinizlə ölkənizin problemlərinin həlli istiqamətində həyata keçirilən işlərin, xüsusilə neft gəlirlərindən Azərbaycanın iqtisadi cəhətdən daha da güclənməsi üçün istifadə edilməsi sahəsində gördüyünüz işlərin böyük təsiri altındayıq.*

*Dövlətimizin başçısının Brüsselə, Berlinə, Parisə, Moskvaya və digər səfərlərini böyük maraqla izlədiklərini vurğulayan Yan Leşli ümidvar olduğunu bildirdi ki, prezident İlham Əliyevin Böyük Britaniyaya da uğurlu səfəri həyata keçiriləcəkdir.*

*bp şirkətinin Xəzərin İşlənməsi üzrə Məsləhət Şurasının fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verən qonaq bu qurumun müstəqil şəkildə fəaliyyət göstərdiyini bildirdi. O dedi ki, nümayəndə heyətinin bu səfəri Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi ilə bağlı sosial, iqtisadi və ətraf mühit məsələlərinin nəzərdən keçirilməsi üçün böyük imkan yaradır. Ötən il Məsləhət Şurası tərəfindən hazırlanmış tövsiyələrin böyük bir qismi bp şirkəti tərəfindən həyata keçirilmişdir.*

*Cənab Yan Leşli dedi ki, Məsləhət Şurası Bakı–Tbilisi–Ceyhan layihəsinin dünya standartlarına, neft və qaz sənayesi sahəsində şəffaflıq təşəbbüsü prinsiplərinə uyğun şəkildə həyata keçirilməsi işinə yardım göstərir.*

*Qonaq ümidvar olduğunu bildirdi ki, Azərbaycan ilə bp şirkəti arasındakı əlaqələr bundan sonra da uğurla inkişaf etdiriləcəkdir.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM ÇANDRİKA BANDARANAİKE KUMARATUNQAYA**

Hörmətli xanım Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyinizin 10 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Şri-Lanka xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2004-cü il*

## Q E Y D L Ə R

**1. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 5–28.

**2. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən respublikanın paytaxtı oldu. – 5–28.

**3. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu

beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adı almış dünyanın aparıcı neft şirkətləri ilə mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5–9,10,12,17,19,21,22,25,36,38,66,68,70,72, 76,92,93,95,96,98,99,100,101,102,103,104,105,107,114,115,116,138,144,153,161,162,168,173,174,179,181–185,200,209,214,219, 220,223,224,228,229–231,232,233,238,252,255,256,257,258,259, 261,262,270–275,283,290,302,321,330,331–332,334.

**4. Ümid körpüsü,** H ə s r ə t k ö r p ü s ü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 5.

**5. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 5,25,110–111,169,233,238,265,266,333–334.

**6. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 7,76,98–107,108,110,115,153,182,183,185,270, 271.

**7. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 7,63,98,102,142,168,169,171.

**8. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 7,22,98,110,132,169,170, 182,183,200,202,205,227,233,270–275,297,298,334,345,346.

**9. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 7,23,24,98,106,107,137,273.

**10. Olimpiya oyunları** – Qədim Yunanıstanda Olimpiya şəhərində e.ə.776-cı ildən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən ümumyunan bayramı və yarışları. Olimpiya oyunlarının keçirildiyi müddətdə bütün yunanlar üçün «Müqəddəs sülh» məcburi idi.

Müasir dövrdə ən böyük beynəlxalq kompleks idman yarışları. P.de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir. Olimpiya oyunları proqramına Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi idman növləri daxil edilə bilər. – 11,35–43,186–189.

**11. Afina** – Yunanıstanın paytaxtı, əhalisi 2,5 milyon nəfərdən çoxdur. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir; salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi, siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans

imperiyasının tərkibində olmuşdur. 1204–1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1834-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 11,35–43,186–189.

**12. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. –14,24,25,29,30,31,32,33,34,47,48,83,84,94,112-113,115,156,250,254,255,256,258,261,263,276–292,295–296, 300–301,302–303,322,337,339–340,341–342.

**13. P u t i n V l a d i m i r V l a d i m i r o v i ç** (d.1952) – 2000–08-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 14,29,30,31,32, 84,113,277,280–281,282–291,293,295,300,301,337,339–340, 341–342.

**14. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 14,29,137,258,276–292,293,300,309, 330,346.

**15. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ- l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–04-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 15,52,61.

**16. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 16,45,52,61,63,69,70,73,74, 82,83,84,85,91,117,125,129,130,131,134,140,145,149,150, 155,156,192,193,197,198,200,201,213,215,220,225,226,228, 234,238,239,244,245,250,280,281,319,325,334,343,344.

**17. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. –16,53,125–151,154,157,158,199,226,228,234,239,313,316, 324,325.

**18. Həsən Həsənov,** H ə s ə n Ə z i z o ğ l u (d.1940) – Azərbaycanın dövlət xadimi, diplomat. Ayrı-ayrı illərdə Nazirlər Sovetinin sədri, BMT-də Azərbaycan Respublikasının daimi nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. Hazırda Polşada Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 16.

**19. Tamerlan Qarayev,** T a m e r l a n Y e l m a r o ğ l u (d.1952) – hüquqşünas, diplomat. Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini, birinci müavini vəzifələrində çalışmışdır. 1993-ci ildən Çin Xalq Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri, hazırda isə Hindistanda səfirdir. – 16.

**20. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 17,18,117,139, 226,227,239,244,245,309.

**21. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 17,25,81–89,139,171,226, 250,282,286,293,294,295–296,313,315,320,322, 323.

**22. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 17,117,125,131,141, 192,193,197,199,200,201,205,219,221,228,239,309,324,325.

**23. Astana** ( 1961-ci ilə qədər Akmolinsk, 1961–92-ci illərdə Selunoqrad, 1992–98-ci illərdə Akmola) – Qazaxıstan Respublikasının paytaxtı. – 17,75,81–89.

**24. Xatəmi,** S e y i d  M ə h ə m m ə d  X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 19,26.

**25. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 19,20,22,26,27.

**26. Almaniya,** A l m a n i y a  F e d e r a t i v  R e s p u b- l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 22,49,61,123,124.

**27. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 23,24.

**28. Natiq Əliyev,** N a t i q  A g a ə l i  o ğ l u (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 24,98.

**29. Cürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Zaqafqaziyanın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 25,94,114–116,156,169,238,270–275,325.

**30. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 27.

**31. Beslan** – Rusiya Federasiyasının Şimali Osetiya Muxtar Respublikasında şəhər. – 30,33.

**32. Şimali Osetiya (Alaniya)** – Rusiya Federasiyası tərkibində respublika. Sahəsi 8 min $km^2$, əhalisi 663,2 min nəfərdir. Paytaxtı Vladiqafqaz şəhəridir. – 33,47.

**33. Namiq Abdullayev** (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 39.

**34. Fərid Mansurov,** F ə r i d  S a l m a n  o ğ l u (d.1982) – Yunan –Roma güləşi üzrə Əməkdar idman ustası. 2002-ci ildə dünya çempionatında ikinci yeri, 2004-cü il olimpiadasında isə birinci yeri tutmuşdur. 2007-08-ci illərdə isə dünya çempionu olmuş, Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 40.

**35. Zemfira Meftahəddinova** (d.1963) – stend atıcısı. 1986–88,1990, 1993,1997-ci illərdə Avropa çempionu, 1995-ci ildə dünya çempionu, 2000-ci ildə Sidney Olimpiya oyunlarının çempionu, Qahirədə XXI əsrin ilk dünya çempionatında birinci yeri tutmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 40.

**36. Ağasi Məmmədov,** A ğ a s i  A ğ a g ü l  o ğ l u (d.1980) – boksçu. Əməkdar idman ustası. Avropa, dünya çempionu və Afina Olimpiya oyunlarının bürünc mükafatçısı. – 40,42.

**37. Fuad Aslanov**, F u a d  A l x a n  o ğ l u (d.1976) – boksçu. Əməkdar idman ustası. Afina yay olimpiya oyunlarının bürünc mükavatçısı. «Tərəqqi» ordeni ilə təltif olunmuşdur. – 40.

**38. Mehman Əzizov** (d.1976) – cudo üzrə idmançı, 1993–94-cü illərdə gənclər arasında beynəlxalq türnirlərin mükafatçısı, 2001–02-ci illərdə isə qalibi olmuşdur. – 41.

**39. Mövlud Mirəliyev** (d.1974) – samboçu. Əməkdar məşqçi. Avropa çempionatlarında 1993,1998-ci illərdə ikinci, 1995, 1999-cu illərdə üçüncü, 1996–97-ci illərdə birinci, dünya çempionatlarında isə 1997–98-ci illərdə üçüncü, 1999-cu ildə birinci, 2000–01-ci illərdə isə ikinci yeri tutmuşdur. – 41.

**40. Turan Mirzəyev** (d.1979) – ağırlıqqaldırma üzrə idmançı. 1995-ci ildə gənclər arasında Avropa çempionatında bürünc, 2001-ci ildə yenə Avropa çempionatında bu nəticəni təkrar etmişdir. – 41.

**41. Rövşən Hüseynov** (d.1975) – boksçu. 1993-cü ildə Avropa çempionatının, 1994-cü ildə isə dünya kuboku yarışlarının qalibi olmuşdur. – 41.

**42. Şahin İmranov** ( d.1980) – boksçu. Altıqat respublika çempionu, bir sıra beynəlxalq boks turnirlərinin qalibi, 2002-ci il Avropa çempionatının gümüş mükafatçısı olmuşdur. – 42.

**43. Arif Abdullayev** (d.1969) –sərbəst güləş ustası. 1995–96 və 2002-ci illərdə Avropa çempionatında 3-cü yeri tutmuşdur. 1996-cı il Atlanta, 2000-ci ildə Sidney Olimpiya oyunlarında iştirak etmişdir. – 42.

**44. Niyaməddin Paşayev** (d.1980) – taekvondo ustası. Azərbaycan çempionudur. 2001-ci ildə Koreyada dünya çempionatında 1-ci yeri, 2002-ci ildə Yaponiyada dünya kuboku uğrunda yarışlarda 3-cü yeri tutmuşdur. – 42.

**45. Nizami Paşayev** (d.1981) – ağırlıqqaldırma idmançısı. Yeniyetmələr arasında Avropa və dünya rekord-çusu. 2001-ci ildə gənclər arasında dünya çempionu və dünya çempionatının mütləq qalibi olmuşdur. 2001-ci

ildə dünya çempionatının gümüş mükafatçısı, 2002-ci ildə Avropa çempionatının bürünc medalını almışdır. – 42.

**46. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 44–61,73,83,156.

**47. Paris –** Fransanın paytaxtı. Ölkənin iqtisadi, siyasi və mədəniyyət mərkəzi, dünyanın ən böyük və gözəl şəhərlərindən biri.

Paris dünyanın ən orijinal və təkrarsız şəhərlərindəndir. Burada Renessans və klassisizm üslublarında çoxlu dəbdəbəli ansambllar, binalar, eləcə də orta əsrlərə aid parklar və heykəllər, təmtəraqlı meydanlar, bulvar və prospektlər var. Bir sıra beynəlxalq təşkilatların (YUNESKO və s.) iqamətgahı Parisdədir. – 44–61,346.

**48. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krasnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talesimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 44,51,53–60,208, 212,223,256,258.

**49. Eleonora Hüseynova,** E l e o n o r a  M ə c i d  q ı z ı (d.1947) – filologiya elmləri namizədi. 1994–2005-ci illərdə Azərbaycan Respublikasının Fransada Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda YUNESKO-da Azərbaycanın daimi nümayəndəsidir. – 44,61.

**50. Yelisey sarayı** – Parisdə Fransa prezidentlərinin iqamətgahı. – 44,45.

**51. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 44,45–46,73.

**52. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 45,49,90,91,117, 139,194,195,214,215,217,218,219,221,225,227,233,238,323,327.

**53. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azər-

baycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 45,52,73, 75,83,84,85,117,118,131,135,141,159,227,280,308.

**54. Fransa Senatı** – Qanunverici hakimiyyət orqanı. – 47–51,52.

**55. «Əl-Qaidə»** – Vəhhabilərin ən böyük və tanınmış beynəlxalq terrorçu təşkilatı. 1980-ci ilin ortalarında Əfqanıstanda yerləşdirilmiş sovet ordusuna qarşı vuruşmaq üçün Pakistanda yaradılmışdı. Sovet ordusu Əfqanıstandan çıxdıqdan sonra «əl-Qaidə» «Böyük islam xilafəti» yaratmaq üçün ABŞ-a, «Qərb dünyası»na və onların tərəfdaşları islam ölkələrinə qarşı mübarizəyə başladı.

Beynəlxalq aləmdə təsdiqlənmişdir ki, «əl-Qaidənin» agentləri Mərkəzi Kəşfiyyat İdarəsində (MKİ) hərbi təlimlər keçmiş və MKİ-nin keçmiş işçiləri isə əl-Qaidənin mağarlarında «konsultant ekspert» işləmişlər. «Əl-Qaidə»nin rəhbəri Usama Ben Ladendir. – 48.

**56. «Asala»** – erməni transmilli etnik terrorçu təşkilatı. 1975-ci ildə yaradılmışdır. ABŞ Dövlət Departamenti tərəfindən terrorçu təşkilat kimi tanınır. Təşkilatın əsas məqsədi Şərqi Türkiyəni, Şimali İranı, Cavaxetiyanı, Qarabağı Ermənistana ilhaq etmək və Türkiyəni Birinci dünya müharibəsi zamanı erməni genosidini tanımağa məcbur etmək, bütün dünyada Türkiyə nümayəndəliklərinə və institutlarına basqın etməkdir. – 48.

**57. Çeçenistan (İçkeriya) –** Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. – 48.

**58. Nyu-York** – ABŞ-ın ən mühüm iqtisadi, maliyyə, siyasi və mədəni mərkəzlərindən biri. Əsası 1626-cı ildə Yeni Amsterdam adı ilə hollandiyalılar tərəfindən qoyulmuşdur. 5 inzibati rayona bölünür. Sahəsi 816 $km^2$ (o cümlədən quru hissəsi 768 $km^2$), əhalisi 7 milyon (ətrafı ilə birgə 16 milyondan) nəfərdən çoxdur. – 48,125–151,157.

**59. Kristian Ponsöle** (d.1928) – fransız siyasətçisi. 1998–2008-ci illərdə Fransa Senatının prezidenti olmuşdur. – 51.

**60. Tahir Salahov,** T a h i r T e y m u r o ğ l u (d.1928) – böyük Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSSR-nin Xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin 1-ci katibi olmuşdur. Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monimental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. – 51,286.

**61. Toğrul Nərimanbəyov**, T o ğ r u l F ə r m a n o ğ l u (d.1930) – görkəmli Azərbaycan rəssamı. Azərbaycan və SSRİ xalq rəssamı. Məişət, portret, mənzərə və natürmort janrlarında, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahəsində fəaliyyət göstərir. Yaradıcılığında monumental boyakarlıq mühüm yer tutur. «Qobustan kölgələri» (F.Qarayev), «Yeddi gözəl» (Q.Qarayev), «Min bir gecə» (F.Əmirov) baletlərinə verdiyi bədii tərtibat Azərbaycan teatr rəssamlığının qiymətli nümunələrindəndir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. «Şərəf» ordeni ilə təltif edilmişdir. – 51.

**62. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 53–60.

**63. Koişiro Matsuura** (d.1937) – 2005-2009-cu ci illərdə YUNESKO-nun Baş direktoru. – 53–60.

**64. «Azərbaycan Mədəniyyətinin Dostları»**–xeyriyyə fondu. 1995-ci ildə xeyriyyəçi, ictimai və siyasi xadim Mehriban xanım Əliyeva tərəfindən yaradılmışdır. Fəaliyyətə başladığı ilk günlərdən fond milli mədəniyyətimizin

təbliği, inkişafı, tanınması üçün çox böyük işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə təbliğ etmək üçün Azərbaycan, rus, ingilis dillərində «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. – 54,55.

**65. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 57,206,219,227.

**66. Üzeyir Hacıbəyov,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ-l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 57.

**67. Qara Qarayev,** Q a r a Ə b u l f ə z o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. – 57.

**68. Səttar Bəhlulzadə,** S ə t t a r B ə h l u l o ğ l u (1909–1974) – böyük Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası əməkdar incəsənət xadimi, Azərbaycanın xalq rəssamı. Onun əsərlərində doğma torpağa və onun dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı güşələri onun lirik mənzərələrində real əksini tapmışdır. Bəhlulzadənin mənzərələrində poetik əhvali-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 57.

**69. Rostropoviç** Mstislav Leopoldoviç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 57,92–97.

**70. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 58.

**71. Bərdə** – Azərbaycan Respublikasında şəhər. Bərdə Azərbaycanın ən qədim şəhərlərindəndir. Ərəb tarixçisi Bəlazuri (XI əsr) Bərdənin Sasani hökmdarı I Qubadın (488–531), İran tarixçisi Həmdullah Qəzvini (XIV əsr) isə Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–23) salındığını göstərmişdir. – 62–72,73.

**72. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 101,6 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 62.

**73. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 51 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 62,145.

**74. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 58 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 62,145.

**75. Zərifə Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər

Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 65–72.

**76. Ömər Eldarov,** Ö m ə r H ə s ə n o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının müxbir üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monimental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. 1995-ci ildən Milli Məclisin deputatıdır. Azərbaycan Respublikasının «İstiqlal»ordeni ilə təltif olunmuşdur. – 65.

**77. NATO** ( Ş i m a l i A t l a n t i k a M ü q a v i l ə s i T ə ş k i l a t ı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 73,74,139,194,195,204,218,219,220,221,225,233, 309.

**78. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min $km^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı – prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 81–89,112,322.

**79. Ruşaylo Vladimir Borisoviç** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildən Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildən isə nazir, 2001-ci ildə isə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 81,293–294.

**80. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 83.

**81. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 83,94,125–151,155,156,164,172,273,275,297–299.

**82. Stiven Mənn –** diplomat. 2001–09-cu illərdə ABŞ Dövlət katibinin koməkçisi. 2004–06-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 83,135,273,275.

**83**. **Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 87,89.

**84. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 87,88,335–342.

**85. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min $km^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 87,88, 294,322,335–342.

**86. Yarov Yuri Fyodoroviç** (d.1942) – 1999–2008-ci illərdə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinin sədri olmuşdur. – 88.

**87. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 88,242,283,336,337,339,341.

**88. Avropa Komissiyası,** Avropa Şurası ölkələ-rinin Komissiyası – AŞ Hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 90–91.

**89. Romano Prodi** (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında Sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. – 90–91.

**90. Rino Harniş** – diplomatı. 2003–06-cı illərdə Azərbaycanda ABŞ-ın Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 93.

**91. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti – YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək; Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək; Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq məqsədidir.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 96–97,115–116,208,209,331–332.

**92. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti** (**ABƏŞ**) –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 98.

**93. Devid Vuqvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «*bp*» şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 98,99.

**94. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 103, 112,271.

**95. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir.

Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 103,110,271.

**96. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 98,103,110, 111.

**97. Norveç,** N o r v e ç  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Oslodur. – 108–109,244–245.

**98. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 109,245.

**99. Maqne Bundevik –** (d.1947) – 1997–2000-ci və 2001–2005-ci illərdə Norveçin Baş naziri. Hazırda Norveçdə «Sülh və insan hüquqları» mərkəzinin prezidentidir. – 109.

**100. Hilmi Gülər** (d.1949) – türk siyasətçisi, texnika elmləri doktoru. Bir neçə dəfə Türkiyə hökumətlərində Enerji və Əlvan Metallurgiya naziri olmuşdur. TBMM-nin 22 və 23-cü çağırışlarında Ədalət və İnkişaf Partiyasından millət vəkili. – 110-111.

**101. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 110,111,265.

**102. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. P.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində AKP təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 110,266.

**103. Zurab Jvaniya** (1953–2005) – Gürcüstanın siyasi və dövlət xadimi. 1992–95-ci illərdə Gürcüstan parlamentinin deputatı seçilmiş, 1995-ci ildə spiker vəzifəsini tutmuşdur. 2002-ci ildən «Birləşmiş demokratlar» partiyasına rəhbərlik etmişdir. 2003-cü ilin noyabrında «məxməri inqilab»ın təşkilatçılarından biri olmuş və Baş nazir təyin edilmişdir. – 114–116.

**104. M i x a i l  N i k o l o z o v i ç  S a a k a ş v i l i** (d.1967) – hüquqşünas. 2003-ci ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 114,270–275.

**105. Saatlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1943-cü ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilib ərazisi Sabirabad rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1135 km$^2$, əhalisi 58,9 min nəfərdir. – 119.

**106. Çin Xalq Respublikası,** ÇXR – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı – Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 120, 304–306,325.

**107. Xu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nin sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. – 120,305.

**108. Nigeriya,** N i g e r i y a  F e d e r a t i v  R e s p u b- l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 121.

**109. Qvineya,** Q v i n e y a   R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 246 min $km^2$, əhalisi 6,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Konakri. – 122.

**110. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı – politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004-cü ildən Almaniyanın prezidentidir. – 123.

**111. Ç e r h a r d   Ş r ö d e r** (d.1944) – Almaniyanın dövlət və siyasi xadimi. 1980-ci ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 124.

**112. Hafiz Paşayev,** H a f i z   M i r   C ə l a l   o ğ l u (d.1941) – diplomat. Fizika-riyaziyyat elmləri doktoru. 1992–2006-cı illərdə Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini və Diplomatiya Akademiyasının rektorudur. – 125.

**113. Yaşar Əliyev,** Y a ş a r   T e y m u r   o ğ l u (d.1955) – diplomat. 2002–06-cı illərdə BMT-də Azərbaycanın daimi nümayəndəsi. 2006-cı ildən ABŞ-da Azərbaycanın Fövqəladə və Səlahiyyətli səfiri. – 125.

**114. Bolqarıstan,** B o l q a r ı s t a n   R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 125,190–209.

**115. Solomon Passi** (d.1956) – bolqar siyasətçi. 2001–2005-ci illərdə Bolqarıstan Xarici İşlər naziri, 2004-cü ildə Avropa Təhlükəsizliyi və Əməkdaşlıq Təşkilatının sədri olmuşdur. – 125.

**116. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min $km^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatаı parlament). Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhər rayonları da İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 126,176,177,308.

**117. Xuan Karlos I** (d.1938) – İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 126,176.

**118. Xose Luis Rodriges Sapatero** (d.1960) – İspaniya siyasətçisi. 2004-cü ildən İspaniyada Baş nazirdir. – 126, 177.

**119. Eksson–Mobil** – amerikan şirkəti. Dünyada ən böyük özəl neft şirkətlərindən biri. Neftin çıxarılması, istehsalı və paylanması ilə məşğuldur. – 126.

**120. Corc Soros** (d.1930) – məşhur amerikan maliyyəçisi, xeyriyyəçi. Dünyanın 25 ölkəsində onun xeyriyyəçi fondları fəaliyyət göstərir. Bu fondlar mədəniyyət və maarifə xidmət edir. Sorosun köməyilə Budapeştdə, Praqada, Varşavada Mərkəzi Avropa universitetləri açılmışdır. – 127.

**121. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 128–133,154,304.

**122. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 129,131,133, 134,157,239.

**123. TRASEKA,** T r a n s x ə z ə r  n ə q l i y y a t  d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 132,202,205,206, 214,227.

**124. Kofi Annan** (d.1938) – 1997–2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 134,143.

**125. Kolumbiya universiteti** – ABŞ-ın ən böyük elm mərkəzlərindən biri. Əsası Nyu-York şəhərində 1754-cü ildə qoyulmuşdur. Universitet statusunu 1912-ci ildə almışdır. Burada 20 minə yaxın tələbə təhsil alır. – 136–151.

**126. SSRİ,** S o v e t  S o s i a l i s t  R e s p u b l i k a l a r ı  İ t t i f a q ı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 137,138,140,150,250, 252,254,322.

**127. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 139,204,225,227,307.

**128. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 143,297.

**129. Səddam Hüseyn** (1937–2006) – İraq dövlət, siyasi və hərbi xadimi. 1979–2003-cü illərdə İraq Respublikasının prezidenti, Ərəb Sosialist Dirçəliş Partiyasının Baş katibi və Silahlı Qüvvələrin Ali Baş Komandanı olmuşdur. 2003-cü ildə ABŞ İraqa qarşı genişmiqyaslı hərbi əməliyyata başladı və Səddam Hüseyn həbs edildi və 2006-cı ildə edam edildi. – 143.

**130. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 $km^2$, əhalisi 140,9 min nəfərdir. – 146.

**131. Respublikaçılar İnstitutu** – burada Respublikaçılar Partiyası nəzərdə tutulur.

**132. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 151.

**133. Milli Bank,** Azərbaycan Dövlət Milli Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 151.

**134. Yunanıstan,** Y u n a n ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min $km^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 152,169,186–189.

**135. Konstantinos Stefanopulos** (d.1926) – 1995–2005-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 152.

**136. Böyük Britaniya,** Böyük Britaniya və Şi-mali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 153,345–346.

**137. «Röyter»** – İngiltərənin xarici informasiya agentliyi. 1851-ci ildə Londonda yaradılmışdır. Pöyter B.Britaniyanın rəsmi teleqraf agentliyidir. – 154–175.

**138. Cənubi Osetiya** – Cürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır. Sahəsi 3,9 min km$^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəri. – 155.

**139. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 71 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 161.

**140. Fransua Mitteran** (1916–1996) – 1981–95-ci illərdə Fransanın prezidenti. 1971–81-ci illərdə Fransa Sosialist Partiyasının Birinci katibi, 1965–68-ci illərdə Demokratik və Sosialist Sol Qüvvələri Federasiyasının lideri olmuşdur. – 167.

**141. İndoneziya,** İndoneziya Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridır. – 178.

**142. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 190,311.

**143. Georgi Pirvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000-ci ildən Bolqarıstan prezidenti. – 190–209.

**144. Azər TAc,** Azərbaycan Dövlət Teleq-raf Agentliyi – Azərbaycanda dövlət informasiya orqanı. 1920-ci ildə yaradılmışdır. Əvvəllər Azərinform adlanırdı. 1992-ci ildən Azər TAc kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası mətbuatı, televiziya və radiosu üçün xarici və daxili informasiyanı yayır, respublikanın həyatı haqqında ölkədə və xaricdə yaymaq üçün informasiya verir. – 196.

**145. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 206.

**146. Şah İsmayıl Xətai** (1487–1524) — Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə, şair. 1501-ci ilin payızında Təbrizə daxil olan İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. – 206.

**147. Marağa Astronomiya Rəcədxanası –** dövrünün ən böyük elmi-tədqiqat müəssisələrindən biri. Nəsirəddin Tusinin rəhbərliyi ilə Urgənc və Rey rəsədxanaları əsasında Marağada tikilmiş (1259) və təqribən

50 il fəaliyyət göstərmişdir. Marağa rəsədxanasının kitabxanasında 400 000 ədəd əlyazması var idi. Marağa rəsədxanasında aparılan tədqiqatların Avropa elminin inkişafına böyük təsiri olmuşdur. Müğəyiəddin Ordinin Parisdə tapılan (1609) elmi əsərində Marağa rəsədxanasının cihazları haqqında məlumat verilmişdir. Drezdenin «Riyaziyyat-fizika salonu» muzeyində Marağa rəsədxanasında düzəldilən ulduz qlobusu saxlanılır. – 206.

**148. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 212–242.

**149. Eldar Həsənov**, E l d a r H ü m b ə t o ğ l u (d.1955) – hüquqşünas. Hüquq elmləri doktoru, diplomat. 1995–2000-ci illərdə Azərbaycan Respublikasının Baş prokuroru olmuşdur. 2001-ci ildən Azərbaycan Respublikasının Rumıniyada və həmçinin 2010-cu ildən Serbiya, Bosniya və Çernoqoriyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 212.

**150. İon İliesku** (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. 1992–96-cı və 2000–04-cü illərdə Rumıniyanın prezidenti olmuşdur. – 212–242.

**151. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 214,218,226.

**152. Azərbaycan Dövlət Neft Akademiyası** – 1920-ci ildə yaradılmışdır. Azərbaycan Dövlət Neft Akademiyası neft-qaz və kimya texnologiyası sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında qabaqcıl yer tutur. Azərbaycan Dövlət Neft Akademiyasının 8 fakültəsində 7000 o cümlədən, xaricdən gələn tələbələr təhsil alır. Akademiyada doktorantura və aspirantura, 2 elmi-tədqiqat institutu fəaliyyət göstərir. Azərbaycan Dövlət Neft Akademiyası ABŞ, Fransa, İtaliya, Almaniya institutları ilə əməkdaşlıq edir. – 216.

**153. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 216.

**154. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 239,244,245.

**155. Mirça Coane** (d.1958) – 2000–04-cü illərdə Rumıniya Respublikasının Xarici İşlər naziri olmuşdur. Rumıniya Sosial-Demokrat partiyasının başçısıdır. – 241.

**156. Vatikan** – Avropada Papa dövləti – şəhər. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 243.

**157. İohann Pavel II,** d ü n y ə v i a d ı K a r o l V o y- t u l a (1920–2007) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri qeyri-italyan mənşəli (polyak) ilk Roma papasıdır. Sülh və beynəlxalq gərginliyin zəifləndirilməsində böyük xidmətləri var. II İoann Pavel 1978-ci ildə Roma papası seçilmişdir. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 243.

**158. Avpora Şurasının Nazirlər Komitəsi** – bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv ölkələrin xarici işlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Onlar–Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərini milli dəyərlərə əsaslanaraq həll edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşlığı məsələlərini həll edirlər. – 244–245.

**159. Macarıstan,** M a c a r ı s t a n   R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövdət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 246.

**160. Ferents Madl** (d.1931) – Macarıstan siyasi və dövlət xadimi. Macarıstan Akademiyasının akademiki. 2000–05-ci illərdə Macarıstanın prezidenti olmuşdur. – 246.

**161. Yozef Blatter** (d.1936) – Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti. Bu vəzifədə 1998-ci ildən fəaliyyət göstərir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 247–248.

**162. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 250.

**163. Mixail Yuryeviç Zabelin**(d.1946) – Azərbaycanda Rus icmasının və «Azərbaycan–Rusiya» cəmiyyətinin sədri. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü və Milli Məclisin deputatıdır. – 252–264.

**164. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 256,259.

**165. Federasiya Şurası** – 1990-cı il Rusiya Federasiyası Konstitusiyasına əsasən yaradılan qanunverici orqanın yuxarı palatası. – 256,300–301.

**166. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın ictimai və dövlət xadimi. 1992–2010-cu illərdə Moskva şəhərinin meri olmuşdur. – 258,282.

**167. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 259,260,261.

**168. Cavad xan** (?- 1804) – Gəncə xanı (1785–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xan Şəmsəddilin qoşun 29 kəndini Gəncə xanlığına qatdı. 1803-cü ilin noyabrında çar generalı P.D.Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. P.D.Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 260.

**169. İsmayıllı** – Azərbaycan Respublikasında inzibati rayon 1931-ci ildə təşkil edilmişdir. Sahəsi 2064 km, əhalisi 33,5 min nəfərdir. –261.

**170. Avstriya,** A v s t r i y a   R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 267.

**171. Haynts Fişer** (d.1938) – Avstriya dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–cü ildən Avstriya Federal prezidenti. – 267.

**172. Çexiya,** Ç e x i y a   R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 269.

**173. Vatslav Klaus** (d.1941) – 2003-cü ildən Çexiya prezidenti. – 269.

**174. Qardabani** (1947-ci ilədək Qarayazı) – Gürcüstan Respublikasında inzibati rayon. – 270–275.

**175. Ramiz Rizayev,** R a m i z  H ə s ə n q u l u  o ğ l u (d.1939) – kimyaçı, kimya elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. 1993–2007-ci illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri olmuşdur. – 276.

**176. Sergey Viktoroviç Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının daimi üzvüdür. – 277.

**177. Müslüm Maqomayev,** M ü s l ü m  M ə h ə m m ə d  o ğ l u (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 286.

**178. İbrahimbəyovlar –** burada Maqsud və Rüstəm İbrahimbəyov qardaşları nəzərdə tutulur.

**179. Fərman Salmanov,** S a l m a n o v  F ə r m a n  Q u r- b a n  oğlu (1928–2008) – mühəndis-geoloq. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. Qərbi Sibirdə onun bilavasitə rəhbərliyi ilə ən iri neft və qaz yataqları kəşf edilmişdir. – 286.

**180. Məmməd Əliyev,** M ə m m ə d  B a ğ ı r  C a v a d  o ğ l u (d.1955) – tibb elmləri doktoru, professor, Rusiya Federasiyasının əməkdar elm xadimi, 2 dəfə Dövlət mükafatı laureatı, Rusiya Tibb Elmləri Akademiyasının akademiki. Rusiya prezidenti yanında İctimai palatasının üzvü. Tibb elminin inkişafında M.Əliyevin böyük xidmətləri var. O, 7 kəşfin, 6 yeni təcrübənin, 200-dən artıq nəşr olunmuş elmi əsərin müəllifidir.

Hazırda Məmməd Əliyev dövlət klinikası –«N.N.Bloxin adına onkoloji elmi mərkəz»in direktor müavini, Moskva Elmi-Tədqiqat İnstitutunun direktoru və Ümumrusiya Azərbaycan Konqresinin prezidentidir. – 286.

**181. İTAR – TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 292.

**182. İqnatenko Vitali Nikitiç** (d.1941) – jurnalist. 1991-ci ildən İTAR-TASS agentliyinin Baş direktorudur. – 292.

**183. Qusman Mixail Solomonoviç** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 292.

**184. Anatoli Borisoviç Çubays** (d.1955) – 2008-ci ildən «Rusiya nanotexnologiyalar şirkəti» Dövlət korporasiyasının Baş direktorudur. Anatoli Çubays 1991-ci ildən müxtəlif dövlət vəzifələrində çalışmış, Rusiyanın ictimai-siyasi həyatında fəal iştirak etmiş və Rusiyanın «Vahid Energetika Sistemi» Səhmdar cəmiyyətinin sədri və keçmiş RF prezident Administrasiyasının rəhbəri olmuşdur. – 295–296.

**185. Tayvan** – Cənub–Şərqi Çində ərazi. Sahəsi 36 min $km^2$, əhalisi 21 milyon nəfərdir. İnzibati ərazisi 16 qraflığa (qəzaya), 7 şəhər munisipalitetinə bölünür. Tayvanın başçısı prezident, nümayəndələr orqanı – Nümayəndələr Məclisi və Qanunverici Yuandır (Şura). Paytaxtı Taybeydir. –304, 325.

**186. Əlcəzair,** Ə l c ə z a i r  X a l q  D e m o k r a t i k  R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2381,7 min $km^2$, əhalisi 29 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 310.

**187. Əbdüləziz Buteflik** – 1999-cu ildən Əlcəzair prezidenti. – 310.

**188. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 311-332.

**189. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova prezidenti. – 311-332.

**190. GUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 313,314,318, 326,327,328.

**191. Dünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 323.

**192. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 333-334.

**193. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidenti. – 337,339–340.

**194. Ukrayna Ali RADA-sı** – Ukraynanın ali qanunverici hakimiyyət (Sovet–Şura, Xalq Deputatları RADA-sı) orqanı. – 337.

**195. Vladimir Litvin** (d.1956) – Ukrayna siyasi və dövlət xadimi. Tarix elmləri doktoru, Ukrayna Elmlər Akademiyasının həqiqi üzvü. 2002–2006-cı illərdə və 2008-ci ildən Ukrayna Ali Radasının sədridir. – 337.

**196. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – mühəndis-mexanik. 2003 və 2007–08-ci illərdə Ukrayna Respublikasının Baş naziri olmuşdur. Hal-hazırda Regionlar Partiyasının rəhbəri və Ukrayna Respublikasının prezidentidir. – 337, 338.

**197. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta-avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 343-344.

**198. Heyke Talvitiye** (d.1939)–2003–2006-cı illərdə Avropa Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi olmuşdur. – 343–344.

**199.** ***bp,*** «B r i t i ş P e t r o l e u m», – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 345–346.

**200. Şri-Lanka,** Ş r i –L a n k a S o s i a l i s t D e m o- k r a t i k R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min $km^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 347.

**201. Çandrika Kumaratunqa** (d.1945) – 1994-cü ildə Şri-Lankanın Baş naziri, 1994–2005-ci illərdə isə Şri-Lankanın prezidenti olmuşdur. Onun atası və anası (1956–1959) Şri–Lankanın Baş nazirləri olmuşlar. – 347.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Arif** – 42
**Abdullayev Namiq** – 39
**Anderson Liss** – 151
**Annan Kofi** – 134,143
**Antidze Marqarita** – 154–175
**Aslanov Fuad** – 40
**Atatürk Mustafa Kamal** – 266,333
**Barinova Svetlana** – 252–264
**Bəhlulzadə Səttar** – 57
**Bilalov Zeynəddin** – 188
**Blatter Yozef** – 247–248
**Bundevik Maqne** – 109
**Buş Corc** – 143,297
**Buteflik Əbdüləziz** – 310
**Cavad xan** – 260
**Cekson Bryus** – 307–309
**Cek Endryu** – 309
**Coane Mirça** – 241
**Çubays Anatoli** – 295–296
**Dalqov İqor** – 336
**De Montbiral Tyerri** – 46
**Devis Terri** – 239
**Dəmirəl Süleyman** – 333–334
**Dimitrov Filipp** – 117–118
**Dronyanu Valeri** – 241
**Eqqar Tim** – 153
**Eldarov Ömər** – 65
**Əliyev Heydər** – 5–9,10,12,17,19,21,22,25,36, 38,66,68,70,72,76,92,93,95,96, 98,99,100,101,102,103,104,105,107,114,115,116,138,144,153, 161,162,168,173,174,179,181–185,200,209,214,219,220,223, 224,228,229–231,232,233,238, 252,255,256,257,258,259,261, 262,270–275,283,290,302,321, 330,331–332,334
**Əliyev Məmməd** – 286
**Əliyev Natiq** – 24,98
**Əliyev Nihad** – 143
**Əliyev Yaşar** – 125
**Əliyeva Ayan** – 93
**Əliyeva Mehriban** – 44,51,53–60,208,212,223, 256,258
**Əliyeva Zərifə** – 65–72
**Ərdoğan Rəcəb Tayyib** – 110,266
**Əzizov Eldar** – 260
**Əzizov Mehman** – 41
**Fişer Haynts** – 267
**Frankenburqger Klaus** – 309
**Gəncəvi Nizami** – 206
**Gülər Hilmi** – 110-111
**Hacıbəyov Üzeyir** – 57
**Hacıyev Eyyub** – 145
**Hacıyev Əlif** – 262
**Hacıyeva Qalina** – 252–264
**Hante Robert** – 128
**Harniş Rino** – 93
**Həsənov Eldar** – 212

**Həsənov Həsən** – 16
**Hüseyn Səddam** – 143
**Hüseynov Rövşən** – 41
**Hüseynova Eleonora** – 44,61
**Xatəmi** – 19,26
**Xonçu Dmitri** – 212
**Xu Szintao** – 120
**Xuan Karlos I** – 126,176
**İqnatenko Vitali** – 292
**İliyesku İon** – 212–242
**İmranov Şahin** – 42
**İoann Pavel II** – 243
**İsgəndərov Elşad** – 151
**Jakolən Anri** – 52,75,85
**Jvaniya Zurab** – 114–116
**Karşakyar Kristina** – 149
**Kennedi Lora** – 297–299
**Klaus Vatslav** – 269
**Kojara Leonid** – 336
**Konte Lansana** – 122
**Kovalyova Larisa** – 252– 264
**Kozin Valeri** – 252–264
**Köçəryan Robert** – 82,83,84,85,86
**Köler Horst** – 123
**Kuçma Leonid** – 87,88,335–342
**Kumaratunqa Çandrika** – 347
**Kuyyauben Migel** – 126
**Kuzmik Aleksandr** – 341
**Qarayev Qara** – 57
**Qarayev Tamerlan** – 16
**Qulleh İsmail** – 135
**Quluzadə Adil** – 93
**Qusman Mixail** – 292
**Lavrov Sergey** – 277
**Leşli Yan** – 345–346
**Li Çyaosin** – 304–306
**Litvin Vladimir** – 337
**Loşşin Valeri** – 276
**Lujkov Yuri** – 258,282
**Lukaşenko Aleksandr** – 337,339–340
**Madl Ferents** – 246
**Mahmudov Həmid** – 258
**Maqomayev Müslüm** – 286
**Mandevil Lor** – 309
**Mansurov Fərid** – 40
**Markelov Konstantin** – 300–301
**Matsuura Koişiro** – 53– 60
**Meftahəddinova Zemfira** – 40
**Merzlyakov Yuri** – 83
**Məhərrəmov Ramil** – 146
**Məlikov Əlixan** – 22,23
**Məmmədov Ağası** – 40,42
**Məmmədyarov Elmar** – 15,52,61
**Mənn Stiven** – 83,135,273,275
**Mikaelyan Tiqran** – 144
**Minnikov Nikolay** – 252–264
**Mirəliyev Mövlüd** – 41
**Mirzəyev Turan** – 41

**Mitteran Fransua** – 167
**Nazarbayev Nursultan** – 87,89
**Nərimanbəyov Toğrul** – 51
**Obasanco Olusequn** – 121
**Palasiyo Anna** – 308
**Palçen İvan** – 190
**Panyutin Oleq** – 188
**Passi Solomon** – 125
**Paşayev Hafiz** – 125
**Paşayev Nizami** – 42
**Paşayev Niyaməddin** – 42
**Penq Jan** – 128
**Petersen Yan** – 244–245
**Pirvanov Çeorgi** –190–209
**Pirvanova Zorka** – 208
**Ponsöle Kristian** – 51
**Popesku İoann-Dan** – 212
**Popesku Yelena** – 212
**Prodi Romano** – 90–91
**Putin Vladimir** – 14,29,30,31,32,84,113,277, 280–281,282–291,293,295,300, 301,337,339–340,341–342
**Rasizadə Artur** – 190,311
**Rəcəbli Əhməddin** – 189
**Rizayev Ramiz** – 276
**Rossel Eduard** – 302–303
**Rostropoviç Mstislav** – 57,92–97
**Ruslanova** – 258
**Ruşaylo Vladimir** – 81,293–294
**Ryabov Nikolay** – 33–34
**Rzayeva Esmira** – 258
**Saakaşvili Mixail** – 114,270–275
**Salahov Tahir** – 51,286
**Salmanov Fərman** – 286
**Saratero Xose** – 126,177
**Seyka Tim** – 126
**Sezər Əhməd Necdət** – 110,111,265
**Səks Ceffri** – 136–151
**Soloman Passi** – 125
**Solvan Ulas** – 147
**Soros Corc** – 127
**Sotnikov Vitali** – 189
**Stefanopulos Konstantinos** – 152
**Srintao Xu** – 120,305
**Şirak Jak** – 44,45–46,73
**Şröder Çerhard** – 124
**Talıbov Vasif** – 27
**Taranova Yelena** – 188
**Talvitiye Heyke** – 343–344
**Tatarenko Viktor** – 252–264
**Tetçer Conaton** – 154–175
**Təhməzov Sergey** – 189
**Torkunov Anatoli** – 277
**Ulseth Oluf** – 108–109
**Ureke Nikolaye** – 212
**Vekeroyu Nikolae** – 241
**Volqaros Marianna** – 56
**Voronin Vladimir** – 311–332
**Vudvord Devid** – 98,99

**Yanukoviç Viktor** – 337,338
**Yarov Yuri** – 88
**Yatayev Erik** – 146
**Yudhoyono Susilo** – 178
**Yusufov İqor** – 112–113
**Zabelin Mixail** – 252–264
**Zəkiyev İlham** – 188

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abxaziya** | – 155,319 |
| **Afina** | – 11,35–43,186–189 |
| **Ağdam** | – 62 |
| **Ağstafa** | – 270–275 |
| **Almaniya** | – 12,22,49,61,123,124 |
| **Amerika Birləşmiş Ştatları** | – 83,94,125–151,155,156,164, 172,273,275, 297–299 |
| **Aralıq dənizi** | – 170 |
| **Astana** | – 17,75,294 |
| **Astara** | – 20 |
| **Atlanta** | – 39 |
| **Avropa** | – 37,49,50,139,150,155,169,170, 192,199,202,204,205,206,209, 214,215,219,220,225,227,228, 236,238,244,245,308,316,321, 323,330 |
| **Avstriya** | – 267 |
| **Bakı** | – 11,12,21,27,29,30,32,79,80,81, 83,94,95,97,116,119,120,121, 122,123,124,137,152,153,173, 176,177,178,180,192,206,209, 211,212,243,246,251,265,266, 267,268,269,298,310,313,334, 344 |
| **Batumi** | – 218 |
| **Belarus** | – 88,293,322,337 |
| **Berlin** | – 346 |
| **Beslan** | – 30,33 |
| **Beyləqan** | – 258 |
| **Bərdə** | – 62–72,73 |
| **Biləsuvar** | – 63 |
| **Bolqarıstan** | – 125,190–209 |
| **Böyük Britaniya** | – 153,345–346 |
| **Böyük Kəsik** | – 270–275 |
| **Brüssel** | – 346 |
| **Buxarest** | – 212–242 |
| **Ceyhan** | – 233 |
| **Cənub–Şərqi Avropa** | – 327,328 |
| **Cənubi Qafqaz** | – 90,134,156,218,226,250,275, 315,319 |
| **Cənubi Osetiya** | – 155 |
| **Cibutu** | – 135 |
| **Çeçenistan** | – 48 |
| **Çexiya** | – 269 |
| **Çin** | – 120,304–306,325 |
| **Dağlıq Qarabağ** | – 16,45,52,61,63,69,70,73,74, 82,83,84,85,91,117,125,129, 130,131,134,140,145,149,150, 155,156,192,193,197,198,200, 201,213,215,220,225,226,228, 234,238,239,244,245,213,215, 220,225,226,228,234,238,239, 244,245,250,280,281,319,325, 334,343,344 |
| **Dnestr çayı** | 321 |
| **Dnestryanı** | – 316,319,325 |
| **Əfqanıstan** | – 199,225 |
| **Əlcəzair** | – 310 |
| **Fransa** | – 44–61,73,83,156 |
| **Gəncə** | – 259,260,261 |
| **Gürcüstan** | – 25,94,114–116,156,169,238, 270–275,325 |
| **Həştərxan** (*RF-da vilayət*) | – 301 |
| **Xəzər dənizi** | – 100,103,112,200,218,219,227, 275 |
| **İmişli** | – 19,24,26 |
| **İndoneziya** | – 178 |
| **İraq** | – 143,199 |
| **İran** | – 19,20,22,26,27,172 |
| **İsmayıllı** | – 261 |
| **İspaniya** | – 126,176,177,308 |

**İvanovka** – 261
**Kəlbəcər** – 62,145
**Kişinyov** – 322
**Kiyev** – 335–342
**Konstansa** – 218
**Kosovo** – 225
**Qabrovo** – 196
**Qafqaz** – 115,141,156,172,206,214,215, 219,286,330
**Qaqauziya** – 316,321
**Qara dəniz** – 218,219
**Qardabani** – 270–275
**Qazaxıstan** – 81–89,112,322
**Quba** – 146
**Qvineya** – 122
**Laçın** – 62,145
**Macarıstan** – 246
**Marağa** – 206
**Mərkəzi Asiya** – 218,219
**Minsk** – 88
**Mingəçevir** – 26
**Moldova** – 87,311–332
**Moskva** – 14,29,37,258,276–292,300,309, 330,346
**Naxçıvan** – 5–28
**Naxçıvan MR** – 5–28
**Nərimanov** (*RF-da şəhər)* – 301
**Nigeriya** – 121
**Norveç** – 108–109,244–245
**Nyu-York** – 48,125–151,157
**Özbəkistan** – 294
**Paris** – 44–61,346
**Parsabad** – 19,26
**Ployeşti** – 216
**Praqa** – 83
**Rumıniya** – 212–242
**Rusiya** – 14,24,25,29,30,31,32,33,34,47, 48,83,84,88,94,112–113,155,156, 250,254,258,261,263,276–292, 295–296,300–301,302–303,322, 337,339–340,341–342
**Saatlı** – 119
**Sidney** – 40,42
**Sofiya** – 195
**Suzdal** – 258
**Sverdlovsk** (*RF-da vilayət*) – 302–303
**Şahbuz** – 27
**Şəki** – 196
**Şərqi Avropa** – 100,171,230
**Şimali Qafqaz** – 33,156
**Şimali Osetiya** – 33,47
**Şri–Lanka** – 347
**Tayvan** – 325
**Tbilisi** – 344
**Türkiyə** – 5,25,110–111,169,233,238,265, 266,333–334
**Türkmənistan** – 87
**Ukrayna** – 87,88,294,322,335–342
**Varşava** – 82
**Vatikan** – 243
**Yerevan** – 83,344
**Yunanıstan** – 152,169,186–189

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.